Əşir Bəşiroğlu

NƏBİ YURDU

(Hekayələr, şeyirlər, poemalar)

Bakı 2009

Bu kitabı həyatdan vaxtsız getmiş oğlum Qabilin əziz xatirəsinə ithaf edirəm.

Redaktor: Bəhram Salman oğlu Avılov, fəlsəfə doktoru

Korrektor: Zərifə İsmayıl qızı Rzayeva, filologiya elmləri namizədi, desent**.**

Əşir Bəşiroğlu

Nəbi yurdu. (Hekayələr, şeyirlər və poemalar)

-Bakı: 2009.

Şair Əşir Bəşiroğlu «Xatirəyə dönən günlər», «İşıqlı şəxsiyyətlər unudulmur», «Dağlar ağladı», «Mətanət», «Mənim anna dilim», və «Yarımıçıq ömür» kitablarının müəllifidir. «Nəbi yurdu» adlanan bu kitab şairin oxucularla 7-ci görüşüdür.

Kitabda Vətən və oğul dərdlərinin ağırlığından söhbət açılır. Digər tərəfdən bu kitab gənclərdə milli düşmənimiz olan ermənilərə nifrət, Vətənə sevgi və elə məhəbbət hissi aşılamaq üçündür.

Kod 022

©Əşir Bəşiroğlu, 2009.

Müəllif haqqında

Əşir Bəşiroğlu (Fətəliyev Əşir Bəşir oğlu) 3 noyabr 1935-ci ildə Qubadlı rayonunun Mollu kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1953-cü ildə Qubadlı rayon Xanlıq kənd orta məktəbini bitirib. 1954-1957-ci illərdə hərbi xidmətdə olub. 1958-1969-cu illərdə Sumqayıt şəhərindəki Alüminium zavodunda fəhlə, növbə rəisi və sex partiya təşkilatının katibi işləmişdir. Dəfələrlə Sumqayıt şəhər Sovetinin deputatı və konfrans nümayəndəsi seçilmişdir.

İşləyə-işləyə təhsilini davam etdirmişdir. O, əvvəlcə mexanizasiya məktəbini sonra isə Bakı Statistika texnikumunu bitirmişdir. Ali təhsilə isə 1969-cu ildə V.İ.Lenin adına APİ-də yiyələnmişdir. Elə həmin ildən də Qubadlı rayonunun Mollu kənd orta məktəbində müəllim işləyir. İndi həmin məktəb Sumqayıt şəhərində fəaliyyət göstərir.

3 noyabr 1970-ci ildə Mollu kəndindəki «Qaçaq Nəbi» adına kolxozda kolxoz idarə heyyətinin sədri vəzifəsinə irəli çəkilmişdir. İşlədiyi müddətdə kolxoz Keçici Qırmızı bayraq, o özü isə fəxri fərman və döş nişanı ilə təltif olunmuşdur. 25 dekabr 1975-ci ildə səhhəti ilə əlaqədar olaraq tutduğu vəzifədən azad olunmuşdur.

Vəzifədən çıxdıqdan sonra o, yenə də Mollu kənd orta məktəbində müəllimlik etmişdir.

«Xatirəyə dönən günlər», «İşıqlı şəxsiyyətlər unudulmur», «Dağlar ağladı», «Mətanət», «Mənim ana dilim» və «Yarımçıq ömür» kitablarının müəllifidir. «Nəbi yurdu» adlanan bu kitab isə şairin oxucularla 7-ci görüşüdür. 2008-ci ildə Azərbaycan yazıçılar birliyində Əşir Bəşiroğlunun kitablarına baxış keçirilmiş və onu Azərbaycan yazıçılar birliyinə üzv qəbul etmişlər.

Ön söz

Əşir Bəşiroğlunun oxuculara təqdim etdiyi «Nəbi yurdu» adlanan bu kitabı onun oxucularla 7-ci görüşüdür.

Şairin bundan əvvəl yazmış olduğu «Xatirəyə dönən günlər», «İşıqlı şəxsiyyətlər unudulmur», «Dağlar ağladı», «Mətanət», «Mənim ana dilim» və «Yarımçıq ömür» kitabları nəşr olunub, oxuculara təqdim edilmişdir.

Əşir Bəşiroğlunun şeyir aləminə gəlməsi təsadüfi deyil. Şeyirə maraq onda hələ uşaq yaşlarından başlamışdır. O, şeyirlərinin birində poeziyaya bağlılığını belə izah edir:

Şeyirlə açanda gözümü,
Gümrah hiss edirəm özümü.
Şeyir yazmasam ölərəm inan,
Odur məni dərddən qoruyan.

Müəlliyin Vətən həsrətli, Vətən nisgilli şeyirlərini də həyəcansız oxumaq olmur. Onun böyüyüb boya, başa çatdığı Mollu kəndinin vəsfinə həsr etdiyi «Gözəl Mollum» şeyiri kifayət edər ki, şayirin vətənə, elə, torpağa qırılmaz tellərlə bağlılığını hiss edəsən.

Qoşa qəhrəmanlar kəndidi Mollu,
Bağları bəhrəli, Sünbülü dolu.
«Üç qardaş»ım inac yerim, pirimdi,
Həkəri çayım qanadımdı, qolumdu,
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcəz diyarı gözəl Mollum.

Əşir Bəşiroğlunun torpağına, Vətəninə, elinə, dilinə necə dərin tellərlə bağlılığını «Mənim ana dilim» şeyirində daha qabarıq şəkildə duymaq olur.

Bu müstəqil dövlətimin,
Şah dilisən, mənim dilim.
Kim səni atsa, unutsa,
Onu olsun dilim-dilim.
Qurban olum sana dilim.

Müəllif şeyirlərinin bir qismində insanları halallığa, zəhmətə bağlılığa, torpağı və Vətəni sevməyə çağırır. Bunları onun «Qonşumun aqibəti» şeirində daha aydın hiss etmək olar.

Oxucum, yanma Əşirin halına,
O heç vaxt göz tikməz elin malına,
Allahın qismətinə olar qayıl,
Qızıla var-dövlətə salmaz meyil,
Ancaq gözəlliyə olubdu mayıl.

Bu şeyir onun oxuculara tövsiyyəsidir. Şeyirin mayasını onun ata-anasından aldığı tərbiyə təşkil edir. Bu xüsusiyyət onu başqalarından fərqləndirir və oxucuya yaxınlaşdırır.

Ürəyinin hər guşəsində yurd, el-oba, soy-kök, din-iman nüvəsi daşıyan Əşir Bəşiroğlunun görkəmində də bir dəmir iradə yaşayır. Haqsızlığa, ədalətsizliyə qarşı çox sərtdir, amansızdır. Sevgiyə inama, ruha sərinlik gətirən hər şeyə elə bir qədərdə mülayimdir, həlimdir. Fikirləşirsən ilahi bu adam o adamdırmı bunca lətif, həzin misralar süzülüb dodağından. Şairin «İndi niyə» qəzəlindən bir neçə misranı dinləyək.

Gəlmisən yar görüşünə afət, indi niyə?
Yarın çox qocalıb əldən düşüb, indi niyə?

* * *

Sənin şirin sözünə möhtac olmuşam hər vaxt,
Sərt cavab vermisən, meyl edirsən, indi niyə?

Və yaxud səndə düşürsən yadıma şeyirindən:

Bağda bülbül ötüşəndə,
Sevgililər görüşəndə,
Qucaqlaşıb öpüşəndə,
Sən də düşürsən yadıma.

Obrazlı deyimlər, obrazlı ifadələr də Əşir Bəşiroğlu şeyirində kifayət qədərdir. Ancaq o obrazlı ifadələr dalınca qaçmır, özünü yormur, çünki onun

yaradıcılığının buna ehtiyacı yoxdur. Onun yaradıcılığında belə obrazlı ifadələr kifayət qədərdir. «Şam yanmasa, yaşamır» şeyirindən bir misal.

Yarım günəş, mən onun peyki yerəm,
Gecə-gündüz başına fırlanıram.
Fırlandıqca yarımdan nur alıram,
Pərvanə tək eşq oduna yanıram.

Azərbaycan xalqının böyük oğlu Məhəmməd Füzuli demişdi: -«….Əlbətdə, şair sözü yalandır». Amma bu kitabda toplanan şeyirlərin arxasında yaşanan ömrü, dağlar qoynunda yerləşən balaca bir kəndi, onun adamlarını, duyğularını ən hazırlıqsız oxucuda duyur və hiss edir. Əşir Bəşiroğlunun şeyirləri yalandan, uydurmadan qaçır. O hər şeyi vicdanının tərəzisində çəkir. Şairin mən və vicdanım şeirindən bir misal.

Əgər mən haqsız bir iş görsəm,
Vicdanım əzab verir mənə.
Aramızda dava başlayır,
Hər kəs də özünü haqlı sayır.

Başqa bir bəndində:

Görürəm haqlıdır vicdanım,
Səhvlərimi sayır üzümə,
Barmağında soxur gözümə
Təslim oluram barışırıq.

Əşir Bəşiroğlu şeyirlərində fikirlərin bir birinə keçməsi qətil və sıçrayışlardır, məzmunu isə dəyişilmir, onun mənasına xəlal gəlmir. İşğal olunmuş torpaqlarımızdan bəhs olunan şeirlərində kədər qarışıq bir inam da var.

Vətəndən uzaqlarda Sibir şəhərlərindən biri olan İrkutsu şəhərində yaşayıb, işləyən oğlu Qabilin vəhşicəsinə qətlə yetirilməsi xəbəri şairi sarsıtsada, o sınmadı, əyilmədi doğmalara təsəlli verdi. Bunları onun oğlu Şamilə təsəlli şəklində yazmış olduğu «Çıx yasdan» şeirindən aydın sezmək olur.

Şamil balam, çıx yasdan,

Bəsdi daha ağlama.
Ağladıqca qəlbimi,
Çalın-çarpaz dağlama.

Başqa bir bəndində:

Sən Allah, qırx üzünü,
Qaydaya sal özünü
Yasdan çıx, şux gəz, bala,
Tay-tuşdan qalma dala.

Əşir müəllim dostlarla təmasda olmağı özünə xoşbəxtlik sayır. O, söhbətlərində deyir əgər sənin gündə bir neçə saat söhbət etməyə ürək dostun varsa, deməli sən xoşbəxt adamsan. Şair özünü xoşbəxt sayır, ona görə ki onun kifayət qədər etibarı ürək dostları var. Bunu onun dostu Bəhram müəllimə həsr etdiyi «Ürək dostu» şeyirindən hiss etmək olur.

Bəhram mənim ürək dostum,
İşlərimdə gərək dostum.
Qohum, qardaşım irəli,
Ürək dostum, ürək dostum.

Dostu Bəhram müəllimin ona yazdığı şeirinə nəzər salaq: Şeyirin adı belədir «Səni sevən ürəkdə»

Əziz Əşir qardaşım,
Yetmiş yaşın mübarək.
Arzum budur, ay dostum
Yüz yaşında da səni
Bax beləcə şən görək.

Əşir Bəşiroğlu təbiətən şair doğulsa da mətbuatda çıxışa, nəşrə özündən asılı olmayan səbəblərdən xeyli gecikmiş, yalnız bədnam qonşumuz olan ermənilərin doğma torpaqlarımızın 20 %-dən çoxunu işğal etdikdən sonra «dərd yükü» onu amansız dərəcədə bürüyən zaman başlamışdır. Əsir müəllim bir-birinin ardınca altı sanballı kitab yazmışdır. Bu kitab onun oxucularla 7-ci görüşüdür.

Qaçqın, didərgin günlərimizi qələmə alan bir neçə yazarlar arasında Əşir Bəşiroğlunun da özünə məxsus xüsusi yeri var. Didərgin düşdüyü günləri xatırlayan şair həm də öz şəxsində Nəbi yurdunun bu günkü oğlanlarını çox haqlı olaraq qınayır məzəmmətləyir. «Nicat yolun zorda torpaq» şeyirindən bir bənd:

Əşir dözə bilmir dərdə,
Ər oğlullar qalıb harda?
Qoyma Vətən qalib darda,
Qır düşməni olmaz susmaq.
Nicat yolun zorda tapaq.

Əşir Bəşiroğlunun «A dağlar» şeyirinin hər bəndi ahdı, nalədi. Amma qisasın alınacağına ümid, inam, qətiyyət var:

Dəfələrlə səni alıb yağılar,
Üst-üstə sinənə çəkilib dağlar.
İndi sinən üstə gəzir yağılar,
Harda qaldı gözəl çağlar, a dağlar.

Başqa bir bəndində:

Bəşiroğlu gələ bilmir özünə,
Laçın dağı qəmli dəyir gözünə.
Düşəcəyik yağıların izinə,
Qovacağıq mil batacaq gözünə,
Azad ediləcək bağçalar, bağlar.
Çəkiləcək duman çənin, a dağlar.

Dözüm, səbr hər igidin, hər millətin qeyrət xörəyi deyil. Şair demişkən dünya bizi çaşdırıb, səmtimizi itirmişik. Hara gedəcəyimizi bilmirik. Şair nə qədər dözümə, səbrə söykənsə də rahatlıq tapmır, dünyanın zamanın gərdişindən şikayətlənir. Bu hiddət bu şikayət onun «Vətənimdə öləydim» şeirində özünü qabarıq şəkildə biruzə verir:

Millətimə çox ağır zərbə dəydi,
Bu faciyə mənim qəddimi əydi.
Elə öz içimizdən, zalım oldu,

Allah kaş vətənimdə öləydim mən.

Təbiətən nikbin və dözümlü olan Əşir Bəşiroğlu bəzən hiddətlənir, şikayətlənir, ömründə bircə dəfə qarğış edir. Əlbətdə bu deyilən acı sözlər həqiqəti pərdələyənlər üçün tutarlı zərbədir. Bu qarğışlar, şikayətlər onun «zalım dünya»dır şeyirində özünü qabarıq şəkildə göstərir:

Haqq nazilib üzülüb gedir,
Mərdimazar bildiyin edir.
Taledə kasıba qarğayır,
Ehtiyac onu əzib sıxır.
Dünya yaman zalım dünyadır.

Başqa bir bəndində deyilir:

Gözəlləri sıxır zamana,
Onlar qismət olur nadana.
Qoy dağılsın belə zamana,
Aqıl də möhtacdır nadana
Dünya yaman zalım dünyadır.

Ata-baba, nənə, qohum-əqrəba məzarları düşmən tapdağındadır. Minlərlə qaçqın, didərgin qəbirləri respublika ərazisinə səpələnib. Şairin sevimli oğlu və həyat yoldaşı Sumqayıt qəbiristanlığında «Əmanət» dəfn olunub. Şair özü isə qürbətdə ölməməyi arzulayır. Onun «Vətənimdə öləydim» şeirinə fikir verin:

Vətən çox şirindir düşməyir dildən,
Bülbül həsrət çəkir baxçada güldən.
Mən vaxtsız ayrıldım obadan, eldən,
Allah kaş vətənimdə öləydim mən.

Əşir Bəşiroğlu nə qədər nikbin olsa da bəzən haqsızlığa, rüşvətxorluğa, yerlibazlığa, layiq olmayan adamların mühüm post tutmalarına dözə bilmir. Haqsızlıqdan şikayət edir. Bu narazılıqlar, şikayətlər onun «Nə deyəsən belə dünyaya» şeyirində özünü açıq surətdə göstərir.

Oğru quldur çəkilir başa,
Mərd insanlar tutulur daşa.

Başıboşlar olublar ağa,
Nə deyəsən belə dünyaya

Başqa bir bəndində isə deyilir.

Pul görsə qanun qaçır dala,
Yaltaq, satqın öyrənib yala.
Aqil, alim möhtacdır şora,
Nə deyəsən belə dünyaya?

Şair torpaqlarımızın zaman-zaman parçalanmasının əsil güqahını dönük qəlblərdə, səriştəsiz rəhbərlərdə görür. Elə götürək Qarabağ müharibəsini, bu müharibədə qəhrəman oğlanlarımız qırıldı. Yüzlərlə igidlərimiz öldü. Tarixdə analoqu olmayan Xocalı Soyqırımı törədildi. Ancaq var-dövlət, vəzifə sahiblərinin gözləridə yaşarmadı. Övladlarını ya xaricə qaçırtdılar ya da rahat vilalarda gizlətdilər. Şair özünün «Qayıt yola» şerində yazır:

Ən zalım şahları qaçan görmüşəm.
Divi quzu kimi fağır görmüşəm.
Quduzları ürəyi daşları da,
Axırda mən yazıqlaşan görmüşəm.

Başqa bir bəndində isə yazır.

Əşir deyir gec deyil qayıt yola,
Yara elin işinə hürmə kola,
Kabinet dönsün döyüş meydanına
Qoy gün doğsun bəxtinin sabahına.

Şair hələ də minlərlə şəhid qanının yerdə qalmasından həyəcanlanır, fərayd edir. Azərbaycanı cihada səsləyir. Şairin fəryadı «Tapdalanır ana torpaq» şeirində özünü daha qabarın şəkildə göstərir.

Allah sənə nə etmişik?
Bizə yazdın belə qismət.
Tapdalanır ana torpaq,
Əldən gedir abır, ismət.
Başqa bir bəndində:

Qarabağım qızıl tacım
Sənindədir ağrım, acım,
Ağlar qalıb anam bacım
Dərdə əlindən hara qaçım?

Əşir Bəşiroğlu həm də geniş həcmli, məzmunlu poemalar müəllifidir. Onun «Dünya düzəlməz» poeması daha çox düşündürən, tarixi keçmişimizi təzələyən, bizi səfərbərliyə hazırlayan, döyüş, qələbə manifesidir.

Necə ki, yalan yol alıb yeriyir,
Düzəlməz bu dünya, vallah, düzəlməz.
Pislər çox yaşayır yaxşılar ölür
Düzəlməz bu dünya, vallah, düzəlməz.

Və ya

Qubadlı, Cəbrayıl, Füzuli hanı?
Yoxdursa Şuşa, Xankəndi, Xocalı,
Verdik Kəlbəcəri, Zəngilanı, Ağdamı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

Şeyirdə gözəllik olarsa ona heç kimin sözü ola bilməz. Əşir Bəşiroğlunun şeyirlərindəki gözəlliyi əvvəlki kitablarında oxucular duyub. Biz inanırıq ki, bu kitabda oxucular tərəfindən rəğbətlə qarşılanacaq.

Əşir Bəşiroğlunun kitablarına yüksək qiymət verərək 2008-ci ildə onu Azərbaycan Yazıçılar birliyinə üzv qəbul etmişlər. Şair inanır ki, 2009-cu il də uğurlu il olacaq, torpaqlarımız düşmən tapdağından azad ediləcəkdir. Amin…

HEKAYƏLƏR

Bizim qulluqçu

Hörmətli oxucular başıma gələn qəribə bir əhvalatı sizə söyləmək istəyirəm. Xahiş edirəm məndən ayrılmayın. İyirmi beş ilin söhbətidir. Mən V.İ.Lenin adına Azəbaycan Dövlət Pedoqoъi İnstitutunu bitirib orta məktəbdə müəllim işləyirdim. Ailəmiz yığcam idi. Mən, həyat yoldaşım Gülsüm xanım və oğlum Qulu. Cəmi üç nəfər idik. Çox mehriban yaşayırdıq. Ailədə işləyən təkcə mən idim. Oğlum Qulu Universitetin tarix fakultəsində oxuyurdu. Həyat yoldaşım Gülsüm xanım isə evdar qadın idi. Əvvəlcə qonşularımız fəhlə ailələri idi. Onlarla çox yaxın ünsiyyətdə idik. Sonradan qonşuların ailə üzvləri artdıqcan onlara başqa yerlərdən böyük kvadratda mənzil verib köçdülər. (onlar cavan ailələr idilər, təzə doğulan uşaqların hesabına ailə üzvləri artırdı) Köçək qonşuların evlərinə ticarətçilər gəldi. Biz dörd ticarətçi ailəsi ilə qonşu olduq. Onlar çox kübar ailə həyatı yaşayırdılar. Hamısının maşını, villası, qulluqçusu, paltaryuyan maşını, tozsoran maşını, ətçəkən maşını və s. var idi. Biz isə mənim aldığım maaş hesabına yaşayırdıq. Mən iki yerdə işləyirdim. Həm gündüz məktəbində, həm də axşam fəhlə gənclər məktəbində işləyirdim. Düzdür qonşular kimi təm-təraqlı dolanmasaq da pisdə dolanmırdıq. Dolanışığımızı mənim aldığım maaş hesabına qurub yaşayırdıq, üçümüzdə yaşayışımızdan razı idik.

Oğlum Qulu Universitetin fəxri idi. O.V.L.Lenin təqaüdü ilə oxuyurdu. Bir sözlə yaşayışımızdan, ailə həyatımızdan narazı deyildik. Ticarətçi qonşularımızın kübar yaşayışı həyat yoldaşım Gülsüm xanımı çox narahat edirdi. Onların hamısının evdə qulluqçuları var idi. Onlar arvada rişxənd edir, onu ələ salırdılar ki, sən necə qadınsan ki, sənin qulluqçun yoxdur? Çirkli paltarlarıda özün əlində yuyursan, çirkli qab-qacağıda. Hətda paltaryuyan, qabyuyan maşınında yoxdur. Əvvəllər arvad onların sözlərinə əhəmiyyət vermirdi, o sözləri qulaqardına vururdu. Nəhayət kor balta kimi qonşuların sözləri də arvadın beynini deşib içinə girdi. Arvad iki ayağını bir başmağa qoydu ki, a kişi mən qonşuların üzünə çıxa bilmirəm, sən də bir qulluqçu tap, qoy bu söz-söhbət kəsilsin.

Mən nə qədər avrada öyüd-nəsihət verdimsədə xeyiri olmadı, o elə dediyini dedi. Axırda mən naəlac qalıb qulluqçu axtarmağa başladım. Biz kənd Adamı

idik. Mən özümüzə münasib bir yaşlı qadın tapıb gətirdim. Ona demişdim ki, gündə bir-iki saatlığa bizə gəlsin bəzi ev işlərində yoldaşıma kömək etsin. O qadının təxminən 50-55 yaşı olardı. Arvad qulluqçunu aparıb qonşulara göstərdi. Qonşular arvada rişxənd edib güldülər ki, ay Gülsüm qulluqçu cavan olar e cavan. Sənin gözlərin kordu, görmürsən bizim qulluqçular cavandı. Sənin o görməmiş kəndli ərin gedib bir qoca arvadı küçədən tutub gətirib ki, bu qulluqçudur. Yoldaşım Gülsüm xanım o yaşlı ismətli arvadı acılayıb evdən qovdu ki, çıx get. Elə səndə mənim ərim Xanış ağıldasan ki, onun yanına düşüb bizim evə gəlmisən ki, mən qulluqçuyam. Çıx get evinə səndən qulluqçu olmaz. Yazıq arvad ağlaya-ağlaya evdən çıxanda məndə özümü saxlaya bilməyib onunla çıxdım. Həyətdə yoldaşımın əvəzindən o qadından üzr istədim. Cibinədə azdan çoxdan pul qoyub yola saldım. Dedim bacı onu bağışla, o pis adam deyil. İndi o qonşuların harınlamış arvadlarının felinə uyub. Onlar onun olan qalan ağlını da başından çıxardıblar. İndi bizim arvad tamamı ilə ağlını itirib. O qadının mənə yazığı gəldi. Dedi: - Xanış qardaş görürəm sən yaxşı adamsan. Siz sadə adamlarsınız sizə qulluqçu zad lazım deyil. Arvadın qonşu arvadların felinə uyub, hələ səni çox incidəcək. Bizim qonşuluqda bir yetim qız yaşayır. Anası çoxdan ölmüşdü. Zavoda fəhlə işləyən atası ilə mehriban yaşayırdılar. Tərs kimi keçən ildə yazıq qızın atası zavoda qəzaya uğrayıb öldü. İndi o qız tək yaşayır. Evlər idarəsində xadimə işləyir. Çox çətin dolanır. Özüdə çox ağıllı, ismətli qızdır. Mən o qızı sizin ailəyə məsləhət bilirəm. O, sizin ailəyə yaraşar. Görürəm sən çox ağıllı, savadlı adamsan. O qızın adı Xavərdi. O, məni eşidər. Mən onunla danışım görüm yola gətirə bilsəm onu götür apar. Mən onlara getdim. O qadın mənim qabağıma bir stəkan çay qoyub getdi. Təxminən yarım saatdan sonra o, arvad bir cavan, gözəl qızla evə gəldi. Qız çox utancaq idi. Danışanda utandığından sifəti allanırdı. Mən o qıza ürək-dirək verib dedim: -Qızım qorxma səni öz balam kimi saxlayacam. Mənim qızım yoxdur səndə olarsan mənim qızım. Əgər razı olsan elə ömürünün axırına kimi bizdə yaşayarsan. Oxuyub bir sənət sahibi olarsan. Allah qoysa toyunuda özüm edərəm. Sənə cehizidə özüm alaram. Sən də olarsan mənim balam. Axır ki, mənim sözlərim qızın ürəyinə yatdı. O mənimlə bizim evə gəlməyə razılıq verdi.

Qızı yola gətirən qadın (onun adı Səkinə idi) Səkinə bacı dedi: -Xanış qardaş mən Xavər balamı sənə tapşırıram. Ona öz Balan kimi bax. Apar görək sənin arvadın Gülsüm mənim bu gözəl balamdan nə amma tapacaq. Beləliklə mən Xavəri evə gətirdim. Qız arvadın xoşuna gəldi. Axşam oğlum Qulu evə gələndə qızı ona göstərib dedim: -Oğul sənə bir bacı gətirmişəm, xahiş edirəm ona bacı gözündə bax. Oğlum qızla əl tutub adını dedi: Qızda utana-utana öz adını dedi: Qulu dedi bacımın çox gözəl adı var. Mənim Xavər adından xoşum gəlir. O qız bir həftəyə qədər bizim evdə qaldı. Biş düşümüzü elədi, qulluğumuzda durdu. Bir sözlə biz qızdan razı idik, qızda bizdən razı idi. Aramızda qarşılıqlı hörmət var idi. Qız axşam evinə gedir, səhər tezdən durub bizə gəlirdi. Arvad dili yanmış bir gün necə olursa qonşu arvadlara deyir ki, kişi bir gözəl, qabiliyyətli qulluqçu tapıb gətirib, çox işgüzar qızdı. Qonşu arvadlar qızla maraqlanırlar. Mənim yoldaşım Gülsümdən xahiş edirlər ki, o qızı gətir baxaq, görək o necə qızdır ki, sən onu o qədər tərifləyirsən. Görək sən dediyin tərifə layiqdir ya yox. Arvad canı yanmışda onların sözünə baxıb qızı yanına salıb qonşuya aparır. Qonşu arvadlar və onların qulluqçuları bir yerə yığışıb qıza baxırlar. Qızın sadə geyimi, ətirsiz kirşansız sirsifəti, kəndçiliyi, yetimliyi onları qane etmir. Qızı lağa-luğaza qoyurlar. Yazıq qız ağlaya-ağlaya çıxıb gedir evlərinə. Axşam mən işdən evə gələndə arvad mənə qaş-qabaq töküb dedi: - A kişi o nə qız idi tapıb evə gətirmişdin? Qonşular onu bəyənmədilər. Dedilər o kəndçidən, yetimçədən qulluqçu olmaz. Mən arvadı danlayıb, ona acıqlanandan sonra qızın könlünü almaq üçün onun evinə getdim. Arvadın əvəzindən qızdan üzr istədim və işlədiyi günlərin pulunu verib evə gəldim. Arvada qəti surətdə tapşırdım ki, qulluqçu söhbətini burax, bizim evə qulluqçu lazım deyil. Biz sadə adamlarıq özümüz öz qulluğumuzda durarıq. Arvad bir müddət bu söhbətə qayıtmadı. Təxminən bir aydan sonra arvad mənə yaxınlaşıb gözləri yaşara-yaşara xahiş etdi ki, a kişi qonşunun qulluqçusu bizə bir qabiliyyətli qulluqçu tapıb. Deyir əlindən hər iş gəlir. Xahiş edirəm icazə ver onu evə gətirsin. Mən dedim: -Ay arvad sən atanın goru bu qulluqçu məsələsini burax, bizə qulluqçu lazım deyil! Arvad əl çəkmədi ki, əl çəkmədi. Gecə-gündüz başımı yedi ki, məni niyə alçaldırsan?

Qonşu arvadların hamısının qulluqçusu var, bircə mənimki, yoxdur. Arvad o qədər baş-beynimi ağrıtdı ki, axırda mən çıxılmaz vəziyyətdə qalıb qulluqçunun evə gəlməsinə razılıq verdim.

Qulluqçunun evə gəlməsi çox təmtəraqli oldu. Arvad qulluqçunun şərəfinə xüsusi hazırlıq görmüşdü. Bizim qulluqçu qonşuların üç qulluqçusunun müşayəti ilə evə daxil oldu. Qonşu arvadlarda bizim qulluqçuya baxmağa gəlmişdilər. İnsafən desək bizim qulluqçu qonşuların qulluqçularından baş idi. Onlar bizim qulluqçunun qabağında tir-tir əsirdilər. Qonşu qulluqçuların deməyinə görə bizim qulluqçunun anası Zubuluşa (zubeydə) əlli yaşına qədər evlərdə qulluqçuluq edib. Onun səsi çıxanda evin sakinləri tir-tir əsirmişlər. Bizim qulluqçu cavan idi. Çox olsa 25 yaşı olardı. Qonşu qulluqçuların deməyinə görə indiki qulluq yerindən ona görə çıxmışdı ki, Onun xəbəri olmadan onun məşuqi yəni ev sahibinin oğlu işləmək üçün başqa şəhərə getmişdir. Ona görə də bizim qulluqçu Zuquluşa (onun əs ladı Züleyxadır) onları söyüb, təhqir etmiş və evdən çıxıb getmişdir.

Bizim qulluqçu qara, uzun, ağzı yekə bir qız idi. Çox təm-tərəqli xüsusi geyimi var idi. Başına qoyduğu tovuz quşunun lələyi taxılmış papaq ona xüsusi görkəm verirdi. O qədər podra, ətir, kirşan vurmuşdu ki, heç adama oxşarlığı yox idi. Oğlum Qulu evdə yox idi. Qonşular məni və həyat yoldaşım Gülsüm xanımı qulluqçu ilə tanış etdilər. Qulluqçu qız mənim çənəndən qaldırıb rışxəndə dedi:- A kişi bu nə sir sifətdi? Heç adama oxşarlığın yoxdur. Bir özünə fikir versənə. Yox sən mənim işimə yaramazsan, köhnə dünyanın adamına oxşayırsan. Sonra arvada baxıb dedi: -Ay arvad səndə elə ərinin tayısan, adama oxşarın yoxdu. Bir özünüzə fikir verin də bu nə gündü, nə geyimdi, nə ev eşikdi, nə yaşayışdı siz yaşayırsız. Bir sözlə məndən sizə qulluqçu olmaz. Siz özünüz heç qulluqçuluğa da yaramazsız. Sizə qulluqçu nə lazımdır? Niyə gedib dilənçilik etmirsiniz? Məni tər basmışdı, arvadda tir-tir əsirdi, həm də qulluqçuya yalvarırdı: -Qızım sənə qurban olum bizə yazığın gəlsin bizi atıb getmə.

Arvad qorxa-qorxa ondan adını soruşdu. Qız adının Zuquluşa olduğunu dedi. Sonra qonşunun qulluqçusundan öyrəndik ki, onun əsl adı Züleyxadır. Mənim arvadım Zuquluşaya nə qədər yalvarsa da o, yola gəlmədi. Dedi: -Yox e üz vurma

sənin o üzünü mürdəşir yumuş o dünyadan qalma ərin mənim işimə yaramaz. Arvad yalvardı ki, qızım Zuquluşa heç olmasa axşama kimi gözlə, oğlum Qulu Universitetdə oxuyur o gəlsin ona bax, əgər o da xoşuna gəlməsə çıxıb gedərsən. Qız bir təhər razı oldu. Arvad sevinə-sevinə ona limonlu, mürəbbəli çay gətirdi. Zuquluşa kresloya yayxanıb qılçasını qılçasının üstünə aşırıb siqaret fısqırırdı. Arvad onun soyuyan çayını bir neçə dəfə dəyişdisədə qız çaya fikir vermədi.

Əlqərəz axşam oğlum evə gəldi. Qız oğlum Qulunu altdan yuxarı rişxəndlə süzüb dedi: -Ə bu nə geyimdi, nə sir-sifətdi. Adın nədir? Oğlum qorxa-qorxa adım Quludur dedi. Köhnə addır. Amma mənim adıma yaraşır. Ququluşa, Zuquluşa. Bu gündən adın Qulu yox Ququluşa oldu.

Oğlum uca boy, qarayanız, arıq oğlan idi. Onun bu cəhətləri qızı qane edirdi. Ancaq geyimi qızın xoşuna gəlmədi. Oğlum Qulu qara kostyumda, ağ saroçkada və kalistokda idi. Onun bu geyimi qızı açmadı. Qız üzünü arvada tutub dedi: -Pis deyil, ancaq bu geyimdə onu adam içinə çıxartmaq olmaz. Üst başına əl gəzdirmək lazımdır. Arvad sevinə-sevinə dedi: -Qızım sənə qurban olum necə istəyirsən elədə geyindir, Ancaq bizi atıb getmə. Həmin günün səhəri qız Qulunu dərsə getməyə qoymadı. Evdə olan-qalan ehtiyat pulumuzu bizdən alıb onu əyin baş almaq üçün bazara apardı.

Qız Qulunu elə mağazada geyindirib əynindəki təzə paltarları zibil yeşiyinə atmışdı. Evə gələndə biz oğlumuzu tanımadıq. O, tamamı ilə dəyişilmişdi. Stilni dar şalvar, güclə əyninə pərcim elədiyi müxtəlif rəngli saroçka, başına qoyub gözünün üstünə basdığı uzun dimdikli kepka onu tamamı ilə dəyişdirmişdi. Ömüründə papiros çəkməyən Qulunun indi damağında siqarət var idi. Mən oğluma baxıb dedim: -Bu nə sir-sifətdi ə, o damağındakı siqaret nədi çəkirsən? Oğlum utandığından siqaret kül qabına basdı. Özüdə utanıb başını aşağı saldı. Onun bu halını görən qız mənim üstümə qışqırdı. Ey qoca a, köhnə dünyanın qalığı uşağı utandırma. Yoxsa çıxıb gedərəm. Arvad da mənə başını bulayıb gözlərini ağartdı. Mən tez səsimi kəsdim. Arvad yalvar-yaxar Zuquluşanı razı salıb evdə saxladı. Mən maaşımın yarıdan çoxunu Qulluqçuya verirdim. Oğlum dərsdən soyumuşdu. Əvvəllər Lenin təqaüdü alan Qulu indi güclə 3-4 qiymət

alırdı. Qız hər gələndə mənə a, köhnə dünyanın adamı hələ yaşayırsan, ölməmisən deyirdi. Mən utanıb yerə girirdim. Əslində, o bizə qulluq yox, biz ona qulluq edirdik. Zuquluşa evə gələndə mən utandığımdan girməyə deşik axtarırdım. Qızın məni görməyə gözü yox idi. Bir dəfə qorxa-qorxa ona dedim: -Qızım Zuleyxa xahiş edirəm bir ərişdə bişir. Biz kənd adımıyıq. Xəmir xörəklərinə çox meyilliyik. Qız üstümə qışqırıb dedi: Ey qoca danışığınıda bilmirsən. Əvvəla Züleyxa yox Zuquluşa de. İkincisidə sən həyatda çox geri qalmısan, indi ərişdə moddan düşüb, ona muzeydə baxırlar. Sənə bir siyahı verəcəm, o siyahıda yazdırdığım şeyləri get bazardan al gətir. Sabah sənə bir yaxşı borş bişirim. Bizim Zuquluşanın savadı yox idi. O yazı-pozu bilmirdi. Odur ki, uzun bir siyahı dedi mən yazdım. Sonra əlavə elədi ki, ə köhnə dünyanın adamı düz əməlli şey al ha yoxsa başına vuraram. Qız heç vaxt mənim adımı demirdi. Həmişə rışxəndlə mənə köhnə dünyanın adamı deyirdi. Onun bu hərəkəti məni sıxırdı. Utanıb yerə keçirdim. Nə başınızı ağrıdım səhər tezdəndən, durub bazara getdim. Qız dediyi şeylərin hamısını aldım. Qorxa-qorxa seçib yaxşısını alırdım ki, qız mənə irad tutmasın. Mən evə gələndə artıq bizim qulluqçu gəlmişdi. O, kresloda həmişəki yerində oturub siqaret çəkirdi. –Zuquluşa məni görən kim dedi: -Ə köhnə dünyanın adamı gəldin? gətir görək necə şey almısan. Mən qorxa-qorxa sumkanı onun qabağına qoydum. O, bir-bir çıxardıb mən aldığım şeylərə baxırdı. –Bu nə kökdü ə sən almısan? Borşa qırmızı kök alarlar, səndə gedib ağını almısan. Bu yekəlikdə çuğundur nədir ə almısan? Borşa balaca çuğundur alarlar. Aldığım göy-göyərtinidə bəyənməyib kənara tullayaraq dedi: Bunlar sənin başına dəysin. Sən nə qanmaz, korəfəyim adamsan. Ə, deyərək aldığım şeylərin hamısını götürüb zibil vedirəsinə atdı.

Arvad altdan-altdan mənə baxırdı. O mənim sıxıldığımı görüb köks ötürdü. Zuquluşa arvadı süzüb dedi: -Ahın dağlara daşlara Gülüşka. Sən onda yazıq oldun ki, belə fəəmsiz iş bacarmayan bir kişiyə ərə getdin. Nə isə həmin gün borş bişirilmədi. Biz kolbasa çörək yedik. O, bizi tutmuşdu kalpasaya, sasiskaya konservaya. Evdə bişmiş bişirmirdi. Deyirdi onsuzda sizin qabyuyan maşınınız yoxdur. Kimdi əlində qabyuyan, mən qab yuya bilmirəm. Bizim üçümüzdə xeyli

sınıxmışdıq. O bizə baxıb deyirdi: -İndi-indi adama oxşayırsan. Əvvəllər adam ləvinindən çıxmışdınız porsuğa oxşayırdınız.

Oğlum Qulu Universitetdə bir neçə fəndən 2 qiymət almışdı. Onun Universitetdən xaric olunmaq təhlükəsi var idi. Əgər kəsirlərini verə bilməsəydi o Universitetdən qovulacaqdı. Qulunun hazırlaşmağa vaxtı yox idi. Onu Zuquluşa kinoya, teatra, parka gəzməyə, tansa, çimərliyə, caza və şair yerlərə sürükləyirdi. Biz qulluqçunun əlindən zinhara gəlmişdik. Ondan can qurtarmaq istəyirdik. Ancaq bu heç də asan iş deyildi. Bir gün mən qorxa-qorxa arvada dedim: Ay Gülsüm bu qulluqçu bizim axırımıza çıxacaq. Gəl onu qovaq çıxıb getsin.

-Ay Xanış məndə onun əlindən cana doymuşam. Necə edək məgər onu evdən qovmaq asan işdir? Axı o bizimlə beşillik müqavilə bağlayıb. Gərək o özü çıxıb evdən gedə. Əgər biz onu qovsaq gərək onun beşillik pulunuda verək. Nə isə biz çıxılmaz bəlaya düşmüşdük. Qulluqçu qız bizim başımızda qoz sındırırdı. Biz heç nə edə bilmirdik. Qolu bağlı gül kimi onun qabağında durmaqdan başqa ayrı çarəmiz yox idi. Onun bir sözünü iki eliyə bilmirdik. Oğlum Qulunun Universitetdən xaric olunmaq təhlükəsi məni dəhşətə qətirirdi. Özümə yer tapa bilmirdim. Biz üçümüzdə arıqlayıb, əriyib çöpə dönmüşdük. Bizim bu halımız onu qane edirdi. Deyirdi: -İndi-indi formaya düşürsünüz. Əvvəllər adama oxşarınız yox idi. İndi müasir adama oxşayırsınız. Oğlumun kəsirləri məni çox narahat edirdi. Bir gün qulluqçu qız evdə olmayanda mən oğlumu yanıma çağırıb dedim: -Oğul sənin vəziyyətin məni çox narahat edir. Sən Universitetdən xaric olunsan biz dost – düşmən içində biyabır olarıq. O dedi: Ata siz özünüz məni o ifritə qıza caladınız da, indi mən ondan can qurtara bilmirəm, qorxuram o məni öldürər. Mən məsləhət gördüm ki, oğlum Qulu bir müddət əmisi Dadaş gildə qalsın, orda imtahanlara hazırlaşsın. Biz isə görək qulluqçu qızdan yaxamızı necə qurtarırıq. Beləliklə Qulu şeylərini yığışdırıb şəhərin başqa istiqamətində yaşayan əmisi Dadaşgilə getdi. Səhər qulluqçumuz Zuquluşa gələn kimi dedi: -Hanı mənim Ququluşam? Dedik ki, onu Universitetdən bir aylığa ezamiyyətə göndəriblər. O kukləyib coşdu, əsdi-sovurdu bizi məhkəməyə verəcəyi ilə hədələdi. Dedi: -Sizin nə ixtiyarınız var idi ki, mənim icazəm olmadan mənim Ququluşamı ezamiyyətə

göndərmisiniz. Mən və arvadım Gülsüm qorxumuzdan tir-tir əsirdik. Bu işin axırının nə ilə qurtaracağını fikirləşirdik.

Qulluqçu qız bizi xeyli danladıqdan sonra çıxıb getdi. O üç gün bizə gəlmədi. Dördüncü gün gəlib bizdən müqaviləyə əsasən beş illik əmək haqqını istədi. Mən müqaviləni ona oxuyub izah etdim ki, əgər biz səni qovsaydıq beş illik əmək haqqını verməliydik. Biz səni qovmuruq. Sən özün gedirsən. Müqaviləni biz yox sən pozursan, ona görə də biz sənə heç nə verməli deyilik. Biz istəmirik sən gedəsən, qal həmişəki kimi yerində işlə.

O mənə acıqlanaraq dedi: Ə a, köhnə dünyanın qalığı mən necə sizdə qala bilərəm ki, sən mənim Ququluşamı aradan çıxartmısan. Axı sən mənim heç bir işimə yaramırsan. Səni arpaya qatsan at, kəpəyə qatsan it yeməz. Siz görərsiniz mən sizin başınıza nə oyun açacağam deyərək çıxıb getdi. O gedəndən sonra mən və yoldaşım Gülsüm xanım bir müddət özümüzü əla ala bilmədik. Onun bizə bir xətər yetirəcəyindən qorxurduq. Bizdə iki aylığına evdən çıxıb qardaşım Dadaşgilə getmək qərarına gəldik. Ona görə belə edirdik ki, qoy aralar bir az sakitləşsin. Artıq Qulu kəsir imtahanlarını verib IV kursa keçmişdi. O, qızın ona aldırodığı paltarları atıb özünün əvvəlki formasına qayıtmışdı. İndi bizim işlərimiz əvvəlki kimi öz axırına düşmüşdü. İki ay qardaşım gildə qaldıqdan sonra biz öz evimizə qayıtmışdıq. Əvvəlki kimi sakit ailə həyatımızı yaşayırdıq. Həyat yoldaşım Gülsüm xanım daha qulluqçu istəmirdi. O Zuquluşanın əlindən sağ-salamat qurtarmağına çox sevinirdi.

Oğlumu evimizə qulluqçu kimi gətirdiyim ismətli, tərbiyəli, gözəl, göyçək kəndli qızı olan atasız, anasız Xavərlə evləndirmək istəyirdim.

Oğlumda, arvadımla bu işə çox sevinirdilər. Biz artıq Xavərlə oğlum Qulunun Şirnisini içmişdik.

Oğlum bir ildən sonra Universiteti bitirirdi. O təhsilini başa vuran kimi biz Xavərlə onun toyunu edəcəkdik. Hörmətli oxucularım yəqin ki, sizi yordum. Məni bağışlayın. Bizim ailənin qulluqçu əhvalatı bax belə qurtardı.

Allah heç kəsi belə bir oyuna salmasın. Amin….

Çörək müqəddəs nemətdir.

Çörək müqəddəsdir eldə, obada,
Əsrlər boyunca unudulmayıb.
Odu ayaqlayıb keçən olsa da,
Çörəyin üstündən keçən olmayıb.

* * *

Odur süfrəmizə yaraşıq verən,
Açmış qapımızı nə qədər qonaq.
Bir çörək vermədik çörək istəyək,
Biz çörək verdik ki, çörəkli olaq.

Hüseyn Arif

Hörmətli oxucular çörək haqqında onun müqəddəsliyi və əvəz olunmaz nemət olması haqqında çoxları yazıb. Tarixi rəvayətlərə görə çörək hələ insan cəmiyyəti yaranmamışdan mövcud imiş. Daha doğrusu insan cəmiyyəti yaranmamışdan əvvəl bəzi taxıl növləri məsələn: buğda, arpa, darı, çovdar, qarğıdalı, yulat və sair yabanı şəkildə çöllərdə bitirmiş. Yenə də rəvayətlərə inansaq buğda ağacda bitirmiş, onun dənələri çox iri imiş. Dini rəvayətlərə görə Adəm Peyğəmbər cənnətdə Allah tərəfindən ona qadağan olunmuş ağacın meyvəsindən yediyi üçün qovulmuşdur. Rəvayətə görə o ağac buğda ağacı olub. Yenə rəvayətlərə inansaq guya insanlar çörəyə hörmətsizlik etdiyinə görə allah onu göyə çəkmişdilər. İnsanlar uzun müddət əllərini göyə qaldırıb Allaha yalvarsalar da Allah tala onlara çörək verməmişdir. Nəhayət itlər ağızlarını göyə tutub ulaşaraq Allaha yalvarmışlar ki, ya Allah bizim günahımız nədir ki, bizim ruzumuzu kəsirsən. Allahın itlərə yazığı gəlmiş və sünbül şəkilində buğdanı yerə göndərişdir. Əgər rəvayətə inansaq indii bizim yediyimiz çörək itin normasıdır ki, biz ona şərik oluruq. Ona görə də bizim müdrik ağsaqqallarmız, ağbirçəklərimiz babalarımız, nənələrimiz çörək yeyib doyandan sonra əllərini göyə qaldırıb Allaha dua edərək deyirlər: Ya Allah bizi bir dəfə çörəklə imtahana çəkmisən birdə çəkmə.

İnsanlar əvvəllər necə ki, əti və başqa şeyləri çiy-çiy yeyirmişlər eləcə də buğdanı və başqa taxıl növlərində çiy-çiy yeyirmişlər. Sonra insanlar ildırım çaxması nəticəsində od əldə ediblər. Od əldə olunduqdan sonra insanlar əti, çörəyi və başqa qida məhsullarını qaynadıb və ya odda bişirib yeməyə başlayıblar. Onlar göürblər ki, bişirilib yeyilən qida məhsulları çiy yeyilən qida məhsullarından qat-qat ləzzətlidir. Odu uzun müddət qoruyub saxlamaq üçün sonradan insanlar çaxmaq daşından istifadə etməyə başlayıblar.

Hörmətli oxucular indi öyrənək görək insanlar çörəyin bişirilməsini və taxılın üyüdülməsini necə öyrəniblər. İnsanlar taxılı üyütmək üçün əvvəlcə əl dəyirmanından istifadə ediblər ki, ona kirkirə deyirdilər. Kirkirə son vaxtlara kimi qalmışdır. Ondan buğdanı yarma eləmək üçün istifadə olunurdu. İbtidai insanlar kirkirə ilə buğdanı yarma halına salıb onu süddə və ya suda bişirib yeyirmişlər. Sonralar isə kirkirənin alt və üst daşını böyüdərək onu əl dəyirmanı halına salıblar. Kirkirəni bir adam hərlədiyi halda əl dəyirmanını bir neçə adam hərləyirmiş. Əl dəyirmanında üyünən buğda un halına düşüb ki, insanlar ondan çörək bişirib yeyiblər.

İnsan cəmiyyəti inkişaf etdikdən sonra dəyirmanın bir neçə növü hazırlanmışdır ki, onlardan da aşağıdakılarını göstərmək olar:

Məsələn: Qeyd etdiyimiz kimi əl dəyirmanı birinci növüdür, yəni ən ibtidaisidir. Əl dəyirmanı bizim eradan əvvəl III-II əsrlərdə hazırlanıb. Əl dəyirmanından sonra su dəyirmanıdır. O, bizim eranın VII əsrinə aiddir. Su dəyirmanından sonra yel dəyirmanı yaranıb. Yel dəyirmanı Azərbaycanda XVII əsrdən yayılmağa başlayıb. Qoşqu dəyirmanı orta əsrlərdən yaranıb. Qoşqu dəyirmanında dəyirmanın pərini qoşqu heyvanları hərləyirmiş. Məsələn: at, öküz və sair sonra isə od dəyirmanı yaranmışdır. Hal-hazırda isə bildiyimiz kimi su və tok dəyirmanından istifadə olunur.

Tok dəyirmanı hal-hazırda demək olar ki, dünyanın əksər ölkələrində işlədilir. Tok dəyirmanı unu bir neçə növə ayırır. Birinci növ ən narın un, ikinci növ nisbətən iri, üçüncü nö visə ikinci növdən iri, IV nö visə kəpək adlanır ki, onu mal-qaraya veririk.

Ağdam şəhərinin içərisində yaradılmış çörək muzeyi adamı heyrətə gətirir. O, muzeydə dünyanın çox yerindən gətirilmiş çörək, taxıl, təndir və başqa eksponatlar nümayiş etdirilir. Bu muzey köhnə bir dəyirmanın üstündə yaradılmışdır. O dəyirman indi bütövlükdə muzeyin bir hissəsinə yəni eksonatına çevrilmişdir. Ağsaqqalların dediklərinə görə bu dəyirman vaxtı ilə od dəyirmanı olub. Müharibə vaxtf Ağdam camaatını bu dəyirman saxlamışdır. Çoxdan işləmədiyinə görə tamamı ilə uçub dağıdılmışdır. Lakin Ağdam camaatı bura müqəddəs yer kimi baxmışlar. Ona görə də onu göz bəbəyi kimi qoruyub saxlamışlar. Dəyirmanı hasara almış, ora qurd-qusun girib mındarlanmasına yol verməmişlər.

Ora Ağdam camaatının sitayiş yerinə çevrilmişdir. Məhz buna görə də muzey dəyirmanın üstündə yaradılmışdır. Dəyirman muzeyin canlı bir hissəsinə çevrilmişdir. Muzeyin işçisi Kamran kişi də köhnə dünyadan qalma bir eksponata oxşayır. Kamran kişi muzeydə işə düzəlmiş və dəyirman haqda yaddaşını çözələyərək muzeyə gələnləri maraqlandıran suallara cavab verir.

Kamran kişi uzun müddət o dəyirmanda dəyirmançı işləmişdir.

Mən yuxarıda dəyirmanın beş növündən söhbət açdım. İndi isə öyrənərək görək çörəyi bişirmək üçün nədən istifadə olunur. Əvvəllər insanlar gildən saç, şiş və sacayaq düzəltmişdilər ki, bunlardanda çörək bişirmək üçün istifadə edirdilər. Hal-hazırda Azərbaycanda çörək çuğun saçda və təndirdə bişirilir. Təndirin bir neçə növü var: Birinci döymə təndir, bizim eradan əvvəl III-II minilliklərə aiddir. İkinci badlı təndir bizim eradan əvvəl V əsrdə hazırlanmışdır. Üçüncü isə kərpic təndirdi hal-hazırda ondan geniş surətdə istifadə olunur.

Hörmətli oxucular mən bu yazımın daha da canlı və oxunacaqlı çıxması üçün Respublika Lenin Komsomolu Mükafatı laureatı olan çox hörmətli şairimiz Sabir Rüstəmxanlının 1989-cu ildə Gənclik nəşriyyatında çapdan çıxmış «Ömür kitabı» adlı kitabından bir neçə qeydləri Sizin nəzərinizə çatdırmaqla yazımı davam etdirmək istəyirəm.

Bu muzeydə dünyanın bir çox ölkələrindən gətirilƏn taxıl və sünbül növləri mövcuddur. Məsələn: -İngiltərə, İsveçrə, İspaniya, Fransa, Skandinaviya ölkələri

və başqa yerlərin taxıl nümunələri və sünbül dəstələri yan-yana düzülüb. Lakin muzeyin adamı heyrətə salan ən qiymətli eksponatlarından biri Ağdamın Əfətli kəndindən tapılmış daşlaşmış taxıl (buğda) dənələridir. Bu buğda dənələrinin ən azı yeddi min il yaşı var. Kür-Araz, Qarabağ əkinçilik mədəniyyətinin qədimliyini göstərmək üçün elə həmin daşa dönmüş dənələr də kifayətdir. Həmin kənddən tapılmış üç oyuqlu həvəngin yaşı da təxminən o daşa dönmüş buğdanın yaşı qədərdir. Muzeydə Naxçıvandan tapılmış gil saç da saxlanılır. O saç bizim eradan əvvəl III minilliyə məxsusdur.

Muzeydə Azərbaycan taxılının zəngin növlərini və çörək mədəniyyətimizin böyük ənənələrini göstərən ekspanatlar əslində respublikamızın bütün ərazisini əhatə edir. Məsələn: Çörəyə naxış vurmaq üçün hazırlanmış əşyanın – külçəbasanın üç min il yaşı var. Cəmi bircə gün ömrü olan çörəyidə xalqımız saya, adi görmək istəməyib ona naxış vurub. Hər şeydə gözəllik axataran xalqımızın zövqü, ruhu həmişə yüksək olub. Bu muzey dilimizin bütöv bir qatını təşkil edən və təəsüf ki, indi unudulub sıradan çıxan onlarla, yüzlərlə sözünü yaddaşımıza qaytarır. Məsələn: -Sarı buğda yarımköyüz, çuval, dağarcıq, ələk, xəlbir, şadara, koğa, dişək çəkici, şana, yaba, çomaq sünbül, qırmızı sünbül, qırdiş buğda, əllat (taxırman, sovruq, dərz, bafa, qolcaq, sacayaq (muzeydə X əsrdən qalma sacayaq göstərilir). Onu da qeyd edim ki, muzeydə VII əsrin yadigarı olan gil şişdə nümayiş etdirilirdi. Bu şiş Ağdamın Qarabağlı kəndindəki Qurd ləpəsi adlanan yerdən tapılmışdır.

Çörək muzeyinin qiymətli eksponatlarından üçü haqqında ayrıca danışmaq istəyirəm. Onlardan birincisi kosmosda olmuş çörəkdir. Göyün yeddi qatına qalxmış bu çörəyi ulduz şəhərciyində kosmonatlar evinin rəisi N.İ.Yetimenko vermişdir. O, Ağdamda belə bir muzeyin açıldığını eşidib, səmimi bir məktub yazaraq bu çörəyi də hədiyyə göndərmişdi. Sağ olsun, bu hədiyyə çox gözəl hədiyyədir. Bu nadir çörək tikəsinin qiyməti birdə ondadır ki, fikrimizi təzədən yerə qaytarır. İnsan hara ucalırsa ucalsın çörəksiz yaşaya bilməz. İnsanın torpaqdan yaranıb onun başına frlanması ona şöhrət gətirir. Vay o gündən ki, çörəyin qiyməti göyə qalxa!.. Çörək torpaqdadır torpaqda ki, ayağımızın

altındadır. Çox vaxt torpağa qarşı çox laqeyd oluruq. Azərbaycanın çox yerində torpaqlarımızı mazut göllərinin altında qoyanları, onu selin-suyun ağzına verənləri, bir əsr ölməyən dərmanlarla zəhərləyənləri, onu şoranlıta çevirənləri görsək də belələrinə göz yumuruq. Hətda babalarımızın, nənələrimizin sümüyü uyuyan torpaqlarında dərdini çəkmirik.

Torpaq aldı-satqısını özünün şəxsi mülk alverinə çevirənləri fikirləşəndə deyirəm: Şükür sənə ana torpaq! Sənsən bu boyda ağırlığa dözən və bizdən üz döndərməyən! Çünki sənin bir illik üz döndərməyin bəşəriyyətin milyon illik zəhmətinin, milyon illik təcrübə və qazancının üstündən xətt çəkər. İllərlə toplanan yaddaş və təcrübə məhv olub gedər.

İkinci eksponat daha təsirlidir! Mən ömrüm boyu bizi çörəyin, bu qara torpağın, əziyyətlədə olsa yaşanan ömrün qədrini bilməyə çağıran ikinci belə bir güc sahibi görməmişəm. Bu Böyük Vətən müharibəsində leninqrad mühasirəsinin yadigarı, mühasirə zamanı verilən gündəlik çörək normasıdır. 125 qram qara çörək leninqraqlı Kanayeva Qalina Andreyevna öz qismətini qoruyub saxlayıb, gələcək nəsillərə görk olmaq üçün bir sutqa ac qalıb, ansaq saxlayıb. Siz onda olan böyük ürəyə baxın!!! Azərbaycanda belə bir muzeyin açılmasını eşidib özü Azərbaycana gəlib, «öz mühasirə qismətini» muzeyə verib. Muzeydə Qalina Andreyenanın Ağdam şəhərində çəkdirdiyi foto şəkillərdə nümayiş etdirilir. Bu hadisə insan ürəyinin nə qədər geniş və dərkedilməz bir möcüzə olduğunu göstərməyə bəsdir. Mən üzünü görmədiyim o rus qadınınına tutub çox sağ ol deyirəm. Onun böyük ürəyi və ağ saçları qarşısında baş əyirəm.

Bu daşa dönmüş balaca çörək tikəsini gətirib muzeyin mənasını daha da böyüdən əllərini öpürəm. Və bir daha dərk edirəm ki, biz bu işıqlı dünyaya görə analara borcluyuq. Ana torpağa və bizi doğan anaya. İnsanla bu kibrit qutusu boyda çörəyi tərəziyə qoymaq olarmı? Lakin müharibə vaxtı, xüsusi də Leninqradda tərəzinin bu çörək qoyulan gözü daha ağır gəlirdi. Onun yoxlığı minlərlə adamın ömrünə son qoyurdu. Bu bir tikə çörək parçası görkdür, ibarətdir, fəriyaddır! Çörəyin qədrini bilməyənlərə bir həyat dərsidir. Üçüncü eksponatda adamı titrədir. Bu da Stalinqar torpağıdır. Minlərlə döyüşçünün sonuncu ürək

çırpındısı qarışmış bir ovuc qanlı torpaq! Bizə çörək verən də bu qanlı torpaqdır, bizi öz qoynuna alanda. Muzeyin işçisi Kamran kişi deyir: - «Çörək baha olanda ölüm ucuz olur!».

Xeyir-bərəkət saçan, bütün aclıq hədələrinə və ehtiyaca meydan oxuyan buğda növləri: Turan buğdası, İsfahan nərnisi, Abşeron çovdarı, Ərəbistan, Misir, Lehistan, İran, Muğan buğdaları şar dənli buğda, Qafqaz, Sevinc, Azərbaycan və sair müasir buğda növləri. Eyni zamanda günəş kimi üzə gülən çörəklər Azərbaycan çörəyinin onlarla növünü tanıyırıq. Lakin muzeydə Azərbaycan çörəkləri ilə yanaşı Səmərqənd, Dağıstan, Gürcüstan və Ural çörəkləri də nümayiş etdirilir. Analarımızın ürəyinin hərarətini, barmaqlarının izini qoruyub saxlayan çörəklər. ..

Muzeydə adamı heyrətə gətirən bir xəritədə var. Xəritəni Zaqatalada düzəldib göndəriblər. Azərbaycanın xəritəsidir. Buğda, noxud, düyü və qarğıdalı dənələrindən düzəldilib. Bu xəritə dünyanın ən gözəl və ən bərəkətli xəritəsidir. Ürəyimdə düşünürəm: Həmişə çörəkli ol yurdum! Qoy sənin süfrəndən bərəkət, çörək əskik olmasın. Sən heç vaxt çörək kəsdiyin, yedizdirib-içizdirdiyin, var-dövlət sahibi elədiyin adamlardan dönüklük görməyəsən.

Qanlı-qadalı müharibə illəri idi. Uşağın yaddan söz çıxmaz, 1942-ci ilin yayı idi. Taxıl biçilirdi. O vaxt mənim beş yaşım var idi. Atam 1941-cı ilin əvvəllərində hələ müharibə başlamamış çox cavan vaxtlarında vəfat etmişdir. Anamın dediyinə görə o sətəlcəm xəstəliyindən ölmüşdür. Anamla mən bir yerdə yaşayırdıq. O, vaxt bizim rayon taxıl və çəltik əkirdi. Qonşu rayonlar Zəngilan və Cəbrayıl isə pambıqçılıq rayonları idilər. Onlarda yaşayış birdən çox çətin idi. Heç yadımdan çıxmır bir dəfə bir dilənçi qadın bizim evin qapısında yıxılıb öldü. Anam onun meyidini evə gətirdi. Onun yanında təxminən 10-12 yaşlı bir qız uşağı var idi. Uşaq hey ağlayırdı onu sakitləşdirmək olmurdu. Anam o uşağa buğda yarmasından hazırlanmış xörək yedizdirdi. Xörəyi yeyən kimi uşaq sakitləşirdi. Sən demə o acından ağlayımış. Sakitləşəndən sonra uşaq söhbət elədi ki, dünən qonşu kənddə idik. Qapı-qapı gəzib dilənirdik. Heç kim bizə çörək vermədi. (Kimin çörəyi var idi ki, verədə) Biz bir evin çəpərinə sığınıb oturmuşduq. Mən

gördüm ki, ev yiyəsi mal tövləsinə ъımıx apardı. Ev yiyəsi tövlədən gedəndən sonra mən tövləyə cumdum. İnək ъımığı yeyib qurtarmaq üzrə idi. Mən inəyin son qismətini əlindən alıb anamın yanına qaçdım. Anam yımığı iki yerə böldü, azını özü yedi çökünü mənə verdi. Biz o yımığı bal kimi yedik elə dadlı idi ki, hələ də dadı damağından getməyib. O ъımıxdan sonra biz ana-bala heç nə yeməmişik. Üç gündür ki, o ъımığın üstündəyik. Uşaq ağlaya-ağlaya dedi: Anam acından öldü. Anam kənddə olan 3-4 nəfər qoca, əlil kişilərdən xahiş etdi, mağazadan nisyə kəfən götürüb o qadını dəfn etdik. Onun qəbirini arvadlar qazdı. Çünki kişilər qəbir qazası halda deyildilər, qoca və əlil idilər. Həmin qız bir aya yaxın bizdə qaldı. Anam yeməyin çoxunu ona verirdi. Təxminən bir aydan sonra qızın xalası hadisəni eşidib gəlib qızı apardı. İndi həmin qız ailə qurub oğlu-qızı nəvə nəticəsi var. O vaxtdan bizimlə əlaqəsi var. Mənə qardaş deyir. Adını yazmıram utanar.

1942-ci ilin yayı idi, taxıl biçilirdi. Hamıda olduğu kimi bizim evdədə yeməyə heç nə yox idi. Anam taxıl biçininə getmişdi. O vaxt mənim beş yaşım olardı. Anam işə gedəndən sonra mən özüm yaşda uşaqlara qoşulub biçilmiş zəminin yerindən sünbül yığmağa getdim. O vaxtlar zəmi biçiləndən sonra onun yerindən sünbül yığmaq olmazdı. Taxıl biçini qurtarandan sonra onun yerində qalan sünbül yığılıb kolxoza təhvil verilirdi. Yığılan sünbülün kilosuna görə kolxozçulara əmək günü verilirdi. Kim çox sünbül yığıb kolxoza təhvil versəydi o çox əmək günü alırdı. Dediyim kimi biz 4-5 nəfər balaca uşaq hərəmiz evdən bir torba götürüb sünbl yığmağa getdik. Biz təxminən bir kiloya yaxın sünbül yığmışdıq ki, qoruqçu. Əhməd kişi üstümüzü aldı. O sünbül yığdığımız torbaları bizdən alıb dedi: -Siz belmirsiniz sünbül yığmaq olmaz. Sünbülü yığıb kolxoza vermək lazımdır. Kolxozda taxılı müharibəyə göndərəcək. Sizin atalarınız, qardaşlarınız müharibədə ac-susuz vuruşur siz isə burda oğurluq edirsiniz. Heç utanmırsız, sizə ayıb olsun. Mən bu sünbülləri aparıb kolxoza təhvil verəcəm. Axşam kolxoz sədri sizin analarınızı çağırıb cəzalandıracaq. Onda bilərsiniz oğurluq etmək nə deməkdir. Biz ağlaya-ağlaya yola düzəldik. Bir az yol getmişdik ki, Əhməd dayı bizi yanına çağırdı. O yığdığımız sünbülləri özümüzə verib dedi: -Elə yerinən gedin ki, sizi görən olmasın. Əgər sizi, görən olsa deyin

ki, biz Əhməd kişini görməmişik. Biz sevinə-sevinə yola düzəlmək istəyəndə Əhməd dayı məni saxladı. Dedi: -Qoy uşaqlar getsin sən qal sənlə işim var. Uşaqlar gedəndən sonra Əhməd dayı mənim boynumu qucaqlayıb xeyli ağladı. Dedi: -Səni dağılasan belə zamana, nə pis gəldin. Gör nə günə qalıb ki, Bəşirin kornə tifili sünbül yığır. Rəhmətlik Bəşir rəhmətlik Fətəlinin oğlu idi. Fətəli kişi mahalın sayılan – seçilən adamlarından idi. Əhməd dayı özü də bir xeyli sünbül yığıb mənim torbama qoydu.Dedi: bala indi evə get, bizi burda görərlər biyabır olarıq. O üzümdən öpərək dedi: - İndi get evə ancaq axşam bizə gəl, sənlə işim var, mütləq gəl. Anam işdən gələndən sonra mən hadisəni anama danışdım. Anam boynumu qucaqlayıb ağladı. Dedi ki, - Bala Əhməd kişi yaxşı adamdır. Zəmanə dağılsın, zəmanə xarabdır. Mən axşam Əhməd dayıgilə getdim. Əhməd dayı və arvadı Qaratel xala məni çox mehriban, gülərüz qarşıladılar. Onlar mənə çörək verdilər, mən çörəyi yemədim, cibimə qoydum ki, evdə anamla yeyərəm. Onlar dedilər ki, ananın da payını verəcəyik. O sənin payındı ye. Ancaq mən çörəyi yemədim. Onun arvadı Qaratel xala anamın da çörək payını verdi, hər ikisin cibimə qoydum, Onlar mənə bir az buğda verdilər. Dedilər:- «Oğul, az buğdamız var, bir o qədər də özümüzə qaldı». Mən sevinə-sevinə evimizə gəldim. Anam onlar verdiyi buğdanı çəkdi. 2 kq oldu. Mən yığdığım buğda da 1 kq yarım idi. Axşam anam o 3 kq yarım buğdanı götürüb dəyirmana getdi. Mən də anamla getdim. Dəyirmançı Bəylər dayı anama dedi: Ay Xurşud bacı o 3 kq yarım buğdanı dəyirmana töksək elə dəyirmanın boğazında qalacaq. Gəl elə onun əvəzinə sənə un verim. O bizə un verdi. Anam evdə unu çəkdi, 4 kq oldu. Bəylər dayı yarım kq da artıq vermişdi. Allah ona rəhmət eləsin, çox gözəl insan idi. Müharibə vaxtı çox adama əl tutdu. Əhməd dayı da arvadı Qaratel xala da yaxşı insanlar idilər. Allah hər ikisinə rəhmət eləsin. Onların övladları olmurdu, sonsuz idilər. Əhməd dayı rəhmətə gedəndən bir neçə il sonra Qaratel xala başqası ilə ailə qurdu. Onun 1 qızı oldu. Deməli, uşaq olmamaq Əhməd dayıdan imiş. Qaratel xalanın qızı Nübar xanım hal-hazırda yaşayır. Onun oğlu, qızı, nəvələri var. O da anası kimi xeyirxah və gözəl insandır.

Yuxarıda qeyd etdiyim kimi qonşu pambıqçılıq rayonlarında vəziyyət bizdən də ağır idi. Yaxşı yadımdadır qonşu rayonların camaatı bizim kəndlərə gəlirdilər. Onlar dingdə döyülmüş düyünün qovuzunu (yəni samanını) yığıb aparırdılar. Ona bir az ъımıxdan, arpadan, buğdadan, qatıb dəyirmanda üyüdüb un edirdilər. O undan çörək bişirib yeyirdilər. Cəltdiyi dingdə döyüb düyü halına salonda onu üç dəfə döyürdülər onun birinci dəfəsi çox qılcıqlı olurdu. Onu dəyirman üyütmürdü. Ancaq ikinci və üçüncü üzü nisbətən narın olur ki, onu dəyirmanda üyüdüb un halına salmaq olurdu.

Anamın xalası oğlu Qaraş dayım kolxozda birqadir, dayısı oğlu. İldırım isə Kolxozda amber müdiri işləyirdi. Onlar bizə azdan-çoxdan kömək edirdilər. Allah hər ikisinə rəhmət eləsin, çox gözəl insanlar idilər. Qəbirləri nurla dolsun, yerləri behiştlik olsun. Anamın nə bacısı, nə də qardaşı olmayıb. Atamın isə bircə bacısı olub. Onlar bir bacı bir qardaş olublar. Atamgil çox dövlətləri olublar. Çar hökumətinin vaxtında atamın mal-qarası, at ilxıları olub. Fətəli babamın Ərzaq və Sənaye mallarından, ibarət tükanı var imiş. Eyni zamanda babam podrat işləri ilə də məşğul golurmuş. O, dövlətdən pul götürüb müəyyən dövlət binaları tikirmiş körpülər salırmış, yollar çəkirmiş və sair işlər görürmüş. Fətəli babam həm də Qaçaq Nəbinin həmyaşıdı və yaxın dostu olub. Qaçaq Nəbinin dəstəsi kəndə gələndə çox vaxt Fətəli babam onları yedizdirib yola salırmış. Mən yuxarıda qeyd etdim ki, atam gil bir bacı bir qardaş olublar.

Atamın bacısının adı Tamaşa olub. Müharibə vaxtı tamaşa bibimin əri Gülşad əmi (Allah ona rəhmət eləsin) yaralanıb əlil kimi kəndə qayıtmışdır. O kolxozda gücü çatan işin qulpundan yapışıb, azdan-çoxdan əmək günü alıb azda olsa evə qazanc gətirirdi. Ona görə də başqaları ilə müqayisədə onlar nisbətən yaxşı dolanırdılar. Tamaşa bibim məni çox istəyirdi. O, məni bağrına basıb öpərək deyirdi: -Əşir sənə qurban olum sən qardaşının yeganə nişanəsisən, qardaşımın ətrini səndən alıram. O məni korluq çəkməyə qoymurdu. Bibimin bişirdiyi çörəyin ətri hələ də mənim burnumdan getməyib. Mən elə bilirəm ki, dünyanın heç yerində mənim Tamaşa bibim kimi dadlı və ətirli çörək bişirən olmaz. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun. Hal-hazırda Tamaş bibimin üç qızı və bir oğlu

var, onun çoxlu nəvə nəticəsi var. Allah hamısına can sağlığı versin, ömürləri uzun olsun. Torpaqlarımız düşmən tapdağından azad olsun biz doğma torpaqlarımıza qayıdaq. Qoy toyumuzda yasımızda vətəndə olsun.

Çörək və onun müqəddəsliyi, əvəz olunmaz nemət olması haqqında çoxları yazıb. O haqqda nə qədər yazılsada yenə azdır. Dahilər, padşahlar, sərkərdələr, hamısı çörəyin qarşısında diz çöküblər ona baş əyiblər, heç kəs onu ayaqlayıb keçməyib. Qocaman el sənətkarı, ustad aşıq Dədə Şəmşir görün çörək haqqında nə yazır:

Atasan anasan elə, elata,
Hamının məsləki, əxlaqı çörək.
Əzəl başdan zəminkarsan həyata,
Xilqətin dirəyi, dayağı çörək.

* * *

Qılınc qan axıdır, sən verirsn qan,
Sənin yetirməndi yaranmış insan.
Şirəni sormasa yaşamaz bir can,
Dirildir xəstəni, naçağı çörək.

* * *

Sən sağlıq gəzirsən, atom qırğını,
Niyə edən yoxdu sual-sorğunu?
Ayıldırsan, dirçəldirsən yorğunu,
Yerdən durğuzursan həm sağı çörək.

Çörəyin saflığı, təmizliyi, yenilməzliyi və əvəz olunmaz nemət olması haqqında çoxları yazıb, yazır və yazacaqdır. Ancaq hələ heç kim çörəyin şəninə düzgün, ona layiq tərifi verə bilməyib. Mənim çörəyin şəninə dediyim bu tərif indiyə kimi yazılanların yanında dəryada bir damla timsalındadır. Mənim yazdıqlarımın doğru-düzgün qiymətini oxucular verəcəktir. Ancaq mən səmimi surətdə etiraf edə bilərəm ki, əlimdən nə gəldisə onu da etdim. Əgər çörəyin tərifini doğru-düzgün, ona yaraşan səviyədə verə bilməmişsə bu mənim qələmimin gücsüzlüyündən irəli gəlir. Yazımın sonunda əllərimi göyə qaldırıb

Allaha yalvarıram ki, bizi nə ilə imtahana çəkirsə çəksin ancaq çörəklə imtahana çəkməsin, sizdə yalvarın. Amin!....

MƏTANƏT

Aslan yenicə ailə həyatı qurmuşdu. Onun həyat yoldaşı Mətanət xanım elinin gözəl-göyçək, Həcər qeyrətli, Nigar ismətli qızlarından biri idi. Aslan maşınqayırma zavodunda sex rəisi işləyirdi. Mətanət xanım isə məktəbdə dil-ədəbiyyat müəlliməsi idi. Onların Solmaz adlı gözəl, göyçək totuq bir qızları var idi. Aslangil ata-anası ilə bir yerdə yaşayırdılar. Aslanın ata-anası Mətanət xanımı Aslandan da çox istəyirdilər. Çünki gəlin həyat yoldaşının valideynlərini öz valideynlərindən seçmirdi. Onlar gözəl ailə həyatı keçirirdilər. Ermənilərin qəflətən Azərbaycan torpaqlarına soxulmasını eşidən Aslan minlərlə qeyrətli Azərbaycan gəncləri kimi könüllü olaraq cəbhəyə yollandı. Aslan əvvəlcə adi döyüşçü kimi vuruşurdu. Az müddət içərisində o, komandirlərin hörmətini qazandı. Onun təhsilini, qorxmazlığını, döyüş texnikasına və taktikasına dərindən bələd olmasını nəzərə alaraq onu bölük komandiri təyin etdilər. Aslanın bölüyü cəbhənin hansı nöqtəsinə göndərilirdisə, ordan qələbə ilə qayıdırdı. O rota düşməni lərzəyə salmışdır. Ermənilər necə olursa olsun Aslanı aradan götürmək, onun igid döyüşsülərini qırmaq və rotanı tamamilə məhv etmək istəyirdilər. Onlar Aslanın başını gətirənə çoxlu pul ayırmışdılar. Axır vaxtlar ermənilər çox fəalaşmışdılar. Komandir Aslanı yanına çağırıb onunla məsləhətləşdi:

-Axır vaxtlar ermənilər çox fəallaşıb, kəşfiyata gedənlər qayıtmır, onlar ermənilər tərəfindən öldürülürlər. Dəqiq məlumat ala bilmirik. Sənin məsləhətin nədir? Nə edək?

-Yoldaş komandir, icazə verin mən öz bölüyümdən 10 nəfər döyüşçü götürüb kəşfiyyata gedim. Çalışaram düzgün məlumat gətirəm.

Komandir Aslanı kəşfiyyata göndərmək isətmirdi. O, Aslanı itirəcəyindən qorxurdu. Aslan çox təkid etdikdən sonra komandir bir ata nəvazişi ilə onu bağrına basıb dönə-dönə öpdü və dedi:

-Get, oğlum, ehtiyatlı ol, özünü qoru. Aslan 10 nəfər cəsur döyüşçü götürüb yola düşdü. Aslan gedəndən sonra komandir fikirləşdi: - «Axır vaxtlar kəşfayyatın baş tutumasına səbəb içimizə xainin olmasıdır. Mənə elə gəlir ki, anası erməni olan sıravi əsgər Suren satqındır. Lakin nə vaxtdandır onu nəzarətdə saxlayıram, onda

şübhə doğuran bir əlamət tapmıram». Komandir düz fikirləşirdi. Süren həqiqətən satqın idi. O, bütün sirləri radio ilə düşmənə xəbər verirdi. Lakin ondan heç bir şübhəli əlamət tapmaq olmurdu. Aslanın kəşfayyata getdiyini bilən Suren təcili düşmənə məlumat verdi. Aslan da Surendən şübhələnmişdi. Suren başqa bölükdə idi. Aslan Surenin komandiri ilə də söhbət etmişdir. O Surendən şübhələndiyini demişdi. Ancaq hələlik Suren heç bir şübhə doğuran hərəkət etmirdi.

Aslan izi azdırmaq üçün komandir ilə məsləhətləşdiyi marşrutu dəyişdi. O, tamamilə başqa yolla getdi. Onlar meşədəki erməni qərargahına yaxınlaşıb, bir qədər dincəldilər. Gecə saat üç radələrində qərargaha yaxınlaşdılar. Qərargahı üç nəfər gözətçi qoruyurdu. Aslangil gözətçilərin üçünü də tutub tərk-silah etdilər.

Onların əl-ayağını və ağızlarını bağlayıb meşədə ağaca sarıdılar. Aslan gözətçilərdən generalın və ştabın yerini öyrəndi. Məlum oldu ki, ştabda cəmi beş nəfər yüksək rütbəli komandir var. Aslangil kazarmaya girib onların beşini də yatdıqları yerdə tutub əl-ayaqlarını və ağızlarını bağladılar. Onlar dörd nəfər zabiti əl-ayağı və ağızları bağlı halda kazarmada qoydular. Generalı və ştabın sənədlərini götürüb yola düşdülər.

Düşmən Aslangili başqa yerdə gözləyirdi. Bildiyimiz kimi düşməni azdırmaq üçün Aslan marşrutu dəyişmişdi. Aslangilin gəlmədiyindən şübhələnən düşmən, ştaba nümayəndə göndərəndə məlum oldu ki, Aslangil gözətçilərin və dörd nəfər komandirin əl-ayağını və ağzını bağlayıb kazarmada qoymuş generalı və ştabın bütün sənədlərini götürüb getmişdilər. Düşmən dərhal Aslanın kəşfayyat dəstəsinin üstünə çoxlu qoşun göndərdi. Aslan mühasirəyə düşmələrindən qorxaraq üç nəfər döyüşçüyə dedi:

-Siz generalı və sənədləri sağ-salamat bizim ştaba çatdırın. Biz atışıb düşmənin başını qatacağıq.

Aslangil daşın arxasına girib düşməni qırırdılar. Onlar cəmi yeddi nəfər idilər. Onların üstünə gələn qoşunun isə sayı-hesabı yox idi. Bu vəziyyətdə onlar üç gün mühasirədə qaldılar. Yoldaşlarından beşi öldürülmüşdü: Aslan və Cəlal qalmışdı. Cəlal qılçasından yaralanmışdı. Aslan dostu Cəlala dedi:

-Sən burda gizdən ola bilər ki, bizimkilər gəlib səni taparlar. Mən təslim olacam. O, qarnına qranat bağladı, avtomatını yerə atdı, ağ bayraq qaldırıb təslim oldu.

Düşmən Aslanın təslim olmaq istədiyini eşidəndə – onu görməe üçün başına toplaşdılar. Elə bu vaxt qranat partladı. Aslanla birlikdə onlarla düşmən məhv oldu.

Aslanın yoldaşları general Ayrepetyanı və ştabın sənədlərini sağ-salamat aparıb bizim komandir Mirzəyevə təhvil verdilər. Bizimkilər Aslangil gələn istiqamətə güclü hücum etdilər. Onlar yaralı Cəlalı tapdılar və ondan öyrəndilər ki, Aslan silah-susatı və ərzağı qurtarandan sonra qarnına qranat bağlayıb düşmənə təslim oldu. Özü ilə bərabər onlarla düşməni də həlak etdi. Bizimkilər Aslanın və yoldaşlarının meyitin gətirib dəfn etdilər. Aslanın həyat yoldaşı Mətanət xanım ərinin döyüş paltarını geyinib cəbhəyə yollandı. O, and içdi ki, Aslanın əvəzinə yüzlərlə düşmən öldürəcəm. Atasının və qayınatasının etirazlarına və xahişlərinə baxmayaraq, o balaca Solmazı qayınatası Gülsüm arvada tapşırıb özü Aslanın bölüyündə döyüşməyə getdi. İndi həmin bölüyə Aslanın adını vermişdilər.

Cəlal hospitlada müalicə olunub sağaldıqdan sonra onu bölüyə komandir təyin etmişdilər. Aslanın yaxın dostu və silahdaşı olan Cəlal cəsur döyüşçü idi. O, dostu Asmlanın adını daşıyan bölüyə can-dildən rəhbərlik edirdi.

Surenin satqınlığı aşkar olmuşdu. O, hərbi tribunala verilmişdi. Hərbi tribunal ona döyüşçülərin qarşısında güllələmə cəzası təyin etmişdi. Qərar üç gün bundan əvvəl icra olunmuşdu. İndi kəşfiyaata ən çox Aslan adına böyük gedirdi. Hər dəfə kəşfayyata gedəndə Mətanət xanım da gedirdi. Bölük komandiri Cəlal istəmirdi ki, Mətanət kəşfiyyata getsin. O deyirdi:

-Balaca Solmaz atasız qalıb, sən onu böyütməlisən. Döyüşdə hər şey ola bilər. Kəşfayyat isə çox qorxuludur. Sən heç olmasa kəşfiyyata getmə.

Ancaq Mətanət xanım inad edirdi. O bir dəfə də olsun kəşfiyyatdan qalmırdı. Mətanət xanım istər döyüşçüdə, istərsə də kəşfiyyatda fəal iştirak edirdi. O, başqalarına nümunə idi. Cəlal bir an da olsun Mətanəti gözdən qoymurdu. Həmişə onu qorumağa çalışırdı. Ancaq Mətanət xanım döyüşün qaynar nöqtələrinə cumar və şir kimi vuruşardı. O, qorxu nə olduğunu bilməzdi. Bir dəfə onlar kəşfiyyata

gedirdilər. Bu kəşfiyyat çox qorxulu idi. Onlar düşmənin arxasına keçməli, düşmənin canlı qüvvəsinin və texnikasının sayını öyrənməli, ən qorxulusu isə dəqiq məlumat bilən «dil» gətirməli idilər. Komandir Cəlala tapşırdı ki, bu kəşfiyyata Mətanət xanımı aparmasın. Ancaq Cəlalın xahişinə və bir komandir kimi əmrinə baxmayaraq Mətanət xanım dediyindən dönmədi, o da kəşfiyyata getdi. Cəlalın başçılığı ilə on iki nəfər cəsur döyüşçü kəşfiyyata gedirdi. Cəlal kəşfiyyatçıları iki dəstəyə böldü. Altı nəfərdən ibarət olan birinci dəstə düşmənin ştabına yaxınlaşmalı, imkan olarsa gözətçiləri tutub tərk-silah etməli, onlardan canlı qüvvənin və texnikanın dəqiq sayını bilən komandirin yatdığı yeri öyrənməli və Cəlalgili gözləməli idilər. Cəlalın dəstəsi isə texnikanın sayını və yerləşdiyi yeri öyrənməli idi. Komandir Mətanət xanımı özü ilə götürmüşdü. Cəlalın dəstəsi texnikanın yerləşdiyi yeri və təxmini sayını öyrənib, şərtləşdikləri kimi yoldaşlarının yanına qayıtdı. Yoldaşları isə iki nəfər gözətçini tutub ağızlarını və əl-ayağını bağlayıb komandirləri Cəlalı gözləyirdilər. Onlar texnikanın və canlı qüvvənin dəqiq sayını bilən komandirin yatdığı kazarmanın yerini öyrənmişdilər. Cəlal, Mətanət xanım və əlavə iki nəfər döyüşçü kazarmaya daxil oldular. Kazarmada 3 nəfər komandir yatmışdı. Mətanət xanım onların silahlarını götürdü və durmaq üçün əmr verdi. Düşmən tərəf gözlərini açanda başlarının üstündə dörd nəfər döyüşçünün əli silahlı durduğunu görəndə özlərini itirdilər. Komandir Cəlal onlara susmaq işarəsi verdi. Mətanət xanım geyinmələrini əmr etdi, onların üçünün də ağızlarını və əllərini bağlayıb qabaqlarına qatıb yola düşdülər. Bir xeyli getmişdilər ki, həyəcan siqnalı eşidildi. Gözətçilərdən biri necə olmuşsa ağzını açıb qışqırmışdı. Düşmən həyəcan siqnalı verib bütün briqadanı ayağa qaldırdı. Cəlal Mətanət xanıma əmr etdi ki, üç nəfər döyüşçü ilə düşmən komandirlərini bizim ştaba aparsın. Onlar isə qalıb vuruşa-vuruşa aradan çıxsınlar. Mətanət xanım Cəlaldan xahiş etdi ki, o da qalıb vuruşsun. Mübahisə etməyə vaxt yox idi. Cəlal üç nəfər döyüşçü ilə düşmən komandirlərini yola saldı. Özləri isə vuruşmağa başladılar.

Düşmn qoşunu sel kimi gəlirdi. Burda qələbədən söhəbt gedə bilməzdi. Düşmənin saysız-hesabsız qoşununun qabağında Cəlalın doqquz nəfərdən ibarət

dəstəsi heç nə idi. Bütün bunları nəzərə alan Cəlal dəstəsinə vuruşa-vuruşa öz sərhədlərinə tərfə çəkilmə əmri verdi. Cəlalın kiçik dəstəsi düşmənin böyük qüvvəsinə qarşı iki saatdan çox idi ki, vuruşurdu. Onlar sərhədə də xeyli yaxılaşmışdılar. Düşmən onların fikirini başa düşüb onları mühasirəyə aldı.

Mühasirəni yarmaq çox çətin idi. Düşmən sayca onlardan qat-qat çox idi. Cəlalgil daşı özlərinə səngər edib arabir atırdılar. Onların patronu qurtarmışdı. Üç gün idi ki, ac-susuz mühasirədə idilər. Düşmən qəsdən onları bu vəziyyətdə saxlayıb iradələrini qırmaq istəyirdi. Döyüşçülərdən dördü öldürülmüşdü. Cəlal isə qolundan yaralanmışdı. Mətanət xanım onun qolunu qan axmasın deyə möhkəm sarımışdı. Cəlalgilə kömək gəlmədi. Çünki düşmən bütün canlı qüvvəsini və texnikasını o hissədə cəmləşdirmişdi.

Komandir ən çox Mətanəti düşünürdü. Onu aradan çıxartmaq istəyirdi. Ancaq heç cürə mümkün deyildi. Döyüşçülər düz bir həftə mühasirədə qaldılar. Artıq ayaq üstə dura bilmirdilər. Çünki, yeddi gün idi ki, onlar ac-susuz və yuxusuz idilər. Daha onların müqavimət göstərməyə gücləri qalmamışdı. Odur ki, düşmən hücum edib onların beşini də əsir götürdü. Onları bir həftə saxladılar. Gündə bir dəfə onlara yemək verirdilər. Üç nəfər böyük komandirlərinin aparılması düşməni yandırıb-yaxırdı.Əsr alındıqlarının yeddinci günü döyüşçüləri güllələmək qərarına gəldilər.

Cəlalgili əl-ayağı bağlı vəziyyət də sıraya düzmüşdülər. Bir düşmən əsgəri əlində avtomat onları güllələmək üçün dayanmışdı. Düşmən komandiri dedi:

-Sizlərdən kim bu dörd yoldaşını güllələsə onu sağ buraxacam, çıxıb getsin evinə.

Heç kim dinmədi. Hamı başını aşağı salıb dayanmışdı. Düşmən komandiri sözünü ikinci dəfə təkrar edəndə Mətanət xanım dedi: -Siz məni sağ buraxsanız mən bu əclafları öz əllərimlə güllələyərəm. Düşmən komandiri dedi: -Sən əmin ola bilərsən, mən söz verdim qurtardı, mən sözübütöv adamam.

Mətanət xanımın əllərini açdılar. Cəlal dil-dodağını gəmirirdi. O, Mətanətin satqın olmasını heç cürə ağlına sığışdıra bilmirdi. Mətanət xanım avtomatı alıb yoldaşlarına tuşladı. O, Cəlalın dil-dodağını gəmirdiyini görüb ona tərəf baxıb

gülümsündü. Yalnız indi Cəlal işin nə yerdə olduğunu başa düşdü. Sonra Mətanət xanım avtomatı hərləyib əvvəl düşmənin komandirini sonra isə orda olan bir neçə əsgəri güllələdi.

O, əvvəl Cəlalın əl-ayağını açdı, sonra isə orda olan üç nəfər yoldaşlarına kömək edib buraxdı. Onlar hərəsi bir avtomat götürüb qaçmağa başladı. Bir qədər aralanmışdılar ki, düşmən duyuq düşüb onları mühasirəyə aldı. Onlar güllələri qurtarana kimi vuruşdular. Mətanət xanım özünü öldürmək üçün bir güllə saxlamışdı. O, tapançasını Cəlala verib dedi:

-Dostun Aslanın namusunu qoru, məni diri-diri düşmənə vermə. Məni öz əlinlə öldür.

Cəlal tapançanı alıb Mətanət xanımın alnına dirədi, ancaq tətiyi çəkə bilmədi. Tapança əlindən sürüşüb yerə düşdü. Mətanət xanım baxdı ki, Cəlal ağlayır. Onun gözlərindən yaş sel kimi axırdı. O, səssiz əyilib yerdən tapançasını götürdü. Heç bir qorxu hiss etmədən Aslanın namusu xatirinə deyərək alnına dirənmiş tapancanın tətiyini çəkdi. Cəlal «Həcər qeyrətli bacım» deyərək, özünü qətlə yetirmiş Mətanət xanımı qucaqlayıb hönkür-hönkür ağlamağa başladı. Bu mənzərəni kənardan seyr edən düşmən qəhrəmanları diri-diri tutmaqdan qorxaraq, dördünü də yerindəcə güllələdi.

YARIMÇIQ ÖMÜR

Xoşbəxt o insandır ki, övlad dağı görməyib.
Süleyman Rəhimov

Hörmətli oxucular, əgər siz bu kitabın üz qabığını qaldırıb onun titul vərəqəsinə diqqətlə baxsanız, orada belə bir cümləyə rast gələrsiniz: «Bu kitabı həyatdan vaxtsız getmiş oğlum Qabilin əziz xatirəsinə həsr edirəm». Bizim bu keşməkeşli dünyada elə hadisələr olur ki, insan həyatına əbədi daxil olur, bir ailənin bu nəsilin faciəsinə çevrilir. Bu hadisəni yaşayan yaxın adamlar dünyasını dəyişənə qədər həmin faciə də yaşayır, qəlblərdə dərdə, kədərə, çevrilib, çiyinlərdə ağır bir yükə dönür.

Bu dərdi çəkənlər onun ağırlığına sinə gərsələr də axırda yorulub əldən düşür, əsəblərini cilovlaya bilməyib. Allahın onlara verdiyi ömür payının tez qurtarıb, başa çatmasını arzu edirlər.

Lakin elə insanlar da olurlar ki, onlara üz verən faciənin ağırlığına əsl kişi kimi sinə gərir, toxtaq olur, dəyanət, dözüm göstərirlər. Ulu Tanrıya şükürlər edərək, həmişə əllərini göyə qaldırıb deyirlər: «Allah sən bilən yaxşıdır. Sən mənə güc, qüvvət, dözüm ver ki, yanıma gələnlərin, mənə başsağlığı verənlərin qarşısında əyilməyim, vüqarımı saxlaya bilim».

Əziz oxucum,ömrünün 32-ci baharında faciəli surətdə həlak olan oğlum Qabilin yarımçıq ömrü məni yandırıb yaxsada da Allahın mənə verdiyi səbir, təmkin, güc, qüvvət nəticəsində dost-düşmən yanında vüqarımı qoruyub saxlaya bilmişəm.

Həyatda ən ağır və dözülməz dərd oğul cənazəsinin ata çiynində getməsidir ki, o da mənə qismət olur. Sinəmə oğul dağı çəkiləndən sonra mən dərdimi kağıza köçürməklə özümə təsəlli tapmışam. Bu kitab mənim bir-birinin ardınca yazdığım altıncı kitabımdır.

Əziz oxucum, Allah sizi dərddən, kədərdən uzaq eləsin, sizə həmişə sevinc bəxş etsin. 11 mart 2002-ci il tarixində Rusiya Federasiyanın İrkutsk vilayətinin İrkutsk şəhərində yaşayan oğlum Qabil saat 19 radələrində işdən gələrkən

yaşadığı evin həyətində naməlum şəxslər tərəfindən tamah məqsədi ilə vəhşicəsinə qətlə yetirilmişdir.

Mən burada oğlum Qabil haqda qısa arayış verməyi lazım bilirəm.

Fətəliyev Qabil Əşir oğlu 01 yanvar 1970-ci ildə Qubadlı rayonunun Mollu kəndində ziyalı ailəsində anadan olub, orta məktəbi medalla bitirib. Sonra İrkutsk şəhərində yaşayıb işləyən qardaşlarının yanına gedib. Elə oradan da hərbi xidmətə çağrılıb. Hərbi xidməti başa vurduqdan sonra yenə də İrkutsk şəhərində yaşayan qardaşlarının yanına qayıdıb. Həmin şəhərdə Dövlət Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul olub. Unviersiteti qırmızı diplomla bitirəndən sonra isə İrkutsk şəhərində qalıb diş həkimi işləyib.. Axırı isə bildiyiniz bu faciə…

Əziz oxucum, oğlumun faciəli surətdə qətlə yetirilməsi xəbəri bizə çatdırılanda bütün ailə üzvlərimiz dəhşətli dərəcədə sarsıldı. Mənim isə bütün varlığım əlimdən getdi. Belə hadisələri hər valideyn bir cür qəbul edir. Bəziləri bunu həyatın bir üzü kimi qiymətləndirir, onu alın yazısı, Tanrı qisməti hesab edib şükür edir, bəziləri isə buna dözə bilməyərək tamamilə sarsılır.

Mənim sinəmə çalın-çarpaz dağ çəkilib. Oğlumun müsibəti məni gündə yüz dəfə öldürüb-diriltsədə də özümü əl alıb, təmkinimi saxlamağa çalışıram.

Oğlum Qabili məzara tapşıranda bütün bədənim lərzəyə gəldi. Ah-nalə göylərə ucaldı, göz yaşları selə-suya döndü. Onun anası, bacısı, qardaşları, bəxtiqara zövcəsi, körpə balaları göz yaşlarından məhv olurdular. Bircə mənim gözümdən yaş çıxmadı. Bütün varlığım isə daşa dönmüşdü. Qoy o böyük Yaradana xoş gəlsin, bəlkə onlar göz yaşları ilə dərddən-qəmdən uzaqlaşırdılar. Mən isə, əksinə …

Bu yerdə xalq şairi Bəxtiyar Vahabzadənin aşağıdakı misraları yada düşür:

Harda bir dərdli görsən,
Sən o yerdə sor məni.
Mən dərdi axtarmıram,
Dərd özü tapır məni.

* * *

Qəmim-sevinc qaynağım,

Dərdim könül sirdaşım.
Axır damarlarımdan
Qan yerinə göz yaşım.

Həmin dəqiqələrdə göylərə əl qaldırıb yerimdəcə ölməyi arzulamışam. Ancaq hər şey biz istədiyimiz kimi olsaydı, nə vardı ki… Kimin taleyinə nə yazılıbsa, o da olacaq. Oğlum Qabilin qismətinə cəmi 32 il ömür sürmək yazılıbmış… Atalar demişkən, «yazıya pozu yoxdur». Onun iki körpə balası- Əminə və Gülnar atalarının ölümünə inanmırlar, hələ də onun yolunu gözləyirlər. Xəstə Qasım demişkən:

Bu dünya fanidir, fani
Bu dünyada qalan hanı?
Davud oğlu Süleymanı
Qızıl taxtdan salan dünya.

Doğrudan da dünya fanidir, hamı onda qonaqdır. Gec-tez hamı bu dünyanı tərk edəcək. Allah heç kəsə övlad dağı göstərməsin. Ümumiyyətlə, cavan ölümü faciədir.

Böyük Azərbaycan şairi Şəhriyar yazır:

Sənin bəhrin, yiyən kimdir?
Kiminkisən yiyən kimdir?
Sənə doğru deyən kimdir?
Yalan dünya, yalan dünya.

Böyük şairimiz Şəhriyar necə də gözəl deyib. Doğruda da insan dünyaya gəlir, az-çox yaşayır, sonra ölüb gedir.

Şair demişkən, elə bil yalan imiş, o yox imiş bu dünyada. Onun əzizləri, doğmaları dünyadan köçəndən sonra o da təzədən ölür və unudulub gedir. Lakin necə ki onun əzizləri, doğmaları yaşayır, o da onların ürəyində yaşayacaq.

Oğlum, sən də hələ ölməmisən, əzizlərinin, doğmalarının ürəyində yaşayırsan. Necə ki o ürəklər döyünür, yaşayır, sən də yaşayacaqsan. Bu yaxınlarda oğlum Qabil yuxuma girdi. Dedi: «Ata, elə bilmə ki, ölmüşəm, ta sizi görmürəm. Mənim ruhum həmişə sizin yanınızdadır. Sən çox narahatsan, həmişə

əsəbisən, gərginlik keçirirsən. Hirsindən gecə-gündüz yazıb-oxuyursan. Ata bir az səbirli ola. Bu qədər yazı-pozu sənin səhhətinə ziyandır, gözlərin nurdan düşər. Axı, sən 8-ci onillikdən addımlayırsan.

Ata, mənə agah olub ki, Şamilin saqqal saxlamağı səni çox narahat edir. Dəfələrlə ondan xahiş etməyinə baxmayaraq səni eşidib saqqalını qırxmır. Mən yaxşı bilirəm ki, Şamilin saqqal saxlamağı onun mənə olan böyük ehtiramının nəticəsidir. Ancaq hər şeyin həddi var. Görürəm, Şamil mənim uşaqlarımı öz balalarından seçmir. Onları sevir, əzizləyir, nazları ilə oynayır. Elə onun bu hörməti mənə bəsdir. Ata, bu yaxınlarda mən Şamilin yuxusuna girib, saqqalını qırxmağı ondan xahiş edəcəm. Əgər məni eşitməsə bir də heç vaxt onun yuxusuna girməyəcəyəm. Atacan, ana-bacıma de ki, çox ağlamasınlar, onsuz da gec-tez hamımız haqq dünyamıza qovuşacağıq. Beş on il tez-gec, onun nə fərqi var? Mənim taleyim də belə imiş. Mənim ruhum hər an sizin yanınızdadır. Atıb gəldiyimiz, yağıya verdiyimiz doğma torpağımın, Qubadlının səmasında dolaşıram. Onsuz da mənim ürəyim o torpaqların həsrətinə dözməyəcəkdi. Yaxşı bilirəm ki, sizlər nə çəkirsiniz. Ata, sizdən ötrü, vətəndən ötrü ruhum çox narahatdır».

İstəkli oxucum, bu yuxu məni dəhşətə gətirdi. Yuxudan oyanandan sonra bir müddət özümə gələ bilmədim. Çox fikirləşəndən sonra yəqin etdim ki, o dünya, cənnət, cəhənnəm, ruh-hamısı doğrudur. İnsan o dünyada yaxşı işinə görə mükafat, pis işinə görə isə cəza alır.

«Dağlar ağladı» şeirimin bir bəndi ilə bu yazımı tamamlamaq istəyirəm.

Kədərli xəbərən dağlar ağladı,
Analar, bacılar qara bağladı.
Həkəri dözmədi, coşub çağladı
Fələk ürəyimi qəfil dağladı.

OĞLUM QABİLƏ
HƏSR OLUNMUŞ XATİRƏLƏR

QABİLİN ƏZİZ XATİRƏSİNƏ

Bu dünya fanidir, fani,
Bu dünyada qalan hanı?
Davud oğlu Süleymanı
Qızıl taxtdan salan dünya?

Xəstə Qasım

Xalam oğlu Qabil haqda xatirə yazmaq mənim üçün çox çətindir. Yaza bilmirəm, əllərim titrəyir, əlimdə qələm əsir. Gözlərim yaşarır, qarşımda kağızı seçə bilmirəm. Qabilin faciəsi təkcə onun ailəsinin, bacı və qardaşlarının, valideynlərinin yox, bütün bir nəslin, bir elin faciəsidir.

Qabil xalam oğlanlarının ən kiçiyi idi. O, ucaboy, qaraqaş, qaragöz, gözəl, zarafatcıl, deyib-gülən bir oğlan idi. İnsanlarla tez ünsiyyətə girməyi bacarırdı. Tanımadığı adamla bir neçə saat ünsiyyətdə olandan sonra o adamın qəlbinə girir və onun sevimlisinə çevrilirdi.

15 iyun 1997-ci il tarixdə Qabilin toyu oldu. Torpaqlarımız düşmən tapdağında olduğu üçün onun toyunu Sumqayıt şəhərində elədik.

Xalam oğlanlarının dördü də, o cümlədən, Qabil Rusiya Federasiyasının İrkutsk şəhərində yaşayırdı. O, həmin şəhərdə Tibb Universitetini bitirmişdi. Elə orada da diş həkimi işləyirdi. Onun incə əl qabiliyyəti var idi.

Qabilin böyük qızı Gülnar 15 avqust 1998-ci ildə, kiçik qızı Əminə isə 05 iyul 2000-ci ildə anadan olub. Mən bir dəfə Qabilə dedim: «Qabil, bir oğlun da olsa, yaxşı olar».

O, mənə dedi: Xalaoğlu, qız, ya oğlan, nə fərqi var? Təki fərdi olsunlar. Elə oğul var ki, kor qız ondan yaxşıdır. Qabil haqqında o qədər xatirələr var ki… Fikrim dağınıq olduğu üçün yadıma sala bilmirəm.

Kənddə ev tikirdim köməyim yox idi, bərk yorulmuşdum. İşin ağır vaxtında bir də gördüm səhər-səhər Qabil iki dostunu da götürüb köməyə gəldi. Mən o qədər sevinirdim ki.

Kənddə hamının biçənək yeri var idi. Mənim də çayın qırağında biçənəyim var idi. Mən elə o vaxtdan hal-hazıra kim kənd sovetinin sədri işləyirəm (indi İcra nümayəndəsi adlandırılır). Hamı otunu biçmişdi, mənim vaxtım yox idi. Bir gün rayon mərkəzindən gələndə gördüm sahəm biçilib. Yoldaşımdan soruşdum, o dedi: «Qabil bir dəstə özü kimi cavanı yığıb gətirib otumuzu biçdirdi. Bir quzumuzu da aparıb çayın qırağında kəsibdilər, kabab edib yedilər». Mən çox sevindim. Dedim, lap yaxşı ediblər.

Allah sənə rəhmət eləsin, xalaoğlu! Yerin behişt olsun, qəbrin nurla dolsun.

Mən aşiq için-için,
Qovrullam için-için.
Ağul itirən ata
Ağlayar için-için.

Xalaoğlu, sən ölməsisən, bizim ürəyimizdə yaşayırsan.

Necə ki, bu ürəklər döyünür, sən də yaşayacaqsan. Bir daha Allahdan sənə rəhmət diləyirəm.

Səni həmişə ürəyində yaşadan xalan oğlu Rafiq.

OĞUL, YERİN GÖRÜNÜR.

Böyük Azərbaycan şairi Rəsul Rza yazır: «Arxalı nadan görürəm, qorxuram»… Oğlum, Qabil, sən nadanlığın qurbanı oldun. Özü də sifarişli, əvvəlcədən hazırlanmış nadanlığın. Qoy ölüm sevinməsi ki, ömrünün 32-ci baharını yaşayan ləyaqətli, sədaqətli, qorxmaz və cəsur oğlum olan Qabili sıramızdan qopara bildi. Ölümün bu qədər ağır və dözülməz olduğunu indiyə qədər belə dərindən dərk edə bilmirdim. Allah heç bir valideynə övlad dağı göstərməsin. Bu faciənin ağırlığını ancaq övlad dağı görən valideyn dərk edə bilər. Oğul, sənin ölümün bizim ailəyə elə bir «sillə» vurdu ki çətin bir də özümüzə gələ bilək. Mən nə qədər təmkinli olmağa, vüqarımı saxlamağa çalışsam da əyilməyən qəddim, sınmayan iradəm, məğrur baxışım, şux qamətim sarsıldı.

Düzdür, adam yanında ağlayıb göz yaşı tökmədimsə də göz yaşım daim ürəyimə axdı.

Hörmətli oxucum, iki dərd-oğul dərdi ilə vətən dərdi qoşalaşıb, mənə o qədər dağ çəkib ki, onlardan nə qədər yazsam da qurtarmaz. Mən qismən də olsa, dərd qəmdən uzaqlaşmaq, necə deyərlər, sözün həqiqi mənasında, dəli olub, çöllərə düşməmək üçün fikrimi yazı-pozuya vermişəm.

Gecə-gündüz cızma-qara edirəm, yazıram, pozuram ki, dərdim bir az azalsın.

Amma çifayda, nə vətən, nə də oğul dərdi yaddan çıxan deyil. Mən özümlə birlikdə, əziz oxucularım, sizləri də dərd-qəmdən uzaqlaşdırmaq üçün oğlum Qabil haqda bəzi xatirələri qələmə almaq istəyirəm.

Qabil təzə birinci sinfə gedirdi. Bir gün mənə dedi: «Ata, mənim müəlimim-İsgəndər müəllim çox savadlıdır. Bir o qədər hərfin hamısını yadında saxlayır». Mən onun sözünü İsgəndər müəllimə dedim. O gülərək dedi: «Düz deyir də, həqiqətən, mən dəryayam, bir o qədər hərfi mənəm ki, yadda saxlayıram».

Təxminən altı yaşı olardı. Onun bir dişi laxlayırdı. Mən o dişə sap bağladım ki, çəkəm, qoymadı. Sapı gizli çarpayıya bağladım, arxasına bir təpik vurdum ki, sən qorxağın birisən, o tərpənəndə diş çıxıb çarpayıya dəydi.

Bir dəfə qoyun nobatı bizim idi. O mənə dedi: «Ata, sabah səhər qoyunu sən apar, mən «Səhər görüşləri»nə baxım, sonra gəlib səni dəyişərəm. Dedim, yaxşı gedərəm. Amma heç könlüm yox idi. Qızım Sevinc dedi: «Gəl televizorun qoruyucusunu çıxaraq, deyək televizor işləmir». Biz elə də etdik.

Axşamdan televizorun qoruyucusunu çıxarıb ona dedik ki, televizor xarab olub. O, nə qədər çalışsa da televizor işləmədi. Səhər durub qoyunları örüşə apardı. O, gedəndən sonra biz televizorun qoruyucusunu yerinə salıb, «Səhər görüşləri»nə baxdıq. Günorta qoyunları çayın qırağına gətirib, evə gəldi. Gördü ki, televizor işləyir. Soruşdu ki, neynədiz televizor işlədi? Mən dedim ki, kəndə usta gəlmişdi o düzdəltdi. Bacısı Sevinc dedi: - Atam yalan deyir, televizor xarab olmamışdı, onun qoruyucusunu atam çıxarmışdı ki, sən qoyun otarmağa gedəsən. O məndən küsdü, 3 gün məni dindirmədi. Qabil kənd işlərini çox gözəl bacarırdı. O, qoyun qırxanda əllərini görmək olmurdu. Kəndimizin qabağından axan Həkəri çayından cavanlar əl ilə balıq tutardılar. Qabil çox gözəl balıq tutardı. Böyük

gəlinimiz Gülzarın xətrini çox istəyirdi, ona ana deyirdi. Çünki Sumqayıtda da Rusiyada da onun yanında çox olmuşdu.

Qabil dərs əlaçısı idi. O, orta məktəbi medalla bitirmişdi. Yoldaşları ilə çox mehriban idi. Zəif oxuyan yoldaşlarına həmişə kömək edərdi, ona görə də yoldaşları onun xətrinə çox istəyirdi. Bütün müəllimlərinə həddindən artıq hörmət edərdi. Onların bir sözünü iki eləməzdi. Ona görə də müəllimləri də onu çox istəyirdilər. İsgəndər müəllimə hələ birinci sinifdən böyük hörməti var idi. O, bir savadı müəllim kimi onun beyninə həkk olunmuşdu. İsgəndər müəllimin özü demişkən, o dəryadır ki, bir o qədər hərfin hamısını yadında saxlaya bilir.

Yuxarı siniflərdə də müəllimlərinin hamısına xüsusi hörmət göstərirdi. Ancaq riyaziyyat müəllimləri Rasimi və Həsəni lap çox istəyirdi.

Böyük qızı Gülnar hər şeyi başa düşür. Bu yaxınlarda kiçik qızı Əminə gəlib qucağımda oturub dedi:

-Dədə, mənə düzünü de, atam nə vaxt gələcək?

Mən bir qədər fikirləşib dedim:

-Siz yekələndə gələcək, indi gələ bilməz, çünki çoz uzağa gedib.

Heyif sənə, oğul, Allah sənə rəhmət eləsin. Sənə uzanan o namərd əl kəsilməlidir. Necə oldu ki, o vəhşi, yırtıcı canavar cavanlığını, balalarını, bacı-qardaşını, ata-ananı, nakam sevgilini nəzərə almayıb səni qətlə yetirdi. Bizi həmişəlik gözüyaşlı qoydu. Qəbrin nurla dolsun, yerin behişt olsun. O haqq dünyada rahat yat, oğul!

Hörmətlə: atan Əşir

SƏNƏ BACIN QURBAN, QARDAŞ

İstəkli qardaşım Qabil, sənin haqqında xatirə yazmaq mənim üçün ağırdı. Çünki ölümünə inana bilmirəm. Qardaşcan, əgər mən bilsəydim ki, bir gün sənin haqqında bu qara xatirələri yazacağam, inan ki, imkanım olsaydı, səndən əvvəl bu dünyanı özün tərk edərdim.

Mənim dörd qardaşım olmasına baxmayaraq, sən mənə qardaşlarımın hamısından yaxın idin. Çünki bizim yaş fərqimiz çox az idi. Böyük qardaşım Tahir ilə mənim 14 yaş fərqim olduğu halda, sənlə cəmi üç yaş fərqimiz var idi. Sən

məndən üç yaş böyük idin. Biz həmişə bir yerdə yeyib-içib, bir yerdə yatıb-durmuşuq. Qardaşlarımın ən zarafatcıl, deyib- güləni sən idin. Mən uşaqlıqda kök, totuq bir qız idim. Sən heç vaxt mənim adımı çağırmazdın, həmişə mənə toppuş deyərdin. Mən ailə qurandan sonra da sən məni bu adla çağırardın. Mən bu ada o qədər öyrənmişdim ki, hətta məni tanımayanlar adımı soruşanda, çaşıb toppuş deyirdim.

Sən çox ucaboy, yaraşıqlı, gözəl bir oğlan idin. Mənə çox zarafat edib əsəbləşdirərdin. Sən məni acıqlandıranda mən də sənə uzunduraz deyərdim.

Əziz qardaşım, Allaha şükür edirəm, nə yaxşı ki, sənin yadigarın qalıb. Sən yadıma düşəndə gedib balalarını görürəm. Balaca Əminə sir-sifətdə anasıgilə oxşayır. Gülnar isə sənə oxşayır. Elə bil ikiyə bölünmüş bir almasınız. Sən yadıma düşəndə həmişə Gülnara baxıram. Qabilcan, sənin müsibətinə ata-anam dözə bilmir. Səndən sonra atam şair olub. Gecə-gündüz oxuyur, yazır. Dərdini kağıza köçürür. Sənə həsr olunan altı kitabı çapdan çıxıb. İndi o yeddinci kitab üzərində işləyir. Yazı-pozu onu bir az toxdadır. Əgər yazı-pozusu olmasaydı, inan ki, kişi dəli olub çöllərə düşərdi. Anam isə sənin dərdinə dözə bilməyib dünyasını dəyişdi.

Qardaş, sənin ölümün bütün qohum-əqrəbanı sarsıdıb. Qardaşların da çox sarsılıblar. Şamil qardaşın isə heç özünü əla ala bilmir. O, saqqal saxlayır. Atam nə qədər yalvarırsa da o, saqqalını qırxmır. Şamilin saqqal saxlamağı da atamıza bir dərd olub. Qardaşım saqqalını qırxsa, elə bilirəm ki, atamızın dərdi bir az yüngülləşər.

Qabil, balalarından arxayın ol. Biz hamımız onları əziz tuturuq. Qohum-əqrəba hörmətlərini saxlayır. Əmiləri də onları çox istəyirlər. Sənin balaların Şamillə fəxr edirlər. Ona ata deyirlər. Sənin sevimli Ramilən də namus-qeyrətlə oturub, balalarının tərbiyəsi ilə məşğul olur, onları əzizləyib böyüdür. Sənə bacın qurban, sən tez getdin, bizləri gözüyaşlı qoydun. Qardaş, sənin amalın həmişə insanlara yaxşılıq etmək olub. Mən inanıram ki, Ulu Tanrı səni cənnətə göndərib. Əzizim, bu fani dünya müvəqqətidir. Gec-tez biz hamımız sənin yanına

gələcəyik. Hələlik isə sən bizim ürəyimizdəsən. Sənə qurban olum. Qabilcan, sənə həsr etdiyim bu xatirəmi aşağıdakı bayatılarla tamamlamaq istəyirəm:

Əzizinəm, bu dağa,
Quşlar qonar budağa.
Qardaşı ölən bacı
Necə dözər bu dağa?

* * *

Əzizim, al qanadı
Sinəmdə al qanadı.
Qardaş ölsə, bacının
Sınar qolu, qanadı.

Səni canından da əziz sevən bacın Sevinc

DAYIMI UNUDA BİLMİRƏM

Qabil dayım ölində mənim yeddi yaşım var idi. Yadımdadır ölümündən 3-4 ay əvvəl dayım Rusiyadan Sumqayıta gəlmişdi. O, ucaboy, gözəl bir kişi idi. Qabil dayım nədənsə anamın adını demirdi. Ona toppuş deyirdi. Sonradan anamdan öyrəndim ki, o, balaca olanda kök, pota olduğu üçün dayım ona toppuş deyirmiş. Elə indi də o, anamı bu adla çağırardı.

Dayım gəlib bizlə görüşdü. Məni və qardaşım Samiri öpdü. Biz ondan utanırdıq. Qabil dayım xalçanın üstündə oturub, oyuncaqlarımızı yerə töküb bizimlə oynamağa başladı. O, bir saatdan çox bizimlə oynadı. Biz ona öyrəşdik. Artıq biz ondan utanmırdıq. Dombalaq aşdıq, bizi belinə mindirdi. Biz çox sevinirdik.

Mənim bir dişim laxlayırdı. Mən qorxurdum, həkimə getmirdim. Anam dayıma dedi:

-Qabil, Familənin bir dişi laxlayır, lap boşalıb, qorxur, qoymur aparıb çəkdirək.

Dayım dedi:

-Qoy baxım.

O, barmağını ağzıma salması ilə dişimi çıxartması bir oldu. Mən heç ağlamadım.

Sonra anam mənə dedi ki, dayın diş həkimidir. O, çox yaxşı diş müalicə edir, gözəl diş salır və ağrısız diş çəkir. Dayım Rusiyada diş həkimi işləyirdi.

Bizlə görüşəndən az sonra dayımı öldürdülər. Onun meyidini Sumqayıt şəhərinə gətirdilər. Biz çox məyus olduq, ağladıq. Dayımın ölümünü böyük qızı Gülnar bilir. Kiçik qızı Əminə isə başa düşmür. O, elə bilir ki, nə vaxtsa atası gələcək.

Dayımın ölümündən sonra dədəm şair oldu, başladı şeir yazmağa. Onun altı kitabı çıxıb. İndi yeddinci kitabı yazıb qurtarıb, çapa hazırlayır. Mən dədəmin dayım haqda yazdığı şeirləri oxuyanda həmişə ağlayıram.

Dədəm nəvələrinin hamısını çox istəyir. Ancaq biz onun yanında olduğumuz üçün ən çox bizimlə məşğul olur. Mənə və qardaşım Samirə dərslərimizin hazırlanmasında köməklik edir. O, gecə-gündüz işləyir, kitab yazır.

Mən dədəm Əşiri çox istəyirəm. Allahdan arzu edirəm ki, ona uzun ömür və can sağlığı versin. Çoxlu-çoxlu kitablar yazsın. İşləri həmişə uğurlu olsun. Ürəyindəki bütün arzuları həyata keçsin. Dayım Qabilə isə Allah rəhmət eləsin. Yeri behişt olsun. Dayı, mən səni heç unuda bilmirəm. Allah sənə çoxlu-çoxlu rəhmət eləsin, yerin cənnət olsun.

Hörmətlə: bacın qızı Familə

ALLAH SƏNƏ RƏHMƏT ELƏSİN, QABİL

Qabil haqda xatirə yazmaq mənim üçün çox çətindir. Mən Qabili bir qayın kimi yox, bir oğul kimi çox sevirdim. O da məni həmişə ana deyərək çağırardı. Rusiya Federasiyasının İrkutsk vilayətinin İrkutsk şəhərində yaşayırdıq. Əvvəllər dörd ailə bir yerdə yaşayırdıq. Qabil evdə həmişə biz gəlinləri müdafiə edərdi. Bir çatışmayan iş olanda onu həmişə öz üzərinə götürərdi ki, bizə bir söz deyilməsin.

Qabil elə həmin yaşadığımız İrkutsk şəhərində Tibb Universitetinin stamatologiya fakultəsini bitirmişdi. Elə orada da diş həkimi işləyirdi. Bizim ailənin diş problemini o həll edirdi. Kiminə diş salar, kiminin dişini müalicə edər,

kiminin dişini çəkər və s. Onun çox incə əl qabiliyyəti var idi. O sənətə Qabil çox gözəl yiyələnmişdi.

O bilirdi ki, mənim ağ qızılgüldən xoşum gəlir. Həmişə bayramlarda, ad günlərində mənə ağ qızılgül dəstəsi bağladıb gətirirdi. Bir dəfə mən xəstəxanada yatırdım. Qabil həmin güldən gözəl bir buket bağladıb mənim yanıma gəlmişdi. Mənim palata yoldaşım olan rus qızı özünü saxlaya bilməyib dedi: «Əsl centlementdir».

Rusiyada qonşuların hamısı it saxlayırdı. Bir dəfə gördük ki, o, balaca bir «avçarka» alıb gətirdi. Həmin bala küçüyü Qabil iki ilə yaxın saxladı. O, itə elə təlim keçmişdi ki, it adam kimi dil bilirdi. Nə desək, onu edirdi. Qabil itinin adını «Bos» qoymuşdu. Hər səhər saat 6-da onu gəzdirməyə aparırdı. Günorta və axşam da o, itini gəzdirirdi. Bir dəfə də o, iti özü ilə meşəyə aparmışdı. İt meşədən qaçıb yola çıxır və qoşqulu maşının arxa təkərinin altında qalıb ölür. O hadisə Qabilə çox pis təsir etdi. O bir müddət özünə gələ bilmədi.

Qabil sülh tərəfdarı idi. Evdə xırda söz-sözbət olanda çalışardı ki, onu sakitliklə həll etsin. Biz sonradan ayrılıb ayrı-ayrı yaşayanda bir dəfə mən Qabilgilə getmişdim. Zarafatla dedim: «Qabil, Tahirdən küsüb sizə gəlmişəm. Dedi: -Lap yaxşı eləmisən, ölməmişəm ki, ana səni özüm saxlayacam. Bəs anam deyilsən?».

Yadımdadır, böyük qızı Gülnar anadan olanda onun sevincinin həddi-hüdudu yox idi. Qabil haqda o qədər xatirə demək olar ki, nə isə…

8 mart 2000-ci ildə gül alıb gətirib biz gəlinlərin dördünü də təbrik etdi. Aldığı güllər hələ solmamışdı, özü 11 martda faciəli surətdə həlak oldu, onun ölümü bizi həddindən artıq sarsıtdı. Bizim ailə hələ də özünə gələ bilmir. Qayınatamız Əşir müəllimə biz hamımız papa deyirik. Papam heç özünü ələ ala bilmir. O, dərdini həmişə kağıza köçürür. Qabilin ölümündən sonra papa şair olub, gecə-gündüz yazır. Onun altı kitabı çapdan çıxıb. İndi yeddinci kitabını yazıb qurtarıb, çapa hazırlayır. Kişi deyir, əgər yazı-pozum olmasa, mən dəli olaram. Qardaşlarının üçü də yas içindədir. Onlar yasdan çıxa bilmirlər. Qayınım Şamil isə altı ildir ki, üzünü qırxmır. O da papama bir dərd olub. Papa nə qədər

çalışırsa da ona üzünü qırxdıra bilmir. Nə isə … biz hamımız yas içərisindəyik. Qabil, sənin balaların Gülnarı və Əminəni biz öz balalarımızdan seçmirik. Sən rahat yat, qardaş. Allah sənə rəhmət eləsin. Mən öz xatirəmi papamın ağır faciə şeirinin bir neçə bəndi ilə tamamlamaq istəyirəm.

Düşmən gülləsinə tuş balam,
Ürəyim bağlayıb mənim dərd-verəm.
Arada qalıdı iki balası
Ağlamaqdan kor olubdu anası.

* * *

Namərd necə qıydın mənim balama?
Allah, niyə fürsət verdin zalıma?
Qohum-qardaş yanır mənim halıma
Yer-göy ağlar, vallah, belə ölümə.

Yerin behişt olsun, qardaş.

Səni həmişə ürəyində yaşadan ikinci anan Gülzar.

ACILI, ŞİRİNLİ XATİRƏLƏR

Əvvəli, axırı görünməyən fani dünya!....

Həyatda hər bir kəs özünəməxsus alın yazısı ilə doğulur və bu alın yazısını Allahdan başqa heç kəs bilmir.

Hər bir kəsin də həyata keçirmək istədiyi arzuları olur və bu arzularla insan həmişə öz ağlı və zəkası ilə mübariz olmağa çalışır. Hamı kimi, Qabilin də bu dünyada bir yeri, bir məqsədi, bir qisməti var idi.

Qabilin həyatı ilə bağlı bu gün xatirə yazmaq mənim üçün çox ağır və ağır olduğu qədər də çətindir.

Təəssüflər olsun ki, bu qısa ömür yolunda o, uzaqda yaşadığı üçün heç birimiz ondan doymadıq. Ona görə də istərəm uşaqlıqda bir yerdə olduğumuz illərə qayıdım…

Xurşud nənəmin biz nəvələrini başına yığıb, Şinatağ, Gilədağ dağlarında gəzdirməyindən söz salım. Bulaq suyu, dağ havası, camış qaymağı və yağlı fətir

günü-gündən yanaqlarımızı qızardardı. Nənəm nəvələrinə qaymaq payı çəkəndə nədənsə Qabilin payı o biri nəvələrinin payından çox görünərdi. Bu da nəvələrin gözucu baxışlarından yayınmırdı. İndi düşünürəm ki, ağbirçək nənə onun həyatdan doymayacağını neçə illər əvvəl özü də bilmədən duyurmuş.

Dağ-yaylaq həyatını çözələdikcə axırıncı dəfə Seytas meşələrində keçirdiyimiz xoş xatirələri unutmaq olmur. O zamanlarımızın ən şirin çağlarından biri isə yelləncəkdə keçirdiyimiz anlar idi. Yaxşı yadıma gəlir ki, alaçıqların yanındakı bir tərəfi arxı kölgələndirən, bir tərəfi yarğandan boylanan iri, qollu-budaqlı qoz ağacından yellənçək asmaq Qabilin ağlına gəlmişdi. O, bir göz qırpımında ağaca dırmaşıb yoğun sicimi iri bir budağa keçirib aşağı uzatdı. Və elə birinci də özü yellənmək istədi. Lakin nənəm yelləncəyə ən əvvəl budağın möhkəmliyini yoxlamaq üçün özü çıxdı. Uşaqlar nənənin fikrini anlamadan ona küskün-küskün baxdılar. Qabil isə nənəmin qayğısız uşaq təki yelənməyinə ürəkdən sevinib, böyük maraqla tamaşa edirdi. Sonra qalan uşaqlar da bu sevinci yaşayıb, ona qoşuldular.

Mollu və Həmzəli kəndlərini bir-birindən Həkəri çayı ayırırdı. Ona görə də bizə gələndə kəsə yolla at ilə gələrdilər. Qabil İsmayıl dədəmin atına minib tez-tez bibisini görməyə gələrdi. At belinə xurcun qoyardılar. Xurcunun bir gözünə nehrə yağı və pendir, o biri gözünə ət payı qoyardılar. Qayıdanda isə Qabili anam sevindirərdi. Xurcuna dadlı, şirin heyva, nar və qaz yığardı…

Yox, ölüm sevinməsin qoy!

Yaranan kəs alın yazısı ilə haqq yoluna getməlidir. Qabilin uca boyunu, qara gözlərini, zarafatcıl qəlbini Allah öz qələmi ilə ilk övladı, könlünün baharı Gülnara bəxş etdi. Biz hamımız Qabili Gülnarda axtarırıq.

Qabil, cehizi bağlı qalan, qatarı yolda qalan ciyərparanın-yarının səsi qulaqlarında qaldı. O, səni yuxularında axtarır və bununla təsəlli tapır.

Qardaş, bibin, anan, xalan hələ sənin yasından çıxmayıb. Deyirlər, kimi isə torpağa tapşıranda qadınlar qəbir üstünə çıxmazlar.

Amma «Qabil ahu-naləsi» o adəti pozdu. Ananla bibinin yana-yana qol götürüb oynamaları, saçlarını yolub yelə vermələri qəlbləri göynətdi. Biz-bacıların, anan, bibin səni son mənzilə, qəbir evinə yola saldıq.

O gün hamı ağlayırdı, amma dayımın gözlərində yaş donmuşdu. Sanki dayım bizi görmür, bu ahu-naləni eşitmirdi… yox, qardaş, sən elə bilmə, atan ruhən yox idi. O, səninlə idi. Bir vaxt özünə gəldi ki, artıq sən o yaz yağışı ilə islanmış, soyuq torpaqla bizdən həmişəlik ayrıldın. Can qardaş, bu sözləri ürək ağrısı ilə, göz yaşları ilə yazıram. Bu qısa ömür yolunda tale səni bizdən uzaqlara gəzdirdi, sonra isə həmişəlik apardı. Sən hər kəsin fikirlərinə, hisslərinə böyük ehtiramla yanaşırdın. Qoy Allah sənin məzarını nurla doldurub, yerini cənnət etsin.

Qabil, sən həmişə bizim qəlbimizdə öz dəst-xəttinlə, özünəməxsus gülüşünlə, könlümüzü oxşayan zarafatınla seviləcəksən. Sən özündə bütün insani keyfiyyətləri toplayan, cəmiyyətinə və dövlətinə layiq bir gənc idin.

Hörmətlə: bibin qızı Fəridə

UNUDULMAZ DOST, SƏMİMİ YOLDAŞ, MEHRİBAN QARDAŞ

Bir kiçik budağı qıranda rüzgar,
Budaq qan-yaş tökər, ağac qan ağlar.
Şəhriyar

Xatirəmin başlığında göstərdiyim kimi, əmim oğlu Qabil mənim unudulmaz dostum, səmim yoldaşım və mehriban qardaşım idi.

Əmim Əşirin Qabil haqda yazdığı xatirəsini oxuyanda mən sarsılıram, göz yaşlarımı saxlaya bilmirəm. Əmim öz xatirəsinə bu cümlə ilə başlayır: «Ən ağır dərd oğul cənazəsinin ata çiynində getməsidir ki, o da mənə qismət olub».

Can əmi, bu dərdin ağrılığını təkcə sən yox, biz hamımız çəkirik.

Böyük Azərbaycan şairi Şəhriyar demişkən, bu bir kiçik budağın qırılması bizim hamımızı sarsıdıb. Bu budağın sahibi olan bir ağac kimi isə səni iflic vəziyyətinə salıb.

Mən həmişə Əşir əmimi yoluxmağa gedəndə onu yazı masasının arxasında oturub yazan görürəm. Deyirəm: «Əmi, az yaz, oxu, yaşlı adamsan, gözlərinə

ziyan olar». Onun cavabı mənə bu olur ki, Habil, məni saxlayan yazı-pozumdu. Əgər yazı-pozum olmasa, mən dəli olub çöllərə düşərəm.

Əmican, inan ki, bu dərdi mən səndən az çəkmirəm. Çünki nə mənim qardaşlarım, nə də Qabilin öz qardaşları onunla mən qədər bir yerdə olmayıblar. Qabil ilə mən eyni ildə anadan olmuşuq, eyni ildə məktəbə getmişik və həmişə bir partada oturmuşuq. Eyni zamanda ürək dostu olmuşuq. Ona görə də bu dərdin ağırlığını biz qardaşlardan ən çox mən çəkirəm.

Qardaşımız Şamil yeddi ildir ki, üzünü qırxmır. Yas içərisindədir, o yasdan çıxa bilmir. Şamilin bu hərəkəti sənin kimi məni də çox narahat edir. Qabilin faciəsi bir ata kimi səni sarsıdan kimi, bir qardaş, bir dost kimi də məni sarsıdıb.

Əmi, sən mənə deyirsən ki, Qabil haqda bir xatirə yaz. Mən Qabil haqda bildiyim xatirələrin hamısını yazsam, başı-bağlı bir kitab olar. Mənim üçün nə qədər ağır olsa da onlardan bir neçəsini yazacam.

Yuxarıda qeyd etdiyim kimi, mən Qabil ilə on səkkiz il bir yerdə yaşamışam. On bir il bir yerdə oxumuşuq. O, birinci sinifdən on birinci sinfə qədər dərs əlaçısı olub. Həmişə də sinifkom seçilib. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edib və o tədbirlərin aparıcısı olub, orta məktəbi medalla bitirib.

Qabillə mən həmişə qabaqda birinci partada oturardıq. Bir dəfə dərsdə uşaqlar arxada peçenye yeyirdilər. Qabil mənə işarə elədi ki, gəl diplomatların qapağını qaldırıb, arxasında peçenye yeyək. Biz elə də etdik. Bir azdan müəllim bizə dedi: «Nədi o siçan kimi xımırt-xımırt yeyirsiniz?». Müəllim hirslə diplomatların qapağını bağladı. Bu vaxt bizim ağzımızdakı peçenye qırılıb müəllimin üzünə dəydi. Müəllim hirslənib dedi: «Əgər atalarınıza böyük hörmətim olmasaydı, sizi elə vurardım ki, divara yapışardınız».

Bir dəfə də Qabil qoyun nobatına mən də quzu nobatına getmişdim. İsti yay günü idi, birdən hava qaraldı, leysan yağış başladı. Mən təmiz islandım. Təxminən bir saatdan sonra yağış kəsdi. Qabil mənim yanıma gəldi. Mən başdan-ayağa su içində idim. O, isə qupquru idi. Mən ondan soruşdum»: «Necə oldu ki, sən islanmadın?» O dedi: «Mən paltarlarımı çıxardıb, daşın oyuğunda gizlətdim. Yağış kəsəndən sonra isə geyindim».

Yadımdadır, bir dəfə Qabil ilə mən qərarlaşdırdıq ki, qış tətilini əmim oğlu Tahirgildə keçirək. Bu məqsəd ilə biz Sumqayıt şəhərinə gəldik. Biz evi axtardıq tapa bilmədik. Qabildə evin ünvanı və açarı var idi. Biz taksiyə minib həmin ünvana gəldik. Tahir işdə idi. O, işdən gələndən sonra həyətə çıxanda məlum oldu ki, biz elə evin arxa tərəfindən maşına minmişik. Taksi pulun dərdindən bizi xeyli gəzdirdikdən sonra gətirib evin qabağında düşürüb.

Təzə ildə yolka ağacı qırıb gətirmək üçün bizim Mollu kəndindən 15 km uzaqda yerləşən Molluburhan kəndinə getdik. Molluburhan dərəsindən iki böyük ardıc ağacını bıçaqla birtəhər kəsib çiynimizdə kəndə gətirdik və yolka düzəltdik.

Usta Qabilgilə tövlə tikirdi. O, divar hörür, biz isə fəhləlik edirdik. Divarı hörüb qurtardıqdan sonra usta divara baxıb dedi: «Nə gözəl çıxıb». Söz ustanın ağzından çıxan kimi divar uçub yerə töküldü. Qabil dedi: «Usta, öz gözün öz işinə dəydi. Əziyyətini isə biz çəkəcəyik». Mənnən Qabil divarın daşını bir tərəfə, palçığını isə bir tərəfə yığdıq. Səhərisi isə usta gəlib təzədən o divarı hördü.

Qabil çox dindar idi. O Allaha, seyidə, ocağa, pirə ürəkdən inanırdı. Kəndimizin kənarında çox inanılmış «Üçqardaş» adlı bir pir var idi. Qabil mənə dedi: «Habil, gəl gedək «Üçqardaş»-ı ziyarət edək».

Biz «Üçqardaş»a çatanda gördük ki, bizim ən yaxşı qohumumuz olan bir oğlan uşağı yol ilə gedir. O uşağın 12 yaşı olardı. Ata-anasını eşitmirdi, dərslərini də pis oxuyurdu. Qabil qışqırdı: «Ey insan, dayan». Uşaq «Üçqardaşa»a tərəf baxdı, heç kimi görmədi. Çünki biz gizlənmişdik. O getməyə başlayanda Qabil bir də qışqırdı ki, ey insan dayan, dayanmasan səni daşa döndərəcəm. Bu vaxt uşaq dayandı. Qabil səsini dəyişərək gur səslə dedi: «Əgər dərslərini yaxşı oxumasan, ata-ananın sözünə baxmasan, səni daşa döndərəcəm. İndi get və sözlərimə əməl elə». Həmin gündən sonra o uşaq düz yola qayıtdı, dərslərini də yaxşı oxudu, ata-anasının sözlərinə də əməl etdi.

Bizim Sisyan rayonu ərazisində dədə-baba yaylaqlarımız var idi. İsmayıl dədəm hər il mal-qaranı və qoyunları dağa aparırdı. Bir il biz dədəmə kömək elədik. Heyvanları Ermənistanın Xınzirək kəndinə qədər apardıq. Qayıdanda qaranlığa düşdük. 40 km-lik yolu piyada gəlirdik. Bərk susamışdıq. Öz yazımıza

çatanda dedik, gedək fermadan su alıb içək. Fermaya gedəndə fermanın itləri bizim üstümüzə cumdu. Biz qaçdıq. Sonra gəlib su nososunun çalasından su tapdıq, içib evə gəldik. Gecə saat 4-də evə çatdıq.

Qabildə əvvəlcədən rus dili dərsinə maraq güclüydü. O hələ orta məktəbdə oxuyanda rus dilində sərbəst danışırdı. Rus dili müəllimimiz Vaqif müəllimlə o həmişə rus dilində danışardı. Vaqif müəllim onun xətrinə çox istəyirdi. Qabil kənd işlərini də çox gözəl bacarırdı. Yaxşı dəryaz çalmağı, qoyun qırxmağı var idi. Çaydan əl ilə hamıdan yaxşı balıq tuturdu. Çox yaxşı heyvan kəsirdi, ət doğrayırdı, kabab bişirirdi. Bizim ailələrin kababçısı Qabil idi.

Orta məktəbi bitirəndən sonra Qabil İrkutsk şəhərində yaşayan qardaşlarının yanına getdi. Orada Qabil Tibb Universitetinin stomatologiya fakultəsini qırmızı diplomla bitirdi. Elə həmin şəhərdə də qalıb diş həkimi işlədi. O çox gözəl insan və gözəl həkim idi.

Mən öz xatirəmi əmimin sözləri ilə başladım və onun bir bənd şeiri ilə də bitirmək istəyirəm.

Ocağıma böyük bir dərd gəlibdi,
Bu dərdə dözməyə kişi gərəkdi.
Təbəssümü, gülüşləri silibdi,
Bu dərdə dözməyə kişi gərəkdir.

Əmi, sən bu dərdi kişi kimi çəkdin. Dost düşmən içərisində əyilmədin, sınmadın. Göz yaşların həmişə ürəyinə axdı. Allah yenə də sənə qüvvət, dözüm versin. Bu dərd tək sənin yox, hamımızın dərdidi. Biz qardaşlar da Qabilə sən qədər yanırıq. Qabil mənim dostum, qardaşım və sirdaşım idi. Allah sənə rəhmət eləsin, qardaş, qəbrin nurla dolsun!

Səni dünyalar qədər sevən əmin oğlu Habil.

ÖLÜM SEVİNMƏSİN QOY!

Yaman qurqu, yığılaydın,
Tufanlarda boğulaydın,
Nolaydı bir dağılaydın,

Bizi dərdə salan dünya

Şəhriyar

Yeri, göyü yaradan böyük Allah! İnsanlara həm xoşbəxtlik, həm də dərd, qəm və göz yaşı verən İlahi, sənin böyüklüyün qarşısında baş əyirəm.

Ey yaradan Allah, bir nəslə iki böyük dərdi-Qabil və Tural dərdini niyə verdin? Qabil dərdini onsuz da çəkmək mümkün deyildir. Qohum, qardaş, dost, ata-ana gecə-gündüz ağlayır. Bu dərdin içində olan insanlara niyə bəs Tural dərdini verdin? Hər iki qohumu Sumqayıt şəhər qəbiristanlığında əbədi olaraq «qonşu» etdin. Qabil 32 yaşında İrkutsk şəhərində namərd gülləsinə tuş gəldi…

Tural isə 21 yaşında dostu yolunda ona vurulan bir bıçağın qurbanı oldu …

Qabil İrkutsk şəhərində Tibb Universitetini bitirdi. Tural Bakı Dövlət Universitetinin hüquq fakültəsinin IV kursunu bitirdi.

Mən Tural haqqında xatirələr yazmışam, yazıram və nə qədər yaşayıram yazacam.

Bu xatirə isə mənim üçün əziz, canım qədər sevdiyim mamam nəvəsi Qabil haqqındadır.

Mən 1984-2002-ci illərdə Qubadlı rayon Təhsil Şöbəsinin müdiri işləmişəm. İşlədiyim illərlə bağlı xatirələrim olub. Bu illər ərzində yüzlərlə şagirdlərim respublikamızın və dünyanın müxtəlif sahələrində işləyirlər. Bu gün fəxrlə deyə bilərəm ki, işlədiyim dövrlərdə təhsilimizdə böyük dönüş ili olmuş və fəxr edirəm ki, sevimli Qabilim də həmin dövrdə orta məktəbi bitiribdir. Qabil haqqında xatirə yazmaq mənim üçün çox çətindir. Mən inana bilmirəm ki, Qabili bir daha görməyəcəm, ucaboylu, xoşxasiyyətli, səmimi davranışlı, şuxbaxışlı Qabil həmişə onu tanıyanlarla yaşayıb və yaşayır. Qabil xüsusi qabiliyyət, xüsusi istedada malik idi. Mən onun gələcəyini olduğu kimi görürdüm və onunla fəxr edirdim. Xatirəmdədir, XI sinif şagirdlərinin rayon olimpiadasında Qabil öz istedadlı, biliyi ilə I yeri tutdu. Buna görə də rayon məktəbliləri arasında Bakıda keçirilən olimpiadaya göndərildi. Qabil həmin turda II yeri tutdu. Bu, o dövr üçün ən böyük nailiyyət idi. Bu qələbə Qubadlı Təhsil Şöbəsinin qələbəsi idi. Qubadlı rayon partiya komitəsinin I katibi işləyən Ş.Yəhyayev rayon üzrə XI sinifdə oxuyan əlaçı

şagirdləri və həm də respublika turundan qələbə ilə qayıdan Qabilin Qubadlı aktivləri ilə birlikdə görüşünü keçirdi. O, Qabilin əldə etdiyi nailiyyətdən iftixarla danışır və onu nümunə çəkirdi, sonra söz Qabilə verildi. O, keçirilən olimpiadadan danışır, ona göstərilən diqqət və qayğıya görə rayon rəhbərliyinə, pedaqoъi kollektivdə çalışan müəllimlərə, təhsil işçilərinə minnətdarlığı bildirdi. Ümidlə bildirdi ki, o gələcəkdə elmdə böyük nailiyyətlər əldə edəcək, xalqına, vətəninə layiqli kadr kimi formalaşacaq. Qabil elə böyük inamla çıxış edirdi ki, zalda oturanlar onun nitqinə, sərbəst danışığına diqqətlə qulaq asırdılar. Məni Yəhyayevin sözləri fikirdən ayırdı. Bu uşaq çox savadlı uşaqdır. O, gələcəkdə böyük elm xadimi olacaq. «Bu uşaq kimin övladıdır?». Mən fəxrlə dedim, o mənim mamam oğlu Əşir müəllimin oğludur. Yəhyayev onu mükafatlandırdı və onun əlini sıxıb üzündən öpdü. Gurultulu alqışlarla Qabil gəlib yerində oturdu.

Əldə etdiyi böyük nailiyyətlərə, savada və yekun imtahanlarından bütün fənlərdən «5» qiymət aldığına görə Qabil «Qızıl medal»a layiq görüldü. O vaxtlar medala layiq bilinən şagirdlərin ədəbiyyatdan və riyaziyyatdan yazdıqları yazı işləri Respublika Təhsil Nazirliyində yoxlanılırdı.

Təəssüf ki, onun ədəbiyyat yazı işində bilərəkdən durgu işarələrində aparılan «yaxlama» nəticəsində ona «4» yazmışdılar. Qabil orta məktəbi «Gümüş medal»la bitirdi.

Son zəng olanda mən də Qabilin oxuduğu Yuxarı Mollu kənd orta məktəbinə gəlmişdim. Şagirdlərlə keçirilən «son zəng» də çıxış edən müəllimlər və mən onlara həyatın yeni mərhələsində xoşbəxtilik, gələcək işlərində uğurlar, ali məktəbə qəbul olmaqlarını arzuladıq. Qabil də çıxış etdi və müəllimlərin etimadını doğruldacağını, onların başını uca edəcəyini dedi.

Mən Qabillə direktorun kabinetində xeyli söhbət etdim. O, mənə dedi ki, qardaşlarım İrkutsk şəhərində yaşayırdılar, mən orada Tibb Universitetinə qəbul olacam. Qabil arzusuna çatdı. O, İrkutsk şəhərində Tibb Universitetinə daxil oldu və oranı qırmızı diplomla bitirdi. Elə orada da qalıb diş həkimi işlədi. Fəqət, atalar deyib: «Sən saydığını say, gör fələk nə sayır».. Qabil vaxtsız aramızdan getdi… o, həmişə qəlbimizdə yaşayıb, yaşayır və yaşayacaq.

Ölüm sevinməsin qoy. Qabil həmişə bizimlə olub, bizimlə də olacaq. Mən tez-tez Sumqayıt qəbirstanlığına gedir, Qabilin və Turalın məzarına qərənfil qoyur, «qonşu» olan və əbədi «evləri» olan bu iki gəncə Allahdan rəhmət diləyir, qəbirləri nurla dolsun-deyirəm.

Allah, Sizə rəhmsət etsin, əzizlərim! ***V.İ.Əliyev***

DAYIM OĞLU QABİLİN ƏZİZ XATİRƏSİNƏ

Bu dünya bir qızıl kuzəyə bənzər,
Suyu gah şirindir, gah da ki, zəhər.
Çox da öyünmə ki, uzundur ömrün
Əcəl köhlənində hazırdır yəhər.

Məhsəti Gəncəvi

Əşir müəllimlə biz dayıoğlu, bibioğluyuq. Mən Əşir müəllimin bibisi oğluyam. Ancaq aramızdakı yaş fərqi çox olduğu üçün mən əvvəldən Əşir müəllimə dayı demişəm. Bizi yaxından tanımayanlar elə bilirlər ki, həqiqətən o, mənim dayımdır. Mən dayımın övladlarını öz övladlarımdan seçməmişəm, həmişə onlarla fəxr etmişəm. Dayım uşaqları çox ağıllı savadlı və işgüzar uşaqlardır. Dayımın kiçik oğlu mənim uşaqlarımdan böyükdür.

Bu gün Qabil haqqında xatirə yazmaq mənim üçün çox çətindir. Çünki Qabilin itkisi təkcə dayım üçün, onun uşaqları üçün yox, bizim hamımız üçün ağırdır. Qabilin faciəli ölümü bizim nəsli çox ağır bir sınaq qarşısında qoydu. Onun ölümündən yeddi il keçməsinə baxmayaraq, bizim nəsil hələ də yasdan çıxa bilmir.

Qabilin faciəli ölümündən sonra Əşir dayım meyilini yazı-pozuya saldı. Onun altı kitabı çapdan çıxıb, indi yeddinci kitabı yazıb qurtarıb, çapa hazırlayır. Qabil dayım oğlanlarının bizə ən yaxını və sevimlisi idi. Ona görə ki, o biri 3 oğlu şəhərdə yaşamışdı. Onlarla çox ünsiyyətdə olmamışdıq. Qabil isə kənddə gözümüzün qabağında böyümüşdü.

Bir dəfə Qabil mal nobatına getmişdi. Mənim oğlanlarım isə balaca olduqları üçün ikisi də bir yerdə qoyun nobatına getmişdi. Necə olursa, qoyunların bir

hissəsi kolxozun taxıl zəmisinə girir. Uşaqlar öhdəsindən gəlib qoyunları zəmidən çıxara bilmirlər. Elə bu vaxt təsadüfən rayonun bir məsul işçisi oradan keçirmiş. O, qoyunların zəmiyə girdiyini görür, gəlir mənim uşaqlarımı çağırıb onların hərəsinə bir sillə vurur ki, nə üçün qoyunları zəmiyə buraxmısınız. Qabil qoyunları zəmidən çıxarır və həmin məsul işçiyə irad tutur ki, niyə uşaqları vurursan? O işin üstündə Qabili incitsələr də o, haqsızlığa dözə bilməmiş və öz sözlərini demişdi. Mənim oğlanlarım balaca olduğu üçün Qabil kənddə qoyunları kiryalin vannasına salmaqda, onu qırxmaqda, ot biçməkdə və s. işlərdə həmişə onlara kömək edərdi. Mənim uşaqlarım Qabilin xətrini çox istəyirdilər, onu özlərinə arxa, dayaq, böyük qardaş hesab edirdilər.

Qabil böyük-kiçik yerini bilən idi. O, bizim məktəbin ən fəal və çalışqan şagirdi idi. Məktəbdə keçirilən bütün tədbirlərdə nümunə idi. Məhz çalışqanlığına görə Qabil orta məktəbi medal ilə bitirdi. Sonra Rusiya Federasiyasında yaşayan qardaşlarının yanına getdi. İrkuts şəhərində Tibb Universitetinin stomatologiya fakültəsini qırmızı diplomla bitirib, elə həmin şəhərdə də diş həkimi işlədi. O sənətə Qabil çox gözəl yiyələnmişdi.

Onun haqqında çox xatirə bilirəm, ancaq fikrimi cəmləşdirib yaza bilmirəm.

Allah sənə rəhmət eləsin, Qabil. Qəbrin nurla dolsun,yerin behişt olsun. Səni heç unuda bilmirik, həmişə bizim ürəyimizdəsən. Dayıma da Allahdan səbir diləyirəm.

Səni həmişə ürəyində yaşadan Əli Yusifov.

UNUDULMAYAN ŞAGİRD

Bəzi hallarda yazmağın çətinliyindən gileylənənələri indiki qədər duymamışdım. Doğrudan da elə mövzular varmış ki, o barədə yazmaq çox çətin olurmuş.

Əslində bu mənim Qabil Əşir oğlu haqqında ilk yazım deyil. Təxminən 21 il bundan əvvəl də onun haqqında yazmışdım. Onda 1987-ci il may ayı idi və mən Qabil haqda xasiyyətnamə yazmışdım. Elə bil dünən idi. O zaman məktəbimizin məzunu haqqında sinif rəhbəri kimi yazırdım. Yazırdım ki, Qabil son dərəcə

səmimi, əxlaqlı və mədəni bir gəncdir. Kollektiv arasında nüfuz sahibidir. Özündən kiçiklərə qayğıkeşliklə, yaşlılara isə ehtiramla yanaşan insandır. Həmin yazımda məktəbimizin bütün müəllim kollektivinin belə bir əminliyini kağıza köçürdüm ki, Qabil Əşir oğlu bizim etimadımızı doğruldacaq, elinə, obasına müəllimlərinə başucalığı gətirəcək.

Yazdıqlarımı inamla, məhəbbətlə və inanaraq yazırdım.

Axı doğrudan da, oxuduğu müddət ərzində Qabil özünü ən sevimli bir şagird kimi tanıtmışdı. Bizim məktəbə iki il idi ki, gəlirdi. Bəlkə də bu vaxt az görünə bilər. Amma bu müddət müəllimlərin şagirdləri tanıması üçün yetərincədir.

Xatirimdədir, 1985-ci ilin sentyabr ayı idi. Məktəbimizin 9-cu sinfinə Aşağı Mollu kəndindən yeni gələn şagirdlərin arasında özünün düz qaməti, şux yerişi ilə seçilən bir uşaq da var idi. Müəllimlər, adətən ilk dəfə sinfinə gələn şagirdlərin savadı ilə daha çox maraqlanır. Yaddaşımda Qabilgilin sinfinə riyaziyyat dərsinə girdiyim ilk saatı da canlandırmağa çalışıram. Hamı bilir ki, yeni gələn uşaqları başqa bir mühitin, kollektivin təsiri, ab-havası bir qədər tutur.

Buna rəğmən elə ilk dərsdə Qabilin suallara cavabları onun çalışqan şagird olduğundan xəbər verirdi. Elə bu səbəbdən də o, sinif nümayəndəsi seçildi. Sonradan da sinif rəhbəri kimi mən onunla daha çox ünsiyyətdə olurdum. Tərbiyəsinə, təşəbbüzkarlığına söz ola bilməzdi. Bütün fənləri, xüsusi ilə də dəqiq elmləri çox sevirdi. Qabil öz dünyası olan şagird idi. Bəzən mənə elə gəlirdi ki, zəmanə uşağı deyil. Bunu hərdən özünə də irad formasında bildirərdim. Sifətinə tamamilə özünəməxsus bir ifadə verərək xəfif bir təbəssümlə «nə bilim» -deyərdi. O, hər kəsə hörmətlə yanaşırdı və bunu başqalarından da gözləyirdi.

Bir epizod da yadımdan çıxmır.

Sovet dönəmində orta məktəb şagirdlərinin kolxoz və sovxozlarda təsərrüfat işlərinə cəlb edilməsi adi hala çevrilmişdi. Xüsusi ilə, payız mövsümündə şagidlər, demək olar ki, bütünlüklə bu işlərə səfərbər olunurdular. Qabil belə işlərdə də nümunə idi. 1986-cı ilin sentyabr ayı idi. Məktəbimizin şagirdləri üzüm yığımına cəlb edilmişdilər. Rəhbəri olduğum 10[a] sinif şagirdləri briqadalardan birinin sahəsində işləyirdi. Arada briqadir mənə yaxınlaşıb gileyləndi ki, Qabil ona qarşı

hörmətsizlik edib. İnanmasam da məsələ ilə maraqlandım. Məlum oldu ki, briqadirin həmin dövrün əksər briqadirlərinin leksikonlarının «bəzəyi» olan sözlərlə şagirdlərə müraciət etməsi Qabilin etirazına səbəb olmuşdur. Qabili çağırdım. Kənd təsərrüfatı işlərində çalışan hər kəsin qulağının öyrəşdiyi və demək olar ki, ümumiyyətlə, qeyri-etik müraciət forması olmasını çoxlarının unutduğu sözləri Qabil dilinə gətirməyə utandı. Bəli, Qabil həm də hər cür ədalətsizliyə qarşı dözümsüz idi.

Qabil Fətəliyev Mollu kənd orta məktəbinin tarixinə yeni bir səhifə yazdı. O, məktəbin ilk medalçı məzunu oldu.

1987-ci ilin yayı idi. Orta məktəblərdə buraxılış imtahanları qurtarmışdı. Ali məktəblərə sənəd qəbulu başlamışdı. Sumqayıtda idim. Təsadüfən Qabil və atası Əşir müəllimlə qarşılaşdım. Görüşdük. Təbii ki, yenə də uğurlar arzuladım. Əşir müəllim təklif etdi ki, burada olduğum müddətdə Qabilin qəbul imtahanların hazırlıq işlərinə kömək edim. Əslində Qabilin hazırlıq səviyyəsi qaneedici idi. Amma ata ürəyinin narahatlığını başa düşürdüm.

Məhz buna görə də mən Sumqayıt şəhərində olduğum bir həftə ərzində hər gün Qabil ilə məşğul oldum. Əşir müəllimi bir daha əmin etdim ki, Qabil hazırlıqlı şagirddir.

Elə həmin il Qabil Rusiya Federasiyasının İrkutsk şəhərində yaşayan qardaşlarının yanına getdi və orada müvəffəqiyyətdə imtahan verib Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul olundu. Oranı fərqlənmə diplomu ilə bitirəndən sonra Qabil elə həmin şəhərdə diş həkimi işlədi. Aldığım məlumata görə, o, çox gözəl həkim olmuşdu.

Bir gün isə ağır bir xəbər doğmaları ilə bərabər, onu tanıyanları, o cümlədən, məni çox sarsıtdı. Onun bir cüt qız balası ata həsrəti ilə yaşayır. Qabili son mənzilə yola salan gün heç vaxt yadımdan çıxmaz. Qədim bir türk eli özünün yarımçıq ömür yaşamış övladını son mənzilə yola salırdı. Nə etmək olar, tale yazısı ilə barışmaqdan başqa çarə yoxdur. Bütün Qabilsevənlərə, o cümlədən, valideynlərinə və doğmalarına Allahdan səbr diləyirəm. Bir də demək istəyirəm: «Ölüm sevinməsin qoy» Allah sənə rəhmət eləsin Qabil, yerin behişt olsun.

Səni həmişə ürəyimdə yaşadan, sevən müəllimin Rasim Xalıqverdiyev.

YAXŞI Kİ, NİŞANƏN QALDI

Getdi… nəyi qaldı deyim yadigar?
Bir cüt qızıl telli balası qaldı.
Gözlər o gözlərdi, qaşlar o qaşlar,
Üzlərində üzünün lalası qaldı.

Xəlil Rza.

Bacım oğlu Qabil haqda xatirə yazmaq mənim üçün ürək ağrısıdır. Qabil mənim əziz və mehriban balam idi. Onu yaddan çıxara bilmirəm. O, həmişə mənim ürəyimdədir. Adı dilimdən düşmür. Qabilə ölümü yaraşdıra bilmirəm. Xalq şairimiz Xəlil Rza demişkən yaxşı ki, ondan bir cüt bala yadigar qalıb. Təsəllimizi yalnız bu körpələrdən alırıq. Qabil mənim üçün bacı oğlanlarının ən istəklisi idi. Çünki o, mənim yanımda çox olub, işlərimə əl atıb. Həmişə qayğımı çəkib. Qabildən o qədər maraqlı xatirələr yadımda qalıb ki, hamısını yazsam ayrıca bir kitab olar. Ancaq onlardan bir neçə maraqlısını yazmaq istəyirəm.

Bir dəfə axşam qoyunlar örüşdən gələndə gördüm ki, 5 qoyunumuzu qırxıblar. Mən məəttəl qaldım, fikirləşdim ki, görəsən bunları kim qırxıb? Qonşulardan soruşdum, dedilər ki, bizim xəbərimiz yoxdur. Durub Qabilgilə getdim. Vəziyyəti Qabilə danışdım. O, gülə-gülə dedi: «Elə şey ola bilməz, xala, yəqin sənin gözünə elə görünüb». Sonra o gördü ki, mənim qanım qaraldı, dedi: «Ay xala, sənin mənim kimi bacın oğlu var, mənim qorxumdan sənin qoyunlarını kim qırxa bilər? Narahat olma, sənin qoyunlarını mən qırxmışam. Yunu da odur, torbadadır. Gedəndə apararsan. Gördüm çox adam qoyunlarını qırxıb, sənincilər yunludur. Heyvanlara isti olmasın deyə mən də sənin qoyunlarından beşini qırxdım. Sabah da qalanlarını qırxacam. Sən narahat olma».

Mən rayon mərkəzində tibb bacısı işləyirdim. Bir gün işdən gələndə gördüm ki, qapının kilidinin üstündə bir düzüm çay balığı asılıb. O yana, bu yana baxdım heç kimi görmədim. Mən bu işə çox təəccüb etdim. Elə bu vaxt evin arxasından Qabil gülə-gülə çıxaraq mənə dedi: «Balaca xala, o balıqlar niyə qaçıb ora

çıxmışdır?». Mən onu qucaqlayıb öpərək dedim: «Xala qurban, onlar sənin qorxundan qaçıb ora çıxmışdılar».

Kənddə bizim çox hündür çinar ağaclarımız var idi. O ağaclara üzüm təhəngi dırmaşmışdı. Uşaqlar o çinar ağacında olan bütün üzümlərin hamısını yığmışdılar. Təkcə bir ağacın başında bir vedrə üzüm qalmışdı. O üzümü heç kəs yığa bilmirdi. Çünki çox çətin yerdə idi. Üzümlər yetişib, qıpqırmızı qızarmışdı. Baxanların ağzının suyu axırdı. Quşlar daraşıb yeyirdi. Adamın heyfi gəlirdi. Bir gün işdən evə gələndə gördüm ki, üzümlərin hamısını yığıblar. Dedim, balam, ora kim çıxıb, o üzümləri yığa bilər. Axşam Qabil bizə gəldi. Soruşdum: «Qabil, o üzümləri kim yığıb görəsən?» O dedi: «Xala, yəqin quşlar yeyib» Sonra da bağa gedib əlində bir vedrə üzüm gəldi. Dedi: «Xala, sən günorta işdə olanda mən gəlib üzümləri yığıb, böyürtkən kolunun içində gizlətmişdim. Yarısını sən ye, yarısını da aparım bacın yesin». Kənddə mənim bütün işlərimi Qabil görürdü. O, otumu biçər, odunumu doğrayar, qoyun nobatıma, mal nobatıma gedərdi. Sənə xalan qurban, Qabil». Səni unuda bilmirəm. Yaxşı ki, balaların var. Onlara baxıb, az da olsa, təsəlli tapırıq. Anan sənin dərdinə dözə bilməyib dünyasını dəyişdi. Atanı isə heç tanımaq olmur. O, elə gecə-gündüz oxuyub-yazır. Bacı-qardaşın, həyat yoldaşın-hamısı yas içindədir. Balaların isə sənin ölümünə inanmır. Elə bilirdilər ki, nə vaxtsa gələcəksən. Qəhər məni boğur, yazımı davam etdirə bilmirəm. Xatirəmi aşağıdakı bayatılarla bitirmək istəyirəm:

Əzizinəm, bu dağı
Şaxta vurdu budağı.
Əlin qurusun namərd
Kim çəkəcək bu dağı?

* * *

Mən aşiqəm, bu dağa,
Bülbül qonar budağa.
Balası ölən ana
Heç dözərmi bu dağa?

Allah sənə rəhmət eləsin Qabil! Qəbrin nurla dolsun, yerin behiştlik olsun.

Səni öz canından da çox sevən xalan Səriyyə.

HƏMİŞƏYAŞAR QABİL

Nə qədər amansız, qara bir xəbər!
Sellənsin gözümdən yaşım, ağlasın.
Tıxansın köksümə hıçqırıq, qəhər
Od tutsun kirpiyim, qaşım ağlasın.

Xəlil Rza.

Qaçaq Nəbi yurdunun Həcər qeyrətli analarından biri Tamaşa nənəmiz həmişə onun şirin söhbətlərində yeganə qardaşı Bəşir dayı haqqında çox danışırdı. Bəşir dayı dünyadan vaxtsız getmişdi. Onun yeganə oğlu olan Əşirin çətinliklərə sinə gərərək, heç kəsə əyilmədən böyüməsindən də Tamaşa nənəmiz söhbət açardı. O, tək qardaşının tək yadigarı olan Əşiri çox istəyirdi. Onun balaları ilə fəxr edirdi.

Əşir dayının oğlanlarının hərəsinin özünəməxsus şirinliyi var idi. Onun kiçik oğlu Qabil isə qardaşlarından fərqlənirdi. Bu əsas onunla əlaqədar idi ki, Qabil həmişə bizimlə olmuş və gözümüzün qabağında böyümüşdü. Qabil ucaboy, düzqamətli, ağıllı və gözəl bir oğlan idi. O, məndən yaşca böyük idi. Orta məktəbdə oxuyarkən mən onun hərəkətlərini təqlid edər, özümü ona oxşatmaq istərdim. Qabil məktəbdə keçirilən bütün tədbirlərin aparıcısı və təşkilatçısı idi. Qabil dərs əlaçısı olmaqla bərabər, həm də gözəl təşkilatçı idi. O, müəllimlərin sevimlisi idi.

Əşir dayı orta məktəbdə mənim müəllimim olub. Mən hiss edirdim ki, o, bizimlə fəxr edir. Bizi öz oğlanlarından seçmirdi. Qabil tez-tez bizə gələr, dərslərimizə kömək edərdi. Biz ondan kiçik olduğumuz üçün o, həmişə bizə qayğı göstərirdi. Kənd işlərində də bizə kömək edərdi. Kənddə bizim bağımız Qabilgilin evinin yanında idi. Biz bağa gedəndə o, yanımıza gələr, bağın suvarılmasına, bellənməsinə, ot biçininə və s. işlərə kömək edərdi. Qabil oxumaqda olduğu kimi, başqa işlərdə də birinci idi. O, yaxşı qoyun qırxar, heyvan kəsər, ət doğrayar və gözəl kabab bişirərdi. Kəndin cavanları Həkəri çayından əl ilə balıq tutardılar. Qabilin tutduğu balığı həmişə mən götürərdim. O, mənə

deyirdi: «Ramil, sənin əlin mənə düşür, balığımı sən götürəndə mən çox balıq tuturam».

Qabil orta məktəbi medalla bitirdi. O, Rusiya Federasiyasının İrkutsk şəhərində yaşayan qardaşlarının yanına getdi və orada Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul oldu. Oranı fərqlənmə diplomu ilə bitirib, elə həmin şəhərdə diş həkimi işləyirdi. Sonra bildiyimiz bu ağır faciə… Qabilin vaxtsız ölümü bizim nəsilə elə bir ağır zərbə vurdu ki, bizim nəsil hələ də özünə gələ bilmir. Onun ata-anası, bacısı, qardaşları, eləcə də, bizim qohumların hamısı hələ də göz yaşları içindədir. Əşir dayı isə Qabilin ölmündən sonra meyilini yazı-pozuya salıb. O, həmişə oxuyur-yazır. Dərdini kağıza köçürür. Əşir dayı deyir: Məni yaşadan yazı-pozumdur. Əgər yazı-pozum olmasa, mən dəli olub, çöllərə düşərəm.

Nə isə … Allah sənə rəhmət eləsin Qabil! Qəbrin nurla dolsun, yerin behiştlik olsun. Sən ölməmisən, qardaş, həmişə bizim ürəyimizdəsən.

Məni yerə yıxıb o qəssab kəsdi,
Dedi: «Güman etmə, bu son nəfəsdi».

Düşüb ayağıma üzr istədi o
Demə, ayağımdan soymaqmış qəsdi.

Məhsəti Gəncəvi

Rahat yat, mənim həmişəyaşar qardaşım.
Səni həmişə ürəyində yaşadan Yusifov Ramil.

QATİL, ƏLİN QURUSUN!

Sel gələr divan yıxa,
Qəm gələr, ürək sıxa.
Ev yıxar cavan dağı
Odur ki, yaddan çıxa?

Şəhriyyar

Mən Qubadlı rayonu Aşağı Mollu kəndində 1970-ci ildə dünyaya göz açmış bir gəncin qısa və mənalı ömür yolundan söz açmaq istəyirəm.

Aşağı Mollu kəndi Azərbaycan xalqına Qaçaq Nəbi və onun silahdaşı, eyni zamanda ömür – gün yoldaşı Həcər xanım kimi xalq qəhrəmanları bəxş etmişdir.

Haqqında danışacağım gənc Fətəliyev Qabil Əşir oğludur. Qabilə mən 5-8 siniflərdə dərs demişəm. Həm də onun sinif rəhbəri olmuşam. Qabil 9-11-ci sinifləri Yuxarı Mollu kənd orta məktəbində oxuyub. O vaxt bizim məktəb natamam orta məktəb idi.

Qabil bizim məktəbin ən çalışqan və fəal şagirdi idi. Ona görə də mən onu sinif nümayəndəsi təyin etmişdim. O daim axtarışda idi. Əhatəsində olan hər şeylə maraqlanardı. Qabil dərs əlaçısı olmaqla bərabər, həm də ictimaiyyətçi idi. O, zəif oxuyan yoldaşlarına həmişə kömək edərdi. Qabil çalışırdı ki, onların sinifindəki şagirdlərin hamısı 4-5 qiymətlərlə oxusun.

Belə bir hadisə yadımdadır. Altıncı sinifdə oxuyanda Qabilgilin sinfinin hamısı axırıncı dərsdən qaçmışdı. Bu hadisə məni çox əsəbiləşdirdi. Həmin günün səhəri mən altıncı sinif şagirdlərini danlamaq üçün qabağa çıxardım. Mənim bərk əsəbiləşdiyimi görən Qabil məndən icazə istədi. Dedi: «Müəllim, mən qaçmaq istəmirdim, gördüm uşaqlar qaçdılar, mən tək qala bilməzdim, çünki onlar mənə «satqın» deyərdilər».Belə bir məsələ var: «Palaza bürün, elnən sürün». Sonra Qabil xahiş etdi ki, müəllim, bu dəfə bizi bağışla, bir də belə səhv etmərik. Onun bu sözləri məni yumşaltdı və onları bağışladım. Onu da qeyd edim ki, o sinifdə belə bir xoşagəlməz hadisə bir daha baş vermədi.

Qabil uzaqgörən və dərin düşüncəli bir şagird idi. O, bəzi hallarda təkliyə üstünlük verirdi. Deyirdi ki, tək olanda yaxşı fikirləşirəm. Mən sevimli şagirdimlə ikilikdə söhbət etməyi çox sevirdim.

Bir dəfə mən ondan soruşdum: «Qabil, orta məktəbi bitirəndən sonra hansı ixtisasa yiyələnmək istəyirsən?» O, fikirləşmədən cavab verdi: «Müəllim, qismət olsa, hakim olmaq istəyirəm».

Qabil orta məktəbi medalla bitirdi. Elə həmin il Rusiya Federasiyasının İrkutsk şəhərinə getdi və orda Tibb Universitetinin stomotologiya fakultəsinə qəbul oldu. Həmin fakultəni fərqlənmə diplomu ilə bitirəndən sonra elə həmin şəhərdə də qalıb diş həkimi işlədi. Sonra isə bildiyimiz kimi bu ağır faciə…

Qabilin ölümü nəinki doğmalarını, eləcə də bizim hamımızı sarsıtdı. Mən Əşir müəllimə Allahdan səbr və dözüm arzulayıram. Qabilə isə Allahdan rəhmət diləyirəm.

İstəkli şagirdim, sən həmişə mənim ürəyimdə yaşayacaqsan.

Hörmətlə, müəllimin Həsən Əsədov.

UNUDULMAZ DAYI

Mən dayılarımın hamısını çox istəyirəm, Qabil dayımı isə daha çox istəyirəm. Ona görə ki, o bizə gələndə həmişə oyuncaqlarımızı yerə töküb bizimlə oynayır, fiqurlardan evcik qurar, bizimlə birlikdə idman edərdi.

Dayım həmişə məzəli əhvalatlar danışıb bizi güldürərdi. Bir sözlə, dayımın gəlişi bizim üçün toy-bayram olardı. 2002-ci il mart ayının 11-də namərdlər dayımı vəhşicəsinə öldürdülər. Onun ürəyinə dörd güllə vurmuşdular. O vaxt mənim beş yaşım var idi. Böyüklərin dediyinə görə, o vaxt dayımı öldürüb onun çoxlu pulunu aparıblar. Mən fikirləşirəm ki, kaş dayımın pulu olmayaydı, o, kasıb olaydı. Əgər dayıb kasıb olsaydı,onun pulu olmasaydı, yəqin ki, düşmənlər onu öldürməzdi. Qızları Gülnar və Əminə atasız, biz isə dayısız qalmazdıq.

Ölümündən 3 ay qabaq dayım Rusiyadan Azərbaycana gəlmişdi. O, bizə gəlib ata-anamla görüşdü, məni və bacım Familəni öpdü. Dayım mənə pultla işləyən təyyarə, bacıma isə danışan kukla almışdı. O, bizimlə çoxlu oynadı. Dayım

Rusiyada diş həkim işləyirdi. Biz dayımla parka gəzməyə getdik. O, bizi əvvəlcə yelləncəyə, sonra isə maşına mindirdi. Bizi dəniz qırağında xeyli gəzdirdi. Biz çox sevindik.

Qabil dayım bizdən gedəndən üç ay sonra onu öldürdülər. Onun meyidini gətirib Sumqayıt şəhərində dəfn etdilər. Biz çox ağladıq. Nənəm, anam, bibilərim saçlarını yoldular. Dayımın ölümündən sonra Əşir dədəm başladı kitab yazmağa. Bu kitab onun dayıma həsr etdiyi yeddinci kitabıdır. Mən deyirəm, dədə, az yaz, oxu, gözlərim xarab olar. O isə mənə deyir ki, Samir, əgər kitab yazmasam, dəli olub çöllərə düşərəm. Məni saxlayan yazılarımdır.

Nənəm isə dayımın ölümündən sonra dərdə dözə bilməyib öldü. Anam da çox ağlayır. O ağlayanda biz də ağlayırıq. Şamil dayım isə o vaxtdan indiyə kimi saqqal saxlayır. Dayımın ölümünü böyük qızı Gülnar bilir, Əminə isə bilmir. Dayımın kiçik qızı Əminə bir dəfə dədəmdən soruşdu: «Dədə, mənə düzünü de, atam nə vaxt gələcək?» Dədəm onu öpərək dedi: «Siz böyüyəndə gələcək, indi gələ bilməz, çünki o çox uzaqlardadır». Mən də dayımı unuda bilmirəm. Elə bilirəm ki, nə vaxtsa o gələcək. Dayım heç kəsə pislik etməmişdi. Mən inanıram ki, Allah onu cənnətə göndərib. Dayı, sən tez öldün, bizi gözüyaşlı qoydun. Düşmənlərin yansın.

Allah sənə rəhmət eləsin dayı, yerin behiştlik olsun.

Hörmətlə, həmişə səni ürəyində yaşadan bacın oğlu Samir.

QABİLSİZ GÜNLƏRİM

Əzizinəm, dil açdı,
Körpələrin dil açdı.
El sənə deyər ağı,
Yarın çəkər bu dağı.

* * *

Əzizinəm, bu dağı,
Bülbül istər bu dağı.
Əlin qurusun yağı?
Kim çəkəcək bu dağı?

Mən gəlinim Ramilədən dəfələrlə xahiş etsəm də o həyat yoldaşı Qabil haqqında xatirə yazmaqdan boyun qaçırırdı. Onun ağırlığını, çətinliyini bəhanə gətirirdi. Çox xahiş, minnətdən sonra Ramilə balam həyat yoldaşı Qabil haqqında xatirə yazmağa razılıq verdi. O, ən səmimi xatirələrini kağıza köçürəsi oldu.

Sevdiyim, iliyinəcən bələd olduğum, ən başlıcası isə vaxtsız itirdiyim adam haqqında xatirə yazmaq, fikir söyləmək çətindir, çox çətindir….

Sənli günlərimi heç bilmirəm necə qələmə alım Qabil!... əlim titrəyir, ürəyim döyünür, gözüm qaralır, dilim söz tutmur. Taleyin hökmünə neyləmək olar. Kaş keçmiş günlərimiz geri qayıdaydı Qabil! Xatirəyə dönmüş günlərimiz məni çox kədərləndirir. Vaxtsız ər itkisinə dözə bilməyən gəlinim Ramilə xanımın Qabil haqqında danışmaqda çətinlik çəkdiyini gördükdə, mən eviniz həmişə belə səssiz olubmu qızım? Sualını verdim.

-Siz nə danışırsınız? Bu evdə səs-küydən qulaq tutulurdu. Bu evin qonaq qarası əskik olmazdı. Dost-tanışın görüş yeri idi bu ev.

Bu sözlərdən hər ikimiz təsirləndik. Sonra Ramilə xanım mənə müraciətlə papa (gəlinlərimin 4-də mənə papa deyir) Qabilin çoxlu rus dostları bizə gəlib gedərdilər. Onlardan ən çox xatirlərini istədiyim Universitetdə bir yerdə oxuduqları Olya və Andrey idi.

Onlar bizə gələndə bizim toy kosetimizi vidyoya qoyub ona baxır və hər ikisi qol götürüb bizim havalarda oynayırdılar. Qabili və biz gəlinləri də məcbur

ortaya salıb oynadırdılar. Bir sözlə Olya ilə Andreyin bizə gəlişi toy bayrama çevrilirdi.

Mən sonradan eşitdim ki, Olya Qabili dəlicəsinə sevirmiş. Qabil nişanlı olduğunu dedikdən sonra qız bir müddət özünü ələ ala bilmir. Sonra Qabil ona dost olmağı təklif edir. Onlar səmimi dost olurlar. Olya ərə gedəndə Qabil o qədər sevinib ki….. Onun toyunda bir dost, yaxın qohum kimi canı dildən iştirak edib. Bəzi çatışmayan şeylərinin alınmasına kömək edib.

Biz Sumqayıt şəhərində toy etdikdən sonra Qabilin qardaşları İrkutski şəhərində bizə kompanya etdilər. O kompaniyaya gələnlərin əksəriyyəti Azərbaycanlılar idi. 4-5 nəfər rus var idi. Olya əri Sergey və Qabilin ən yaxın dostu Andrey və 1, 2 nəfər başqaları. Yadımdadır o kampaniyada Olya ilə Andrey oyundan çıxmırdılar. Onlar bizim oyun havalarında elə gözəl oynayırdılar ki, gəl görəsən. Onların oyunu toya gələnləri valeh etmişdi. Andrey Qabilin vəfatı zamanı Sumqayıt şəhərinə də gəlmişdir.

-Mənimlə Qabilin fiikirləri həmişə üst-üstə düşürdü, söhbətimiz alınırdı. Deyirlər guya «yar» sözü iki sevənin biri-birisinin yarısı deməkdir. Bəlkədə bu söz hansı şairinsə və ya hansı sevəninsə təxəyyülünün məhsuludur. Amma Qabillə mən doğrudanda bir yerdə olanda bütöv idik, tam idik.

Qabil Vətəninə, elinə, dininə və dilinə çox sadiq idi. Muğamın, vətən həsrətli mahnıların vurğunu idi: Bütün getdiyi yerlərə: -Kinoya, teatra, konsertə məni də apararDı. Hətda futbola da mənsiz baxmazdı.

Kinoya, teatra, konsertə baxdıqdan sonra onları müzakirə etməyi çox xoşlardı. Ailəsi ilə bir yerdə olmaq isə onun üçün ayrı bir sevinc idi. Ürəyi o qədər təmiz, o qədər pak idi ki, qarşısındakı adamı qiymətləndirməkdən heç vaxt çəkinməzdi.

Qabil adamlara həmişə yaxşı cəhətdən yanaşar və onların müsbət xüsusiyyətlərini tapıb üzə çıxarırdı. O muzeylərə, tarixi abidələrə baxmağı çox xoşlardı. Muzeylərə gedəndə mən bir tablonun qabağında durub onun yaranma tarixindən, müəllifindən və bu muzeyə necə gəlib çıxmasından danışardım. Belə hallarda Qabil təəccüblə mənə baxıb deyərdi: -Qəribə adamsan, Vallah, evdə öz

əlinlə qoyduğun bir şeyi bəzən günlərlə axtarıb tapa bilmirsən, amma neçə il bundan qabaq oxuduqlarının hamısı yadındadır. Onun ürəyində qəribə bir allah eşqi, Allah sevgisi var idi. Vaxtaşırı, məhcidə gedərdi. O, çox düzgün adam idi.

Dalbadal iki qızımız dünyaya gəlmişdi. Yadımdadır bir dəfə xalası oğlu Rafiq müəllim ona dedi: -Qabil xala oğlu bir oğlunda olsa yaxşı olar.

O dedi: -Xala oğlu, qız ya oğlan nə fərqi var? Elə oğul var ki, kor qız ondan yaxşıdır. Övlad övladdı təki fərqli olsun. Qabil qızlarını dünyalar qədər sevirdi. Bu yerdə Ramilə xanım bir qədər kövrəlir. Nə bilim vallah….

Bu da bir qismət imiş.. Ömür elə bil kino lentidir, fırlanır, ötüb keçir. Onun yoxluğunu heç cürə təsəvvür edə bilmirəm, heç ağlımada gətirə bilmirəm. Ramilə xanım 10-12 il əvvəl yaşadığı acılı-şirinli həyatı bir də yaşamalı olur. Dərdimi heç balalarıma da danışmamışam. Qorxuram onlara pis təsir edə. Qabilin vəfatından sonra bizimkilər yaman qorxurdular. Onlar mənim özümə qəsd edə biləcəyimi ağıllarına gətirirdilər. Bu dərdin ağırlığına mənim dözə bilməyəcəyimi zən edirdilər. Gözdə qulaqda olurdular ki, mən özümə, bir xətər yetirməyim. Amma atalar demişkən adamın üzü bərk olur. Gördüyünüz kimi dözdüm və yaşadım. Qabilin balalarını yaşatmaq xatirinə yaşadım. Bu yerdə Ramilə özünü saxlaya bilməyib boynumu qucaqlayıb hönkür-hönkür ağlamağa başladı. Biz bir-birimizin bonuna sarılaraq xeyli ağladıq. Sonra Ramilə hıçqıra-hıçqıra dedi: -Papa kaş Qabil mənə pis olaydı, məni söyəydi, təhqir edəydi. İllab mənə əl qaldıraydı. Onda heç olmasa ondan sınardım bu qədər yanmazdım.

Yaşadığım 5 il ərzində bir dəfədə olsun o mənə acı söz deməyib. Həmişə mənimlə hesablaşıb. Hətta mən nəyə isə əsəbləşəndə də o mənə təsəlli verib, məni sakitləşdirib. Nə isə göz yaşımı saxlaya bilmirəm. Papacan daha yaza bilmirəm xahiş edirəm elə buradaca bu yazını tamamlayaq. Mən artıq dünyadan doymuşam. Bundan sonra nə yaşasam Qabilin xatirinə, onun balalarının xatirinə yaşayacam. Papa səndən də baldızım Sevincdən də çox razıyam.

Qayınlarımda sağ olsunlar, mənə və balalarıma çox qayğı göstərirlər. Şamil qayınımın isə bizə olan qayğısı sonsuzdur, tükənməzdir. Allah var-dövləti onun başından töksün, necə ki, o pulu bizim başımızdan tökür.

Qabilin balaları Şamilin balalarından seçilmir. Hələ bəlkədə onlardan yaxşı yeyib-içir, geyinib, keçinib, gəzirlər.

Düşməni yansın. Ancaq nə qədər yaxşı yaşasaqda Qabilin yeri görünür. Gülnar hər şeyi başa düşür. Əminə isə mənə tez-tez suallar verib, atasının nə vaxt gələcəyini soruşur. Allahdan arzum budur ki, mənə dözüm, səbr və iradə versin ki, Qabilin balalarını böyüdüm. Ərsəyə çatdırım. Ondan sonra ölsəmdə rahat ölərəm. Qabilədə Allah rəhmət eləsin, qəbri nurla dolsun, yeri behişt olsun. Bu yazımı aşağıdakı bayatılarla tamamlayıram.

Cavan ömrün getdi badə,
Əyilmədin yağı, yada.
Gün görmədin bu dünyada,
Qabil bizi qoydun darda.

* * *

Əlimdə qələm qan ağlar,
Əminə intizar qalar.
Həsrətin Gülnarı dağlar.
Ramilə Qabilsiz ağlar.

* * *

Qanlı fələk qan eylədin,
Evimi bərbad eylədin.
Qabili bizlərdən aldın.
Bizi dərdə, qəmə saldın.

* * *

Ömür yolun qısa oldu,
Saralıb gül rəngin soldu.
Sənin qara taleyindən
Atan kitab yazar oldu.

Hörmətlə səndən doymayan, nakəm həyat yoldaşın Ramilə

OĞLUM QABİLƏ HƏSR ETDİYİM ŞEYİRLƏR

AĞIR FACİƏ

Düşmən gülləsinə tuş oldu balam,
Mənim ürəyim bağlayıb dərd-vərəm.
Arada qalıbdır iki balası,
Ağlamaqdan kor olubdur anası.

* * *

Namərd, necə qıydın mənim balama?
Allah, niyə fürsət verdin zalıma?
Qohum-qardaş yanır mənim halıma,
Yer-göy ağtlar, vallah belə ölümə.

* * *

Əgər siz Qabilimi axtarsanız,
Bilin, balalarının izindədir.
Sevimli Gülnarının ürəyində
Doğma Əminəsinin gözündədir.

* * *

Gülnar elə bil ki, onun özüdür,
Mehriban, Əminə iki gözüdür.
Ramilə də onun şirin sözüdür
Biz gecə-gündüz onları qoruyaq.

* * *

Balamın zövcəsi, qara bağlama!
Balaların ürəyini dağlama.
Qabilimin yadigarı, ağlama
Heç vaxt başına qara bağlama.

* * *

Oğul cənazəsi aparan ata
Yaşamaya, hardasa itə-bata.
Həyatda böyük xoşbəxtlik odur ki,
Ata cənazəsini oğul tuta.

* * *

Tarixin təkəri tərsinə dönür,
Görürsən ata qalır, oğul ölür.
Təbiətdə, nizam təmiz pozulur,
Xarabada bayquş yox, bülbül olur.

* * *

Əzab çəkmək üçün yaşayır ata.
Həyatda yalnız o, kədəri tuta.
Arzumdur nəvələri xoşbəxt görmək,
Onları ərsəyə çatdırıb ölmək.

* * *

Allahım əmilərinə dəyməsin,
Belim bir əyilib, birdə əyməsin.
Nəvələrim yaman günlər görməsin,
Ana-bacıları qara geyməsin.

* * *

Aslanın erkəyi, dişisi olmaz,
Qızım, sən də Aslan sayağı yaşa.
Atalar deyibdir tökülən dolmaz,
Ömrünü namus, qeyrətlə vur başa.

* * *

Oğlum, inanmıram mən yoxluğuna.
Sənin faciən ürəyimə oxdur.
Dözə bilmirəm dərdin çoxluğuna.
Mənim dərdim, hamı dərdlərdən çoxdur.

* * *

Sənin sevimli və əziz Gülnarın
Ağır ölümünə inanmır hələ.
Bir neçə yüz illər keçmə də belə,
İnanmıram səni unuda bilə.

* * *

Sənin körpə Əminən qanmır indi,
Faciə o qanda olacaqdır.
Ata uşaqların əzizləyəndə
Qəlbi soğan kimi soyulacaqdır.

* * *

Alçaq, şərəfsizə tuş oldu canı,
Bica yerə axdı balamın Qanı.
Oğlanlarım, qəddinizi əyməyin.
Ana- bacınız ağlasın, dəyməyin.

* * *

Əşir, doğrudan sən, nər oğlu nərsən,
Əyilmə, sınarsan, əgər əyilsən.
Heç vaxt əyilmə, mərdi-mərdanə dur
Sən daim şükür edənlərdən ol.

DAĞLAR AĞLADI

Kədərli xəbərdən dağlar ağladı,
Analar-bacılar qara bağladı.
Sənin dərdinə dözmədi Həkəri,
Hikkəsindən aşıb-daşıb çağladı.

* * *

Hərtizi, Səngəri duman bağladı,
Həkəri, Bərgüşad qoşa çağladı.
Ana torpaq dözmədi, qan ağladı,
Sənin dərdinə ellər yas saxladı.

* * *

İşıq da vermədi günəş, ay, ulduz,
Qaranlıq oldu gecə kimi gündüz.
Hələ yol gözləyir bir cüt körpə qız,
Sənin çox sevən gəlin qalıb yalqız.

* * *

Sındırdın qəddini məğrur atanın,
Sənin canından da əziz tutanın,
Daim sənin məzarında yatanın,
İntizardan ömrü sona çatanın.

* * *

Sevimli oğlum, sən cismən ölmüsən,
Rühən həmişə mənim qəlbimdəsən,
Oğlum, sən həyatda gün görməmisən,
Açılmamış qönçə kimi solmusan.

* * *

Əşirə bu dünya zülmət gecədir,
Daha işıq vermir günəşi, ayı.
Dərdlərimin ölçüyə gəlmir sayı,
Allah, varmı bədbəxt məndən savayı?

QATİL, ƏLİN QURUSUN!

Bir qatil əlləri sənə uzandı,
Tamahı insafa üstün gələndə.
Sanmadı, hədəfi hələ cavandı,
Tamahı insana üstün gələndə.

* * *

Sanmadı, neçə göz baxır arxanca
Sanmadı, körpən var, atan-anan var.
Gözləri qızmışdı onun yamanca
Tamahı insana üstün gələndə.

* * *

Xəbər, qara xəbər, dözülməz oldu,
Varlığım sarsıldı, ürək dözmədi.
El-oba xəbərdən pərişan oldu,
Tamahı insana üstün gələndə.

* * *

Elə bil bir yolluq ocağım söndü,
Can verən sən oldun, ölən mən oldum.
Gələnlər soruşdu: «Bu nədən oldu?»
Tamahı insafa üstün gələndə.

* * *

Yadımdan çıxmayır qamətin, boyun,
Hər dəqiqə varlığım inildəyir.
Kim idi, çıxardı belə bir oyun
Tamahı insafa üstün gələndə?

* * *

Sənin faciənə ellər ağladı.
De, nədən yarandı bu qara xəbər?
Bu xəbər sinəmi yaman dağladı
Tamahı insafa üstün gələndə.

* * *

Dərd ağır olanda, dözmək olmayır,
Düzəldib qaməti, gəzmək olmayır,
Yerini boş görrəm, dözmək olmayır,
Tamahı insafa üstün gələndə.

* * *

Cüt balana baxıb, özünü görrəm,
Gəzdiyin hər yerdə izini görrəm,
Məzarına baxıb gözünü görrəm,
Tamahı insafa üstün gələndə

* * *

Atan Əşir günü-gündən əriyir,
Təsəlli odur ki, qəbrinə dəyir.
Yaşamq istəmir ölmək istəyir.
Tamahı insafa üstün gələndə.

YATMA OĞUL

Hər il yanvarın biri oğlum
Qabilin doğum günüdür.

Ad günündür bu gün sənin,
Yatma oğul, oyan bala
Tay-tuşdan qalırsan dala,
Yatma oğul, oyan bala.

* * *

Hər il yanvarın birində,
Çovğunlu, qarlı günündə,
Qara ad günündür sənin.
Yatma oğul, oyan bala

* * *

Namusla gözləyir yarın.
Çox darıxır balaların
Səni anır qohumların
Yatma oğul, oyan bala

* * *

Anan çöpə döndü, əridi,
Ölən vaxtı səni andı,
Dözmədi yanına gəldi.
Yatma oğul, oyan bala

* * *

Bacı, qardaş səni anır,
Hər gün məzarın dolanır.
Çarpayın açılı qalır.
Yatma oğul, oyan bala

* * *

Balanı al qucağına,
Əl çək onların saçına.
Onlar atalı böyüsün.
Yatma oğul, oyan bala

* * *

Sağ olsun sənin yarını,
Yaxşı saxladı yolunu.
Çağırır Ramilə yarın,
Yatma Qabil, oyan yarım.

* * *

Atan yaman dərdli yazır,
Yerişin, duruşun azır.
O dərddən bir qala qurub
Yatma oğul, oyan bala

* * *

Namərd vurdu güllə sənə,
Biz çatdıq, son nəfəsinə.
Əbədi getdin yuxuya,
Yatma oğul, oyan bala.

* * *

Yanvarın biri yetmişdə,
Şaxtalı ayazlı qışda,
Sən dünyaya göz açmısan.
Yatma oğul, oyan bala

* * *

İki min iki son ildi,
On bir mart son günündü.
Sinəmdə ki, dağ düyündü.
Yatma oğul, oyan bala

* * *

Kaş balam yaşa dolasıydı,
Yaş otuz səkkiz olardı.
Altı il qalmısan dala,
Yatma oğul, oyan bala

* * *

Sənə güllə atan yerlə,
Düşmənin əli əsəydi.
Allah nəfəsin kəsəydi.
Yatma oğul, oyan bala.

* * *

Hər görəndə balaları,
Sən düşürsən yada oğul.
Niyə ölüb, itmir çuğul.
Yatma oğul, oyan bala

* * *

Gülnar anır ölümünü,
Əmiş gözləyir yolnu.
O, qucmaq istər boyunu.
Yatma oğul, oyan bala

* * *

Atan dərdə dözə bilmir,
Səndən əlin üzə bilmir. .
Kaş ölümün yalan ola.
Yatma oğul, oyan bala.

* * *

Atan Əşir çox dərdlidir,

Dərd-qəm ürəyin əridir.

Qabilinə həsrətlidir.

Dözür hələ qeyrətlidir.

Balan, yarın, yol gözləyir.

Yatma oğul, oyan bala.

01.01.2009

OĞLUM QABİLƏ

İllər bir-bir ötüb keçəcək,
İşlər öz yoluna düşəcək.
Hər qızın bir oğlan sevəcək,
Qohumlar şadlanıb, güləcək.

* * *

Sevinc bürüyəcək onları,
Oğlum görməyəcək bunları.
Saçı ağarmış qadın ağlar,
O qadın ərini çağırar.

* * *

Səsləyir oğlumun qadını,
Deyir qoy nəvənin adını,
Körpə gedir qüruba sarı.
Görməyəcək oğlum bunları.

* * *

Hər iş axarına düşəcək,
Balaları xoş gün görəcək.
Oğlum illər keçdi səndən yan,
Xoş günün olmadı bircə an.

* * *

Ömürünün ən ahıl çağı,
Əşiri əydi bala dağı.
Əllərin quruyaydı yağı,
Balamı nişan alan zaman,
Qaranlıq çökəydi gözünə,
Öz güllən dəyəydi özünə.

ALLAH KƏRİMDİR

Dərd bir olsa, onu çəkməyə nə var,
Bu qədər dərdin mən hansını çəkim?
Vətən dərdi, oğul dərdi, el dərdi…
İstəyirəm həyatımdan əl çəkim.

* * *

Dərdim dağa yüklənsə, dağ əriyər.
Filə də yüklənsə, dizi bükülər.
Xəyalla gəzirəm, dağı, aranı
Ürəyə salıram qarı, boranı.

* * *

Ürəkdə təpər, canda taqət yoxudur.
Sevinc məndən qaçır,kədərsə çoxdur.
Gəlmə, köçkün, qaçqın sözü eşitmək
Mənim ürəyimə sancılan yoxdur.

* * *

Əşir, sənin yaran çox-çox dərindir,
Səbr elə, dərd ürəyini əridir.
Tək çəkmə, bu həm də elin dərdidir,
Hər şeyin sonu var, Allah kərimdir.

YAŞAMAĞIN NƏ MƏNASI

Elə sarsılmışam səndən sonra, Qabil
Özümü-özümdən soruşuram bəzən.
Dost-tanış mənə deyir: «Səbri et, səbri»,
Ölmüş bilir, oğrun-oğrun məni süzən.

* * *

Həmişə gəzirəm sakitlik, künc-bucaq,
Daim oluram, mən insanlardan uzaq.
Elə gəzib axtarıram doğma ocaq,
Çöldə gəzməkdən öldürür məni sazaq.

* * *

Görüşəndə tanımıram dost-tanışı,
Yaxın dostların məyus olur hamısı.
Elə bilirəm hər yer zülmət gecədir,
Sanki günəş, ay doğmur, batım hamısı.

* * *

Əşir, sənin bu dərdin çox ağır keçdi,
Sənin ömrün başa çatıb, artıq gecdi.
Bundan sonra yaşamağın nə mənası?
Nə qədər yaşasan da, axırı heçdi.

İBADƏTGAHIM

İsəyimə yol gedirəm
Gözü bağlı, sinə dağlı.
Mən dünyaya neynəmişəm?
Mənə baxır qaşqabaqlı.

B.Vahabzadə.

Məzarın önündə dayanmışam lal,
Danışa bilmirəm, dinə bilmirəm.
Məni qucaqlayıb qara bir xəyal,
Danışa bilmirəm, dinə bilmirəm.

* * *

Xəyal uzaqlara aparır məni,
Sənin körpəliyin yadıma düşür.
Əksini görəndə məzar daşında,
Dilim söz tutmayır, varlığım üşür.

* * *

Bircə yol baş qaldır, möcüzə yarat,
Bircə anda olsa, ruhumu et şad.
Yanan ürəyimə bir dala su at,
Mənim ürək param, ay Qabil balam.

* * *

İnana bilmirəm bu yoxluğa mən,
Elə bil qəlbimdə günəş tutulub.
İnana bilmirəm şirin həyatdan
Mənim ürək parçam, Qabil yox olub.

* * *

Məzarından səs gəlir, deyir-ata,
Göz yaşı tökməyin nə mənası var?
Bir də bu yerlərdə məni axtarma,
Qayıt, cüt balamın qəlbində axtar.

* * *

Əşirəm, dərd çəkir məni bu yerə,
Atayam, yüksəlib göylərə ahım.
Hər gün gələcəyəm mən bu yerlərə
Çünki bu məzarda ibadətgahım.

OĞUL DƏRDİ

Gəlib çatdı acı xəbər,
Varlığımı aldı kədər.
Bütün ömrümə bəs edər,
Oğul dərdi, oğul dərdi.

* * *

Evimin səfi pozuldu,
Cüt balanın gözü doldu.
Mənə hamıdan çox oldu,
Oğul dərdi, oğul dərdi.

* * *

Qürbət öz qoynuna aldı,
Düşmən səni tora saldı,
Ahım göylərə ucaldı,
Oğul dərdi, oğul dərdi.

* * *

Dizimizin taqəti getdi,
Pəhləvan bir oğlum getdi
Gözümün işığı getdi,
Oğul dərdi, oğul dərdi.

* * *

Cənazəsi ağır getdi,
Ana-bacı fəryad etdi.
Bununla şad günüm bitdi,
Oğul dərdi, oğul dərdi.

* * *

Ayrılığa dözümüm yox.
Ömür qısa, dərd isə çox,
Əşir, dərdinə çarə yox,
Oğul dərdi, oğul dərdi.

ANAR

Qabilin əziz xatirəsinə

2002-ci il, İrkurtsk şəhəri,
Şaxtalı qış axşamı,
Şaxta kəsir adamı.
On bir mart gecəsi,
Qabilin faciəsi.
Qabil evə gedirdi,
Qatillər onu güdürdü.
Evə çatan an
Qabilə güllə atdı
Qatillər arxadan.
Qabil yerə yıxıldı,
Əbədi yumdu gözünü,
Deyə bilmədi son sözünü…
Çatdı elə Qabilin ölüm xəbəri
Artdı bir elin dərdi, kədəri.
Şivən etdi analar
Qan tökənlər, yananlar,
Ağladı qız-gəlin.
Qatil,quruyaydı əlin!
Gor olaydı yerin!
Ömrünü qırdın

Bir cavanın, nərin.
Bir gəlini dul qoydun,
İki qızın atasız,
Sizi gorda yatasız…
Ağır dərddi oğul dərdi,
Dedilər:-Bəşiroğlu Əşir nərdi
Dərdə sinə gərdi,
Ağlamadı,
Qovruldu,
Yandı,
Dağ kimi dayandı.
Qanan qandı,
Qanmayan nadandı.
Ağladı için-için,
Cavan köçən oğlu üçün
Nəvəsi üçün, gəlini üçün.
Bəşir oğlu Əşir!
Oğul dərdi ağır dərddi,
Bu dərdi çəkən mərddi.
Dəyirmanda üyüt dəni,
Eşit məni
İstəmirəm
Oğul itirən ata,
Yasa bata.
Sarın qələmə!
Tənbəllik eləmə!
Qələminlə ölümün
Bağrını yar!
Bu dünyada söz qalar.
Keçər neçə əsr,
Oxuyar neçə nəsil,

Qabilin faciəsinə yanar,
Səni də anar.

Mirzə Mehdi.

QABİL DƏRDİ, TURAL DƏRDİ.

Dayım oğlu Əliyə

Mənə çatdı qara xəbər,
Ömür-günüm oldu hədər.
Ömrə bəs edər, bu kədər,
Qabil dərdi, Tural dərdi.

* * *

Qabilimin izi qaldı,
Vardır onun cüt balası.
Turalımın sözü qaldı,
Qabil dərdi, Tural dərdi.

* * *

Birisini qərib diyar,
O birini vətən yedi.
Ata-ana içdi zəhər,
Qabil dərdi, Tural dərdi.

* * *

Hər ikisi ucaboylu,
Qamətləri lap şux idi.
Anaları olub hoylu,
Qabil dərdi, Tural dərdi.

* * *

Birisini pul apardı,
O birisi hədər getdi.
Ömürlərin gül çağıydı,
Qabil dərdi, Tural dərdi.

* * *

Vətən dərdi bəs deyilmiş?
Üstə gəldi oğul dərdi.

Ataların belin əydi
Vətən dərdi, oğul dərdi

* * *

Əşir, sənin ahu-nalən,
Çıxıb ərşə, daha bəsdi.
Var Əminə, Gülnar balan
Şükür elə, daha bəsdir,
Şükür elə, daha bəsdir.

İLHAMIM, QABİLİM UÇDULAR QOŞA

Kürəkənim Abbasa təsəlli

Cavan ölümü heç gəlməyir xoşa,
Fikirdən az qalır ki, ağlım çaşa,
Gecələr dərdlə verirəm baş-başa,
Bircə anda gedə bilmirəm huşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Ucaboylu, şux qamətli, cürətli,
Düşmənə amansız, qeyrətli, məğrur,
Sərv qamət, dağlarla boya-boy durur
Nə iş görürəm əlim çıxır boşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Nəzakət bacım, qardaşım Abbasım,
Sizi öz balam tək bağrıma basım,
Ürək döyüntünüzə qulaq asım,
Hıçqıraq, ağlayaq bir gedək huşa,

İlhamım, Qabilim uçdular qoşa.

* * *

Övlad itkisini çəkənlər bilir,
Dərd onun belini bükənlər bilir,
Həmişə göz yaşı tökənlər bilir,
Ağlayıb hirsimdən gəlirəm cuşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Oğul cənazəsi aparsa, ata,
O zaman onun ömrü sonna çata.
Oğul dağı görməsin heç bir ata,
Şükür Allaha, təbim gəlir cuşa,
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Əyilən qamətəm, quruyan yaşam,
Dözürəm bu dərdə, ürəyi daşam.
Dərdlilərim: Nəzakətim, Abbasım,
Tez gəlin, ağlayaq, verək baş-başa.
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Sakitləşin, bulud kimi dolmayın,
Qalana baxın, naşükür olmayın,
Göz yaşı töküb, saralıb solmayın,
Həmişə bir ağlayaq, gedək huşa
İlhamım, Qabilim uçdular qoşa.

* * *

Əşir yenə qələm alıbdır ələ,
Hirsindən az qalır dağları dələ,
Namərd düşmən bizə qurubdur tələ,
Alınsa, Vətən, təbim gələr cuşa,

İlhamım, Qabilim uçdular qoşa.

QABİLİM

Mən sənin dərdinə dözə bilmirəm,
Sən məzardan baş qaldır, gəl, əzizim.
Sənin körpəliyin yadıma düşür,
Gəl qucaqla atanı, öp, əzizim.
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Sənsiz gündüzüm də gecə olubdu,
Qamətim əyilib kaman olubdu,
O gül rəngim saralıbdı, solubdu,
Məğrur atan bulub kimi dolubdu,
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Sən çox heyran idin vətən ətrinə,
Mən o ətri qatdım şeirin sətrinə.
Hələ yaşayıram sənin xətrinə,
Vətən torpağı səpəcəyəm qəbrinə,
Qabilim, Qabilim, mənim Qabilim.

* * *

Atan Əşir dözə bilmir bu dərdə
Az qalıb dərd ürəyimi əridə,
Kaş Ulu Tanrı möcüzə göstərə
Cavanlar dirilə, evinə gələ
Qabilim, Qabilim, mənim Qabilim.

MÖCÜZƏ UMURAM

Allah, nə olar,
Evdə oturub

Şeir yazdığım zaman
Zəng çala telefon.
Mən dəstəyi qaldıran zaman,
Eşidəm Qabilin doğma səsini.
Əvvəlki zarafatcıl,
Mənalı xoş avazını.
O, mehriban gülüşü ilə
Qışqıra dəstəyə,
-Necəsən, ata?
Qabiləm, təyyarədə uçuram,
Az müddətdə mən Vətənə qovuşuram.
Elə bilməyin ki, ölmüşəm,
Nə müddətdir mən.
Uzaq səfərdə olmuşam.
İndi gəlirəm Vətənimə,
Çatmaq istəyirəm.
Bacıma, ata, anama.
Səfərbər edək ordumuzu
Azad edək doğma yurdumuzu.
Toyumuz, yasımız
Qoy orda olsun.
Allah möcüzə yaratsın,
Üzümüz gülsün.
Əşir çox sevinər buna
Vətəndə gedər toya, düyünə,
Qovuşar elinə, obasına,
Ata, anasına, həm balasına.

AĞLASIN

Çatdı bizə amansız qara xəbər,
Daşdansın gözümdən sellər, ağlasın.

Boğur məni zəhərli acı qəhər,
Gəlsin yasa anam, bacım, ağlasın.

* * *

Qabil! Əziz oğlum, mehriban balam!
Az qalmışam dərdindən dəli olam.
Sənin həsrətindən saralıb solan,
Bir cüt körpə, məsum balan ağlasın.

* * *

Övlad itkisinə dözməyir atan,
Yox məni bala tək bağrına basan.
Sakit hönkürtümə, yox qulaq asan
Gəlsin mənim madar qızım, ağlasın.

* * *

Əşir, sən yaralısan, bəxtin kəmdir,
Sənin təsəllin bircə cüt nəvəndir,
Ağlayırsan, gəlin, gözlərin nəmdir,
Qoyma sənə baxıb balan, ağlasın.

DƏRDİMİ ON DƏVƏ ÇƏKMƏZ

Qabilin əziz xatirəsinə.

Dərdimi yüksələn on dəvə çəkməz,
Başdan-başa qəm-kədərli ürəyim.
Qabilin dərdi də ölçüyə gəlməz.
Elə bil əzilib, sınıb dirəyim.

* * *

Dərdlərin üstünə dərdlər yüklənir,
Cismindən ruhum da çıxıb eşiyə.
Sinəmdən çal-çarpaz dağlar çəkilir.
İstərəm qayıdam, girəm beşiyə.

* * *

Baş açmaq olmayır dünya işindən,
Yaxşıları tez götürür aradan.
Çoxlarını o keçirir dişindən
Niyə qıyır bu işlərə Yaradan?!

* * *

Səyavuş qoymusan adımı mənim,
Zəmanə dəyişib vətən dağlıyam.
Qəlbimdə həddindən çox olur dərdim,
Yurduma, elimə hər an bağlıyam.

Səyavuş Vətəndağlı

ANAN YANINA GƏLİR

Həyat yoldaşım Sərmayə xanımın vəfatı münasibəti ilə.

Oğlum, anan yanına gəlir,
Girəcəksən ana qoynuna.
Atacaqsan təkliyin daşın,
Söhbətə qarışacaq başın.

* * *

Mehriban qarşıla ananı,
Səni sevib candan yananı.
Ananla birgə gülər üzün,
Onunla tutar söhbət-sözün.

* * *

Atana yer saxla yanında,
Birgə yataq qəbir evində.
Sənlə bir gülər üzümüz,
Uzaqlaşar qəm-kədərimiz.

* * *

Çatmaqçün sənin vüsalına
Fəryad edib ağladı anan.

Görəndə ki, qovuşur sana
Qol götürüb oynadı anan.

* * *

Oğul dərdinə dözməyir ürək,
İstəyirəm balamı görmək.
Köç eyləyir yanına anan,
Sonra sənə qovuşar atan.

* * *

Faciənə dözmədi anan,
Sənə ürəkdən, candan yanan.
Ağladı, kor etdi gözünü,
Saçın yolub, üzdü özünü.

* * *

Atan istəyir yanına gələ,
Yarımçıqdır işləri hələ.
Tamamlar oğul dastanını,
Sonra o da kəsər yanını.

* * *

Allah! Ağırmış oğul dağı,
Əridi ürəyimin yağı.
Balama əl qaldıran yerdə,
Əllərin quruyardı yağı!

* * *

Atan Əşir dözmür dərdə,
O çəkəni çəkməzdi nər də.
Dərdi qoşadı-oğul, vətən.
Ər oğuldu bu dərdi çəkən.
Vətənə çox uzaqdı yolum,
İstərəm, oğluma qovuşum.

ÇIX YASDAN

Şamil balam, çıx yasdan,
Bəsdi, daha ağlama.
Ağladıqca qəlbimi
Çalın-çarpaz dağlama.

* * *

Mən çox ömür sürmüşəm,
Çox faciə görmüşəm,
Düzdür, yaran dərindir.
Ağır yük də nərindir.

* * *

Səni qəmli görəndə,
Daha əyilir belim.
Oğlum, səni şad görüm
Mən də deyim və gülüm.

* * *

Köçüb tayım, tuşlarım,
Həyatda tək qalmışam.
Qəlbə axır göz yaşım,
Bağrı yara olmuşam.

* * *

Sən uca tut başını,
Axıtma göz yaşını,
Düşmən görsün, xar olsun,
Ürəyinə ox olsun.

* * *

Sən Allah, qırx üzünü,
Qaydaya sal özünü,
Yasdan çıx, şux gəz bala!
Tay-tuşdan qalma dala.

* * *

Atan qurban gözünə,
Bir fikir ver özünə,
Baxsan, ata sözünə,
Əşir gələr özünə.

OYAN, OĞUL!

Atan dözə bilmir dərdə,
Yalvarıram, oyan, oğul!
Hara belə tələsirsən?
Atan qurban, dayan, oğul.

* * *

Dözəmmirəm, daha bala.
Məni dərdə sala-sala,
Tələsirsən hara belə?
Dayan oğul, getmə bala!

* * *

Tez çəkirsən karvanını,
Heç demirəm-atam hanı?
Xəstə canım dözmür daha,
Dayan oğul, getmə bala!

* * *

Əzrayıl da çaş-baş qalıb,
Tapıb ala bilmir canım,
Donub, daha axmır qanım,
Dayan oğul, getmə bala!

* * *

Tale qarğayıbdı bizi,
Çaş-baş salıb ömrümüzü.
Mən tez getməliyəm gora,

Atan qurban, dayan bala!

* * *

Əşir ölsə, çıxar yasdan,

Canı qurtarar atəşdən.

Gedər məzar komasına

Yetər Qabil balasına.

Dayan oğul, getmə bala!

VƏTƏN SƏNSİZ, OĞUL SƏNSİZ.

Torpağım, daşım basılıb,

Gözlərimdən yaş asılıb.

Ürəyimdən daş asılıb.

Dözəmmirəm daha dərdə,

Vətən sənsiz, oğul sənsiz.

* * *

Aslanlar quzu olubdur,

Nərin dizi bükülübdür,

Dağlar, daşlar əriyibdir,

Dözəmmirəm daha dərdə,

Vətən sənsiz, oğul sənsiz.

* * *

İçin-için ağlayıram,

Gecə-gündüz sızlayıram.

Günlərim çox ağır keçir,

Dözəmmirəm daha dərdə,

Vətən sənsiz, oğul sənsiz.

* * *

Əşir ağır yaralanıb,

Vətənindən aralanıb.

Yuxu da getmir gözünə,

Dözə bilmir daha dərdə,

Vətən sənsiz, oğul sənsiz.

NƏ AĞIRMIŞ OĞUL DAĞI

(Poema)

Yetmişinci il yanvarın birində
Çal-çağırdı Qubadlı ellərində.
Nəbi, Həcər eli Mollu kəndində
Bir körpə doğuldu ata yurdunda.

* * *

Gəldi müdrik kişi, ağbirçək qadın
Qabil qoydular o uşağın adın.
Sevindirdi qohumun, dost-qardaşın,
Nənə-dədəsin və ata-anasın.

* * *

Xoşbəxt yaşadı, ətə-qana doldu.
Ata-anasının sevimlisi oldu.
Üç yaşında sayırdı üzə qədər,
Fiqurlardan evcik qurar, ev tikər.

* * *

Elə ki, Qabil çatdı beş yaşına,
Yeni fikir düşdü onun başına .
Dedi: -Gedəcəm, zabitlər kursuna,
Sərkərdə olacam güclü qoşuna.

* * *

Nəbi babam kimi qoçaq olacam,
Zalımları yurdumuzdan qovacam.
Düşmənləri qırıb canın alacam,
Vətən keşiyində sayıq duracam.

* * *

Dörd qardaşın sobeşiyidi Qabil,
Böyükdülər Tahir, Məzahir, Şamil.

«Mən hamımızdan güclüyəm»-deyərdi
Qardaşları sevinərdi, gülərdi.

* * *

Püşk atardı, bölərdi qardaşları,
Deyərdi Tahirlə Məzahir birdi.
Mənim püşkümlə düşənsə Şamildi,
Sevinc isə təkcə mənim bacımdı.

* * *

Qamış atını minərdi, çapardı,
Əlinə taxtadan qılınc alardı.
Özünü Cavanşirə, Koroğluya
Gah Babəkə, Nəbiyə bənzədirdi.

* * *

Tarixə də o çox meyil edərdi,
Tarixi şəxsləri əzbər bilərdi.
İsgəndər dünyanı işğal elədi,
Uşağa, yaşlıya da rəhm etmədi.

* * *

Şah İsmayıl şair, sərkərdə idi,
O, xalqının qəhrəman oğlu idi.
Böyük bir dövlət qurub, qoyub getdi,
Böyük dövlət sonra niyə kiçildi.

* * *

Sərkərdə Brutu bəs nə vadar etdi?
Yuli Sezarın o qətlinə getdi.
Bu saxta yoldan o niyə qaçmadı?
Saxta işdən özü də baş açmadı.

* * *

Qabil hələ altı yaşında ikən

Oxumağı, yazmağı da bilirdi.
Çoxlu nağıl oxuyub öyrənirdi,
Müsbət qəhrəmanlarla fəxr edirdi.

* * *

Şah Abbas çoxlu müharibə etdi,
Millətimin dili əlindən getdi.
Oğul, öldü, ana saçını yoldu,
Dövlətim dönüb fars dövləti oldu.

* * *

Ata, Babəki niyə satdı Sumbat?
Ermənidə niyə olmur kəramət?
İgid Babək niyə inandı ona?
Mən Sumbatı bolayacam al-qana.

* * *

Onun sualının olmazdı sonu,
Sevərdi Nəbini, gah Koroğlunu.
Cavidan, Babək cəlb edirdi onu,
Oxuyardı Yusif Səmədoğlunu.

* * *

Elə ki, o, çatdı məktəb yaşına,
Yeni fikrin düşdü onun başına.
Götürdü kitabla dolu çantanı,
Beşlə sevindirdi ata-ananı.

* * *

Fənlərin hamısın sevirdi Qabil,
Dəqiq elmlərə edirdi meyil.
Müəllimlər oyatmışdı marağı,
Onlar göstərirdi Qabilə qayğı.

* * *

Tədbirlərdə çox fəal idi Qabil,

Dostu idi əmisi oğlu Habil.

İkisi bir oturardı qabaqda,
Gözləri önündə olardı taxta.

* * *

Sakit qulaq asardı müəllimə,
Ağzından çıxmazdı bir artıq kəlmə.
Sonda sual verərdi müəllimə,
Qane edərdi onu bircə kəlmə.

* * *

Dərslərindən həmişə alardı beş,
O, özün öyüb qürrələnməzdi heç,
Qabil sadə aparardı özünü,
Yoldaşdan gizləməzdi bir sözünü.

* * *

Qabil həmişə «sinifkom» olardı,
Yanı-yörəsi dostlarla dolardı.
Müəllimləri onu çox sevərdi,
Fərəhdən daim gözləri gülərdi.

* * *

Ev işlərinə də kömək edərdi,
Qoyun və mal nobatına gedərdi.
Bağı becərirdi, odun yarardı,
Ata-ana qulluğundan durardı.

* * *

Qardaş-bacı çox sevərdi onu,
Fəxr edərək oxşayardı boynunu.
Müəllimlərinə qoyardı hörmət,
Deyərdi yolumda çəkirirlər zəhmət.

* * *

Bütün fənləri ürəkdən sevərdi,
Həmişə oxuyardı və yazardı.
Oxuyub elmi dərindən bilərdi,
O, dastan oxuyardı, şeir yazardı.

* * *

Şəhriyara ithaf etmişdi qəzəl,
Heydərbabasını bilirdi əzbər.
Deyərdi niyə Vətən paralanıb?
Nədən qardaş-qardaşdan aralanıb?

* * *

Allahım, nə olar qurusun Araz,
Açılsın sərhəd, Vətənə gəlsin yaz.
Bacılar sevinsin qardaş boyuna,
Getsin onun nişanına, toyuna.

* * *

İnanıram, elə bir gün gələcək,
Vətən birləşəcək, bütöv olacaq.
Qardaş çatacaq qardaşın hayına,
Gedəcək yasına, həm də toyuna.

* * *

Şah İsmayıl Xətaini çox sevir,
Deyərdi həm sərkədədi, həm şair.
Həyat elə bil möcüzə nağıldı,
O qurduğu dövlət niyə dağıldı?

* * *

Taleyi qarğayıb işi əyəndə,
Düşmənləri ona qalib gələndə,
Bağışlardılar şerinə, sözünə.
Siz bir fikir verin, sözün gücünə.

* * *

Çoxlu romanlar oxuyardı Qabil,
Qəhrəmanlarını sayardı bir-bir.
Deyərdi mən də qəhrəman olacam,
Düşmənləri yurdumuzdan qovacam.

* * *

Qabil orta təhsili vurdu başa,
Attestatda beşləri qoşa-qoşa.
Bütün zəhmətləri arxada qaldı
Məktəbdə ilk medalist şagird oldu.

* * *

Müəllimləri verdi xeyir-dua.
Qabili medalla saldılar yola.
Müəllimlər qarşısında baş əydi,
Əllərin öpərək gözləri doldu.

* * *

Dedi: «Heç zaman unutmaram sizi,
Mən doğruldacam etimadınızı.
Sizin sayənizdə mən medal aldım
O çətin yolları arxada qoydum».

* * *

Onda inam vardı ocağa, pirə.
Çətinə düşəndə gedərdi ora.
Kəndə yaxın idi «Üç qardaş» piri.
Kəsilməzdi ordan Qabilin yolu.

* * *

Pirə gedənlərə yol göstərirdi,
Onları qarşılar, yola salardı.
Qocaya, zəifə arxa durardı.
Gücü çatan qədər kömək edərdi.

II HİSSƏ

Başladı Qabilin sərbəst həyatı,
Artdı qayğıları, məsuliyyəti.
Gecə də, gündüz də hey çalışırdı,
O, instituta hazırlaşırdı.

* * *

Yığıldılar qohumlar, ağsaqqallar
Dayıları Əhməd, Famil və dostlar.
Medal almasını təbrik etdilər,
Şənləndilər, oynadılar, güldülər.

* * *

Əmisi Nüsrət, qardaşları və mən
Dedik: -Bala, indi dəyişib zaman,
Qızıl medalın niyə gümüş oldu?
O da sənə mənəvi zərbə vurdu.

* * *

Sən həmişə çıxmısan bərkdən, boşdan
Ru dilini bilirsən azdan, çoxdan.
Bir az da öz üzərində çalışsan,
Rus dilinə bir qədər alışarsan.

* * *

Qabil bu sözləri saf-çürük etdi,
O, hazırlaşaraq Rusiyaya getdi.
Hərbi xidməti orda vudu başa,
Orada püxtələşib doldu yaşa.

* * *

Həkim olmaq idi onun arzusu,
Çalışırdı bütün gecə-gündüzü.
Birinci imtahandan o beş aldı,
Bütün çətinliklər arxada qaldı.

* * *

Tibb Universitetində oxudu,
Gözəl bir stomotoloq həkim oldu.

Fərqlənmə diplomu göstərdi bizə
Elə bil ki, gün doğdu üzümüzə.

* * *

İrkuts şəhərində işə girdi,
Diş müalicə edər və çəkərdi.
Yaraşıqlı gözəl dişlər salardı,
Yanına gələnlər razı qalardı.

* * *

Saşa həkim ona qoyardı hörmət,
Qabilin yolunda çəkərdi zəhmət.
Həkimlər bəyənərdi onun işin
Həm müalicəsi, həm də çəkilişin.

* * *

Qabil, Valentina, Olya və Saşa
Dördü bir yerdə gəzərdi həmişə.
Olya can alan mavi gözlü gözəl,
Qabilə atəşin salardı nəzər.

* * *

Məstedici, şuxqamətli gözəli,
Səmimi dost kimi sevərdi Qabil.
Görənləri yandırsa da o gözlər
Qız ancaq Qabilə salardı nəzər.

* * *

Qabil anlayanda qızın fikrini
Ona dedi nişanlı olduğunu.
Dedi: -Mən dost kimi sevirəm səni,
Sən də özünə bir sirdaş bil məni.

* * *

Olya bir müddət bilmədi özünü,
Qabildən çəkə bilmirdi gözünü
Qız mərdliklə ələ aldı özünü,
Qabilə dost kimi dikdi gözünü.

* * *

Qız gözəl bir oğlana ərə getdi,
Qabil dost kimi ona kömək etdi.
Olya da gəldi Qabilin toyuna,
Bizim havalarda girdi oyuna.

* * *

Qabilin işləri yaxşı gedirdi,
Qardaşları onunla fər edirdi.
İş yerində çox olardı müştəri,
Sağaldıb sonra salardı dişləri.

* * *

Qardaşlarının yanına gedərdi,
Onların işinə kömək edərdi.
Qardaşları çox istərdi xətrini,
Qabildən alırdı Vətən ətrini.

* * *

İyun doxsan yeddidə toyu oldu,
Sevincdən doğmaların gözü doldu.
Aldı elimizin gözəl qızını
Ayağı altında kəsdik quzunu.

* * *

Bizim sevincimiz aşıb-daşırdı,
Oynayanlar meydanda dolaşırdı.
Dostlar və qohumlar yeyib-içirdi
Cavanlar özlərinə qız seçirdi.

* * *

Ata-anasının gülürdü üzü,
Gəlinləri idi o, dan ulduzu.
Arzumdur ki, çox ola oğlu, qızı
Körpə səsi bəzəyə evimizi.

* * *

On avqust doxsan səkkizinci ildə
Rusiyanın İrkutsk şəhərində,
Böyük qızı Gülnar dünyaya gəldi,
Valideynlərin gözləri güldü.

* * *

Beşi iyul iki mininci ildə
Əminə balası anadan oldu.
Körpə səsi çoxaldı Qabılgildə,
Şənlik, toy-büsat oldu bizim evdə.

* * *

Qızların sevirdi dünyalar qədər
Allah əməyini etməsin hədər.
Vətənə gəlmək idi son arzusu
Vətənində bol olardı ruzisi.

* * *

Qardaşları da sevirdi vətəni,
Görmək istəyirdi ata-ananı.
Qurbət yaman sıxırdı qardaşları
Fikirdən zəhər olurdu aşları.

* * *

Qardaşlar elmi vurmuşdular başa,
Qürbətdə onlar dolurdular yaşa.
Ürəkləri istəyirdi Vətəni
Qohumları. Həm də ata-ananı.

* * *

Birinci Qabil gəlirdi Vətənə,
Yolunu gözləyirdi ata-ana.
Qabilgil Vətənə hazırlaşırdı
O, işlərini sahmana salırdı.

* * *

Qardaşının yanına getdi Qabil,
Onu yanına çağırmışdı Şamil.
Bir sumka pul ilə gələrkən evə
Zalımlar arxadan atdılar güllə.

* * *

On bir mart iki min ikinci ildə,
Axşam saat səkkiz radələrində,
Qarlı, çovğunlu İrkutsk şəhərində,
Ömrü sona çatdı bircə güllədə.

* * *

Güllə ürəyi dağıdaraq getdi,
Bununla da həyatı sonna yetdi.
Qabilim aça bilmədi gözünü
Yazıq deyə bilmədi son sözünü.

* * *

Gəlin dul qaldı, iki qız atasız,
Qatil, sizi görüm gorda yatasız.
Niyə qurumadı sizin əliniz?
Gərək kor olaydı, sizin gözünüz.

* * *

Çatdı el-obaya ölüm xəbəri,
Çoxaldı bir nəslin dərdi, kədəri.
Saçların yoldu bacılar, analar
Zalımları gərək gorda yanalar.

* * *

Ömrü qırıldı bir cavanın, nərin,
Şivən etdi ana, bacı, qız, gəlin.
İki körpə qızı qoyduz atasız,
Qatillər, sizi cəhənnəmdə yanasız.

* * *

Atası dözmür, ağlar için-için,
Anası dünyadan çəkibdir köçün.
Bacısı həmişə qanlı yaş tökür,
Dərd-qəm qardaşların belini bükür.

* * *

Atası səs salıb külli-aləmə,
Gecə-gündüz sarılıbdı qələmə.
Qələmlə çıxarır acı-ağrını,
Yarmaq istəyir ölümün bağrını.

* * *

Qızlar hələ gələ bilmir özünə,
Gecələr də yuxu getmir gözünə.
Allah, niyə yatıb bizim bəxtimiz?
Ağlar kəçir bizim gecə-günümüz.

* * *

Əşir lənətləyir külli-aləmi,
Hər zaman əlində yazır qələmi.
Vəfasız dünyada ancaq söz qalar
Əhli-hallar oxuyub məni anar,
Balamın ölümünə isə yanar.

BAYATILAR

BU DAĞI

Əzizinəm, qan axdı,
Sinəm qanax-qanaxdı.
Oğlu ölən atanın
Gözlərindən qan axdı.

* * *

Əzizinəm, qan axar,
Su yerinə qan axar.
Oğlu ölən ananın
Ürəyindən qan axar.

* * *

Əzizinəm bala dağı,
Sinəmdə bala dağı.
Əlin qurusun, yağı,
Sən törətdin bu dağı.

* * *

Əzizinəm, gül açdı,
Güllə səndən gül açdı.
Bacı, yolma saçını,
Axı qulac-qulacdı.

* * *

Əzizinəm, dil açdı,
Körpələrin dil açdı.
El sənə deyər ağı,
Yarın çəkər bu dağı.

* * *

Əzizinəm, bu dağı,
Bülbül istər budağı.
Əlin qurusun, qatil!
Kim çəkəcək bu dağı?

* * *

Dağ qarışıbdı dağa,
Dağ da dözməz bu dağa.
Qardaşı ölən bacı
Necə dözər bu dağa?

* * *

Bu dərddən dağ əridi,
Gözümdə yağ əridi.
Gülün sındı budağı,
Bülbül çəksin bu dağı.

* * *

Kim törətdi bu qanı?
Bu qovğanı, bu qanı.
Ulu Tanrı, ucasan,
Yerdə qoyma, bu qanı.

* * *

Bu Qubadlı dağıdı,
Üstündəki yağıdı.
Məndəki qoşa dağlar
Vətən, oğul dağıdı.

* * *

Düşmən pusquda durdu,
Bizi arxadan vurdu.
Bu dərdə dözən ata
Necə dincələ, yata?

* * *

Əşir dözmür bu dağa,
Vətəndə şahdır dığa.
Vətənim paralanıb
Öyrənmişəm bu dağa.
Bir möcüzə yaransa,
Biz gedərik o dağa.

APARDI

Əcəl səni tez apardı,
Elə bil atlı çapardı.
Dartıb lap zorla qopardı,
Sel qayadan sal apardı.

* * *

Bülbül öldü, gül ağladı
Dərdi sinəmi dağladı.
Anan saç yolub ağladı,
Saçını da yel apardı.

* * *

Atan ağlar için-için,
Balan, yarın yolar saçın.
Göz yaşım axdı çöllərə,
Onu da ki, sel apardı.

* * *

Qardaşlar gəlmir özünə,
Yuxu da getmir gözünə.
Yarın yanıb külə döndü,
Külünü də yel apardı.

* * *

Ayrılığa dözmür ürək,
Mən Vətəni görəm gərək.
Vətəndə gülürdü ürək,
Onu da qürbət apardı.

* * *

Yaxşılar çox tez gedirlər,
Ürəklərə dağ çəkirlər.
Əlyarımı doğma Vətən,
Qabili qürbət apardı.

* * *

Vətənimi görmür gözüm,
Ayrılığa yoxdur dözüm.
Nurlu idi mənim gözüm,
Onu da şeirim apardı.

* * *

Yoxdu taqət, əsir dizim,
Qəmli çıxır mənim səsim.
Qabilim məni anırdı,
Onu da ki, pul apardı.

* * *

Əsirdi, torpağım, daşım,
Qurumur mənim göz yaşım.
Vardı mənim varım, mülküm,
Onu da düşmən apardı.

* * *

Çoxdur mənim ağrım-acım.
Vaxtsız ağarıbdı saçım.
Vardı məndə azca dözüm,
Onu da oğlum apardı.

* * *

Əşir nər oğludu, nərdi,
Dərdə-qəmə sinə gərdi.
O, ağladı için-için
Oğul üçün, Vətən üçün.
Daha gülmür mənim üzüm,
Gülüşü qürbət apardı.

Fətəliyev Tahir Əşir oğlu

Yazımın başlığından göründüyü kimi Tahir mənim oğlumdur. O, 1959-cu ildə Qubadlı rayonunun Mollu kəndində müəllim ailəsində anadan olub. Hal-hazırda Rusiya Federasiyasının İrkutski şəhərində yaşayır. Elə həmin şəhərdə də ali təhsil alıb. Ailəlidir. Üç uşağı var. Oğlanları Rəşad və Bəşir hər ikisi İrkutski şəhərindəki Tibb Universitetində təhsil alırlar. Qızları Lalə isə uşaq baxçasına gedir. Tahir şeyir sənət həvəskarıdır. O kefinin saz vaxtında və qəmli vaxtlarında şeir yazır.

Onun Vətən həsrəti ilə yazılmış şeyirlərini həyəcansız oxumaq olmur. Ancaq onun yazdığı şeyirlər elə kağız üzərində də qalır. Tahir onları nəşr elətdirmir.

Mən Tahirdən xahiş etdim ki, bir neçə şeyirini versin növbəti kitabımda nəşr elətdirim. Mən bu kitabımda onun bir neçə şeyirini verirəm. Şeyirlərə qiyməti isə əlbətdə oxucular verəcəkdir.

VƏTƏN HƏSRƏTİ

Yenə Vətən torpağından ayrı düşmüşəm,
Sənsiz ey Vətən özümü tənha bilmişəm.
Gör sənsiz yaşamaq necə çətindir mənə,
Ürəyim canım ey Vətən, qurbandır sənə.

LƏPƏ

Ay dənizdən, gələn ləpə,
Qoyalara dəyən ləpə.
Sahillərlə qucaqlaşıb,
Bizə lay-lay deyən ləpə.

* * *

Ay sahilə qaçan ləpə,
Ulduzlara göz eyləyib,
Sahil boyu hər tərəfdən,
Sevgililər pusan ləpə.

* * *

Ay Təbrizdən gələn ləpə,
Qəmli ləpə, həsrət ləpə,
Savalandan, Kəpəzimə,
İki qardaş həsrətini,
Bir-birinə deyən ləpə.

DÜNYA

Bu dünya yalan dünya,
Yalan həm talan dünya.
Bu dünya fitnə dünya,
Var üstdə duran dünya.

* * *

Bu dünya zalım dünya,
Puç dünya, fani dünya.
Həmişə çarpışırsan,
Qazancın kəfən dünya.

* * *

Bu dünya şeytan dünya,
Zalıma meydan dünya.
Dahilərə qalmayıb,
Tahirə qalmaz dünya.

VERDİ MƏNƏ TƏBİƏT

Günəşdən hərarət istədim,
Aydan aydınlı gecə,
Ulduzlardan parlaqlıq,
Dağlardan qürur,
Sellərdən güc,
Dənizdən coşqunluq,
Bulaqlardan saflıq,

Quşlardan iti qanad,
Güllərdən gözəllik,
Birdə təravət,
İlahidən iti zəka,
Birdə məhəbbət,
Nə istədim, nə istədim,
Nəhayət,
Verdi mənə təbiət.

TELLƏRİNDƏN İNCƏMİ

Arzuya bax sevgilim,
Tellərindən incəmi?
Söylə ürəyincəmi?

M.Müşviq

Yenə darıxmışam gözəlim,
Yenə sənin üçün.
Darıxmışam o zərif əllərin üçün,
O şirin sözlərin üçün.
Can-can deyən dillərin üçün,
Darıxmışam Gülüm.
Yaman darıxmışam yenə sənin üçün.
Dağlarda Vüqarım,
Həm şəlaləm, həm bulağım,
Gəl ay ayım, ulduzum,
Göy səmam bir də günəşim.
Bağlarda qızıl gülüm,
Çəməndə, şehim,
Ol laləm, birdəki qönçəm.
Suyum ol, birdəki havam.
Sənsən təbibim, dərmanım, davam.

Sənsən həyatım, vuran ürəyim.
Qoy aləm bilsin sevgi gözəldir.
Gəl sevgimizi tutmayaq pünhan.
Leylidə, Məcnunda qoy olsun yalan.
Fərhad tək sevgidən güc alaq,
Qurub yaradaq.
Eşqin göylərində bir uçad,
Qanad çalaq.
Arzuya bax sevgilim
Tellərindən incəmi?
Söylə ürəyincəmi?

ANA

Qucaqlayıb səni öpürəm ay ana.
Kövrəlmişəm yenə yaman ay ana.
Dizin üstə bir lay-lay çal sən mənə.
Yada düşsün ötən günlər ay ana.

* * *

Ayağına xalı olun sərilim.
Gözlərinin nuru olum mən sənin.
Kiminin dövləti, qızıl sevgisi,
Mənim anam bu dünyanın incisi.

* * *

Qoy üzünü qara bulud alanda,
Bu anamın kədəridi kədəri.
Yer öz oxundan çıxsa birdən əgər,
Bu anamın qəzəbidi, qəzəbi.

* * *

Saçlarında torpağımın ətri var.

Ağ saçların dağ başında qar kimi.
Dodağında xəzərimin nəğməsi.
Anam mənim bu dünyamın haqq səsi.

SEVGİLİM SƏNSİZ

Sənsiz könlüm boran, çovgun, alıbdı,
Sevən ürək tarımara dönübdü.
Var dövlət gözümdə heçə yenibdi.
İndi bildim varım sən, həyatım sən.

* * *

Sənsizliyə dözə bilməm onu bil,
Dərd alıbdı ürəyimin başını.
Dəsmal götür gözlərimin yaşın sil,
Əllərimlə qoy oxşayım saçını.

* * *

Sənsiz başım üstün duman alıbdı.
Bahar könlüm lap xəzanə dönübdü.
Yazıq Tahir gör nə günə qalıbdı,
Sevgin məni səhralara salıbdı.

SEVGİLİM

Sənsiz dünya puç görünər sevgilim.
Sənsiz dəniz susuz olar sevgilim.
Göydə ulduz sənsiz sönər sevgilim.
Gəl həmişə səni gözüm sevgilim.

* * *

İstəyirəm bənzəyəsən günəşə,
Gəl onun tək sən təmiz ol sevgilim.

Ulduzlardan çələng hörüm saçına,

Gəl ol mənim şirin sözüm sevgilim.

* * *

Gözlərini oxşatmışam dənizə,
Gəl onun tək sən ümman ol sevgilim.
Yoncalıqdan yığım düzüm gülləri,
Hər nazına gəl bir dözüm sevgilim.

* * *

Gör sənlə dünya necə gözəldir.
Çəmənde şeş, çöldə güldə gözəldi.
Sənsiz həyat mənə sönər sevgilim,
Sevən ürək külə dönər sevgilim.

NEYLƏRƏM

Eşq oduna yanan könül,
Sevgini yersiz neylərəm?
Ata sənə tacım dedim
Sənsiz o tacı neylərəm?

* * *

Göy üzünü tutan bulud,
Şimşəksiz yağışı neylərəm?
Oxşayıram yarın zülfünü,
Saç yoxsa sığalı neylərəm?

* * *

Başımın üstün alan duman,
Çəmənsiz şehi neylərəm?
Ana sənə lay-lay deyim,
Sənsiz lay-layı neylərəm.

* * *

O Sibirdə keçən ömür,
Vətənsiz varı neylərəm?

Ayrılıqdan yanan könül,
Qürbətdə kefi neylərəm?

HAQSIZ DÜNYA

Bu dünya başıma dolandı yenə,
Haqsızlıq baş alıb gedir hər yana.
Satqın düz olub, düzlərsə yalan,
Gədə «kişi» olub, kişilər heç kim.
Oğrular düzlükdən danışır yaman.

* * *

Qartalın yerində sərçə oturub,
Bülbülün yerini qarğa tutubdu.
Gulşənin yerini qanqal alıbdı.
Eşşəyin qabağı arpadı tamam,
Atın qabağına töküblər saman.

* * *

Dəvənin yükünü at götürübdü.
Eşşək quyruğuna at bağlanıbdı.
Qoyunu da qurda tapşırıb dünya.
Bilmirəm ağlayım, bilmirəm gülüm?
Mən belə dünyanın nəyindən küsüm.

VƏTƏN HARAYI

Bu dərdi söyləməyim mən bəs neyləyim?
İçin-için ağlamayım bəs neyləyim?
Həkəriyə, Bərgüşada baxa bilməm.
Qızıl balıq, göy balıqdan tuta bilməm.

* * *

Nə kəkotu, nə qantəpər yığa bilməm.
Sularından ovuc-ovuc içə bilməm.

Dağlarını qarış-qarış gəzə bilməm.
Yollarıda düşmən kəsib gedə bilməm.

* * *

Nə hicranı, nə qəhəri boğa bilməm.
Bu dərdi söyləməyim mən, bəs neyləyim?
İçin-için ağlamayım, bəs neyləyim?
Düşməni biçib doğramayım neyləyim?

* * *

Borçalımda, Dərbəndimdə sərhəd olub.
Qubadlımda, Laçınımda çidarlanıb.
Ərdəbilim, həm Təbrizim qandallanıb.
Göyçə gölüm Sevan olub dözüm necə?

* * *

Kəlbəcərdən həm Şuşadan deyim sizə.
Cəbrayıldan, Zəngilandan bir söz açaq.
Ağdam, İsa bulağından bir danışaq.
Bu dərdi mən söyləməyim, bəs neyləyim?

* * *

Şah İsmayıl dövlət qurub miras qoydu,
Siz deyin o dövlətimiz necə oldu?
Anaların naləsini yada salaq,
Babaların məzarından biz utanaq.

* * *

Gəl şəhidlərin ruhuna bir and içək.
Ölməyibdir Koroğlunun övladları.
Daha bəsdir biz itirdik torpaqları.
Bacıların namusuna biz and içək.
Bu dərdi söyləməyim mən, bəs neyləyim?
İçin-için ağlamayım, bəs neyləyim?

ŞÜBHƏ EDİRSƏN

Ay sevgilim sevgimə yaman şübhə edirsən.
Sanki günəşin çıxmasına şübhə edirsən.
Elə bil ayın batmasına şübhə edirsən.
Onda yanan uduzlara da şübhə edirsən.

* * *

Bəlkə yazın gəlməsinə də şübhə edirsən.
Təbiətin oyanmasına şübhə edirsən.
Sən quşların uçmasına da şübhə edirsən?
Onda Əsliyə, Kərəmdə şübhə edirsən.

* * *

Çöllərdə gəzən ceyrana da şübhə edirsən?
Bəlkə dağ başında qara da şübhə edirsən.
Sən yaz qabağı laləyə də, şübhə edirsən?
Səmadakı qartallara da şübhə edirsən?

* * *

Bəlkə Leyliyə Məcnuna da şübhə edirsən?
Yəni bizim üç övlada da şübhə edirsən?
Gəl gör mənim varlığımada şübhə edəsən.
Məh Tahirəm, belə məsələdən çox deyərəm.
Qorxuram ki, onlara da sən şübhə edəsən.

HACI SİMUZƏR ÇƏRKƏZ QIZI

Həyat yoldaşım Hacı Simuzər xanım şeyir sənət vurğunudur. O boş vaxtlarında şeyir yazmaqla məşğul olur.

Simuzər Çərkəz qızı 27 yanvar 1950-ci ildə Cəbrayıl rayonunun Dağtumas kəndində ziyalı ailəsində anadan olub. 1968-ci ildə Bakı 1 №-li tibb məktəbini bitirmişdir.

O vaxtdan 1993-cü ilin avqustuna kimi Dağtumas kənd xəstəxanasında tibb bacısı vəzifəsində işləmişdir. Məlum səbəblərə görə 1993-cü ilin avqust ayının 24-də məcburi köçkün kimi Sumqayıt şəhərinə gəlmişdir. O vaxtdan hal-hazıra kimi Sumqayıt şəhərində yaşayır və iş yerindən orta əmək haqqı alır.

Simuzər xanım 21 noyabr 2008-ci ildən 12 dekabr 2008-ə kimi Hac ziyarətində olmuşdur. Suriyə, Mədinə və Məkkə şəhərlərindəki ziyarətkahları ziyarət etmişdir.

3 mart 2009-cu ildən 12 mart 2009-cu ilə kimi Məşhəd şəhərində olmuş və 40 ziyarətgahı ziyarət etmişdir. 20 aprel 2009-cü ildən 2 may 2009-cu il tarixə kimi Kərbala ziyarətində olmuşdur. Kərbəla ziyarətində Simuzər xanım Nəcəf, Kazmin, Qum, Məşhəd şəhərlərindəki ziyarətkahları ziyarət etmişdir.

Simuzər xanım xoşbəxt adamdır ki, Hac, Məşhəd və Kərbala ziyarətgahlarında olmuş və onların hər üçünü ziyarət etmişdir. O özü də o ziyarətgahları xatırlayaraq deyir: Mən özümü çox xoşbəxt hesab edirəm ki, Allah o ziyarətkahları ziyarət etməyi mənə qismət etmişdir. İndi mənim ürəyimdə heç bir arzum qalmayıb. Əgər o üç ziyarətgahı təkrar ziyarət etmək birdə mənə qismət olarsa mən özümü ikiqat xoşbəxt sayaram. Birdə Allahdan arzum budur ki, arzusunda olanlarada o ziyarətkahları ziyarət etməyi qismət eləsin.

Ziyarətkahlara getməkdə bizə bələdçilik edən və yol göstərən Kərbalayı Mirzə Hüseyinə və Hacı Talehə dərin minnətdarlığımı bildirirəm. Bu işdə mənə maddi və mənəvi dayaq olduqlarına görə Hacı Sabirə, Hacı Bəhruza və Yaqub müəllimə çox sağ ol deyirəm. Qohum qardaş və onların balalarına mənə köməklik göstərdiklərinə görə razılığımı bildirir və Allah onlara yar olsun deyirəm.

Aşağıda Hacı Simuzər xanımın bir neçə şeirini oxuculara təqdim edirəm.

ZİKİR, SƏBİR EDƏRƏM MƏN

Bismillah söyləyəndə,
İşin avand olar bəndə.
Allah adı çəkiləndə,
Zikir, səbir eylərəm mən.

* * *

Sudan duru, aydan arı,
Neynirəm dövləti, varı.
Yaddan çıxmaz yurda sarı,
Zikir, səbr eylərəm mən.

* * *

Ruzini verən Allahdır,
Kəbə evi qibləgahdır.
«Hacı Qaraman» pirimiz,
Zikir, səbir eylərəm mən.

* * *

Bizə bəxş edib dünyanı,
Naz nemət, əziz Quranı.
Yerin göyün yaradanı,
Zikir səbir eylərəm mən.

* * *

Qəlbimizdən silinməzdir,
Allah gözə görünməzdir.
Səbir Allahın adıdır,
Zikir səbir eylərəm mən.

* * *

Allahın adı min birdi,
Onun biridə, Əzimdi.

İmam Museyi Kazımdı,
Zikir,səbir eylərəm mən.

* * *

Simuzərəm çəkərəm qəm,
Torpağımız getdi əldən.
Dağtumasın həsrətindən,
Zikir, səbir eylərəm mən.

AY MİRİM

Yaman əsdi ayrılığn yelləri,
Bir-birinə calandı yas illəri.
Ölümünlə ağlatdın sən elləri.
Təbiblər təbibi ay Mirim mənim.

* * *

Göz yaşlarım haraydımı, haydımı?
Taleyinə fələk yazan paydımı?
Zalım fələk ömürünə qıydımı?
Dərdlilər dərmanı ay Mirim mənim.

* * *

Torpağın hər qarışında izin var,
Hər bir obada, hər bir eldə sözün var.
İnanmıram səni udub daş məzar.
Yaralar məlhəmi ay Mirim mənim.

* * *

Kağız yanar, qələm yanar, söz yanar.
Qəhər boğar yaş süzülər göz yanar.
Məzar üstə elə bil ki, köz yanar,
Bir elin dayağı ay Mirim mənim.

* * *

Viran qalıb o gözəl obam, elim.

Solub gül-çiçəyim yanıb çölüm.
Min-dərdə dərmandı hər sözün sənin,
Xəstələr şəfası ay Mirim mənim.

* * *

Yollar uzun olarmışmı bu qədər?
Üzdü bizi bu ayrılıq, bu kədər.
Yol açılıb veriləydi, şad xəbər.
Simuzərdə sevinəydi bir qədər.
Alimlər alimi ay Mirim mənim.

ARZUM KÖÇDÜ

Arzuladım arzum oldu,
İllər keçdi yaşa doldu.
Fələk taleh yazan oldu,
Arzum köçdü bu dünyadan.

* * *

Üzümü qoy gül üzünə,
Baxma yadların sözünə,
Taleh gülmədi, üzünə.
Arzum köçdü bu dünyadan

* * *

Fələk səni bizdən aldı.
Bizi dərdə-qəmə saldı.
Arzum ürəyimdə qaldı,
Arzum köçdü bu dünyadan.

* * *

Gözəl balan zəlil oldu,
Dərdə düşüb qəmgin oldu.

Gül rəngi saralıb soldu.

Arzum köçdü bu dünyadan.

* * *

Məzlum balan bina qurdu,
Kimə qaldı gözəl yurdu?
Ata ana həsrət qaldı,
Arzum köçdü bu dünyadan.

* * *

Qasım çələbi nəvəsi,
Asimanda Suqra səsi.
Çağırır Həcər nənəsi,
Arzum köçdü bu dünyadan.

* * *

Simuzər qəlbin virandı,
Ağır dərddən ürəyin yandı.
Dərd üstünə dərd qalandı.
Arzum köçdü bu dünyadan

YƏHYA ÇƏLƏBİYƏ

İtirdim Bakıda ata, anamı,
Çələbi Arzumu, Yəhya babanı.
Ocağım o Hacı Qaraman hanı?
Hesaba gəlmir ölənlərin sanı.
Yəhyam Teyfurum, Suqram, Arzum hanı?

* * *

Dünya baxçasında gül kollarım var.
Bu kollar içində nur yollarım var.
Tapşırılmamış nurlu bir Şahlığım var.
El, obasız ölən Teyfur Çələbim.
Yəhyam, Teyfurum, Suqram, Arzum hanı?

* * *

Qubadlı, Cəbrayılı el bilmisən,
Beyləqanda özünə yer seçmisən
Cənnət quşu olub göyə uçmusan.
Qürbətə dözməyib sən tez köçmüsən.
Yəhyam, Həvəzəm, Suqram, Arzum hanı?

* * *

Qəlbində çox kövrək sözün qalıbdı.
Ürəkdə min dilək arzun qalıbdı.
Hər bir evdə sənin əksin qalıbdı.
Rəfiqən, Xədicən ağlar qalıbdı.
Yəhyam, Teyfurum, Suqram, Arzum hanı?

SUQRA CƏLƏBİYƏ

Gözəllikdə gözəllərin xanısan,
Tanıyanlar bilir qəm libasısan.
Yasınla, Sadanın nişanəsisən,
Dünyanın çox qəm-kədərin dadmısan.

* * *

Bala anasından düşüb aralı,
Fələk hər ikisin edib yaralı.
Ürək dözməyir daha bu hicrana,
Sənsiz atan qalıbdır yana, yana.

* * *

Tanrı necə yazı yazıb sizlərə,
Çarxı fələk zülm eylədi sizlərə.
Zalım fələk rəhm etmədi bizlərə,
Bu dünyadan qəm-kədərlə getdinsən.

* * *

Taleyin bənzəyir bir gülüstana,

Kitaba yazılsa necə dastana.
Simuzər dözə bilmir həsrətinə,
Kaş gələ biləydi qəbrin üstünə.

NEYLƏRƏM

Kəndim Dağtumasdı, elim Cəbrayıl,
Haqqın qismətinə ollam qail.
Həyətdə arzuma olmadım nail,
Bu qisməti yazan yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

* * *

Əsir düşüb mənim vətən torpağım,
Qubadlım, Dağtumasım, Cəbrayılım.
Bu qəm yükün mən yazıq hara yazım?
Bu qisməti yazan yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

* * *

Yol gözləyir Qubadlım, Cəbrayılım,
Tumas ata, Tumas dağ, Üç Qardaşım.
Üç gözlü şəfalı Tumas bulağım.
Bu qisməti yazan yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

* * *

Hanı bəs uca boylu Xan Çinarım?
Şəfalı Hacı Qaraman ocağım.
O geniş gəyən düzüm, üzüm bağım.
Bu qisməti yazan yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

* * *

Nicat verən başı kəsik, Kümbəzim

Mənim Dərviş pirim Şıxəzəddinim,
Dolanıb Ağbulağı su içəydim.
Bu qisməti yaza yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

* * *

Müqəddəs Tumas ata, yeddi qardaş,
Sənin ziyarətinə gələydim kaş.
Kəkotulu çayından içəydim kaş.
Simuzərəm yazan yazıb, neylərəm?
Dağtumasım, Mollum üçün göynərəm.

QONŞUM AYNURƏYƏ

Uca boylu şirin sözlü,
Xoş xəyallı gülər üzlü,
Xörəkləri dadlı, duzlu,
Ay Aynurəm, qonşum mənim.

* * *

Hərdən xəyala dalırsan,
Zirvələrə ucalırsan.
Yollara çox boylanırsan,
Ay Aynurəm, qonşum mənim

* * *

Qəh-qəhə çəkib gülürsən,
Şirin söhbətlər edirsən.
Hərdən mahnı oxuyursan,
Gözəl göyçək qonşum mənim.

* * *

Bizlər Cəbrayıl, Qubadlı,
İndi olduq Şirvan elli.
Balaları, şirin dilli,

Ay Aynurəm qonşum mənim.

QONŞUM SAFURƏYƏ

Ay Safurə sən özünü üzmə gəl,
Gücün çatmaz düzən düzüb pozma gəl.
Göz yaşını leysan kimi süzmə gəl,
Taleyin hökmüdür neyləmək olar.

* * *

Çox kövrəltmə məni qəmgin etmə gəl,
Bina qurdum zəhmətim oldu hədər.
Alın yazısıdır onu da sən bil.
Taleyin hökmüdür neyləmək olar.

* * *

Sən Qubadlı xoş xəyallı onu bil.
Qonşun Cəbrayıllı ilə tapdın dil
Bacı olduq Şirvan ellərində biz
Taleyin hökmüdür, neyləmək olar.

QİSMƏT PAYIM

Yuva qurdum, taleh onu uçurdu,
Bina qurdum düşmən bizi qaçırdı.
Naşı ovçu oldum ovu qaçırtdım,
Yazan belə yazıb, qismət payımdı.

* * *

Çox kövrəldim, qəmgin oldum bir qədər
Zəhmət çəkdim, zəhmətim oldu hədər.
Alın yazısıdır onu da sən bil,
Yazan belə yazıb, qismət payımdı.

* * *

Köçkün olub səpələndik ellərə,

Məcnun olub düşdük çöldən, çöllərə.
Nə deyəsən ötüb keçən illərə,
Yazan belə yazıb, qismət payımdı.

* * *

Simuzər çəkdi dünyada əzabı,
İtirdi Bakıla ata, ananı.
Gəlin Xuramanı, Yəhya babanı,
Yazan belə yazıb, qismət payımdı.

HƏC ZİYARƏTİNİZ QƏBUL OLSUN.

Allaha inam gətirib,
Gecə-gündüz yalvardıq biz.
Həccə getdik iki bacı,
İkimizdə olduq hacı.

* * *

Sənəd verdik hər ikimiz,
Son gününü gözlədik biz
Noyabr iki min səkkizdə
Yola düşdük hər ikimiz.

* * *

Allah bizi dəvət etdi
Qardaşlarım kömək etdi
Hacı Taleh bələdçimiz,
İyirmi beş nəfərdik biz.

* * *

Gürcüstan, Türkiyə yolu,
Sehr edirik sağı-solu.
Allah bizə açıb yolu
Qəlbimiz sevinclə dolu.

* * *

Suriyada xanım Zeynəb,
Ziyarətin vurduq başa.
Peyğəmbər ziyarətinə,
Mədinəyə yollandıq biz.

* * *

Ruqiyəni, Səkinəni,
Bilalı ziyarət etdik.
Yetmiş iki şuadanın,
On altı başını gördük.

* * *

Simuzərəm qəlbim toxdu,
Ürəyimdə arzum çoxdu.
Minada kəsdik qurbanı,
Səkinəylə verdik eysanı,
Səy etdik səfa, mərvanı,
Təvat etdik biz Kəbəni.

ÖLÜMÜNƏ ÇATMADIĞIM ANAMA

Özüm gəlib çatsa idim,
Əllərindən tutsa idim,
Gözlərinə baxsa idim,
Qəlbini kövrəltsə idim,
Sənə ağlamazdım ana.

* * *

Rafiq, Bayram qəddin əydi,
Xuraman tez köç eylədi.
Fələk necə qan eylədi,
Yorğun düşüb qaçdın anam,
Sən də belə köçdün anam.

* * *

Sən Səxavət deyə-deyə,
Haray saldın yerə-göyə.
Dərd ürəyin yeyə-yeyə,
Dedin bala toy eləyim.
Məndə toydan sonra ölüm.

* * *

Gözlərin hey yolda qaldı,
Sənin xəyalın dolandı
Arzun ürəyində qaldı,
Telefonda izin qaldı,
Deyilməmiş sözüm qaldı.

* * *

Gəl ay bala toy eləyim,
Mən də ondan sonra ölüm.
Üstümdən ötübdü səmum,
Dəryada batıbdı gəmim
Simzar sənə qurban anam.

İKİ BACI

Həmişə qorumuşam ismətimi,
Allahdan istəmişəm qismətimi.
Ana olmaq arzusunda olmuşam
Arzum ürəyimdə yaşa dolmuşam.

* * *

Övladdan bağlasada əl qolumu,
Ziyarətgahlara açıb yolumu.
Gecələr dua etdik iki bacı
Onunçün Allah bizi etdi hacı.

* * *

Ziyarətgaha sidq ürəklə getdik,

Məkkə, Mədinəni ziyarət etdik
Həyatda çox dadmışıq ağrı-acı,
Sonda hacı olduq biz iki bacı.

* * *

Ulu tanrıya həmdi sənə olsun
Sonrakı həyatım sevinclə dolsun
Simuzər həyatdan küsgün olma sən
Məşəd, Haca, Kərbəlaya getmisən
Qalan ömrü namus, qeyrətlə yaşa
Ziyarətkahları təkrar vur başa.

VƏTƏN HƏSRƏTİ

Düşmən alıb torpağımı, daşımı,
Tamamilə itirmişəm başımı.
Artıb mənim dərd sərim, ağrı acım
Dərd-sərin əlindən mən hara qaçım?

* * *

Solubdu yanağım, ağarıb saçım,
Həmdəmim, rəfiqəmdi kədər bacım.
Dığalar dam-daşıma yiyə durub,
Ana, bacım evsiz, eşiksiz qalıb.

* * *

Hələlik görünmür bu işin sonu,
Sustlaşıb bədənim açılmır donu
Düşmən talan edib bağça bağımı
Pozub bostanımı, qırıb tağımı.

* * *

Simuzər də dözə bilmir bu dağa,
Vətənimdə ağalıq edir dığa.
Koroğlum, Babəkim, qoç Nəbim hanı?

Qıra düşməni bilinməyə sanı.
Məndə çatam muradıma, kamıma
Qovuşam mən vətənimə, elimə.

ATAM ÇƏPKƏZƏ

Doxsan üçdə itirdim, ata,
Yaşadım qəmə bata-bata.
Qəbri əmanətdi qürbətdə,
Adı dillərdə, söz-söhbətdə.

* * *

Atalar sözüydü hər sözü,
Vətənindən doymadı gözü.
Sözü duzlu, şirin, məzəli,
Sevmişdi Məryam tək gözəli.

* * *

O sevirdi el obasını,
Əsirgəməzdi duasını.
Xeyirxah idi hər bir işi,
Xoş idi sözü,həm gülüşü.

* * *

Simuzər sevir el-obasını,
Bacı, qardaş, ata-anasını.
İstəyir vətən aza dola,
Vətənə gedə üzü gülə.
O bağlıdır haqqın yoluna,
İstər torpaq azad oluna.

MÜXTƏLİF MƏZMUNLU ŞEYİRLƏR

NƏ ÇIXAR?

Müşgül işləri həll edir yaradan.
Ora-bura atılmaqdan nə çıxar?
Çalış eldə bir işə sən yara
Baş yoluban ağlamaqdan nə çıxar?

* * *

Nifrət edirəm özün öyənlərə
Dilinə, dininə xor baxanlara
Birinin əlindən tutasan gərək
Durub gözləməkdən sən de nə çıxar?

* * *

Eldən çıxıb, küsmə eldən, obadan
Çətin işi düzəldəndi yaradan
Bərkə düşəndə çıxırsan aradan
Daldalarda gizlənməkdən nə çıxar?

* * *

Yoxsulluq çətindir dözəsən gərək
Allah şükür deyəsən tapsan çörək
İşləyəsən əlində yaba, kürək
Boş oturub ağlamaqdan nə çıxar?

* * *

Əşir heç zaman sən atma vicdanı
Dostunla düşmənini sən seç, tanı
Ağlayıb sızlamaq adamı yıxar
Saçın yolub ağlamaqdan nə çıxar?

FƏRHAD KİMİ ÇAL KÜLÜNGÜNÜ

Torpağı yadlara qalan şayirin,
Qəzəbi çağlayıb, daşmъasa olmaz.
Qələmi süngüyə, şeyiri mərmiyə,

Dönməsə onun xalqa xeyri dəyməz.

* * *

Kağızı səngər bil, qələmi silah,
Yaz-yarat sənə kömək edər Allah.
Fərhad kimi daim çal külüngünü,
Sayma sən soyuğu, isti, bürkünü.

* * *

Torpaq şairləri torpaqsız ölməz,
Dəniz tək çağlayıb, daşmaya bilməz.
Tarix də böyük ləkə olar bizə,
Torpaq şairləri torpaqsız ölsə.

* * *

Qarabağ şairi onsuz qocaldı,
Şeirləri millətindən güc aldı.
Onların ümüdü Allaha qalıb,
Şam kimi əriyib, saralıb, solub.

* * *

Gözlərdən axan yaş leysandı, seldi,
Məzlum baxışları, kədərli haldı.
Cavan şairlərin saçları çaldı,
Odlu şeyirləri qatar-qatardı.

* * *

Qaçqın şairləri bir yasda gördüm,
Geydikləri qəmli libasda gördüm.
Əzizin itirmiş ata sayağı,
Gözləri süzürdü hey solu,sağı.

* * *

Gözlərində yuva salıb qüssə, qəm,
Dərdli şeirlərdən titrəyir qələm.
Onlar həm kövrək olub, həmdə zərif,

Tənqid xoşlayırlar, sevmirlər tərif.

* * *

Hansına baxırsan yasdı, yaralı,
Burda evi yoxdu, orda torpağı.
Saralıblar sanki payız yarpağı,
Üzləri gülər, alınsa torpağı.

* * *

Ürək həyəcandan çırpınır Allah,
Bu halda şairlik çətindi Vallah.
Bulanıq sular durulmasa əgər,
Könüllərdən gedərmi bu dərd, kədər.

* * *

Alim mürəkkəbi, şəhidin qanı,
Onlar doğmalaşa, birləşə gərək.
Şairlər qışqıra, bar-bar bağıra,
Qorxudun düşmənin bağrı yarıla.

* * *

Əşirəm yazıram yastı, yaralı,
Görünmür bizim dağların maralı.
Gəlmir igidlərin hayı, harayı,
Analar ağlayır yasdı, yaralı.
Ayağa qalxar qəhrəman ordumuz,
Vətənə gedərik gülər üzümüz.

ƏYƏ BİLMƏZ

Çox yıxılıb durmuşam,
Çox sınaqdan çıxmışam.
Mən olmuşam yenilməz,
Məni yaş əyə bilməz.

* * *

«Dost»lar məni aldadıb,
Salsalar dəmir tora
Vüqarımı qırmağa,
Onların gücü çatmaz.

* * *

Min oyun açsalarda,
Onlar mənim başıma.
Gəssədə məni almas,
Qəddimi əyə bilməz.

* * *

Əşir yaşar çörəksiz,
Günlərlə qalar susuz.
Açlıqda, susuzluqda,
Belimi əyə bilməz.
Getsə vətənim, elim,
Əyilər, sınar belim.

İŞLƏRİMİ KORLAMA

Tükənməz arzular, dərin arzular,
Dar çərçivə sevmir geniş arzular
İndi-indi işim düşür sahmana,
Ged əzrayıl işlərimi korlama.

* * *

Təzə-təzə qanad açıb uçuram,
Düşmənlərə «yağlı» tənqid yazıram.
Dost yolunda ölməyə mən hazıram,
Ged əzrayıl işlərimi korlama.

* * *

Gəlib ömrün qışı, qarı, şaxtası,
İndi açılır ürəyin buxcası.

Qoy yonulsun tabutumun taxtası,
Ged əzrayıl işlərimi korlama.

* * *

Gəl müqavilə bağlayaq, şərt kəsək,
Şərtimizi kişi kimi mərd kəsək.
Qoy bir işlərimi salım sahmana,
Ged əzrayıl işlərimi korlama.

* * *

Qız gəlinimi mən görüm həyalı,
Uşaqları halal süddən mayalı.
Nəvə görüm qolu zorlu, hələmə,
Ged əzrayıl işlərimi korlama.

* * *

Göz yaşı tökməsin bacı, analar,
Qan tökənlər cəhənnəmdə yanalar.
Canımızı gəlib alma zorlama
Ged əzrayıl işlərimi korlama.

* * *

Vaxtında gəlsən xoş gəldin deyərəm,
Kəfənimi öz xoşuma geyərəm.
Tabutuma gülə-gülə girərəm.
Ged əzrayıl işlərimi korlama.

* * *

Bəşiroğlu bir can borcludur sənə,
Gözlə vaxtsız gəlib girişmə mənə.
Bağışla məni sən yazı pozuma,
Ged əzrayıl işlərimi korlama.

QORUYUB SAXLAMADIN.

Mən ürəyin qeydinə qalammadım.

Həmişə qorumadım, saxlamadım.
Bilmədim sına bilər, yana bilər.
Mən ürəyi qoruyub saxlamadım.

* * *

Hər gələn ürəyimdən pay apardı.
Odu sönən ondan od, qar apardı.
Gələn ürəkdən bir tel apardı
Mən ürəyi qoruyub saxlamadım.

* * *

Harda yas gördüm ora qaçıb getdim,
Adamları basıb irəli keçdim.
Yaslarda mən hönkür-hönkür ağladım,
Mən ürəyi qoruyub saxlamadım.

* * *

Dərd dağında Fərhad tək külünk çaldım.
Hey ağlayıb ürəyi yüksə saldım.
Ürəyimi nisgildən qorumadım.
Onu mən əzizləyib saxlamadım.

* * *

Ağladım naləm asimana yetdi,
Nisgillilər naləmə qibtə etdi.
Qardaş gəldi, qohum gəldi, yad getdi.
Mən ürəyi qoruyub saxlamadım.

* * *

Qarabağ dərdini ürəyə saldım
Ürəyi mən kaman kimi sızlatdım.
Daim dərdlilərlə baş-başa verdim
Mən ürəyi qoruyub saxlamadım.

* * *

Əşir ürəyə qayğı göstərmədin,

Gözün kimi qoruyub saxlamadın.
Sən onu yükə salıb hey inlətdin.

Bəbəyin kimi onu saxlamadın.
Yavaş ağla səsin artmasın tonu
Gözlə artıq çatıbdır ömrün sonu.

ANA QUCAĞI

Olmasada odu ocağı,
Çox istidir ana qucağı

Anacan çox əzizsən mənə,
İsinirəm sığınsam sənə.
Sevirəm xalamı, bibimi.
Əmimi birdə dayımı
Olmasada odu ocağı
Çox istidir ana qucağı.

* * *

Nənəm nağıl danışır mənə,
Nağılı yığıram sinəmə.
Dədəm oyuncaq alır mənə,
Atam dözsədə hər nazıma,
Olmasada odu ocağı,
Çox istidir ana qucağı.

* * *

Acıqlanıb döyəndə anam,
Məni bağrına basır nənəm.
Müdafiyə etsədə dədəm,
Məni ovundursada atam,
Olmasada odu ocağı,
Çox istidir ana qucağı.

* * *

Əşir yaşın çatsada yüzə
Var dövlətin sığmasa düzə
Vurulsanda sən saza sözə
Anasız dönərsən bir heçə
Olmasada odu ocağı
Çox istidir ana qucağı.

XOCALI FACİƏSİ

Doxsanıncı ilin qışında,
Fevralın şaxta ayazında,
Soyqırım oldu Xocalıda,
Qırıldı uşaqda, anada.

* * *

O erməni vəhşilərinə,
Kömək etdi «qızıl ordu»muz.
Ana və uşaq naləsindən
Qan ağladı gözəl yurdumuz.

* * *

Şaxtalı fevral gecəsində
Qırıldı uşaqlar, analar,
Soyqırım edənlər yanalar,
Onları al qana boyanalar.

* * *

Millət istəmir qan tökülə,
Anaların beli bükülə.
Azəri şirləri oyanar
Düşmənlər öz qanına boyanar.

* * *

Erməni maskası altında

Mənim xalqımı qırdı ruslar.
Erməni dəyənəyi ilə
Azəri xalqını vurdu ruslar.

* * *

Əşir necə çəksin, bu dərdi?
Qürbət onun qəddini, əydi.
Qovsa düşməni milli ordu
Azad görərik doğma yurdu.

ARZUYA ÇATAQ

Dostlar ataq dərdi-qəmi,
Gözümüzdən silək nəmi.
Badələri süzüm içək,
Dərddən qəmdən uzaq qaçaq.

* * *

Nisgili salmayaq saya,
Qəm-qüssəni ataq çaya.
Çox içək, allanıb gedək,
Şənlənib, şadlanıb gedək.

* * *

Sanki dərd qəm heç yox imiş,
Sevinc bizdə çox bol imiş.
Arsız ol allanıb gedək,
İçib xumarlanıb gedək.

* * *

Əşir, vətən çıxmaz yaddan,
Sən danışma kefələn, toydan.
Birləşib Vətəni alaq,
Toy edib arzuya çataq.

BİZİM DAĞLAR

Vaxt tapıb görüşə bilmədim,
Yarı canım qaldı sizdə dağlar.
Sinən üstəki ayaq izlərim,
Bir xatirədi, xəyaldı dağlar.

* * *

İsti su Əşirdi, qalıbdı darda,
Çox pərişan, qəmli baxır oda.
Yaman atılıb düşmüşəm oda,
Dünyadan bezmişəm özüm dağlar.

* * *

Yağı düşmən səni etdi əsir,
Allahım göstərə möcüzə, sirr.
Hələ gözlərim düşməmiş nurdan
Gəlib görə biləm sizi dağlar.

* * *

Pərişansan başında duman, çən,
Ağlama sənə qurban olum mən.
De, solubmu lalə, nərgiz çəmən?
Daha yoxdu məndə dözüm dağlar.

* * *

Tezliklə biz ara gələcəyik,
Üstündən gül-çiçək dərəcəyik
Səni sağ-salamat görəcəyik,
Dözmüsən, yenə döz, bizim dağlar.

* * *

Mən Əşirəm, qəmli çalan sazam,
Nə payızam, nə qış, nə də yazam,
Bilmirəm, ölmüşəm, yoxsa sağam,
Dərmanım ancaq sizdədi dağlar.

OLACAQDIR

Bu dünyada olsa həmdəmim dərd olacaqdır,
Dərd olmasa həmdəmim görən nə olacaqdır?

Yağıya aman yoxdur ürəyim sərtdir mənim,
Düşmənə nifrətim həmişə bol olacaqdır.

* * *

Alçağa, nadana, naqisə öyüd kar etməz,
İllər keçsədə erməni düşmən olacaqdır.

* * *

Qisasa qisas Həzrət Əlidən miras qalıb.
Bizdəndə sonrakılara miras qalacaqdır.

* * *

Gəzməyə qərib ölkə ölməyə vətən yaxşı
Müdrik atalardan bu yadigar olacaqdır.

* * *

Aqillərdən bizlərə çoxlu kəlamlar qalmış
Bizdən sonrakılara qalan nə olacaqdır?

* * *

Əşir sən tənbəllik eləmə, sarıl qələmə
Səndən nəsillərə qalansa söz olacaqdır.

İSTEDADLI HƏKİM

Neftçilər xəstəxanasının ürək həkimi Tahirə xanıma

Ürəyim baxmayanda sözümə,
Qaranlıq çökür gözümə.
Tahirə həkim yetirir özün,
Zilləyir mənə gözün.
Yenə özünə baxmamısan,

Sən möhkəm soyuqlamısan.
Dərhal tutur nəbzimi
Sayı: -Bir,iki, beş, on, səksən,
Bəsdir inadından əl çəksən!
Axı belə yaramaz!
Sənə düşünmək olmaz!
Gəl sən özünü üzmə!
Açıq yoluna tikanlar düzmə!
Kor etmə gözünü
At bu yazı, pozunu.
İnsan bir dəfə,
Gəlir cahana.
Bir az yatıb,
Rahatlansana!
Hey xəyala dalırsan,
Axı sən ürəyi yükə salırsan.
Düşüncələrim mənim,
Sərhəd tanımır həkim.
Elə hey uçur
Gələcək aləmə.
İşıq salır mənim
Qaranlıq dünyama.
Əgər ürək doludursa
O, şeirə boyludursa
Onu boşaltmasam
Olarmı?
Qaranlıq yoluma
İşıq salarmı?
Sən ürəyin dilini
Bilsən əgər

Bu qədər
Canfəşanlıq
Edərsən məgər?
Deyərsən yaz, yarat
Dolmuş ürəyini
Vaxtında boşalt.
Qoy bütün arzuların
Gül açsın.
Səndən sonra
Şeirlərin
Yadigar qalsın.
Əşir yazıb
Yaradasan gərək
Əgər yazmasan
Partlar ürək.
Şeirindir
Səni dərddən qaçıran
Qanadlandırıb
Göydə uçuran.

GÖZƏL HƏKİM VƏ GÖZƏL İNSAN

İrkutski şəhərinin Lenin rayonunda yerləşən mərkəzi xəstəxananın kardeoloъi şöbəsinin şöbə müdiri tanınmış həkim Svetlana Nikalayevnaya ithaf edirəm.

İki min səkkizin yayı,
Gözəl İrkutski şəhəri,
Balaların yanındayam,
Mən kefimdə halımdayam.

* * *

Ürəyim baxmır sözümə
Qaranlıq çökür gözümə
Balalar itirir özün
Qəmdən mənə dikir gözün.

* * *

Qoyurlar xəstəxanaya
Uzadırlar çarpayıya
Mən itirirəm özümü
Aça bilmirəm gözümü

* * *

Tanınmış ürək həkimi
Həmin şöbənin müdiri
Svetlana Nikalayevna
Əlini qoyur alnına.

* * *

Rengenə salırlar məni,
Şərh edirlər infaktımı.
Həkim baxır qəmgin olur,
Balaların gözü dolur.

* * *

Zən edir dili bilmirəm,
Dediyi sözü qanmıram.
Üz tutur Mazı balama,
Yanır mənim bu halıma.

* * *

Atanıza baxmamısınız,
Öldürüb gətirmisiz.
Ayrı olsada dinimiz,
Birdir bizim Allahımız.

* * *

Göstərir «UZİ» apparat,
Çox dəhşətli keçib infakt.
Sağalmağa azdır inam,
Yalnız Allahadır güman.

* * *

Ağrılara dözə-dözə,
Məyus oluram bu sözə.
Qurbətdə yumsam gözümü,
Görmərəm madar qızımı.

* * *

Sözdən gələrək özümə,
Baxıram onun gözünə.
Həkim yatıb mənim bəxtim,
Qürbətdə haqlayıb ölüm.

* * *

Həkim Vəcdə gəlir sözdən,
Məyus olur üzdən, gözdən.
Bu bilirmiş bizim dili,
Mən başıma qoyum külü.

* * *

Mən nə böyük günah etdim,
Olanın xəstəyə dedim.
Həkim günah etməmisiz
Yalnız olanın demisiz.

* * *

Ağır xəstəm olub mənim,
Çox dada yetib Allahım.
Edəcəm nə gəlsə əldən,
Ümüd üzməyək Allahdan.

* * *

Gözün tikir gözümə,
Əlin qoyur nəbzimə.
Qaydasında vurur nəbzin,
Özünü üzmə əzizim.

* * *

Şir ürəyidir ürəyin,
Yerə dəyməyib kürəyin.
Elə bil Rüstəmi zalsan,
Sən əsil bir pəhləvansan.

* * *

Zarafata keçir həkim,
Könlümü almaq üçün mənim.
Sağalıb gedərsən bizə,
Mən sənlə gedərəm sizə.

* * *

Svetlana yanımı kəsdi.
Sutkalarla üstümdə əsdi.
On günə sağalıb durdum,
Balaları gülər gördüm.

* * *

Baykalda məclis quruldu
Əziz qonaq Sveta oldu.
Şərəfinə tost deyildi.
Sevincdən gözləri doldu.

* * *

Rəqsimiz xoş gəldi ona,
Atılıb girdi oyuna.
Gəlinlər həkimi öpdü.
Dostluq öz yerini tapdı.

* * *

Əşir çox sevindi buna,
Həkimlə girdi oyuna.
Biz ailəvi dost olduq
Çətin gündə dayaq durduq.

İrkutski şəhəri: 22.08.2008

NAXÇIVANIM

Naxçıvanım!
Yurdumun əzəlisən
Cilvələnmiş
Azərbaycan gözəlisən
Memarlığın zirvəsinə
Əcəmilər gətirmisən .
Sənətin ahənginə
Sənətkarın nəhəngini
Gətirmisən.
Cavidimin rübabından
Yaranmısan.
Bəhruzumun fırçasından
Boyanmısan.
Məməd Səid sənətilə
Nəsrə şeir ahəngini
Gətirmisən.
Mirzə Cəlillər yetirmisən.
O ustanın
Timsalında
Sözün meydanına
Satiranın çələngini
Gətirmisən.

Sənətkarın nəhəngini, yumorun incəsini
Gətirmisən.
Əşir deyir:
Sinəndə xəzinə
Yatıbdır.
Nuhun gəmisi
Səndə batıbdır.
Şəfalıdır asəbi kəfin
Övluyalar orda
Olub dəfin.

73 YAŞIM

3 noyabr 2008-ci ildə
73 yaşım tamam oldu.

Dərdə sərə qarışıqdı başım,
Gəlib çatdı 73 yaşım.
Dünyadan köçdü tayım-tuşum,
Uzaqlaşdı tale ulduzum.

* * *

Qışa döndü ömürün yazı,
Qopdu teli, boş qaldı sazı.
Kəsildi quşların avazı,
Daha gülmür bizlərin üzü.

* * *

Nə ağırmış Vətən dərdi
Bu dərd mənim belimi əydi.
Nadan baxıb özünü öydü,
Aqil yanında gözün döydü.

* * *

Düzəldə bilmirəm belimi,

Dünyadan üzmüşəm əlimi.
İtib mənim o şux yerişim,
Dodağımdan qaçıb gülüşüm.

* * *

Oğul dərdilə Vətən dərdi,
Qoşalaraq məni əydi.
Anası daim fəryad etdi,
Dözəmmədi dünyadan getdi.

* * *

Hələ dözürəm qəlbi «daşam»,
Sevincdə yox, kədərdə başam.
Gecə-gündüz sızlayır yaram,
Harda dərdli görsən mən varam.

* * *

Körpə ikən itirdim ata,
Göz yaşım oldu mənə buta.
Qarlı dağları aşa-aşa,
Gəlib çatdım 73 yaşa.

* * *

Mən ağladım özümü üzdüm,
Ölmədim çətinliyə dözdüm.
Ah-vayla ömrü vurduq başa,
Əzabla çatdım 73 yaşa.

* * *

Çətinmiş oğul, Vətən dərdi,
Ürəyimin yağı əridi.
Hara baxıram dərd, kədərdi
Yetmiş üç yaşım ağır gəldi.

* * *

Oğul vədə əməl etməsəm,

Obama elimə getməsəm,
Məzarına torpaq qatmasam,
Ölmərəm Vətənə çatmasam.

* * *

Çoxdan ömür əzabla keçir,
Dərd-qəm həmişə məni seçir.
Yaşıdlarım dünyadan köçür,
Niyə Əzrayıl məndən qaçır?

* * *

Əşir yazma yasdı-yaralı,
Gələr o yerlərin maralı.
Başlar ellərin cəh-cəlalı,
Düşmən al qanına boyanar,
Gül-çiçəkdən baxça –bağ yanar
Sənin yatmış bəxtin oyanar.

HƏQİQƏT GÜCLÜDÜR

Həqiqət ucadır ən uca dağdan,
Onu dırnağınla çıxart torpaqdan.
Həqiqəti yay sən bütün dünyaya,
Həqiqət yalanı salmasın saya

* * *

Bəzən quyuda gizləyirlər haqqı,
Sən dırnağınla çək çıxart dustağı.
Yalanlar, məkrlər, qorxaqdı, suçludu,
Min yalandan bircə doğru güclüdü.

* * *

Vicdanlılar seçir ağı qaradan,
Eləsinə kömək durur yaradan.
Qansızları tutsun Vətən çörəyi,

Gözün kor eləsin duzu, xörəyi.

* * *

Bəziləri üzür yalan içində,
Gizləyir onun əyrisin, suçunda.
Bulanlıqdan satlıq axtarır yazıq,
Bəzən ayılsada gec olur artıq.

* * *

Sözdən işə keçməlidir həqiqət,
Haqq yolunda candan keçəsən gərək.
Həqiqət döyüşçüsü olsa insan,
Hara getsə işləri olar asan.

* * *

Ürəyi vicdanı yalanla dolan,
Vəzifə naminə yıxılıb ölən.
Para üçün əyri yollara gedək.
Ölməmiş ürəkdən silinib gedər.

* * *

Qəhrəmanlar gəzərlər gülər üzlü,
Topdan, tüfəngdən dəfələrlə güclü.
Qorxaqlar, yaltaqlar görünər suçlu,
Həqiqət yalandan həmişə güclü.

* * *

Qəhrəman ölümü ürəyi dağlar,
Yer alışıb yanar, aləm qan ağlar.
Hər ana onu öz balası sanar,
Gecə-gündüz ağlayıb onu anar.

* * *

Döyüşdə əzilsən basılsan belə,
Hədəfə bax silahı qoyma yerə.
Məşəl ol Vətən yolunda alış, yan,

Unudulmaz vətən üçün axan qan.

* * *

Susmaz insan torpağı olsa qərat,
Əşir susma həqiqəti yaz, yarat.
Qələminlə xalqı səslə döyüşə,
Bəlkə ölməz ruhlar sənlə barışa.

BORCLUYAM

Yaranan gündən günəşə borcluyam.
Gecə işıq verən aya borcluyam.
Bol nemət verən torpağa borcluyam,
Məni yaradan Allaha borcluyam.

* * *

Adi elektriki kəşf edənlərə,
Kompası, xəritəni yaradana,
Torpağa taxıl əkən əkinçiyə,
Yaradıcı insanlara borcluyam.

* * *

Alın təri ilə taxıl əkənə,
Suvarıb, becərib yetişdirənə,
Bostan əkib, bağ salıb, yol çəkənə,
Cəmi zəhmətkeş insana borcluyam.

* * *

Əşirə sən güc qüvvət ver Allahım
Fərhad kimi külüngümlə dağ çapım
Ara qatanları axtarıb tapım
Onların kökünü qazıyıb atım.

ŞADLANARAQ GÜLƏK

Gəlinim Gülzar xanımın ad gününə ithaf edirəm.

Çox sevinirəm mən bu ad gününə,
Gəlinimin sevimli şad gününə.
Qohumlarla qeyd edirik bu günü,
Arzumdur sənin yüz yaşını görək,
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Evimə xeyir bərəkət gətirən,
İlk nəvə sevincin bizə yetirən,
Gəlinimizə biz çox sağ ol deyək.
Arzumdur sənin yüz yaşını görək.
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Qaynata, qayınənə yolu saxlayan,
Qohum, əqrəbəni tez-tez yoxlayan,
Gəlinin üzü həmişə ağ olsun.
Arzumdur sənin yüz yaşını görək
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Qayınlara, baldıza hörmət edən,
Doğma balaların qeydinə qalan,
Gəlinin ətrafı gül-çiçək olsun.
Arzumdur sənin yüz yaşını görək
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Həyat yoldaşının qeydinə qalan,
Dar gündə ona arxa, kömək olan,
Gəlinmizin işləri avand olsun.
Arzumdur sənin yüz yaşını görək
Doğmalarında bir şadlanaq gülək.

* * *

Dostlar yeyin-için oynayın, gülün,
Bizim sevincimizə şərik olun.
Gəlinimin arzuları çin olub,
Balaları ali məktəbə girib.
Arzumdur sənin yüz yaşını görək
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Dözə çətinliklərə bərkə boşa,
Ailə həyatın yaşaya qoşa.
Günləri belə çal-çağırla keçə,
Pis günlərin sayı yenə neçə.
Arzumdur sənin yüz yaşını görək
Doğmalarınla bir şadlanaq gülək.

* * *

Əşirin sevinci qaynayır daşır,
Oynayanlar əl-ayağa dolaşır.
Gəlinim yaşa dolur, püxtələşir,
Ağlı yetginləşir və kamilləşir
Arzumdur sənin yüz yaşını görək
Doğmalarınla bir şadlanaq gülək.

13 dekabr 2008

GƏNCLİK GƏLİR

Düşünürəm həyatda kimlər güclüdür?
Böyük məslək, əməl sahibi güclüdür.
Öz xalqını vətənini düşünənlər,
O, yolda ölümə gedənlər güclüdür.

* * *

Təbrizimlə Bakıya fərq qoymayanlar,
Hər ikisin Vətən sayanlar güclüdür.

Xalqı ilə bir ağlayıb, bir gülənlər,
Sərvətinə qiymət verənlər güclüdür.

* * *

Keçilməz sədləri döyüşüb keçənlər,
Vahid Əlifba istəyənlər güclüdür.
Məkirli düşmənlərə qəbir qazanlar,
Döyüşdə mərdliklə ölənlər güclüdür.

* * *

Əşir nə yaxşı ki, güclü gənclik gəlir.
Laxladır planeti, qorxmaz gənclik gəlir.
Onun qəzəbindən tufan, çovğun susur
Düşmənlərimiz qorxusundan qan qusur.
Külüngü ilə dağ çapan gənclik gəlir.
Qəzəblidir yerdən, göydən incik gəlir.

MÜKAFAT UMMA

Mükafat umur hər bir insan,
Xalqın işinə yarayanda.
Onun ağlayan gözün silib,
Pırtlaşıq saçın darayanda.

* * *

Özün oda közə vuranlar,
Xalq üçün yaradıb, quranlar.
Hər dərdinə şərik olanlar,
Xalqdan mükafat ummalıdır.

* * *

Xalqından təşəkkür ya sağ ol.
Ya da bir dəstə gül uman var.
Qasırğalara sinə gərib,
Xalqının yolunda ölən var.

* * *

Əşir eldən mükafat umma,
Onun dərdinə sən göz yumma.
Vətən üçün yansan yaşayarsan.
Daim elindən güc alarsan.
El yolunda ölən ucalır.
Xalqın yaddaşına həkk olur.

SINDIRMA BELİMİ

Günlərin bir günü getdim redaksiyaya mən
Qoltuğumda şeirim, əlimdə dəftər, qələm,
Verdim məsul katibə tənqidi seyrimi,
Gözləri doldu dedi: sən sındırma belimi.

* * *

Əlləri əsə-əsə kənara qoydu onu,
Dedi: -Hələ qalsın görək necə olur sonu.
Elə bu anda bir söz qopdu dodağımdan,
Qırxaqdırlar! Çirkli qan axır damarlarından.

* * *

Otuzun, otuz altının qalığıdır bunlar,
Onları qorxudur həqiqi yaşlar və toylar.
Yasda molla, toyda çal-çağır olmasın gərək,
«Belə olsa bizdə yeyərik bir tikə çörək».

* * *

Məni qorxutmur nə tüfan, nə qar, nə uraqan,
Nə vəhşi heyvanlar: Ayı, şir, pələng və ilan.
Nə zəlzələ, nə yanğın, nə qasırğa, nə tüfan,
Məni qorxudur yalnız rəzil, ağciyər insan.

* * *

Satqını, yaltağı, alçağı olan ölkənin,
Çörəyi olsada, qüruru mənliyi olmaz.

Bəzən qorxaq, rəzil, satqın, sürünən alçağın,
Sözündən qanı axıdılar qəhrəmanların.

* * *

Əşirəm qəhrəmanlığım olmasada mənim,
Heç olmasa var mənliyim və iti qələmim.
Satqının, paxılın açıram mən iç üzünü,
Qələmimlə mən tökürəm onların gözünü.

ƏL ÇƏK YAZI-POZUDAN.

Bəzən mənə rişxənd edirlər,
Qocalmısan yazı-pozudan,
Daha əl çəksənə deyirlər.
Korşalmısan gözdən, qulaqdan,
Əl çək adama sataşmaqdan.

* * *

Əgər siz baxsanız güzgüyə
Şəbətə deməzsiz özgüyə.
Qoysanız qabağa güzgünü,
Görərsiz yazıram düzünü.
Tökürəm paxılın gözünü.

* * *

Zəyifləyibsədə dizlərim,
Nurdan düşübsədə gözlərim,
Hələ əsmir mənim əllərim.
Alçaqdan, satqından yazıram,
Xəbislərə qəbir qazıram.

* * *

Əşir baxma əğyar sözünə,
Qələmi-sinər et özünə,
Nöqsanları yaz çıxart üzə.

Satqınlar qorxudan əsəcək,
Qoxma düz əyrini kəsəcək.

QALDI

Ömür tez qutarıb sona yetdi,
Deyilməmiş çoxlu sözüm qaldı.
Sehir elədim aranın dağın,
Gözəl qızlarında gözüm qaldı.

* * *

Çaldım incə tarını, sazını,
Gördüm gözəlin incə nazını.
Sevdim quşlarının avazını,
Xınalı kəklikdə gözüm qaldı.

* * *

Laləsin, nərgizin dərmədiyim,
Gəzmədiyim dağım, düzüm qaldı.
Hələ üzmədiyim, gəzmədiyim,
Çoxlu çayım, yal, yamacım qaldı.

* * *

Hələ doymayıb dünyadan gözüm,
Qalmayıbdı məndə taqət, dözüm.
Yazılmamış çoxlu kitablarım,
Deyilməmiş xeyli sözüm qaldı.

* * *

Əşir alınıb torpağın, daşın,
Artıq axıra çatıbdı yaşın.
Qürbət diyarda qardaşın, bacın.
Vətəndə ocağın, pirin qaldı.

NECƏ DANIŞIM

Yaradan həmişə zalıma yanır.

Dərdimə yanmayan halıma yanır.
Zalım fağıra verərsə, bir həsir.
Aləmə bəlli olar bu «gizli sirr».

* * *

Tar-mar olubdur mənim taxtı, tacım,
Ağlar qalıb yoldaşım, ana-bacım
Dərd-qəm olub sirdaşım, yol yoldaşım .
Dərd əlindən bilmirəm hara qaçım.

* * *

Qəlbim tarı-mardı, göz yaşı seləm,
Dərd bilən gəzirəm drdimi deyəm.
Simi qırıq, özü sınıq bir neyəm,
Danışa bilmirəm elə bil keyəm.

* * *

Əşir dərddən yanır-yaxılır yaman,
Xüdayə yetişibdir nə pis zaman.
Yanımdan gülüb keçir «dost-tanışım»
Yox halım soran, mən necə danışım.

DANIR

Yaddan çıxıb vətən alanı yoxdu,
Yeyib dağıdanı, talanı çoxdu.
Acgözlər öz vətənini unudub.
Pulagirlər Vətən andını danıb.

* * *

Haqqın ağzı qıfıllanıb danışmır,
Pul yığanlar kasıblarla barışmır.
Varlılar vətənin varını anır,
Onun tapdaqdakı torpağın danır.

* * *

Nankordu ancaq varını görənlər,
Pula mala vicdanını satanlar.
Cəbhədəkilər vətənini sevir
Vicdansızlar isə vətəni danır.

* * *

Əşir deyir mən çox vətəncanlıyam,
Düşmənə sərt, dosta istiqanlıyam.
Qoyma Vətən oğlu Vətən tapdanır,
Düşmən nankordu haqqı-sayı danır.

SAĞ OL MİRZƏ XƏZƏR

1990-cı ildə Moskvada həbs edilmiş Xəlil Rzanın müdafiəsinə qalxmış Mühendəki «Azadlıq» radiostansiyasının əməkdaşı Mirzə Xəzərə

Lefortova zindanı
Udmuş neçə
Qəhrəmanı zəkanı
Divarlarının qatları
Çoxdur
Gecəsi, gündüzü,
Saatı, sutkası,
Yoxdur.
Xəlil Rza Ulutürkdə
Atılmışdı məhbəsə.
Elə bil ki, qartal
Salınmışdı qəfəsə.
Nər bağlanmışdı
Dizindən.
Onu ora salanlar
Olsun gözündən.
Şair fikirləşir,

Əlində qələm.
Gözü önündən keçir
Küllü aləm.
Yazmaq istəyir
Çatmır hövsələsi.
Az qalır qəzəbindən
Dağıda məhbəsi.
Qəflətən eşidilir
Mirzə Xəzərin
Doğma səsi.
O səs sanki işıqlandırır
Qaranlıq məhbəsi.
Eşidənlər vurulmuşdu
Onun haqq səsinə.
Sanki dünya qalxmışdı
Şairin müdafiəsinə.
Orda iştəyənlərin
Başı boşdur,
Ağlı dayaz.
Ora gedən çoxdur
Qayıdansa az.
Ora xəbər gedə bilməz.
Ordan xəbər gələ bilməz.
Nə bir səs,
Nə bir isti nəfəs,
O qapıdan
Girə bilməz.
Orda adamların
Üzü gülməz.
Bu qaranlıq zindanı

Üfünəti, zülməti,

Mirzə Xəzər

Necə yardı sənin səsin?

Şimşək təkin

Çaxdı sənin səsin!

İldırımdan güclü çıxdı

Sənin doğm səsin.

Sal qayadan da möhkəm

Məhbəs divarların

Yarıb keçdi sənin səsin.

Ali efir cəbhəsində

Dayanan əsgərim!

Zindanları, məhbəsləri

Yarıb keçən müqəddəsim!

Qara buludları

Yarıb keçdi sənin səsin!

Xəlil Rza ürəyinə

Şeh çilədi sənin səsin!

Efirdən gələn

Qəzəbli səsin

Qorxu saldı

Xəbir ürəklərə

Bu səs güc verdi

Xəlil Rza ürəyinə.

Sanki, bütün dünya

Əl qoydu

Şairin kürəyinə.

Elə sandım ki,

Dünyanı qaldırmısan

Ayağa sən!

Xəlil Rza bayrağını
Ucaltıman göylərə sən!
Səsin boğub
Məkrləri, yalanları!
Yerin deşiyindən
Çıxartmısan ilanları!
Qəzəblə pisləmisən
Hiylələri, yalanları,
«Yenidən qurma»nı
Aldadıcı planları,
Qorxur qəzəbindən
Ağa qara deyənlər!
Alyaskadan, Tallinəcən
Fitnə-fəsad
Yalan yayanlar.
O, iblislər, o ilanlar!
Çernabılı viran qoyub,
Dünyadan kömək
İstəyənlər.
Mirzə Xəzər, Əkbər Aran,
Viktor-Alya, Vadim-Ъenya
Mən qucaqlayıb
Öpürəm sizi.
Bir dost kimi
Sıxıram əllərinizi.
Sizi yüz yaşayın
Mərdi əziz tutanlarım,
Haqqı qoruyanlarım,
Məzlumların harayına
Yetənlərim.

Dərdlərini gizli çəkib
Sevincini bölənlərim.
Ryazanın, Göyçənin
Bircə ovuc torpağına
Həsrət qalan
Nakamlarım.
Canım, gözüm
Şirin sözüm
Candan əziz
Bacılarım, qardaşlarım.
Məslək arzu yoldaşlarım.
Ac susuz qalsaq belə
Haqqı, ədaləti
Qoymayaq qala dala.
Mirzə Xəzər!
Sən haqq səsinlə
Dağıt zindanları,
Zülmətləri, qaranlıqları.
Qaz üzə çıxart
Çeşmələri, bulaqları.
Möhkəm tut
Əlində mikrafonu.
Qoyma susa
Hava, efir salonu.
Hələ çoxdur sərhədlər,
Tikanlı çəpərlər,
Müstəqillik maskası
Taxmış müstəmləkələr.
Ölməyib köləlik
Hələ canı var.

Çoxdur dünyada
Quzu cilidli canavar.
Hələ yaşayır
Dünyanı atomla
Hədələyənlər.
Tankla, topla
Viran qoymaq
İstəyənlər.
Yenə də var
Öz səadətini
Müharibədə görənlər.
Azadlığı zülmətlərdə
Boğmaq istəyənlər.
«Yenidən qurma» sözü
Cana gətirib bizi.
Bu sözün mənasından
Usanmışıq düzü.
Qoy davam etsin
Xəlil Rza döyüşü!
Mirzə Xəzər döyüşü!
Viktor-Alya,
Vadim-Ъenya,
Əkbər aran döyüşü!
Haqq qalib gələcək
Siz davam etdirin
Yürüşü.
Qoy dünyanı laxlatsın
Mikrafon, qədəm döyüşü.
Mirzə Xəzər,
Xəlil Rza döyüşü!

Əşir öpür hamınızı
Bir dost kimi
Sıxır əlinizi
Möhkəm dayanaq,
Duraq
Həqiqətdən bir
Heykəl quraq.

HAQ ƏDALƏT OLAN YERDƏ

Ürəklərdə məkr yoxdursa,
Qara qızlar göyçək olar.
Yalan donub gerçək olar,
Haqq-ədalət olan yerdə.

* * *

Həmişə bahar-yaz olar,
İnsanlar xoş avaz olar.
Qarılar dönüb qız olar,
Haqq-ədalət olan yerdə.

* * *

Tonlar əriyər martında,
Namərd ödər mənd altında.
Naqis, yaltaq ölüb itər,
Haqq-ədalət olan yerdə.

* * *

Atom enerъiyə dönər,
Yer üzü çıraqban olar.
Maşın atomla işləyər,
Haqq-ədalət olan yerdə.

* * *

Əşir haq-ədalət istər,
Haqsızlığa nifrət edər.
Üzlərdən sevinc yağar,
Haqq-ədalət olan yerdə.

DEYƏRLƏR

Gur yansın elimin ocaqları,
Sönməsin, sönərsə qor deyərlər.
Gür axsın elin bulaqları,
Quruyarsa ona kor deyərlər.

* * *

Ürəyimiz duyğusuz olmasın,
Duyğusuz ürəyə daş deyərlər.
Arzular qanad açmasa əgər,
Arzusuz ürəyə boş deyərlər.

* * *

Əşir vətənini görmək istər,
Vətən yollarında ölmək istər.
Vətənsiz insan yuvasız quşdur,
Yurd-yuvasıza qərib deyərlər.

VƏTƏN, ODUNDA QIZINIM.

Burda havam çatmır, canı xəstəyəm,
Ömür qurtarıb daha mən nəsdəyəm.
Kəssədə yanımı qızım, gəlinim,
İstərəm Vətən odunda qızınım.

* * *

Baykal olsada ən gözəl, dərin göl,
Mənə əzizdir Maral göllə Göy göl.
Gecələr yuxuda dönürəm elə,
Ayla günəş üzümə salır kölgə.

* * *

Sağ-salamat getsəm Azərbaycana
Odlar diyarı dönər gülüstana.
Mən hələ uşağam Vətəndir ana
Kaş ki, Vətəndə ömür yetə sona

* * *

Vətənsiz mən ölə bilmərəm inan
Ancaq Vətənimə qalıbdır güman.
Quş olsun tək qanadlada uçaram,
Vətəni bağrıma basıb qucaram.

* * *

Yoluma yüzlərlə əzrayıl çıxa
Gücü çatmaz məni qürbətdə yıxa.
Mən and içirəm günəşli yurduma,
Mütləq dönəcəm Azərbaycanıma.

* * *

Əşir doğma Vətənsiz üzün gülməz,
Ağlasan göz yaşını silən olmaz.
Dörd bir yanın olsada yaqut, almas
Vətənsiz onlar bir qəpiyə dəyməz.

İrkutski avqust 2008

KATİBƏ QIZ

Bir gün işim düşdü bir idarəyə,
Səssizcə yaxınlaşdım katibəyə.
İşdə yoxdur müdürüm bu gün dedi,
Utanıb qızarmadan yalan yedi.

* * *

Çay dəmləyib aparanda müdirə,
Qapıdan eşitmişdim səsini də.
İlk baxışdan al dodaqlı mələkdi,

Sonra bildim zəncirlənmiş köpəkdi.

* * *

Nə qədər getdim gəldim olmaz dedi,
İşi var qəbul etmir yenə dedi.
Dəfələrlə buraya ayaq döydüm,
Olmaz deyib mənə qaş-qabaq tökdü.

* * *

Bir gün gözlədim onu çöl qapıda,
Dedim tutaram yeməyə çıxanda.

Sonra məni görüb gülümsündün sən
Bildim ki, dal qapıdan ötürmüsən.

* * *

Bir gün səni küçə süpürən gördüm,
Uğunub getdim mən, gülməkdən öldüm.
Bildim müdiri işdən çıxardıblar,
Səni də götürüb çölə atıblar.

* * *

Əşir görübdür belə qansızları,
Diri-diri ölən vicdansızları.
Özündən aşağıya «xoruzlanıb»,
Yuxarılara yazıqlaşanları.

GÖZƏLDİR YAYI

İrkutsk şəhərinin gözəldir yayı.
Meşədə meyvəsi, göldə balığı.
Gül çiçəkdir onun bağçası bağı
Barquzinin tükənməzdi qoruğu.

* * *

Anqara şəhəri bölübdür yarı,

Çaydan su içən bağ çox verir barı.
Çox qısadır yazı, yayı
Əvəzsizdir bu diyarın hər çağı.

* * *

Göy göl kiçik qardaşıdır baykalın,
Xəzər çox genişdir, Baykalsa dərin.
Gözəllikdə tayı yoxdur bu yerin.
Yayı çox səfalıdır, gözəl, sərin.

* * *

İnsanlar səmimi, mehriban, həlim
Qonağa məhəbbətləri çox dərin
Səxavətdə tayı yoxdu onların,
Dövlətdə işlək gördüm qanunların.

* * *

Həkimlər səmimi, biliklər dərin,
Ürəyin əla alır xəstələrin.
Əşir xəstəliyin sağaldı burda.
Bu diyarı unutma ömüründə.

İrkutski avqust 2008

UNUDULMAZ DİYAR

Anqaranın suyu təmizdir, həm də sərin,
Yeniseydi mənsəbi, Baykaldan alır mənbəyin.
Büllür suyu təmin edir səhər əhalisin,
Saymaqla qurtararmı vətəkəsin, balığın.

* * *

Şəhərin ortasından axıb bölür ikiyə,
Ağaclar əkilib hər küçəyə, hər səkiyə.
Bol sudan içən bağlar valeh edir adamı,
Gözəldir bu yerin həm gündüzü, həm axşamı.

* * *

Gəmiylə gedirlər oblastın hər bir tayına,
Çatırlar bir-birinin həm yasına, həm toyuna.
Çayda üzən gözəl gəmilər gəlmirlər saya,
Yaraşıq verirlər həm gölə, həmdəki çaya.

* * *

Burda adamlar mehribandı isti qanlıdı,
Həm səxavətlidi, həmdəki qonaqcanlıdı.
Mehriban, canıyanandılar qohuma dosta,
Əzizləyib saxlarlar sən olsanda xəstə.

* * *

Əşir Vurğunudur bu gözəl, gülşən diyarın
Allah əsirgəmə bunların suyun, çörəyin.
Ləzzətindən doymaq olmur çərəzin, xörəyin,
Getsəndə ayrılmaq istəmir burdan ürəyin.

İrkutski avqust 2008

AD GÜNÜN MÜBARƏK

Dostlar qohumlar yığılıb bu ad gününə,
Tahirin 49 yaşına şad gününə.
Oğlum çatıbdır ömrünüm yetgin çağına,
Can sağlığı ilə yetsin ahıl çağına.

* * *

Həyatda ağır bəlalar çəkibdi başı,
İtirib doğma torpağı, əziz qardaşı.
Gecə-gündüz axıdıbdı qanlı göz yaşı,
Vaxtsız tökülüb dişləri, ağarıb başı.

* * *

Anası dərdə dözmədi çəkdi köçünü,
Bacısı qanlı yaş tökür, yolur saçını.
Qardaşların səsi düşüb küllü aləmə,

Atası gecə-gündüz sarılıb qələmə.

* * *

Ata qələmlə çıxarır ağrı acını,
Qardaşları sakit edə bilmir bacını.
Balaları, yarı həmişə qan yaşı tökür.
Qüssə-kədər qardaşların belini bükür.

* * *

Əzizlərim mən çox kədərləndirdim sizi
Arzum budur ki, gülən görəm gözünüzü.

Oynayaq gülək qoy məclisimiz qızışsın,
Qonaqlarım başı çal-çağıra qarışsın.

* * *

Ataq biz nisgilimizi kədərimizi,
Gözlərimizdən silək dərdi, qəmimizi.
Dostlar gəlin siz badələrə süzün içək,
Bir onda olsa dərddən qəmdən uzaqlaşaq.

* * *

Əzizlərim qəm-qüssəni salmayaq saya,
Dərdimizi, kədərimizi ataq çaya.
Doldurun qədəhləri biz keflənək gedək,
Oynayıb, gülüb, şənlənib, sallanıb gedək.

* * *

Elə bilək dərdimiz, qəmimiz yox imiş,
Şənlik, sevinc, gülüş bizlərdə çox bol imiş.
Arsız olaq dərd-qəmdən uzaqlaşaq gedək,
Vətənimizin təbiyətini sehir edək.

* * *

Balalarının tərbiyəsinə fikir ver,
Gülzarın üçündə ürəyində saxla yer.

Bəxtinə çıxıbdı mələk xasiyyətli arvad,
Onu sev əzizlə həmişə elə hörmət.

* * *

Hürüdü, mələkdi sanki o, göydən yenib,
Sənin taxtına qonub səni xoşbəxt edib.
Qoru bədnəzərdən göz üstə saxla onu,
Bərəkətli olar evin çörəyi, unu.

* * *

Peyğəmbər qızıdır elə bil ki, mələkdir,
Sinəsində gəzdirdiyi təmiz ürəkdir.
Onu əzizləyib saxlasan sən göz üstə
Hörmətini saxlar sənin qohumda, dostda.

* * *

Əşir bu gün sənin sevincin aşıb daşır,
Çalıb oynayanlar əl ayağa dolaşır.
Yeyib içənlərin sevinci başdan aşır,
Arzumdur ordumuz azad edə Vətəni.
Ziyarət edək pirləri, ata, ananı.

22.08.2008

YARADAQ, QURAQ

Neçə aqilləri yedi zamanə,
Nizami, Fizuli yoxdu dünyada.
Alimdə, yaltaqda gəlir cahanə,
Hamısı yox olur udur zamanə.

* * *

Dünyada fərq yoxdur yaxşıya, pisə,
Aqili bir anda döndərir heçə.
Namərdi öldürə, o, mərddən keçə,
İgid, şair, alim dönməyə heçə.

* * *

Biri qurub tikir ad qoyub gedir,
Digəri dağıdıb, turp əkib gedir.
Onlar o dünyaya bərabər gedir.
Beş arşın bezi hər ikisi geyir.

* * *

Qələm tutmur əlim pislərdən yazam,
İstərəm pislərə mən qəbir qazam.
Hazıram aqildən, alimdən yazam,
Nankora, namərdə mən qəbir qazam.

* * *

Tanrım dərddən bəladan qoru mərdi,
Hara getsə baykot et sən namərdi.
Şənin artır qurub yaradanların,
Xar et, əlin qurut dağıdanların.

* * *

Əşir istəmir dünyanı pis görə,
İstəyir gül-çiçəkdən çələng hörə.
Düşmənlər basıla yurd, azad ola.
Vətənə qovuşaq üzümüz gülə.
Ana, bacıları biz gülər görək,
Vətəndə çalışaq, yaradaq, quraq.

QIŞ GƏLDİ.

Qışım şaxta qar gətirir,
Bol nemətli var gətirir
Uşağın sevinci qardı,
İnsana nemətdi, vardı.

* * *

Qar yorğanıdır taxılın,
Varı dövlətidi xalqın.
Sürüşür, yıxılır biri,

Sevinir, gülür digəri.

* * *

Uşaqlar qar topu oynar,
Yıxılar, oturar, durar.
Qaçışar, atılar, gülər,
Qış bizə dövlət, var verər.

* * *

Qışda gərəkdi şaxtalar,
Şaxtada ölər pis qurdlar.

Şaxta kəssədə adamı,
İnsanlar sevərlər onu.

* * *

Ayı girər yuvasına,
Qışı yatar ac-acına.
Yem yığar yayda qarışqa,
Rahat yaşar şaxtalı qışda.

* * *

Qış sevincdir balalara,
Bol nemətdir babalara
Əşir sev şaxta ayazı,
Gözlə gül-çiçəkli yazı.

QÜRBƏTDƏN VƏTƏN OLMAZ.

Gördüyün hər bir gözəllik,
Heyrətə salsada səni,
Atsanda sən qəm, qüssəni,
Qızlar öpsədə gözünü,
Onlar səni qane etməz.
Qürbət eldən Vətən olmaz

* * *

Sağ solunda, görsəndə
Mavi gözlü gözəlləri,
Dərdindən dəli olsada,
Oxşayıb könlün alsada,
Onlar səni qane etməz
Qürbət eldən Vətən olmaz.

* * *

Bükülsən qumaşa, ala,
Milyonlar atsanda dala,
Hər gün çıxsanda şikara,
Mehman olsan da gözələ,
Onlar səni qane etməz,
Qürbət eldən Vətən olmaz .

* * *

Qürbətdə olanlar bilər,
Çoxlu ağlayır, az gülər.
Dərddən belləri bükülər,
Vətənsiz ömür sökülər,
Heç nə səni qane etməz,
Qürbət eldən Vətən olmaz.

* * *

Şöhrətin göylərə çıxsa,
Pulların hər yana, axsa,
Qərib deyərlər adına.
Kimsələr yetməz dadına.
Heç kim sənə kömək etməz.
Qürbət eldən Vətən olmaz.

* * *

Qərib, ağrın, azarın çox,
Qərib ölsən, məzarın yox.
Maddi toxsan, mənəvi ac

Olarsan yadlara möhtac.
Heç kim sənə kömək etməz,
Qürbət eldən Vətən olmaz.

* * *

Vaxtsız dən düşər saçına,
Çox bəla gələr başına.
Həsrət qalar sirdaşına
Əşir çatmaz arzusuna
«İrkutski»də üzü gülməz.
Qürbət eldən Vətən olmaz.

İrkutski şəhəri 05.10.2008

GÖRƏSƏN

Görəsən yurd-yuvama dönəcəyimmi,
O, qoşa çaylarımda üzəcəyəmmi?
Meşələri, düzləri gəzəcəyimmi?
Qalib kimi vətənə girəcəyəmmi?

* * *

Görəsən Nəbi yurdun görəcəyimmi?
Pirləri, ocaqları öpəcəyimmi?
Mən onları ziyarət edəcəyəmmi?
Ürəkdən sevinərək güləcəyəmmi?

* * *

Görəsən Qarabağa gedəcəyəmmi?
İsa bulağından su içəcəyimi?
Cıdırında at minib çapacağammı?
Vaqifin məzarından öpəcəyimmi?

* * *

Görəsən mən Şuşama girəcəyəmmi?
Dağlardan gül-çiçək dərəcəyəmmi?
Muzeyin, abidəsin görəcəyəmmi?
Dağlarında doyunca gəzəcəyimmi?

* * *

Əşir bu «görəsən»lər öldürər səni,
Alar əlindən səbrini, qərarını.
Çoxlu sualı varsada bu zamanın,
Tapa bilməzsən «görəsən»dən yamanın.

ÜRƏK

Ürək səni mən yüklədim,
Hara gəldi sürüklədim.

İstiyə, soyağa saldım,
Heç dözmədim, hey ağladım.

* * *

Qurban olum sənə ürək,
Sənlə yemişik duz-çörək.
Unutma haqqı sayını,
Atıb getmə sahibini.

* * *

Ağrı-acı düşüncəsiz,
Bir qaraca daşdı ürək.
Ağrı-acı düşüncəli,
Dağlardanda başdı ürək.

* * *

Ürəyinin evin yıxan,
Bağlı qalan ev-eşikdi.
Ürəyimi açan olsa,
Görər o dəlmə-deşikdi.

* * *

Ürək necə dözsün buna?
Mərdlər namərdə möhtacdı.

Aslana ağa tülküdür,
Dağılan kasıb mülküdür.

* * *

Var ürəkdə ağrı-acı,
Ölsə qardaş, ağlar bacı.
Ölüb körpə boşdu beşik,
Ürək olub dəlmə deşik.

* * *

Ürəkdəki ağrı-acı,
Mənim təqsirimdən oldu.
Daim gözümdən yaş süzdüm.
Ölmədim bir təhər dözdüm.

* * *

El getdi ürək dözmədi,
Vətəndən əl üzülmədi!
Ürək çox diqqətli imiş,
İçində dərd saxlayırmış.

* * *

Verdiyim əzaba görə,
Ürəyim bağışla məni
Ömrünü etdim yarı,
Sən itirmə etibarı.

* * *

Əşir qalıb yana-yana,
Dünyadan gəlibdir cana.
Düşməndən torpaq alına.
Zalım boyana qanına
Ürək azad olar yükdən,
Boğulmaz isti bürküdən.

DÜNYA

Özü sabitdir, yorur insanı,
Gah yoxuşda, gah da düzdə dünya
Zülmət gecədi, həm açıq səma,
Axırda insanı çəkir kama.

* * *

Varlıya pul, kasıba dərd verir,
İnsanı çəkir sınağa dünya.
Bəzən güldürür, bəzən ağladır,
Adamı qoyur araya dünya.

* * *

Tamam möcüzədi, tamam sirdi,
Az çox yaşa axırda ölümdü.
Həm möcüzədir həm də tapmaca
Aqil lazımdır ondan baş aça.

* * *

Allah insanı əqlə yetirdi,
O, atomla dünyanı dağıtdı.
Biri tikir, o biri dağıdır,
Sonda qalacaq xaraba dünya.

* * *

Əşir yaşadın əqil, kamalla,
Qurub tikdiyin kimlərə qaldı?
Dözdün bu qədər dağa, düyünə,
Səni çox bəlaya saldı dünya.

GƏLİR

Şeyir elə-belə gəlmir dünyaya,
Bəzi xoş sözdən, avazdan doğulur.
Bəzisi var ki, nifrətdən, qəzəbdən,
Bəziləri gözdəki yaşdan gəlir.

* * *

Ürəkdən gəlmirsə şair kəlamı,
O, ələ almamalıdı qələmi.
İlham gəlməsə şeyir yazmaq almaz,
Şeyirlər İlhamdan, həvəsdən gəlir.

* * *

Şeyirlər var ki, xalqı sevmir onu,
Geyinir yas libası, matəm donu.
Belə şeyirlər xalqına xoş gəlmir,
Onlar doğulanda ölü doğulur.

* * *

Şeyir var üstündə can çürüdürsən,
Vərəqin üstünə qanın tökürsən.
Hər söz üçün ölümə tuş olursan,
Beləsi diqqətdən, qayğıdan gəlir.

* * *

Əşir boş yerə ələ alma qələm.
Yaranmaz nə xoş bir söz, nə xoş kəlam.
Allahdan gəlmirsə o şeyir, deyil
Elə şeyir xalqına verməz xeyir.
Şeyir var ki, boş-boşuna yaranır.
Şeyir var sinədən, dəftərdən gəlir.

DƏRDİNİ TƏK ÇƏK

Öz dərdini özün çək canım,
Demə alışdım, demə yandım.
Sən heç kəsə açma sirrini,
Pünhan alış, pünhanı yan canım.

* * *

Dərdini ürəyində tək çək,
Dostlardan qaçma, yaşama tək.
Sevinci dostlarla bölüşdür,

Sevincə dostları qarışdır.

* * *

Dözəmmirəm demə heç kəsə,
Sən çox getmə üzürə, yasa.
Ömürü bir təhər vur başa,
Az danışsan gələrsən xoşa.

* * *

Dost! Məsləhətin gəlmir xoşa,
Nə xeyiri yaşa boş-boşa.
Xalqa xeyrin dəymirsə sənin,
Yaşama öl qurtarsın canın.

* * *

Əşir baş qoşma, boş sözlərə,
Bıçaq batsın yaman gözlərə.
Hələ sağsan sarıl, qələmə
Səsin düşsün küllü aləmə.
Yazdıqların xalqı ayıtsın,
Nankorlar düz yola qayıtsın.

GƏL SƏNƏ ŞEYİR OXUYUM

Gəl sənə şeyir oxuyum,
Ruhuna qan, qida versin.
Gəl sənə şeyir oxuyum
Ağzını dada gətirsin.

* * *

Gəl sənə şeyir oxuyum,
Günəş kimi saf, tər, təmiz.
Gəl sənə şeyir oxuyum,
Aydan arı, sudan duru.

* * *

Gəl sənə, şeyir oxuyum,
Gəncliyin yadına düşsün.
Gəl sənə şeyir oxuyum,
Çeşmə kimi axar olsun.

* * *

Gəl sənə şeyir oxuyum,
O səni cana gətirsin.
Gəl sənə şeyir oxuyum,
Qoy səni kama yetirsin.

* * *

Gəl sənə şeyir oxuyum,
Canına yağ tək yayılsın.
Gəl sənə şeyir oxuyum
Başından duman çəkilsin

* * *

Əşir nə deyir doğrudur,
Şeyir Allahdan vergidir.
Ürəklə, yazılan şeyir,
Sənin deyil Allahındır.
Sönük şeyirlərin sənin
İlhamlısı tanrınındır.

ELİMLƏ BİR OLDUM

Həyatda mən çox ömür sürdüm,
Onun acı-şirinin daddım
Yasda ağladım, toyda güldüm,
Həmişə elimlə bir oldum.

* * *

Gəzdim mən dünyanı dolandım,

Qürbətdə odlara qalandım.
Qocaldım vətənə yollandım,
Son anda elimlə bir oldum.

* * *

Bəşir oğlu sinə dağlıdır,
Vətən gedib yolu bağlıdır.
Xalq birləşsə artar gücümüz,
Yurdu azad edər ordumuz.
Vətəndə tikərik, qurarıq,
El, obamızla bir olarıq.

MİSRALAR

Ürəklərə ruh verdi, nur çiladi,
Bizi-bizə tanıtdırdı misralar.
Yurdumuzu daş-daş göstərdi bizə,
Yel qanadlı, aslan güclü misralar.

* * *

Şeyir dili, əslin soyun dilidir.
Nizaminin, Fizulinin dilidir.
Marşımızın, himnimizin dilidir,
Göz oxşayır, könül açır misralar.

* * *

Dərdimizi anlayandı, sezəndi,
Yurdumuzu qarış-qarış gəzəndi.
Bayram günü al qumaşla bəzənər,
Yas olanda kəfən geyər misralar.

* * *

O, tay, bu tay Azərbaycanı gəzir,
El üçün ağlayır özünü üzür.
Gedən kəndin, şəhərin dərdin çəkir,

Hayqırıb xalqı oyadır misralar.

* * *

Gəzir eli, yatanları oyadır,
Palıd kimi daşda bitir boy atır
Nəsimi soyulanda o, ağladı,
Elə döndü, eldə qaldı misralar

* * *

Əşir yaz gəldi bağ-bağça gül açdı,
Şəhriyarın şeyirləri dil açdı.
İntizardan Araz daşdı bulandı,
Günahkar bu ayrılığı salandı.
Zalım cəlladlar gərək qan qusalar,
Gəzir həqiqət axtarır misralar.

HƏSRƏT ÖLDÜRƏR

Göndərməyin məni qürbət ellərə,
Qürbətdə məni intizar öldürər.
Ayrı düşsəm vətənimdən, elimdən
Ayrılıqda məni həsrət öldürər.

* * *

Dava dərmən kar eləməz canıma,
Dərmanlarla zəhər keçər qanıma.
Nə qohum nə də dost yetməz dadıma,
Yolda qalar gözüm, həsrət öldürər.

* * *

Doğma torpağında insan ucalar,
O gücünü el, obasından alar.
Nemətindən bəhrələnər güc alar,
Qürbətdə qəribi həsrət öldürər.

* * *

Əşir, səhvdir gəzməyə qərib ölkə,

Ölməyə öz elin, oban yaxşıdır.
Elə gəzməyədə doğma Vətənin,
Ölməyəndə elin, oban yaxşıdır.
Qürbətdə adamın gözləri dolar,
Nisgil çəkər, onu həsrət öldürər.

VƏTƏN DEDİM

Vətəndə qürbəti salmırdım yada,
Qürbətə düşən tək, mən Vətən dedim.
Qəlbim parçalandı sız-sız sızladı,
Bağrım şan-şan oldu, mən Vətən dedim.

* * *

Qəlbim başı oyum-oyum oyuldu,
Yaraların qaysaqları soyuldu.
Yadımdan çıxmadı gecəba-gündüz,
Gecə yatanda da, mən Vətən dedim.

* * *

Əşir yox qürbətdə tərəqqi, şöhrət,
Nə canda təpər var, nə qolda qüvvət.
Səndə birləşərsə qürbətlə, həsrət,
Əzrayıl alar canın verməz möhlət.
Qürbət məngənə kimi səni sıxar,
Qərib eldə Vətənsiz canım çıxar.

YAZI POZUM

Əlimdə sədəfli sazım,
Qarlı qışım, güllü yazım.
Dildə sənsən xoş avazım,
Şeyirlərim, yazı-pozum.

* * *

Sənlə gedəndə qoşa,
Dözürəm şaxtaya qışa.

Verirsən qoluma qüvvət,
Şeyirlərim, yazı-pozum.

* * *

İlk yarım ilk sevgilimsən,
Məhəbbət bağımda gülsən.
Şirin sözüm, iki gözüm,
Şeyirlərim, yazı pozum.

* * *

Daim mənim yanımdasan,
İliyimdə, qanımdasan.
Hopmusan lap canımdasan,
Şeyirlərim yazı-pozum.

* * *

Əşirin kəsgin sözüsən,
Varlığı iki gözüsən.
Ocağım, odum, közümsən.
Şeyirlərim yazı-pozum.

GƏLİR

Şeyir var əzab əziyyətdən,
Şeyir var qəzəbdən gəlir
Şeyir var gözdən axan yaşdan,
Şeyir var bir baxışdan gəlir.

* * *

Bəzi şeyir millətə yanır,
Bəzisi xalqını oyadır.
Şeyir var xalq onu sevmir,
O, anadan ölü doğulur.

* * *

Bəzinin yolunda can çıxır,
Şeyir var vərəqə qan axır.

Hər söz üçün ölümə tuşsan,
Xalqa lazımsan ona xoşsan.

* * *

Əşir xalqın üçün yaz yarat,
Xalq yolunda öl, arzuna çat.
Şair vergisi haqdan gəlir,
Nə saraydan, nə şahdan gəlir.

ŞƏHİDLİK GƏRƏK

Gənclik quşdur uçdu düşmə dalına,
Çata bilməzsən izinə tozuna.
Gənclik getdi xatirələrlə yaşa,
Sən birtəhər ömrünü vur başa.

* * *

Gənclər dünyanı almırlar vecinə,
Onlar güvənir qolunun gücünə.
Yayıda büzüb, əyər gəncin dişi,
Çalıb oynamaqdır onların işi.

* * *

Gənc çal-oyna sevir sükuta yaddı,
Şeyirlər, nəğmələr ağzında daddı.
Əyər dünyanı fırladar tərsinə,
Onlar yarayar xalqın hər işinə.

* * *

Əşir vurğunudur «dəli» gəncliyin.
Vətənə lazımdır gücü gəncliyin.
Mən istərəm Vətəni azad görək,
İndi vətənimə şəhidlik gərək.

AZAD OLUNA YURDUM

Dost yolunda keçirəm sərdən,
Çox dostu qurtarmışam dardan.

Pənahım olub, şahi mərdan,
Mənə arxa olub yaradan.

* * *

Yaşım gedir səksənə sarı,
Səksən Vətəndə ola barı.
Pis günlərin çox oldu sayı.
Sona yetir ömürün payı.

* * *

Uşaqlıqda cəfa görmüşəm,
Qırx, qırx beşdə körpə olmuşam.
Ac, susuz saralıb solmuşam
Mən heç bir xoş gün görməmişəm.

* * *

Xoş günlərin az oldu vaxtı,
Çevrilibdi ömrümün taxtı
Düşmən bizə pis gözlə baxdı,
Eldə su yerinə qan axdı.

* * *

Oğluma qəfil güllə dəydi,
Oğul, el dərdi məni əydi,
Dözürəm hələ qəlbi «daşam»,
Dərdli olan yerdə mən başam.

* * *

Əşirəm erkən ölüb atam,
Olmayıb köməyimə çatan.
Yeriyib, yıxılıb, durmuşam,
Dözmüşəm bu günə çatmışam.
Allahım kaş o, günü görəm,
Azad olmuş vətəndə öləm.

QOCA

Üstünü qocalıq alıbdı sənin,
İndi ağla göz yaşını tök qoca
Eşqin dəlisiydi, sənin əzəlin,
Daha sevmə öz qeydinə qal qoca.

* * *

Gözəllərə oğrun-oğrun baxma sən,
Bica yerə canın oda yaxma sən,
Yalan yerə tüfəngini çaxma sən,
Al yanağın qara xalın süz qoca.

* * *

Cavanlıq quş olub uçdu uzağa,
Baxma sən balı süzülən dodağa.

Göz yetirmə zərif,incə buxağa,
De küsmüşəm istərmirəm pay qoca.

* * *

Qalmayıb daha səndə halət, nə hal,
Qocalıq dilin kəsib olmusan lal.
Süzmə gözəlləri sən ol əhli hal,
Daha yoxdu səndə taqət, hal qoca.

* * *

Cavanlıq bir daha qayıtmaz geri,
Gizli süz gözəlləri, asta yeri.
Baxışın yandırardı gözəlləri,
İndi baxma günlərini say qoca.

* * *

Əşirəm qocalıq minib boynuma,
Sevgilimdə daha gəlmir yanıma.
Kim gülsə qocaya, doğru, düz gülər,
Qoy gülsünlər, gəlin gülər ,qız gülər.

Daha səni düz göstərmir güzgülər,
Qocalmısan saçın olub çal qoca.

NƏDİ

Qonmaz insan gəlməsin dünyaya,
Onlar tanımır ağsaqqal, ağa
O, bilməz qeyrət, namus, ar nədi,
Dəmir, qızıl, brilyant, ləl, zər nədi.

* * *

Analar doğmasın belə əyyaş,
Belə anlamaz, qanmaz, yekəbaş.
Bir gün ayıqdır, beş günsə sərxoş,
Çox yeməkdən daim olur naxoş.

* * *

Danışar səni edər dəngəsər,
Qeyrətsiz, düşüncəsiz, gicbəsər.
Anası boyun oxşayan oğul,
Olub bir boşboğaz, şeytan, çuğul.

* * *

Atalar deyib, oddar kül törər,
Natəmiz-torpaqda bitgi ölər.
Sarı buğda əksən çovdar verər,
Belə oğul sərsəm həyat sürər.

* * *

Beləəri öz tayını tapar,
Satqın, yaltaqla oturar durar.
Ana belə oğul doğmayaydı kaş,
Əvəzinə doğaydı qara daş.

* * *

Əşir beləsin tənqid edir az,
Çəkinmə belələrindən çox yaz,

Onlar millətə qara ləkədir,
Yaxşı ki, azdır təkəm-təkədir.

BİZİM YAYLAQLAR

Görüşünə gedə bilmirəm,
Küsüb məndən bizim yaylaqlar.
On beş ildi səndən ayrıyam,
Düşmən kəsib yolum yaylaqlar.

* * *

Səni ziyarətə getmirəm,
Üstündən gül-çiçək dərmirəm.
Məlul-müşgül axır bulaqlar,
Öpüm torpağından yaylaqlar.

* * *

Qoy gəlim gül dərim düzündən,
Su içim bulağın gözündən.
Aşıqların söhbət sözündən,
Gülsün üzün, bizim yaylaqlar.

* * *

Vurğununam məni itirmə,
Aşiqini dərdə batırma.
Dərdim çoxdu, sən də artırma
Gəl barışaq bizim yaylaqlar.

* * *

Ver xınanı əlimə yaxım,
Zirvəndəki qartala baxım.
Şimşək olub zirvəndə çaxım,
Yol göstərim, bizim yaylaqlar.

* * *

Əşirəm dağların acıyam,
Gül-çiçəyinin möztacıyam.

Düşmənə mən qəbir qazıram
Gecə-gündüz tənqid yazıram.
Duman-çənin getmir a dağlar
Gəl barışaq bizim yaylaqlar.

ANA ÜRƏYİ

Övlada sevgi çoxdu səndə,
İstiqanlısan həddən ziyadə.
Bezmirsən sən alışıb yansanda,
Çox mehribansan, ana ürəyi.

* * *

Şam tək yanırsan övlad yolunda,
Yorulub, bezmirsən sən bir anda.

Zəhmətkeş kənizsən əzyəti çox,
Əziz mehriban, ana ürəyi.

* * *

Əziyyətini dilə gətirməzsən,
Sən heç zaman minnət götürməzsən.
Övladın yolunda sən həmişə,
Su tək axarsan, ana ürəyi.

* * *

Bəzən sən vulkan olub yanırsan,
Hamını özün kimi sanırsan.
Qəzəbin sönəndə çox yumşaqsan.
Hər təbə düşür, ana ürəyi.

* * *

Heç zaman kədər görməsin üzün,
Əzyətin itməsin gülsün gözün.
Sənin yoluna gül-çiçək düzək.
Daim güləsən, ana ürəyi.

* * *

Ömür ötdü, dünya bivəfadır.
Əşir çəkdiyin ağır çəfadır.
Oğul-qız hamısı bivəfadır,
Sən vəfalısan, ana ürəyi.

YARADAN

Qadir Allah Ərşi sənsən yaradan,
Alçağı, Xəbisi götür aradan.
Adın xatirinə elə bir çarə,
Çoxdandır ki, xəstəyəm mən biçarə.

* * *

Əllərim döşümdə üzüm duada,
Duam qəbul olsun ərşi ələda.
Ümüdüm sizədir ey əziz Allah,
İstəsən rəd olar məndən bu bəla.

* * *

Dərdim böyükdür uca dağlar kimi.
Vətən dərdi qalın dumanlar kimi.
Alınsa Vətən gedərəm elimə,
Qovuşaram ocağıma pirimə.

* * *

Sönübdü Əşirin odu, ocağı
Xudam urvatdan salma qoca vaxtı.
Əl çatmaz Vətənə, Vətən uzaqdı,
Qalxsın ayağa milli ordum vaxtdı.

LAZIMDIR

Dərd bir olsa onu çəkməyə nə var.
Bu qədər dərdin hansını çəkim?
Kömək etməliyik darda qalanla,
Su lazımdır özün oda salana.

* * *

Demək nə lazım arifə qanana,
Allah kömək etsin elə yanana.
Xəyalən gəzirəm dağı aranı,
Canıma salıram qarı, boranı.

* * *

Nifrət edirəm mən qanmayanlara,
Elinin dərdinə yanmayanlara.
İnsan olan gərək hər şeyi qana,
El üçün alışa, el üçün yana.

* * *

Əşir el dərdinə qalmaq lazımdır.
Sərraflar yolunda ölmək lazımdır.
Hərdən də şadlanıb gülmək lazımdır.
Ağlayıb dodaq büzmək nəyə lazım.

VƏTƏNİMİN

Adı düşüb dildən, dillərə,
Boldur Vətənimizin sərvəti.
Hər yeri tükənməz, zəngindi,
Boldur vətənimin sərvəti

* * *

Söyüdlüdən çıxır qızılı,
Şəninə kitablar yazılı.
Canlara dərmandı neməti,
Boldur vətənimin sərvəti.

* * *

Şəfalıdı havası, suyu,
Təbibdi Naftalan, İstisu.
Qızıldan qiymətli torpağı,
Boldur Vətənimin sərvəti.

* * *

Naxçıvan, Qarabağ yanaşa,
Bənzər üzükdə iki qoşa.
Düşmən ayırdı cüt qardaşı,
Boldur Vətənimin sərvəti.

* * *

Daşkəsən güvənir sərvətə,
Halal olsun belə qeyrətə.
Bəllidir ərlərin, qeyrəti,
Boldur Vətənimin sərvəti.

* * *

Bakı deyir yazmırsız məndən,
Qara qızıl düşübmü dəbdən?
Vermişəm Vətənə şöhrəti,
Boldur vətənimin sərvəti.

* * *

Əşir Vətənə tərif yazdı,
Ömür boyu yazsada azdı.
Aşıqlar oxuyub desinlər,
Boldur vətənimin sərvəti.

ÜRƏK

Ürəyin daha baxmır sözümə,
Gecələr yuxu getmir gözümə.
Nifrət edirəm özüm-özümə,
Güc verirəm yazıma, pozuma.

* * *

Dostlarım irad tuturlar mənə,
Danışanda həddini aşırsan.
Dəniz tək çalxalanıb daşırsan,
Haqsız sözə alışıb yanırsan.

* * *

Bu hərəkət ürəyə zərərdi,
Özgə dərdi sənə nə gərəkdi?
Öz ömürünü sən sakit yaşa,
Özgə dərdilə gəlmə baş-başa.

* * *

Razı deyiləm sözünlə dostum,
Paralanmış Vətənim dardadı.
Azı bu, çoxuda o, taydadı.
Heç demirsiz Qarabağ hardadı?

* * *

Bu dərdlər sənin, mənim deyilmi?
Necə düzəldim gəzim belimi?
Alıblar Vətənimi, elimi,
Düşmənlər kəsib gedən yolumu.

* * *

Qubadlı, Laçın, Şuşa dardadı.
Zəngilan, Cəbrayıl pis haldadı.
Fizuli, Kəlbəcər sağ soldadı,
Ağdam, Xankəndi intizardadı

* * *

O, Xocalımda soyqırım oldu,
İsa bulağı düşmənə qaldı
Cıdırımda at oynadır yağı,
Sehir edirlər aranı, dağı.

* * *

Dostum dözərmi ürək bu dərdə?
Bu ağrını çəkə bilməz nərdə.
Arsız yaşamağın nə faydası?
Yurdu azad etməkdi qaydası.

* * *

Əşir ürəyin dözür bu dərdə
Şir ürəyi varmış ki, səndə
Vətən, alar səni milli ordu.
Ziyarət edərik doğma yurdu.
Tikib qurub abadlaşdırarıq.
Oynayıb, gülərik, şənlənərik.

SÜLHƏ ÇAĞIRIŞ

Ey insalar yığılın gəlin,
Sülh yaradaq, el sevindirək.
Uçub dağılmasın bu dünya,
Sülhə gedək el sevindirək.

* * *

Qoy torpağa qan çilənməsin,
Göydən yerə od ələnməsin.
İnsanlar qurub yaratsınlar.
Körpə qundağı qan görməsin.

* * *

İllər həmişə gözəl gəlsin,
Üzlər sevinsin, üzlər gülsün.
İnsanlar əl-ələ versinlər,
Bir yerdə yaradıb qursunlar.

* * *

Top-tüfəngi peçdə əridək,
Onlardan cüt kotan qayıraq.
Əkib biçib, bolluq yaradaq,
Qəflət yatanları oyadaq.

* * *

Yer kürəsi bir dövlət olsun,
Hər yerdə bol məhsullar dolsun.

Dünya dostlaşıb qardaş olsun,
Hamı al qumaşa bürünsün.

* * *

Neytrondan maşınlar düzəldək,
Qansızların kökünü kəsək.
Qurd quzu ilə bir otlasın,
Paxılın ürəyi partlasın.

* * *

Əşir dediklərin düz ola,
Aləm güllə, çiçəklə dola,
Gəzək ana qucağı kimi,
Dostlaşaq biz bir qardaş kimi.
Nə ağa olsun, nə qul olsun,
Həmişə sülh bərqərar olsun.

AĞLAR, AĞLAMAZ

Qoşa çaya, obaya elə,
Həsrət qalan ağlar, ağlamaz?
Mən gecə-gündüz ağlayıram.
Yurdu viran ağlar, ağlamaz?

* * *

Ehtibarım yoxdu dünyaya,
Bilmirəm heç o gedir hara.
Xanımani düşmənə qalan,
Deyin görək ağlar, ağlamaz?

* * *

Həsrətəm gözəl yaylaqlara,
Barlı dağa, buz bulaqlara.
Ceyranlı, cüyürlü düzlərə,
Həsrət qalan ağlar, ağlamaz?

* * *

Əşir həsrətsən yurd yuvana,
Göz yaşın bəllidir cahana.
İgidlərim almasa yurdu,
Yurd nisgilli ağlar ağlamaz?

AĞLARAM

Döyünən ürəyim döyünməz oldu,
El dərdinə dözə bilməm ağlaram.
Getdiyim yollarım gedilməz oldu,
Qəm qüssəyə dözə bilməm, ağlaram.

* * *

Cavanlıq quş idi uçurdum getdi,
Qərib diyarda ömür sona yetdi.
Dözərdim bərkə, boşa, nər idim nər,
Əgər indi yoxuş görsəm, ağlaram.

* * *

Baharım da qışa dönübdü indi,
Qan, yaş, tökürəm yarım sən ovundu.
İstəyirəm vətənə gedəm bu yaz,
Yola baxıb yaz gələndə, ağlaram.

* * *

Mən Əşirəm bulud kimi dolmuşam,
Heç bilmirəm sağam yoxsa ölmüşəm.
Gözəl tərifsiz ötməzdi yanımdan,
İndi dodaq büzüb keçir, ağlaram.

AZƏRİ TORPAĞI

Bərəkətlidir Azərbaycan torpağı,
Boldur yer üstü və yer altı sərvəti.
Onun bol pambığından vurulur taya,
Yer altı sərvətləri gəlməyir saya.

* * *

Boldur nefti, qazı, taxılı, meyvəsi,
Çoxdu çayında meşəsində qoruğu.
Sən de hardan gəlmir neftinin sorağı?
Çox şəfalıdır onun aranı,dağı.

* * *

Qoyun sürüləri gəlməyir hesaba,
Camışı, inəkləri gəlməyir saya.
Bənzərsizdi bizim azəri torpağı,
Ləzzətli meyvəlidir bağçası, bağı.

* * *

Əşirə çox əzizdir Vətən torpağı,
Qova bilmirik «çağrılmamış qonağı».
Nəbi yurdunda dığalar at oynadır,
Mənim ürəyimin başını göynədir.
Yığılar vətənimin igidi, mərdi.
Qovarıq düşməni biz atarıq dərdi.

YAŞARSAN ŞEYİRİN ÇOX QALAN OLSA

Mən haqsız işə dözə bilməyirəm,
Tez özümdən çıxaram, kükrəyirəm.
Dostlarım bu halımı sevməyirlər,
Hər şeyi ürəyə salma deyirlər.

* * *

Gördüyün hər şeyi ürəyə salsan,
Vaxtsız qocalıb dünyadan köçərsən.
Dostlarım haqlıdır bilirəm bunu,
Ölümdür, itimdir, həyatın sonu.

* * *

Həyatda hər şeyə fikir verməyən,
Dost tanışının dərdini çəkməyən.
İnsana nifrət etmişəm həmişə,
Daim onlarla getmişəm savaşa.

* * *

Basılan torpağın, sönən ocağın,
Ah nalə qoparan gəlinin, qızın,
Düşmənə verilən torpağın, daşın.
Dərdini çəkmədən necə yaşayım?

* * *

Sökülən hasarın, sönən işığın,
Quruyan ağacın, batan bulağın,
Namusu tapdanan qızın, gəlinin,
Dərdini çəkmədən necə yaşayım?

* * *

Elin dərdini qəlbimə salmasam,
Kədərdə ağlayıb, qəmdə gülməsəm,
Haqsızlıqlara mən sinə gərməsəm,
Şeyirim ürəyə yol aça bilməz.

* * *

Hər şeyə biganə qalaramsa mən,
Toyda kədərlənib, vayda olsam şən,
Viranə bağlara mən desəm gülşən,
Dostum sən özün də məndən küsərsən.

* * *

İnsan çəkirsə elinin dərdini,
Ürəyə salırsa qəm-kədərini,
Onunla qəmlənib, gülürsə əgər,
Qəlbdə yaşar dünya durana qədər.

* * *

Ayağım isti olsa başım sərin,
Biganə olub düşünməsəm dərin,
Mən çox yaşayaram sözünüz haqdı,
Belə yaşamağın mənası yoxdu.

* * *

İnsandan iz yoxsa yaşamır demək,
Adamları ucalar ancaq əmək.
Mənim öz ömürüm qısa da olsa,
Yaşaram şeyirim çox qalan olsa.

* * *

Əşir daim elin oduna yanar,
Eliylə ağlayar, eliylə gülər.
Elinə yanmayan eldə sevilməz,
Şeyirləri qəlbə yol tapa bilməz.
Xoşbəxt olaram elim məni ansa,
Şeyirim qəlblərə yol tapa bilsə.

DÜNYANIN

Tarixi bilinmir, yaşı bilinmir,
Qocadan-qocadı yası dünyanın,
Gündə mini gedir, min biri gəlir,
Çox keşməkeşlidir başı, dünyanın.

* * *

Boyunu, enini ölçən olmayıb,
Hələ heç kim bu dünyadan doymayıb.
Çox hissəsi sudu, dərya, dənizdi,
Azı toxdu, çoxu acdı, dünyanın.

* * *

Bu zalım dünyadan gen gəzmək olmur,
Tökülən boşalır, bir daha dolmur.
O, hamını aldadır, salır bəndə,
Var, dövləti çox şirindi, dünyanın.

* * *

Bəzilər kef damaqda dövran sürür,
Çoxları yaşamır elə sürünür.
Birini qul edir, birini ağa,
Çox keşməkeşlidir yolu, dünyanın.

* * *

Çox çətin işlərə salır adamı,
Bulum-bulum bulandırır adamı.
Tənəzzüldü-tərəqqidi yolları,
İşindən baş açmaq olmur, dünyanın.

* * *

Ah, nalə çəkməsin bizim analar,
Zalımlar əməllərində yanalar.
Minsin köhlənini igidlər yenə,
Elə bir zamanı çatıb, dünyanın.

* * *

Əşirəm düz yolla gedirəm hələ,
Mən yolumu azmaram indən belə.
Olarammı vara, dövlətə kölə?
Məni aldatmaz daş-daşı, dünyanın.

NEYLƏSİN

Dünya qarışıbdı bir-birinə,
İnsan qapılıbdı səbrinə.
Qaçqınlar güvənir ölümünə,
Səbri tükənən insan, neyləsin?

* * *

Qarabağ ürəkdə qara dağdı,
Düşmənlər qaraya dedi ağdı
Görən əsirlər ölüb, ya sağdı?
Ürəyi dağlı ana, neyləsin?

* * *

Yeyibdi çörəyimizi yağı,
Ürəyimizə çəkibdi dağı.
Günün axşam, səhər çağı,
Vətəni yada salan, neyləsin?

* * *

Verdik çörək qoy gəlsin gözündən,
Çörəyi yeyib çıxdı özündən.
Düşmən döndü əhdindən, sözündən,
Vətən oğlu namərdə, neyləsin?

* * *

Mərd möhtacdı xəbisə, namərdə,
İgidlər dözə bilmir bu dərdə.
Haqsız bağlanıb dizindən nərdə,
Dərdə dözə bilməyən, neyləsin?

* * *

Övladı ölən analarımız,
Sevgilisi ölən qızlarımız,
Qardaşsız qalan bacılarımız,
Yazıqlar ağlamasın, neyləsin?

* * *

Verdik Cıdır və Yazı düzünü,
Görmürük torpaqların üzünü.
Düşmən azıbdı bilmir sözünü,
Nankora Vətən oğlu, neyləsin?

* * *

Əşir yağıya qalıb ocağın,
Üzü gülmür qocanın, uşağın.
Qışa dönüb yaz-yayın hər çağın,
Gözlərin yaş tökməsin, neyləsin?:

XOCALI DƏRDİ

Xocalı faciəsinin 15-ci ildönümü ilə əlaqədar olaraq yas mərasimi, şəhidləri yad etmə günü keçirilirdi. Hər çıxışdı bir üsyan, bir nifrət, gözlərdə leysan var idi. Dərdlilərə bir-bir söz verilirdi. 23 yaşlı Xocalı qızı Xəzəngülə də söz verdilər. Ermənilər onun 36 yaşlı anası Raya xanımı, 5 yaşlı bacısı Yeganənəni, Əsgəran meşəsində güllə ilə dəlik-deşik edib, vəhşicəsinə öldürmüşlər. 38 yaşlı atası Təvəkkülü isə 8 yaşlı körpə Xəzəngülün gözləri qarşısında ağaca sarıyıb diri-diri yandırmışlar. Onun günahı onda olmuşdur ki, Ermənilər ona «Qarabağ erməni torpağıdır» sözünü dedirdə bilməmişlər.

Qız kürsüyə yaxınlaşdı,
Danışmadı susdu bir an.
Salondakılar cavan qızı,
Heyran-heyran süzdü bir an.
Qız danışmır heykəl kimi
Dayanmışdı lal.
Yox-yox o danışır,
Eşidirəm ürəyinin səsini.
Sanki qartal qıracaqdı qəfəsini.
Qız hər sifətə düşür,
Yanır alışır,
Gözəl öz ürəyi ilə,
Nəsə danışır.
Birdən qəfil açılan
Bomba kimi,
Partladı o gözəl.
Gözlərindən yaş süzdü əzəl
O, qız qəzəbindən yanır-alışır.
Gah qəzəbli, gah da məzlun danışır.
Salondakılar vəcdə gəlir sözlərindən,
Qəzəb yağır o qızın gözlərindən.

Verin atamı, anamı, bacımı!!!
Çıxardın canımdan ağrımı, acımı!!!
Sanki, yaranan gündən o,
Bir dəfə də gülməmişdi.
Ürəyinin nəğmələri
Dodağına gəlməmişdi
Baxışından leysan yağır,
Şimşək çaxır,
Dönə-dönə göz gəzdirib
Zala baxır.
Doğmaların tapa bilmir.
Ürəyindən qanlar axır
Duruşundan, baxışından
Qəzəb yağır.
Sanki Tomris ana
Qılınc çalır.
Aslan gücü hiss olunur
O qızın biləyində.
Açılmamış bir kitab var.
Onun dolmuş ürəyində.
Onun qara gözlərindən
İldırımlar çaxıb keçir.
Ürəyindən qızıl qanlar
Axıb keçir.
Salondakı lal sükutu
Duyur o qız.
Gözlərdən mərhəmət
Oxuyur o qız.
Baxışlardan heyrət yağır
Bizim gözəl

Ağır-ağır nəfəs alır.
Aramla danışır bizim gözəl.
Eşələyib baxanda
Atamın külünə mən
Orda gördüm
İki ağac, iki ata.
Onlar yanıb kül olmuşlar,
Doğmalaşıb bir olmuşlar.
Mən ovub gözlərimi
Baxdım, qaşlarımı çata-çata,
Yox səhv etmirdim,
Vardı ordaa 2 ağac, 2 ata
Yaxınlaşıb öpdüm onları,
Qucaqladım doğmaları.
Biz birləşib bir oldu.
Ağac, ata, qız olduq.
And içdim ana, bacımın
Müqəddəs qanına,
Atamın yanıb
Kül olmuş canına,
Mən ər oğullar doğacağam.
Qardaş ata, yar əvəzi.
Ay bənizli qızlar doğacayam.
Ana, bacı, sirdaş əvəzi.
Nər oğullar doğacağam,
Nəbi, Koroğlu, Babək əvəzi.
Qeyrətli qızlar doğacağam,
Həcər, Nigar, Sara əvəzi.
Düşmən başın kəsən, qanın içən
Qız doğacağam,

Anamız Tomris əvəzi.
Yağı düşmən, qarı düşmən
Eşit mənim gur səsimi
Bil ki, səndən alacağam qisasımı.
Səni sındırmaq üçün
Mərd oğullar doğacağam.
Məkirləri, hiylələri,
Beşikdəcə boğacağam.
Satqınlar, kölələr,
Qeyrətsizlər, yox
Nər oğullar doğacağam.
Yekə qarın, başı boşlar
Əyyaşlar, sərxoşlar yox,
Dəli-dolu nər oğullar doğacağam.
İtmiş torpaqları azad edən
Qeyrətli, mərd oğullar doğacağam.
Ana, bacım meşədə öləndə,
Atam yanıb külə dönəndə,
8 yaşlı bir uşaqdım.
İndi qızlar bulağından
Su içmiş bir gözələm.
Mənə tay dərdli yarımı
Arayıram, seçirəm.
Ona toy paltarı biçirəm.
Sevgilimin adı ağrı, acı.
Rəfiqəmdi kədər bacı.
Atamın günahı nə idi?
«Qarabağ erməni topağıdır»
Sözünü ermənilərə deməməsi.
-Xəzəngül balam danla bizi,

Aç iç üzümüzü.

Sizə divan tutulan vaxt,

Yuxudaydı gözlərimiz.

Yoxuydu sizdən xəbərimiz.

Yumulmuşdu gözlərimiz,

Bağlanmışdı əllərimiz.

Rəhbərimiz isə,

Darağı almışdı əlinə,

Sığal verirdi qara telinə.

O qulluq edirdi özünə,

Siz görünmürdüz gözünə.

Rəhbərimiz ayıldı gec ayıldı.

Pərt ayıldı, suç ayıldı.

Bağırdı, əbəsdi uydurmalar, yalanlar.

Yoxdur qırğınlar, talanlar.

Sonra gördü düzdü.

Xalqın sözü.

Əvvəl axır açılacan

Onun iç üzü.

Dedi: Mənə kömək olsun yaradan,

Ən düz yol çıxmaqdır aradan.

Rəhbərlərin hərəsi qaçdı bir yana,

Xalqı qoydular yana-yana.

Mən şairəm nə gəlir əlimdən qızım,

Ancaq yazmaqdır işim gücüm

Əsir girov, didərgin,qaçqın

Yazıldı millətin adına.

Allah yetişsin xalqın dadına.

Xəzəngül balamın göz yaşları

Yandırıb yaxır Əşiri.

Qələmini süngü edib
Aləmə salır həşiri
Nəbilər, Koroğlular oyanar,
Düşmən al qanına boyanar.
Biz dönərik vətənimizə, elimizə
Qovuşarıq ocağımıza, pirimizə.

ÇÖRƏK

Çörək müqəddəsdir binadan başdan,
Odur dövləti çıxaraq savaşdan,
Qurandan çox öncə gəlibdi çörək,
Çörəksiz yemək olmaz heç bir xörək,

* * *

Odu ayaqlanıb keçib çoxları,
Çörəyi tapdayıb keçən olmayıb.
Çörək yoxsa, açmaz qapını qonaq,
Çörək veririk ki, çörəkli olaq.

* * *

Xilqətin atası, anası sənsən,
Bəşər tərəqqi etməz, sən olmasan.
Şirəni sormasa məhv olar bədən,
Ürəyimdə sənə möhtacdı çörək.

* * *

Çörək olmasa yer orbitdən çıxar,
Günəş, ay tutular, dünya dağılar.
Sən olmasan aləm, viranə qalar.
Necəki,varsan həyat da var çörək.

* * *

Sən olmasan yaşamaz bəni insan,
Silah qan axıdır, sən verirsən qan.

Sənin təmiz adın düşməsin dildən,
Dünyanı yaşadan sənsən, sən çörək.

* * *

Olmasın atom da, top da, tüfəng də,
Onları əridək Martin peçində.
Kotan, cüt, xış qayıraq yer şumlayaq,
Əkib becərək qoy bol olsun çörək.

* * *

Çörək sevinc gətirir, atom kədər,
Dünyada qırğın olarmı bu qədər?
Səni əvəz edə bilməz bal, şəkər,
İnsana hər şeydən əzizsən çörək.

* * *

Səni vəsf etməyə acizdi qələm,
Olmasan zülmət olar külli aləm.
Vəsfin minlərlə kitaba sığışmaz,
Bəşərin qiymətli neməti çörək.

* * *

Bədənə verirsən gözəl yaraşıq.
Zəif gözlərə sən verirsən işıq.
Hamıya lazımsan, hamıya gərək,
Dünyanın ən gözəl neməti, çörək.

* * *

Olmasan bulaqdan su içən olmaz,
Bəşər məh olar bir nəfərdə qalmaz.
Sağlama güc verir, xəstəyə şəfa,
Cəmi dərdlərin dərmanısan çörək.

* * *

Sən bol olsan bəşər çıxar işığa,
Gözəlləri salarsan yaraşığa.

Güc-qüvvət verirsən hər bir insana,
Sən bəşərin xilaskarısan, çörək.

* * *

Müdriklərin belə bir kəlamı var,
Çörək qıt olanda, ölüm bol olur.
Xam torpaqları sən salmısan işə,
Sünbülün torpağa bəzəkdi, çörək.

* * *

Uşaq ac olanda kiritmək olmur,
Bir put qızıl versəndə o ovunmur.
Düşmən qapısına göndərir səni,
Kiridir uşağı bir tikən, çörək.

* * *

Alçaq o kəslərdi ki, səni saymır,
Sənsiz bol nemətlər göy şora dəymir.
Stola istər yaqut qoy, istər almaz,
Heç biri səni əvəz etməz, çörək.

* * *

Əşir çörəkdən minlərlə kitab yaz,
Nə qədər yazsanda yenə olar az.
Şahlar padşahlarda baş əyir ona,
Hamı tərif deyir onun şəninə.
Az tərif etdimsə bağışla məni,
Mən sərf etdim ona bütün qüvvəmi.

BÖYÜK OĞUL

Böyük oğul-kimi dünyaya gəldim,
Evin ağırlığın çiynimdə çəkdim.
Qulpundan yapışdım ağır işlərin,
Çətinliklərə dözərək öyrəşdim.

* * *

Mən idim atamın arzu köməyi,
Bilirdim ev tikib, hasar hörməyi.
Çətinə düşsəm ya Allah deyərdim,
Atam dediklərin o an edərdim.

* * *

Şana, dəhrə, balta, bellə işlərdim,
Çətinliklə pul qazanıb yaşardım.
İşin dalınca ürəklə gedərdim,
Deyilənləri o saat edərdim.

* * *

Çətinliklərə mən sinə gərərdim,
Ağır işləri də asan bilərdim.
Yıxılıb duranda etməzdim giley,
Hamı doğma idi, yox idi ögey.

* * *

Bişdim bərkidim mən ağır işlərdə,
Qalib çıxdım çox çətin döyüşlərdə.
Dözdüm tənələrə, qınaqlara mən,
Kim-kimsənədən istəmədim aman.

* * *

İllər bir-birindən çox ağır gəldi,
Belə ağırlıqlar belimi əydi,
Bu çətinliklərdə bişdim, bərkidim,
Çətin sınaqlardan mən qalib çıxdım.

* * *

Əşir Bəşiroğlu dolubdur yaşa,
Ömrünü namusla vurubdur başa.
Milli ordu azad edə yurdumu,
Mən Vətəndə başa vruam ömrümü.

ELİMLƏ BİR OLMUŞAM

Həyatda insanlar cürbəcür olur,
Biri kef edir, biri dərddən solur.
Mürəkkəbdir insanların ürəyi,
Hərə bir cürə qazanır çörəyi.

* * *

Eləsi var quş uçarsa yanında,
Yarpaq kimi əsər, özünü bilməz.
Eləsi var topda atsan yanında,
Vecinə almaz, tükü də tərpənməz.

* * *

Eləsi var buluddan da nəm çəkər,
Büzüşər, titrəyər, ürəyi əsər,
Eləsi var qar, yağış, gürşad qanmaz,
Dünya dağılsada o saya salmaz.

* * *

Eləsi var daim yalan danışar,
Murdar ağzı köpüklənər, qızışar.
Eləsi var yalan eşidən zaman,
Qulağın tutub qapar, edər aman.

* * *

Eləsi var, el dərdin özü çəkər,
Xırda nöqsanı ürəyə yük edər.
Eləsi var dünya alışıb yansa,
Onun bir xorum bəlimidə yanmaz.

* * *

Eləsi var ona acı söz desən,
Yanında nalayiq hərəkət etsən,
Heç birisini nankor saya salmaz.
Vəzifəsi getsə yaşaya bilməz.

* * *

Eləsi var elin dərdini çəkir,
Eləsi var qarnı başımdan ağır.
Həyatda hər kəs öz tayını tapar
Yaxşı yaxşı iş, pis də pis iş yapar.

* * *

Əkinçi əzab çəkər qar, boranda,
Sonda taxıla yorğan olar qarda .
Barama qurdu ev tikər özünə,
O evdə qaranlıq çökər gözünə.

* * *

Əşirəm el dərdi çəkən olmuşam,
Namusla yaşayıb yaşa dolmuşam
Yasda ağlamışam, toyda gülmüşəm,
Həmişə el-obamla bir olmuşam.

VƏTƏN

Düşmən səni paralayıb,
İkiyə bölünüb adın.
Cənubi Azərbaycanım!
Şimali Azərbaycanım!

* * *

Gözəl Vətən paralandı,
Qardaş bacı aralandı.
Çoxdu sənin dərdi sərin,
Qanla boyanıbdı suyun.

* * *

Bacı həsrətdi qardaşa,
Arazım bulana, daşa.
Oğul orda, ana burda.
Həsrətlər görüşlər darda.

* * *

Şəhriyar Bakısız öldü.
Göz yaşı axıb sel oldu.
İkiyə bölünəndə Vətən
Öləydi ona qol çəkən.

* * *

Əşir bir dənədir Vətən,
Araz bölübdür ikiyə.
Allahım quruya Araz,
Çəkilsə duman gələr yaz.
O tayla, bu tay bir ola,
Bizimdə üzümüz gülə.

VƏTƏN TORPAĞI

Vətən torpağı genişdir,
Onun aranı dağı var.
Yer üstündə bol neməti,
Yer altında sərvəti var.

* * *

Maral gəzir dağlarında,
Bol meyvəsi bağlarında.
İlin bütün çağlarında
Sərvəti var torpağında.

* * *

Qartalları zirvəsində,
Sürüləri yamacında.
Qızlar gül dərər düzündən,
İçər bulağın gözündən.

* * *

Daşlara yazılıb adlar,
Adlarda məna fikirlər.

Zirvədə qıy vurar qartal,
Göy gurlar, ildırım çaxar.

* * *

Dərə hayqırar sel axsa,
Kəklik sinər şimşək çaxsa.
Maral yuvaya çəkilər,
Qurd-quşlar ordan əkilər.

* * *

Əşir sev Vətən torpağın.
Sehir elə bağça bağın.
Bağından dər heyva narın,
Aləmə görk elə varın.

AÇMA NAMƏRD QAPISIN

Qapı bacadan dolsada evinə ehtiyac,
Adi suya, yavan çörəyə olsanda möhtac,
Evindən xeyir-bərəkətlər qaçsada belə,
Sən zalıma, namərdə əl açıb olma kölə.

* * *

İlan tək boğazına dolansada ehtiyac,
Gəzsəndə sən çılpaq, ayaq yalın, ac yalavac,
Açma namərd qapısını sən sıxma özümü.
Namərd kömək etməz o, tökər sənin gözünü.

* * *

Atalar sözlərinin yoxdur heç bir nöqsanı,
«Namərd körpüsündən keçmə qoy aparsın sel səni».
Sən kəlama, sözə bax, sözdə olan gücə bax!
Sən öz əlinin zəhmətinə araxalan ən çox.

* * *

Kasıblıq səbrini qərarını aparsa da,
Lap dartıb ürəyini yerindən qoparsa da,

Namərd yanında ağlayıb sən üzmə özünü,
Nankora əl açma, sən ona demə sözünü.

* * *

Əşir ehtiyac səni boğazlayıb sıxsa da,
Dərd dörd yanını alıb səni yatağa yıxsada,
Zalımlara yalvarma, ürəyində dərd yaşa
Qalan ömürünü namus, qeyrətlə vur başa.

SÖZ QALAR

Ömürüm qısa arzularımsa çox,
Bu arzular məndə gül açdımı? Yox.
Arzularımı mən düzürəm sapa,
İtib yaddaşım kim axtara tapa?

* * *

Bütün arzuların vətəndə qalıb,
Qurub tikdiklərimi düşmən alıb.
Bağ-bağçam baharda saralıb, solub,
Gücüm ancaq yazı pozuma qalıb.

* * *

Alınıbdı mənim torpağım daşım,
Dumanlanıb başım, itib yaddaşım.
Soruşmur halımı dostum, tanışım
Qürbətdə mən necə gülüm, danışım?

* * *

Öz səhvlərimi sonradan görürəm,
Xəcalətdən saralıram, soluram.
Mən qəlb aynasında baxıram özümə,
Səhvlərim bir-bir görünür gözümə.

* * *

Əşir sənət aləmində damlasan,
Səhvlərin üçün özünü danla sən.

Yaz-yarat dünyada ancaq söz qalar,
Xalqın oxuyub səni yada salar.

BİR ÖMÜR AZDIR İNSANA

İnsan üçün çox azdır bir ömür,
Nədir ki, səksən, doxsan və yüz il.
Həyata keçməmiş arzuların,
Əzrayıl tez gəlib alır canın.

* * *

Getmək istəmir dünyadan insan,
O iki ömür yaşamaq istər.
Bir ömürdə qurardı, tikərdi,
O birində yeyib kef çəkərdi.

* * *

Hərə dünyanı bir cürə anmış,
Bəzi zəhmətdən zövq almış.
Digəri özünə qapanmış,
Halal zəhməti o haram sanmış.

* * *

Qartal az ömrlə zirvədə qaldı.
Qarğa üç yüz il zir-zibil yedi.
Bəzi qartal kimi az yaşadı,
Qurduğu isə dağdan ucadı.

* * *

Əşir sən qısa ömür yaşa,
Ancaq onu namusla vur başa.
Gecə-gündüz yaz, sarıl qələmə,
Qoy səsin düşsün küllü aləmə.
Səndən sonra söz yadigar qalar,
Oxuyanlar səni yada salar.

İNSAN BARMAĞI

İnsan barmağı yarayır hər işə,
Barmaqlarla öyrədilir hər peşə.
Barmaqlar ot çalır, üzümdə dərir,
İnək sağır, şeyir yazır, bağ salır.

* * *

Barmaqlarla dilə gəlir tar, qaval.
Maşın qayırırlar, çəkilər avar.
Barmaq əsər yazır, şəkildə çəkir.
Pambıq becərir, taxılda əkir.

* * *

Barmaqlar yedirir məsum körpəni.
Barmaqlarla əkirlər geniş sahəni.
Çəkib tətiyini adi silahın,
Dəyişirlər bir fağırın dünyasın.

* * *

Barmaqlar bomba düzəldir, şər əkir,
İnsanlar bir-birinə silah çəkir.
Bir kiçik düyməni basarsa barmaq.
Olar dünyadakı bəşəri qırmaq.

* * *

Əşir deyir birləşin ey insanlar.
Siz qoymayın havayı qan tökülə.
Ata-anaların beli bükülə.
Atomu dinc məqsədə yönəldin
Gəmi qayırın, yolları genəldin.

QOYMA BATA ŞƏHİD QANI

Qoçaqdır bizim xalqımız,
Üçrəngilidir bayraqlarımız.
Silahlanın igidlərim,
Tapdaqdadır torpağımız.

* * *

Əyilməzdir qəhrəmanı,
Çox qədimdir adı-sanı.
Xalqım qoru ad-sanını,
Qoyma bata şəhid qanı.

* * *

Qalxam bayraq birdə enməz,
Düz deyibdir dahilərim.
Torpağı ki, qorumuruq
O bizlərə vətən deyil.

* * *

Qorunmayan bir torpaqda,
Sən gül əksən tikan bitər.
Torpağın torpaq dili var,
Onu torpaq əkən bilər.

* * *

Müstəqildi dövlətimiz.
Öz himnimiz, bayrağımız.
Çox guşəlidir gerbimiz,
Vətən sevər xalqımız var.

* * *

Əşirəm azəri oğluyam,
Vardır bizim ad-sanımız.
Hürriyyəti, azadlığı,
Qorumaqdı şüarımız.

ÜZÜ GÜLMƏZ

Cənubi Azərbaycanlı qardaşlarıma

Qalx ayağa Cənubi Azərbaycan,
Yetirməsin Pişəvəri, Səttərxan.

Otuz milyon kölə yaşaya bilməz,
Min il kölə yaşasa üzü gülməz.

* * *

Ayağa qalx haqqını tələb elə,
Atıl gir meydana qılınc al ələ.
Cavidanı, Babəki yetirən xalq,
Kölə yaşamaq olmaz, ayağa qalx.

* * *

Qoy olsun ana dilində məktəbin,
Öz ana dilində olsun kitabın
Nəbini, Koroğlunu yetirən xalq,
Yatma fil qulağında, ayağa qalx.

* * *

Cəmi dörd yüz min olan «Hay»lara bax,
Dur haqqını tələb et, ayağa qalx
Öz erməni dilindədi məktəbi,
Azad yaşayır, yaşamır əsəbi.

* * *

Sənsə otuz milyonluq xalq susursan,
Eşit bil ki, susduqca uduzursan.
Sən üsyan elə, dünya getməz belə,
Bir bax «yazıq», «məzlum» xalq olan «hay»a.

* * *

Əşir otuz milyonluq xalqın susur,
Bil susduqca sənin xalqın uduzur.
Şəhriyar yetirən mübariz Təbriz,
Gir meydana dur düşmənlə üzbəüz.
Sən qalx, at belinə qılınc çal, vur gürz,
Qoy azad yaşasın gözümüz Təbriz.

ÇƏKMƏÇİ

Bütün günü taq-tuqla işləyirsən,
Azca çörək qazanıb dişləyirsən.
Yamadığın çəkmə lazımsa kimə,
Onda sən gileylənmə, ruhdan düşmə

* * *

Gündüzki taq-tuqdan gecə yatmırsan,
Əsəbindən yasdığa baş atmırsan?
Bu zəhmətin xeyir verirsə xalqa,
Deməli xalqına verirsən fayda.

* * *

Zəhmətin xeyir verirsə xalqına,
Onda işlə sən çox vermə fərqinə
Azacıq səsdən əsəbin gərilir,
Sən yata bilmirsən səbrin tükənir.

* * *

Nadan, naqis rişxənd etsədə sənə,
Onlar gülsələrdə sənin peşənə,
Sənsə Sarsılma, yaşa zəhmətinlə.
Yüksəlginən sənətinlə, peşənlə.

* * *

Nağara səsindən, gur danışıqdan,
Ovcun göynəyər, əsər barmaqların.
Sənin qabarlı əllərin dincəlmək,
Keyləşmiş ayaqlar işləmək istər.

* * *

Əşir sənətin hamısı yaxşıdır,
Böyük Nizami Gəncəvi demişdir:
«Yarımçıq papaqçı olmaqdansa sən,
Yaxşıdır kamil bir palançı olsan».

O GECƏ

20 yanvar gecəsi

Haqq ədalət harda qaldı, o gecə?
Namərd əllər haqqı boğdu, o gecə.
Allah haqsızlığa dözürsən necə?
Kəsən əllər qurumadı, o gecə.

* * *

Zalıma mən necə deyim sözümü?
Axı o çıxartdı görən gözümü.
İmperiya bükdü mənim dizimi,
Haqq ədalət niyə susdu, o gecə?

* * *

Ana naləsindən yer-göy ağladı.
Qız-gəlinlər başa qara bağladı.
Sinələr cırıldı, saçlar yolundu,
Torpaq al qana boyandı, o gecə.

* * *

Qara geyindi gözəl vətənimiz,
Yox bizim halımıza yananımız.
İçin-için ağladı ərlərimiz,
Allah de nələr olmadı, o gecə?

* * *

Əşir necə dözürsən bu dəhşətə?
Bu qırğına, bu zülmə, bu vəhşətə.
Yer niyə bəs məhşərindən çıxmadı?
Zalım alışıb yanmadı, o gecə.

YAXŞILIQ İSTƏ

Bir əsrin adamıyıq biz,
Fikirlərimiz müxtəlif.
Mən süzürəm o bənnanı,

Sən süzürsən o binanı.

* * *

Mən baxıram uzaqlara,

Sən baxırsan yaxınlara.

Mənə kədərdə həyatdır,

Sənə dünya toy büsatdır.

* * *

Biz bir əsrin adamıyıq,

Eyni havadan uduruq.

Mən gözəllik axtarıram,

Sən isə üfunət, çirkab.

* * *

Əşir sən yaxşılıq istə,

Gözəllik axtarma pisdə.

Yaxşıların yolunda öl,

Pisə qarşı amansız ol.

Tərif et yaxşını, düzü,

Gülməsin pislərin üzü.

DÜZ DANIŞ

İş günümüz qurtarır,

Ev qayğısı başlayır.

Yorğunluq canımızda,

Qalıbdır qanımızda.

* * *

Yorğunluğu atırıq,

Bir qızın öpüşündə.

Qara göz gözəllərin,

Şaqanraq gülüşündə.

* * *

Qovuruq yorğunluğu,

Kababların içində.
Radionun səsində,
Gözəlin gülüşündə.

* * *

Əşir at yorğunluğu,
Sən tənbəllik eləmə,
Daim sarıl qələmə.
Səsin düşsün aləmə.
Doğru yaz, düz söz danış,
Bir sözdə demə yanlış.

GÜLƏ ÜZÜMÜZ

Heç bir xalqda belə talan olmayıb,
Vətəni düşmənə qalan olmayıb.
Yurd-yuvamız yağı düşmənə qalıb,
Vətəndaşlarımız saralıb, solub.

* * *

Kölgəsində sürü yatmaz çinarın,
Yolu kəsilib naxırın, davarın.
Quruyubdu Bərgüşadım, Həkərim,
Üzmür balalarım şirin-şəkərim.

* * *

Bülbül budaqda oturub bir təhər,
Daha oxumur onu boğur qəhər.
Nə kənd bizə yaraşır, nə də şəhər,
Sanki aşımıza qatıblar zəhər.

* * *

Deyib gülənlərim indi susubdu,
Onlar öz talelərindən küsübdü.
İndi dərdə kədərə meyil salıblar,
Sevinci atıb, kədəri tutublar.

* * *

Dağlar həsrət çəkir gözü yoldadı,
Qarı düşmənimiz sağı, soldadı.
Açmır dağlarımın çiçəyi, gülü,
Solub gülüstan, oxumur bülbülü.

* * *

Əşir Bəşiroğlu son nəfəsdədi,
İntizara dözmür canı xəstədi.
Qorxuram qürbətdə yetə əcəlim,
Hardadı qəhrəman Nəbi, Həcərim?
Azad ola Vətən gülə üzümüz,
Doğma eldə ola toy düyünümüz.

VƏTƏN DƏRDİ

Deməyin ki, şair daha qocadı,
Vətən dərdi cəmi dərddən ucadı.
Vətəni olmayan insan qocadı,
Bu dərd belim əydi məni qocaltdı.

* * *

Yoxuşu çıxardım, çatardım düzə,
Zənn edərdim ömür çatacaq yüzə.
Əlimdə qələm güc verərdim sözə
Tərif yazardım mən yaxşıya, düzə.

* * *

Qarı düşmən el-obamı taladı,
Yurd-yuvamı tonqallara qaladı.
Bilmədim bu hardan gələn bəladı?
Bu dərd belim əydi məni qocaltdı

* * *

İnanırdım mən yaxşılara, mərdə,
Arxa çevirərdim hər cürə dərdə.

Elimlə olardım xeyirdə, şərdə,
Vətən dərdi məni vaxtsız qocaltdı.

* * *

İnanırdım yaxşıların sözünə,
Mil basardım düşmənlərin gözünə.
Vəsf edərdim Vətənimi, elimi,
Vətən dərdi qırdı mənim belimi.

* * *

Əşirəm yazıram yasdı, yaralı,
Yağıya qalıb dağların maralı.
Qalmışam mən Vətənimdən aralı,
Balalarım intizardan saralı.
Məndə qalmayıbdı bu dərdə dözüm
Vətən yollarından çəkilmir gözüm.

VƏTƏNİMDİR, VƏTƏNİM

Harda görürəmsə səfalı yaylaq,
Sanıram ki, Vətənimdir, Vətənim.
Dost-tanış evinə gedəndə qonaq,
Sanıram ki, vətənimdir, Vətənim

* * *

Səfalı dağında dövran sürdüyüm,
Buz bulaqların suyundan içdiyim,
Yerlərimizin oxşarın görəndə ,
Sanıram ki, vətənimdir, Vətənim.

* * *

Yağı düşmənlərin əlində qalan,
Qərib şairlərin dilində qalan,
Selin, qasırğanın içində qalan,
Yerlər mənim Vətənimdir, Vətəni.

* * *

Gəzib dolandığım aranı, dağı,
Özünə oylağa çevirib yağı.
Qərib, qaçqın, köçkün adlanan ellər,
Mənim doğma vətənimdir, Vətənim

* * *

Mən ata bilmirəm dərdin daşını,
Gecə-gündüz tökürəm göz yaşını.
Sevinci məndən daim uzağa qaçır,
Dərd sağ olsun yenə qanımı açır.

* * *

Əşir dərd çəkən varmı de sən qədər?
El dərdi çəkənlər yaşamır hədər.
Dünya yaranandan indiyə qədər,

İnsanlar görməyib bu qədər kədər.
Hücum edər bizim milli ordumuz,
Düşməndən alınar gözəl yurdumuz.

QAN YADDAŞI

Araz ağlatdı bizi əsrlər boyu,
Görmədik nə qardaş, nə bacı toyu.
Çox arzuladıq ki, birləşə Vətən,
Yox ola ayrılıq toxumu səpən.

* * *

Dəmir qapı Dərbənddi həsrətimiz
Yerəvan, Zəngəzur keçmiş dərdimiz.
İtirdik onları sındı belimiz,
Bu dərdlər bizim tarixi ləkəmiz.

* * *

Didərgin qaçqın, köçkündü adımız,

El obasız, yurdsuzdu ünvanımız.
Qəmlidir nəğməmiz, susub sazımız,
Qarlı qışa dönüb bizim yazımız.

* * *

Əşir Bəşiroğlu sarıl qələmə,
İfşa et düşməni səs sal aləmə
Qarabağ üzüyün yaqut qaşıdı
Bu itki tarixin qan yaddaşıdır.

ZÜLFİYYƏ GƏLDİ

Yaraşıq verdi məclisimizə, Zülfiyyə gəldi,
Elin sazlı-sözlü aşıq qızı Zülfiyyə gəldi.

* * *

«Sarıtel» qanadında əsdirdi qara telini
Sevənlərə zövq verən o, gözəl Zülfiyyət gəldi.

* * *

Sevən ürəklər yatdı sazın, sözüm laylasında,
Gecəni xoş keçirdik məclisə, Zülfiyyə gəldi.

* * *

Duyan ürək, sevən könül, tilsimləndi o səsdən,
Sazına, sözünə vurulduğum, Zülfiyyə gəldi.

* * *

Xoş səsimdən qar əridi, göründü qərənfillər,
Qış arxada qaldı, yaz ətirli, Zülfiyyə gəldi.

* * *

Məhəbbətdən maya tutdu bərəkətləndi yerim,
Süfrəyə ləziz nemət, məclisə,Zülfiyyə gəldi.

* * *

Əşir eşqə gəldi, yada düşdü ilk məhəbbəti,
Çünki məclisinə sazlı, sözlü Zülfiyyə gəldi.

SƏNİN

Gecə zülmətdən bir əl uzandı mənə doğru,
Döydü qapımı ki, ömrün başa çatdı sənin.

* * *

Çox çalışdım zülmətdən gələn əli öldürəm,
Gülüb dedi: «Artıq ömrün sona yetib sənin».

* * *

Dedi: Əzrayılam işim can almaqdı mənim,
Atılıb-düşsəndə olacağam canın sənin.

* * *

Mənim başım çox yeyibdir dünyanın daşını,
Aşında yemisən alıram sənin canını.

* * *

Əşir yaz-yarat boş keçməsin sənin bir anın.
Qoy səndən yadigar qalsın yazıların sənin.

NƏBİ YURDU

Ya rəbim düşüb könlümə yenə ata yurdu,
Təslim olarmı düşmənə Həcər, Nəbi yurdu?

* * *

Qəlbimə dolmuş bu qara dumanlar çəkilməz,
Əgər azad olmasa qəhrəman Nəbi yurdu.

* * *

Verimişik yağıya gözəl yurdumuzu «peşkeş»,
Ürək sakitləşməz alınmasa Nəbi yurdu.

* * *

Vətən həsrəti ürəyimi göynədəcəkdir.
Azad olmasa igid qəhrəman Nəbi yurdu.

* * *

Əşir dərd ürəyini yesədə eyib etməz,
Qorxum budur ki, üz döndərə səndən Nəbi yurdu.

DÖZÜM

Qürbətdə axır gözüm yaşı gülməyir üzüm,
Gedibdir məndən səbri qərar, qalmayıb dözüm.

* * *

Açılmır könlüm az qalmışam canımdan bezim,
Vətənlə, oğul dərdlərinə mən necə dözüm?

* * *

Sevincim məndən qaçır, dərd isə düzüm-düzüm,
Xüdayə kimdə olar dərdə mən qədər dözüm.

* * *

Gülüşüm çoxdan itib, dərdə öyrənib üzüm,
Hansı insanda olar dərdə mən qədər dözüm.

* * *

Qəmə-qüssəyə çox öyrənibdir mənim üzüm,
Əgər qəm-qüssə məndən qaçsa, mən necə dözüm?

* * *

Əşirəm bu qədər dərdlərə mən necə dözüm?
Dərd-kədər doymadı məndə səbir, qərar, dözüm.

NƏSİBƏ ZEYNALOVA

Biz Nəsibəni itirdik,
Bir dəstə aktyor içində.
Tanınırdı yerişində,
Qəhqəhəli gülüşündə.

* * *

Bu dərdin ağırlığını
Kimə deyək, kimlə bölək.
Biz ağlamaq istəyəndə
Züleyxası düşür yada

* * *

Ağlayırıq həm gülürük,

Kədərdən biz boğuluruq.
Apardı gülüşümüzü,
İtirdik yerişimizi.

* * *

Ağlayırıq hönkürtülü,
Gülüşümüz pıçıltılı.
Sevinci bizdən qopardı,
Qəbirə gülüş apardı.

* * *

Ömürün astanasında,
Sanki sevinci ölmüşdü.
O kədərdə boğulurdu,
Onu dərd üstələmişdi.

* * *

Nəsibə ölüm qabağı,
Öz dərdini unutmuşdu.
O teatrdan uzaqlığı,
Özünə dərd eləmişdi.

* * *

İndi mənə elə gəlir,
Onun təmiz sinəsində,
Qəbir dolu gülüş yatır,
Qəbirlərin arasında.

* * *

Əşir günlərin birində,
O saf gülüş yayılacaq,
Adamların arasında.
Qalacaq göz qarasında.
O uzaq səfərə getdi,

Niyə xalqını tərk etdi?

SÖZÜ QALDI

Ustad sənətkarımız Bəxtiyar Vahabzadənin vəfalı münasibəti ilə

Öldü Bəxtiyarım ellər ağlasın,
Analar, bacılar qara bağlasın.
Sənət aləminə üz verdi kədər,
Ağır dərd olarmı, bizim dərd qədər?

* * *

Getdi şair, alim, dövlət xadimi,
Xalqa ağır dərddir onun ölümü.
O bir inciydi daş-qaşlar içində,
Şahin idi cəmi quşlar içində.

* * *

Arzusuydu dövlət müstəqil ola,
Azad yaza, yarada, yaşa dala.
Yetirdi xalqın, dövlətin dadına,
Çoxlu təltiflər gəlmişdi adına.

* * *

Şair gördü müstəqil dövlətini,
Öz gerbini, himnini, bayrağını.
Dövlətin öz milli ordusu oldu.
Sevincdən şairin gözləri doldu.

* * *

Arzu edirdi torpaqlar alına,
Dövlətin işləri düşə yoluna.
İnşallah Azərbaycanım birləşər,
Torpaq alınar arzusu gül açar.

* * *

Görüşmədi Şəhriyarla, Bəxtiyar,
Hər dəfə görüş onlardan yan keçdi.

Bu dünyada görüşməsə də onlar
O haqq, dünyada ruhları görüşdü

* * *

Əşir yaza bilmir Bəxtiyar ölüb,
Şeyir aləmində bir məşəl sönüb.
Şair itkisinə bütün el ağlar,
Əlim əsər, qələm yazmaz, dil ağlar.
Ölsə də Bəxtiyarım izi qaldı,
Çoxlu sayda kitabı, sözü qaldı.

YAMAN HEY

Heç kim bilmir Qubadlının yaşını,
Duman alıb dağlarının başını.
Uçurmuşuq başdan dövlət quşunu.
Sərvətimi talan edib zaman hey…
Millətimin halı olub yaman hey..

* * *

Düşmən vurub dağıdıbdı elləri,
Ocaq sönüb bizə qalıb külləri.
Dərdli-dərdli axır qoşa çayları,
Qalmayıbdı bizdə ümüd-güman hey..
Millətimin halı olub yaman hey..

* * *

Alnımıza qara yazı yazılıb,
Gün-güzəranımız çox pis pozulub.
Qız-gəlinin şəvə saçı ağarıb.
Ellərimiz yada qalıb aman hey..
Millətimin halı olub yaman hey.

* * *

Dağılıbdı Qubadlısı, Laçını,
İgidlər itiribdi qol-qıçını.

Duman alıb Kəlbəcəri, Laçını.
Qəmli baxır Xankəndimiz aman hey…
Millətimin halı olub yaman hey…

* * *

Zəngilanım, Füzulim də alınıb,
Xocalımız yer ilə leysan olub.
Anaların dərddən beli bükülüb.
Qız-gəlinlər işvə-nazın atmış hey….
Millətimin bəxti yaman yatmış hey….

* * *

Bizim yatmış şirlərimiz oyanar,
Yağı düşmən al qanına boyanar.
Həkəri, Bərgüşad çağlayıb daşar.
Düşmənlərin halı olar yaman hey…
Millətimə kömək edər zaman hey…

* * *

Əşir yurdun talan olub dağılır,
Qarabağın dərd içində boğulur
Ağla şair dərddən belin bükülür
Yaman sızlayır tar, qaval, kaman hey…
Millətimin halı olur yaman hey…

MƏNASI OLMAZ

Pislərsiz həyatın mənası olmaz,
Pis olmasa yaxşı qiymətin almaz.
İnsanlar ayrılır yaxşıya, pisə,
Ya mərdə rast olur, ya da naqisə

* * *

Öyrənir insan qorxaqdan cəsarət.
Kobud adamdan öyrənir nəzakət.
Xaindən, satqından düzlük öyrənir.

Yaltaq, simasızdan mərdlik öyrənir.

* * *

İnsanlar öyrədənə demir əhsən,
Bunun hikməti nədədi görəsən?
Namərd, naqislər həyatda miskindi,
İnsanlar onlardan daim küskündü.

* * *

Əşir tənqid edir yaltağı, pisi,
Görmək istəmir şeytanı, naqisi.
Qorxaqlar, kobudlar ölüb itələr,
Onların yerini mərdlər tutalar.

GÖRÜRƏM HƏRDƏN

Ya rəbb Vətən hardadı, biz harda?
Düşmüşük ağır, sağalmaz dərdə.
Düşmən bizlərə vurubdu yara
Bülbül meydanın veribdi sara.

* * *

Qərib yazarlar görürəm hərdən,
Onların beli bükülüb dərddən.
Vətənsiz onlar ah-vay edirlər.
Vaxtsız bu dünyanı tərk edirlər.

* * *

Qürbət bizləri salıbdı dərdə,
Qiymət verilmir igidə mərdə.
Əşirin qalıb gözləri yolda,
İstəyir qovuşa doğma yurda.
Nəbi yurdundan qovulsa yağı,
Gedər ürəyin düyünü-dağı.

ƏLVİDA

Doğma diyar, gözəl yurdum əlvida,
Səndə keçən günlər hey düşür yada.
İçimdə sızıltı, gözümdə nəm var,
Qürbət eldə mən ölürəm əlvida.

* * *

Sənlə keçdi ömrüm, gözəl yaşım,
Heç bir ağrı, azar çəkmədi başım.
Sən oldun həmdəmim, sirin, sirdaşım,
Dərdsiz qəmsiz günlərimə əlvida.

* * *

Mən sənə dost doğma bir oğul oldum,
Öz canından, öz qanından doğuldum.
Düşmən aldı Vətənimi qovuldum
Acımadın bu halıma əlvida.

* * *

Doğma Qubadlım yox oldu gözlərdən,
Mollumunda izi itdi, izlərdən.
Baş açmadım bu dolaşıq işlərindən,
Bu xatirə, xəyallara əlvida.

* * *

O doğma diyarda gözəl yaşadım,
Dildən dilə gəzdi sənətim, adım.
Bilməm sönəcəkmi atəşim, odum?
Bəlkə də dönmədim sənə əlvida.

* * *

Bu həsrətli qəlbi dərd-kədər əzir,
Yurdumda məkirli dığalar gəzir.
Vətən dərdi məni ölüncə əzər,
Salar məni haldan hala əlvida.

* * *

Uzaqdan görünür Dik daş qayası,
Söyləyir başımın çoxdu bəlası.
Hardadı Nəbisi igid balası?
Acıya düşdüyü hala əlvida.

* * *

Əşirin ömürü yetibdi başa,
Ömrün qürub çağı düşübdü qışa.
Əlimdən nə gəlir vətən bağışla,
Birləşib səni alarıq savaşla.
Yığılar Vətənin igidi mərdi,
Alarıq Vətəni, atarıq dərdi.

AĞLA ŞAİR

Saçın ağarıb vaxtsız qocalmısan,
Sən elindən, obandan güc almısan.
Dünyadan cana doyub usanmısan,
Ağlama sən özünü üzmə şair.

* * *

Şən deyib gülən, gözəl oğlan idin,
Qəm kədəri uzağa qovan idin.
Zaman qocaltdı səni pir elədi.
Öz dərdinə sən özün ağla şair.

* * *

Təm-təraqlı evlərin talan oldu,
Göz yaşın aşimanə bülən oldu.
Yurdunda yağı düşmən at oynadır,
Sən pünhan dərdini çək,ağla şair

* * *

Əşirin talanıb eli, obası,
Sönüb ocağı, dağılıb koması,

Qəhrəman ordumuz səfərbər olsun
Doğma yurdumuzdan düşməni qovsun.
Səndə sevin, şadlan, oyna, gül şair,
Sevincdən ağla, göz yaşın sil şair.

NƏ DEYİM

Dünyada hərə bir iz qoyub gedir,
Yaxşı yaxşı, pis-pis iz qoyub gedir.
Namərdlərin qabağında diz, çöküb,
Mərdləri satanlara mən nə deyim?

* * *

Qul olmuşuq vəzifəli şəxslərə,
Haqlı-haqsız höküm verən kəslərə.
Tülkü sayaq yaltaq, satqın kəslərə,
Boyun əyən insanlara nə deyim?

* * *

Yaltaq, satqın gecə-gündüz şər gəzir,
Mərdə tələ qurur yolunu kəsir
İblis kimi dona girən kəslərə,
Dost arası varanlara nə deyim?

* * *

Əşir, mərd yoluna qoyar hər işi
Qurtarmaz mərdimazarın şər işi
Biz uzağıq tələ qurmaq sarıdan,
Yalvarırıq donuz çıxsın darıdan.
Bizi bu bəlaya salan kəslərə,
Vətənimi satanlara nə deyim?

DEYƏSƏN

İnilti var mərdin dərdli səsində,
Namərdin zövqünə yatır deyəsən.

Yurdumuzun dağılan vədəsində,
Çoxları var-dövlət yığır deyəsən.

* * *

Pusquda durub vətəni vuranlar,
Comərd insanlara hiylə quranlar.
Kölgədə gizlənib mürgü vuranlar,
Aqillərə quyu qazır deyəsən.

* * *

Hələ yazılmamış kitabdı dünya,
Çətin keçiləsi məktəbdi dünya.
Mayağı sönmüş bir gəmidi dünya.
Yolunu azıbdı, batır deyəsən.

* * *

Əşirdən dünyanın sevinci qaçar,
Kədər sağ olsun o qapısın açar.
Dünyanın varını namərd aparıb,
Dərdi-səri mərdə qalıb deysənə.

NAMƏRD

Ara qatmaq namərdlərin işidi,
Dişləri quduz canavar dişidi.
Aranı qatıb, aradan çıxarlar,
Mərd insanların evlərin yıxarlar.

* * *

Həmzə igid, Koroğlunu aldatdı,
Elə sandı ki, arzu kama çatdı.
Koroğlu yel qanadlı atın aldı,
Keçəl Həmzəni yaman günə saldı.

* * *

Hiylə, kələkdi namərdin peşəsi
Böhtan məktubdu evin hər guşəsi

Gecə-gündüz hiylə qurur o yatmır,
Başının bircəcə gülləsi çatmır.

* * *

Əşir namərddən yaz, iç üzünü aç,
Onların hiyləsindən uzaqlaş, qaç.
Hiylə, kələkdi namərdin kök-soyu,
Qalmaqala döndərib çoxlu toyu.
Gec-tez açılar onların iç üzü,
Tökülər düzü əyri görən gözü.

ADAM

Könlündən Allahlıq keçir,
Sığmırsan sən yerə-göyə.
Arzun buluddan su içir,
Özü yerdə gəzən adam.

* * *

Atmısan namusu, arı,
Ömürü etmisən yarı.
Tanımır səni ailən,
Xəyalı göylərdə, adam.

* * *

Katibən çox qıldır qaşdı,
Harda aşdı, orda başdı.
Oğru quldur sirdaşındı,
Qarnı başdan uca, adam.

* * *

Pula həris gözü acsan,
Həm tamahkar, həm alçaqsan.
Doğmalarından qaçaqsan,
Namus arın atan, adam.

* * *

Nə olsun ki, pulun çoxdu,
Adamlıqda yerin yoxdu.
Gözün açdı, qarnın toxdu,
Necə sənə deyim, adam?

* * *

Gec-tez düşərsən tələyə,
Başın salarsan bəlaya
Dostlara ögeysən, yadsan,
Ata-anaya yad, adam.

* * *

Bir vaxt danlarsan özünü,
Sən kor edərsən gözünü.
Döyərsən sən baş gözünə,
Səhvini anlarsan, adam.

* * *

Əşir nifrət edir sənə,
Ləkə gətirdin nəslinə.
Zəhər qatdın sən aşına,
Sən indi döy göz, başına.
Çətin gələsən özündə
Heç vaxt olmamısan, adam.

SOYUYUB SOBAM

Sevincim, gülüşüm məndən alınıb,
Başıma kədərdən cələng qoyulub.
Gözəl Vətənimi alıbdı yağı,
Düşmənə qalıbdı aranı, dağı.

* * *

Mən gülmək istəyirəm ağu gəlir,
Ürəyimə dərd-qəmin sağı gəlir.

Məhəmməd macal tapmır dağa gedə,
Dağın özü yan alır Məhəmmədə.

* * *

Çox vaxt qabağımıza saqı gəlir,
Şərabın sarısı, həm ağı gəlir.
Bir tərəfimizdən qızıl qan şərab,
O bir tərəfimizdən ağu gəlir.

* * *

Pəncərədə həmişə yanan şamam,
Ömürün əriyərək olub tamam,
Səmum yeli vurub dağılıb kamam
Sönübdür ocağım, soyuyub sobam.

* * *

Qəm-qüssə ürəyimdə düyün düşüb,
Hey çözələyirəm açılmır qardaş.
Sevincim, gülüşüm dağlardan aşıb,
Çoxdan axtarıram tapılmır qardaş.

* * *

Əşir dünyadan doyub edir həzər ,
Özünə yer tapmır axtarır məzar.
Ah-vayla keçir günü, güzəranı,
Səmti itib tapmır dağı, aranı.
İstəyir Azəri xalqı oyana,
Yağı düşmən al qanına boyana.

DƏRD YANIMDA QALIR

Qəm-qüssə arsızdan yan keçir,
Ancaq onu sevəni seçir,
Dərd ürəyimdə yuva salır,
Gecə-gündüz mənimlə qalır.

* * *

Kədər yerin alt qatındaydı.
Özünün köhlən atındaydı.
Məni görcəyin gəldi çıxdı.
Yerin alt qatın dəldi çıxdı.

* * *

Ürəyim qəlbimə kənizdi,
Qəlbimsə dibsiz bir dənizdi.
Vətən canımdanda əzizdi.
Onu sevməyənlər arsızdı.

* * *

Bəşir oğlu vətən canlıdır,
Vətən üçün isti qanlıdır.
Düşmən alıb qalmışıq həsrət,
Qovarıq Allah versə fürsət

NECƏ DÖZÜR

Qəm qüssə mənə sarı gəlir
Atıb namusu, arı, gəlir
O, məni sevir, ərki çatır,
Mənimlədi başımı qatır.

* * *

Əyri, satqın kefdədi, gəzir,
Düzlərim olub əsir, yesir.
Onların qolun qandal kəsir
Bu isə Allah necə dözür?

* * *

Kasıbın yolu bazaradı,
Meyli ölümə azaradı.
Qamsızlar daim, şər gəzirlər,
Düzləri şərləyib əzirlər.

* * *

Son ölümdü hamı ölərək,
Hamı haqq dünyanı görərək.
Əşirin yolu haqq yoludu,
Həyatı düzlüklə doludu.

BELƏCƏ

Təkliyin əlində qalmısan əsir,
Həsrətli qəlbinə küləklər əsir
Bir həmdəm dərdi səni edib əsir,
Həsrətli qəlbini boran, qar kəsir.

* * *

Tənhalıq qəlbini iflic edibdi.
Dost tanışlar səni atıb gedibdi
Evinin səmtini heç kəs tanımaz,
Məhəbbət bağında gəzən tapılmaz.

* * *

Qapını tək bağlayıb, tək açarsan,
Təkliyin əlindən bezib qaçarsan.
Sevgi tumarına həsrət tellərin,
Nə qədər darasan tumarın tapmaz.

* * *

Gecə həsrətlə şəhəri süzərsən,
Ümidin gözündə qalar beləcə.
Bəxtinə acıyıb ondan küsərsən,
Günün ahu-zarla keçər beləcə.

* * *

Bəzən daş göyərir, onda ot bitir,
Haqqın yolu düşür yönə beləcə.
Bəzən dəli sevda haraya yetir.
İşlər axarına düşür beləcə.

* * *

Əşir təklik səni pis günə salıb,
Səbri qərarını əlindən alıb
Səni bu təklikdən qurtaran adam.
Bilmirsən ölübdü, yoxsa ki, qalıb.

MƏZARIMDA TƏK OLMASIN.

Təklik sıxır insanı,
Təklikdən qaçın a dostlar!
Evdə bircə saat tək oturanda,
Fikir aləmində boğulur insan.
Sən boğulursan öz tüstünə,
Sanki divarlar uçur üstünə.
Xəyal uzaqlara aparır səni,
Sən qova bilmirsən qəm-qüssəni.
Gah ağlayır, gah gülür insan,
Xəyal aləmində boğulur insan.
Qulağın gurlayır,
Qəlbin döyünür,
Vahimələnirsən səsizlikdən.
Sanki güclü, bir qoşun,
Hücum çəkir üstünə,
Alışıb yanırsan sən öz istinə.
Hey düşünür-düşünür insan,
Xəyal aləmində boğulur insan.
Hava əvəzinə dərd-qəm udursan,
Bir ürək həmdəmin olmayan yerdə.
Yaxın sirdaşın olmayan yerdə.
Kiçilib yazıqlaşırsan sanki yoxsan.
Min dərd hücum çəksə də üstünə,
Yansan aləm yığılsa da tüstünə,

Dərd dərdin üstünə qalansa belə,
Həyat səni çəksə də dara,
Düşmən ürəyinə vursa da yara
Dərdlərinə olmasa çarə,
Dözərsən qədir bilən sirdaşın olsa.
Səhrada tək ağacı səmum vurar,
Yarpaqları vaxtsız saralıb, solar.
Meşələr soltanı aslanında,
Üzü gülməz yaxun həmdəmi olmasa.
Bağa tək qınına çəkilənləri,
Sel aparıb, ildırım vurmur niyə?
Buludlar əgər qoşalaşmasa,
Göy gurlamaz, yağışda yağmaz.
Çöllərdə tək bitdiyindən,
Boynu bükük olar bənövşənin.
Onun üzü də gülməz.
Tək əldən səs çıxmaz,
Deyib atalar.
Tək qanadla quş uça bilməz.
Tardan səs çıxmaz,
Əgər mizrab tale dəyməsə.
İki odun yanar səhrada,
Tək odun ocaqda da yana bilməz.
Dostsuz insan qanadsız quş kimidir,
Bir günüm də dostlarsız olmasın.
Hələ bu dünyanı demirəm,
A dostlar!
Axirət dünyasında da
Məzarım tək olmasın.
Təklikdən yaranır,

Qüssə, qəm, kədər.

Tək yaşasan ömrün gedər hədər.

Daima çəkərsən dərd, kədər.

Əşir yaşamısan bu yaşa qədər,

Bundan sonrakı ömürün gedəcək hədər.

A DAĞLAR

Dağın başını duman, çən alıb,

Ah-naləsi göylərə ucalıb,

Onlar Əlyarsız, Mirisiz qalıb.

Getməz üstündən duman, a dağlar.

* * *

Sinənə çəkilib çarpaz dağlar,

İndi üstündə gəzir yağılar.

Əyilmə, sınma, vüqarla dayan,

Qoy çəkilsin duman, çən, a dağlar.

* * *

Hərtiz də qəmli, Murov da qəmli,

Laçın dağları gözləri nəmli.

Niyə zirvədə süzmür qartallar?

Sona üzmür, gölündə, a dağlar.

* * *

Bəşir oğlu da sinə dağlıdı,

O, gələ blmir yolu bağlıdı.

Yığılar elin igidi, mərdi

Azad edərik sizi, a dağlar.

SAXLA YADINDA

Xalq Qəhrəmanı Həcər xanıma
Böhtan yazan şair Akif Səmədə

Kimə böhtan yazmısan, Akif Səməd?

«Həcər, Həcər»-deyib kəkələyirsən.
Həcər xanıma atmaq olmaz kəmənd
Elə öz adını ləkələyərsən.

* * *

Qaçaq Nəbinin həyat yoldaşıdı,
Həm yarıdı, həm onun sirdaşıdı,
Dostlara tor atma, əlin naşıdı
Həcər dəlilərin qız qardaşıdı.

* * *

Sən ləkə gətirərsən öz adına,
Nər kişilər böhtan deməz qadına.
Gözdən düşərsən, el yetməz dadına,
Mən qurbanam Həcər, Nigar adına.

* * *

Yazırsan yaz paralanmış vətəndən,
Düşmənə dağ çəkib, qanın tökəndən,
Qubadlıdan Xocalıdan, Şuşadan,
Sərkərdə Babəki satan dığadan.

* * *

Nahaqdan baxırsan sən sağa, sola,
Yolunu azmısan, tez qayıt yola.
Gəl, birləşib düşmənə quraq tələ,
Yurdu azad edib, qayıdaq elə.

* * *

Əşirin sözünü saxla yadında,
Ləkə tapmaq olmaz Həcər adında,
Böhtan demə, Həcər, Nigar adına
Onlar çox yetibdir xalqın dadına.

KÖVRƏK ÜRƏYİNƏ QURBANAM, ANA!

Məni işıqlı dünyaya gətirən,
Qayğımı çəkib ərsəyə yetirən,
Gecələr beşik başında oturan,
Gündə yüz dəfə bələyib, yedirən
Kövrək ürəyinə qurbanam, ana!

* * *

Vətənində kimsəsiz qalıb ağlayan,
Gecə-gündüz ürəyimi dağlayan,
Körpə nəvələrə könül bağlayan,
Dəniz kimi silkələnib çağlayan,
Kövrək ürəyinə qurbanam, ana!

* * *

Fələk niyə mənə belə qarğayıb,
Məni qürbət eldə anasız qoyub,
Həkəri-Bərgüşad kimi çağlayan,
Qan-yaş töküb, gecə-gündüz ağlayan,
Kövrək ürəyinə qurbanam, ana!

* * *

Əşir gedib çıxa yazı düzünə,
Üz qoya ananın ayaq izinə.
Orda ölüb qallam anamla qoşa
Çürüyüb qarışam torpağa, daşa.
Kövrək ürəyinə qurbanam, ana!

SƏNİ SEVƏN ÜRƏKDƏ

Dostum Əşir müəllimə.

Əziz Əşir qardaşım,
Yetmiş yaşın mübarək!
Arzum budur, ay dostum,
Yüz yaşında da səni
Bax beləcə sən görək.

* * *

Dostluqda, sədaqətdə
Həmişə saf olmusan.
Yaman gündə dostunu
Hey yadına salmısan.
Ürək təmiz, söz təmiz,
Ona görə də mənə
Olubsan hər an əziz.

* * *

Bir arzum da odur ki,
Vətəninə, elinə
Bir də qonaq gələydim.
Dost-tanışla birlikdə
Hey gülüb, şənlənəydi.
Yüz yaşını vətəndə
Keçirəydik birlikdə.
Onda mən də deyərdim
Niskil qalmadı, ay dost!
Səni sevən ürəkdə.

Bəhram müəllim

AD GÜNÜN MÜBARƏK!

Dostum Əşir müəllimə

Qəfil qonaq oldum bu ad gününə
Yetmişin mübarək, yüz yaşa səni.
Xeyir gəlsin qismətinə, önünə
Yetmişin mübarək, yüz yaşı səni.

* * *

O qarlı dağların qartal oğlusan,
Koroğlu soylusan, Nəbi soylusan,
Düşmən üçün haraylısan, hoylusan,
Yetmişin mübarək, yüz yaşa səni.

* * *

Neçə qız köçürdün, gəlin gətirdin,
Neçə nəvə əlin tama yetirdin,

Cavanlığı altmış ilə bitirdin,
Yetmişin mübarək, yüz yaşa səni.

* * *

Ağardı saqqalın, ağardı saçın,
Yazıldı bəxtinə didərgin, qaçqın,
Alınsın torpağın, qayıtsın haqqın,
Yetmişin mübarək, yüz yaşa səni.

* * *

Mən rəhmət dilərəm ölən oğluna,
Allah kömək olsan, qalan oğluna,
Qəlbinə həmahəng olan oğluna,
Yetmişin mübarək, yüz yaşa səni.

Eldar müəllim

ARXADI, KÖMƏKDİ, DAYAQDI QARDAŞ

Qardışım Nüsrətə

İnsana dost da, qardaş da lazımdır,
Qardaşın öz yeri, dostun öz yeri.
Gərək dostu, çörək dostu nə lazım?
Ürək dostuna qurban olsun canım.
Arxadı, köməkdi, dayaqdı qardaş.

* * *

Pis gündə qardaşın dayağın olar,
Arxan, köməyin, həm mayakın olar.
Çətinə düşəndə kəsər yanını,
Düşmənə ox olar, alar canını.
Arxadı, köməkdi, dayaqdı qardaş.

* * *

Gen gündə o səndən uzaqda gəzər,
Yıxılsan, əzilsən, yanını kəsər.
Yolunda çalışıb özünü üzər,
Xəstə olsan, yatmaz, hey səni süzər.
Arxadı, köməkdi, dayaqdı qardaş.

* * *

Əşirə qardaşı arxa, dayaqdı,
Onun övlaları qoldu, qanaddı.
Onları sevirəm həyatım qədər,
Bir yerdə olanda qaçır dərd-kədər.
Arxadı, köməkdi, dayaqdı qardaş.

SALMIR NƏZƏRDƏN

Qızım Sevincə

Sən dünyaya göz açanda çox çevindik,
Ona görə biz adına Sevinc dedik.
Allahın verdiyinə şükür eylədik,
Sevinərək biz adına Sevinc dedik.

* * *

Dedilər ki, dörd qardaşa bir bacıdır,
Oğul, ya qız, nə fərqi var, baş ucaldır,
Sonra gördüm həm də başımın tacıdır,
Sevinərək biz adına Sevinc dedik.

* * *

İndi Sevincimin cüt balası vardı,
Mən onları sevirəm həyatım qədər.
Allahımız onlara daim olsun yar,
Sevinərək biz adına sevinc dedik.

* * *

Qızım məni çox dərin sevir əzəldən,

Heç zaman atasını salmır nəzərdən.
Mən ona qoşuram şeirdən, qəzəldən,
Sevinərək biz adına Sevinc dedik.

* * *

Əşir qocalığı heç almır boynuna,
Gələcəkdir balalarının toyuna.
Nəticələrin də salacaq qoynuna,
Sevinərək biz adına Sevinc dedik.

ANALI GÜNLƏRİM YADIMA DÜŞÜR

Anam mənim daim görən gözümdür,
Bu dünyadakı xatirəm, izimdir,
O mənim mayakım, dan ulduzumdur,
Analı günlərim yadıma düşür.

* * *

Anam mənim həyata baxışımdır,
Gözəl, göyçəyim, ilmə, naxışımdır,
Xeyir-duası yola çıxmışdı,
Analı günlərim yadıma düşür.

* * *

Anam mənim şeir, nəğməm qəzəlimdir,
O mənim qəşəng, zərif gözəlimdir,
Canım fəda, axırım, əzəlimdir,
Analı günlərim yadıma düşür.

* * *

Anam mənə həyat, qida, qan verib,
Daha doğrusu ürəklə, can verib.
Hanı igidlər? Vətən darda qalıb
Analı günlərim yadıma düşür.

* * *

Arzumdur düşməndən Vətəni almaq,
Doğmalarımla bir orada olmaq.
Qürbəti tərk edib elimdə ölmək,
Analı günlərim yadıma düşür.

* * *

Əşir, vətənsiz günün ahu-zardı,
Qəlb geniş olsa da yerin dardı.
Qubadlı kimi gözəl elin vardı,
Analı günlərim yadıma düşür.

YÜZ YAŞA SƏN

Qardaşım Nüsrətin ad gününə həsr edirəm

Mənim əziz qardaşım
Altmış yaşın mübarək!

Şad günümüzdür bu gün,
Dostlar oynayaq, gülək.

* * *

Yetkin yaşa çatmısan,
Demirəm qocalmısan.
Giriş faydalı işə
Yüzdə ömrü vur başa.

* * *

Mənə qoymusan hörmət,
Daim çəkmisən zəhmət.
Dosta olmusan dayaq,
Səni göz üstə qoyaq.

* * *

İstə qardaş-bacını,
Görmə ağrı-acını.
Ömrü namusla yaşa,
Dayaq ol dost-tanışa.

* * *

Getdi torpağın, daşın,
Oldun didərgin, qaçqın.
Vaxtsız ağardı saçın,
Yüzə çatacaq yaşın.

* * *

Dostlar, biz yeyək-içək,
Dərd-qəmdən uzaqlaşaq.
Ataq nisgili-qəmi,
Gözlərdən silək nəmi.

* * *

Əşir gəlib ilhama,
Könlü alışıb-yana.
Sevir dostu-qardaşı,
Sona çatıbdır yaşı.
İstər vətəni görmək,
Gedib orada ölmək.

20 YANVAR FACİƏSİ

Doxsanıncı ilin yanvar faciəsi,
Ayın iyirmisinə keçən gecəsi.
«Şanlı ordu»muz tutdu Bakını topa,
Aman vermədi bir adam nicat tapa.

* * *

Gözəl Bakımızı boyadılar qana,
Öldü oğul, ana qaldı yana-yana.

Qırdı millətimi öz «qızıl ordumuz»,
Qızıl qana boyandı gözəl yurdumuz.

* * *

Pozaraq Konstitusiya andını,
Qorbaçov ləkələdi «təmiz» adını.
Qanı ilə tarix yazdı gənclərimiz,
Mükafat aldılar qaniçənlərimiz.

* * *

İyirmisi yanvar günü səhər-səhər,
Dəniz kimi coşub dalğalandı şəhər.
Tabutları düzmüşdülər dörd bir yana,
Ana fəryadı çıxmışdı asimana.

* * *

Qərənfillərlə bəzənmişdi tabutlar
Dolurdu qəbirstanlar, xiyabanlar.
Analar, bacılar yolurdu saçların,
Ər oğullar ağlayırdı için-için.

* * *

Bu da qırmadı xalqın iradəsini,
Topladı onun gücünü, qüvvəsini.
Yumruq kimi birləşdi qəhrəman xalqım
İçimdən qovuldu, xainim, satqınım.

* * *

Xain ordudan təmizləndi yurdumuz,
Qorudu vətəni öz Milli Ordumuz.
Yarandı azad, müstəqil dövlətimiz,
Öz gerbimiz, himnimiz, öz bayrağımız.

* * *

Əşir yaşasa da müstəqil dövlətdə,
Qarabağ boyda yarası var ürəkdə.

Yurdu azad edər qəhrəman ordumuz,
Biz vətənə gedərik, gülər üzümüz.

DARA DÜŞMÜŞƏM

Qürbətə düşəli sızlayır yaram,
Bilmirəm ölmüşəm, yoxsa ki, sağam.
Meyvəsi tökülmüş viranə bağam,
İndi qürbətdəyəm, dara düşmüşəm,
Borana, tufana, qara düşmüşəm.

* * *

Vətənə gedən yollarım bağlıdır,
Ürəyim ağrılı, sinəm dağlıdır.
Vətənimdə indi bahar çağıdır.
Mən hardaydım, indi hara düşmüşəm,
Boranı, tufana, qara düşmüşəm.

* * *

Varımız, mülkümüz, evimiz yoxdur,
Yetimə verməyə pulumuz yoxdur.
Sevinc bizdən qaçır, dərd isə çoxdur.
Lazımsız daş kimi çölə düşmüşəm,
Boranı, tufana, qara düşmüşəm.

* * *

Əşir Bəşir oğlun dərd-qəm bürüyür,
Müftəxor qarnını zorla sürüyür.
Qızlarımız evdə qalıb qarıyır.
Dəryada balıq təki, tora düşmüşəm,
Borana, tufana, qara düşmüşəm.

MƏNİM YUXUM

Gecə yuxumda gördüm ki, ölmüşəm,
Kəfənlənib tabuta qoyulmuşum.

Son mənzilə yola salırlar məni,
Pisləyirlər özümü, həm yazımı.

* * *

Qəribə söhbətlər edirlər məndən,
Biri acılayır, yığır, sürüyür.
Biri məni, həm şeirimi tərif edir
Dərdimdən, elsevərliyindən deyir.

* * *

Çoxları döşünə vurub əksimi,
Tərifləyir həm məni, həm şeirimi.
Bəziləri ağız büzüb rişxənd edir,
Söhbətləri elə hey məndən gedir.

* * *

Birisi qohum-əqrabamdan deyir
O birsi oğul-qızımdan deyir.
İki cürə qiymət verirlər mənə,
Həm özümə, həm də yazı –pozuma.

* * *

Bəziləri məhəbbət macəramdan,
Başqaları deyir ürək yaramdan.
Əsir vətənimdən, nakam balamdan,
Məzarı dümənə qalan anamdan.

* * *

Bəzi xəstə ürəyimin başından,
Bəzi həmişə axan gözə yaşımdan.
Bəzi dostlarıma sədaqətimdən,
Bəzi nakam ciyər paramdan deyir.

* * *

Biri özündən, ərin hünərindən,
Biri qaynananın fitnə-felindən,

Biri aşnasının gül camalından,
Biri siyasətdən, futboldan deyir.

* * *

Əşir yuxudan oyanır bu yerdə,
Deyir-Kəsin qiybəti elə burda.
Mənim necəliyimi bilinir eldə.
Mənə qiymət verəcək elim sonda.

YANIRAM BAXIN TÜSTÜMƏ

Ramilə gözümə fikirli dəyir

Ağır keçir günüm, ömür sökülür,
Gözlərimdən həmişə yaş tökülür,
Nər dizlərim öz-özünə bükülür
Dərddən ürəyim çürüyüb tökülür.

* * *

Qızım, elə sızıldama üstümə,
Onsuz da yanıram, sən bax tüstümə,

Dərd verirəm əzizimə, dostuma,
Zalım fələk durub mənim qəsdimə.

* * *

Baxa bilmirəm qızların üstünə,
Atan qurban cüt balanın gözünə,
Ürəyim də daha baxmır sözümə,
Mən nifrət edirəm özüm-özümə.

* * *

Sevgilin də qəmli dəyir gözümə,
Dərdli-dərdli dikir üzümə,
Atan Əşir tablaşmır bu zülümə,
Odsuz köksüz yanır haqsız ölümə.

QAYNATA

Atamın yanına el adətiylə,
Elçiyə gəldiz bizə, qayata!
Qohum xahişiylə, dost minnətiylə
Mən gəlin köçmüşəm sizə, qaynata!

* * *

Arvad olub, mən sevmişəm oğlunu,
Gözləmişəm qaynanamın yolunu,
Qayın, baldız, nəslinizin dölünü,
Ucaltmışam, bir də yüzə, qaynata!

* * *

Ağır otur, ağsaqqal ol elinə.
Xeyir danış, şər gətirmə dilinə,
Qəbahətdir, söyləmə qıza, gəlinə
Adam güdmə, düşmə izə, qaynata.

* * *

Hələ açıqdırsa, kamal dəftərin,
Gəlin də qızında, düşünsən dərin,
İtirərsən kişiliyin dəyərin,
Qoşulandan qiybət, sözə qaynata!

* * *

Ciyəri bəladan qoruyar ödü,
Kölgə üçün haqq yaradıb söyüdü,
Əşir verən nəsihəti, öyüdü
Döndərərsən heçə, toza, qaynata!

TÜLKÜ BƏYLİK EDİR

Nər bağlanıb eşşək quyruğuna,

Göndərilir tülkü buyruğuna.
Qəfəsdədir şir, pələng və ayı,
Ac qalırlar qışı, yazı, yayı.
Bu dünya yaman zalım dünyadır.

* * *

«Tülkü bəy» yeyib, içib şellənir
Nər oğlu nər alnından nallanır.
Şir qəfəsdədir, bar-bar bağırır,
İnsanları köməyə çağırır,
Bu dünya yaman zalım dünyadır.

* * *

Şahin-şonqarı tora salıblar,
Yazıq qartalı nişan alıblar,
Şir qəfəsdə hirsindən ağlayır,
Könlünü dərdə, qəmə bağlayır,
Bu dünya yaman zalım dünyadır.

* * *

Çaqqal meydan oxuyur bəbirə,
Gündə yüz igid girir qəlbinə.
Bizimki qalıb ancaq səbirə,
Bəbir xəstələnib pis gündədi.
Bu dünya yaman zalım dünyadır.

* * *

Millətimin çoxusu dilənir,
Məmurlar yeyib-içib, enlənir.
Tülkü-çaqqal hallanıb, kefdədir.
Allah! millətim yaman gündədir,
Bu dünya yaman zalım dünyadır.

* * *

Tülkü çox şəndir öyrənib yala,
Qurda meydan oxuyur it, tula.
Xalqım möhtacdır yarana, şora,
Baş bilənlərim salınıb tora.
Bu dünya yaman zalım dünyadı.

* * *

«Tülkü bəy» məcbur edir bəbiri,
Özü qazsın özünə qəbiri.
Arxasız qalıbdır bizim bəbir.
Pələng, ayı qəfəsdə dardadır,
Bu dünya yaman zalım dünyadır.

* * *

Əşir,vətənsiz canın xəstədir,
Torpaq gedibdir ömür nəsdədir.
Şir bağlıdır salınıb qəfəsə,
«Tülkü bəy» qorxmur gəlib həvəsə,
Bu dünya yaman zalım dünyadır.

MƏN VƏ VİCDANIM

Əgər mən haqsız bir iş görsəm,
Vicdanım əzab verir mənə.
Aramızda dava başlayır,
Düşmən əl çalıb alqışlayır,
Hər kəs də özün haqlı sayır.

* * *

Vuruşuruq biz hər ikimiz,
Təhqir oluruq hər birimiz.
Birin o deyir, birini mən,
Axırda mən oluram haqsız,
Xəcalətdən ölürəm vaxtsız.

* * *

Görürəm haqlıdır vicdanım,
Səhvlərimi sayır üzümə,
Barmağın da soxur gözümə.
Təslim oluram, barışıq,
Əl verək qucaqlaşırıq.

* * *

Əşir, heç vaxt atma vicdanı,
Dostunla düşmənini tanı.
Yaxşıya qiymət verən hanı?
Bilinmir satqınların sanı.
Sən zəif tərəfdə ol barı.

BİZİ TUTDULAR DAŞA

Hörmət edib çıxartdıq başa,
Qonaq oldular plova, aşa,
Cumdular kababa, lavaşa,
Sonra bizi tutdular daşa.

* * *

Pis qonşu bizi ələ aldı,
Bizə qız verdi, kirvə oldu,
Guya dost-doğma qohum oldu,
Sonra bizi tutdular daşa.

* * *

Samveli xalq şairi etdik,
Sayat Novaya dastan qoşduq.
Onlar ruhumuzu incidib
Sonra bizi tutdular daşa.

* * *

Biz paytaxt verib dövlət etdik.

Vəzifə verib çəkdik başa,
Onlarsa başladı savaşa,
Sonra bizi tutdular daşa.

* * *

Ermənilər yolların azdı,
Ələsgərin ruhunu əzdi.
Üz verdik çıxdılar lap başa,
Sonra bizi tutdular daşa.

* * *

Xalqımız torpağını alacaq,
Pisik özlərinə qalacaq.
Artıq qan qulaqdan çıxacaq,
Nankor qonşular çıxdı başa
Sonra bizi tutdular daşa.

* * *

Əşir, yaran olub dözülməz,
Qorxma, haqq nazilər, üzülməz.
O tayqulaq da çıxdı başa,
Ölümü oldu bir tamaşa.
Sonra bizi tutdular daşa.

NANKOR QAYNATA

İsmətli gəlinin ağzına söymə.
Allaha xoş getməz, xeyir tapmazsan.
Gəlin də bir qızın, sən onu döymə!
Allaha xoş getməz, çörək tapmazsan.

* * *

Gəlini qız gözündə görsən əgər,
Ata tək sevməyə sənə meyl edər,
Gecə-gündüz bil ki, sənə can deyər,
Allaha xoş gedər, çörək taparsan.

* * *

Xəbis rəftar zəhər qatar aşına,

Pis əməllər gələr sənin başına,
Xəlvət düşsə bir daş salar başına,
Bu rəftar getməz Allahın xoşuna.

* * *

Gəlinin ağzına söyən qaynata
Nə arzuya çata, nə kama yetə.
Yaxşı rəftar göstər, desinlər ata,
Yaxşı rəftar sənə hörmət gətirər.

* * *

Pis qaynata yaşamasın dünyada,
Salmasın özünü heç zaman oda,
Övlada olmasa o, yaxşı ata,
Allaha xoş getməz o, çörək tapmaz.

* * *

Əşirəm, gəlinə qızım demişəm,
Həmişə sözümün yerin bilmişəm,
Gəlinə can deyib, can eşitmişəm,
Səndə bu yolla get, nankor qaynata.

ATA

Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Evin böyüyü, elin ağsaqqalı,
Ananın şöhrəti, qızın neməti,
Oğulun arxası, qəddi-qaməti,
Qeyrətdi, qüvvətdi, sərvəti ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Evin ağırlığın çiynində çəkən,
Gecə-gündüz işləyib qar-tər tökən,

Düşmənə qan uddurub, bağrını sökən,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Evinin qeydinə həmişə qalan,
Daim düz danışıb, bilməyər yalan,
Oğlunun, qızının qayğısın çəkən,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Dərdini tək çəkib, sevincin bölən,
Ağrısın deməyib, xəlvəti çəkən,
Namərdə, paxıla zərbələr çalan,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Müqəddəs torpağı düşmənə qalan,
Gücə-gündüz için-için ağlayan,
Xanmanəsi yerlə-yeksan olan,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi dayaqdı ata.

* * *

Övladları yetim, yesirə dönən,
Yurdunda yağı düşmən at oyanadan,
Təmkini, səbri, qərarı tükənən,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Atasız övladın gülməyir üzü,
Titrəyir dizləri, keçməyin sözü,

Tapılmır çörəyi, çatışmır duzu,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Alınsa kişinin torpağı, eli,
Partlayar ürəyi, qırılar beli.
Halal olmaz onun çörəyi, suyu,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Vətən azad olsa, taparıq şəfa,
Qurarıq, tikərik, çəkərik cəfa.
Eyş-işrətə baxıb, sürərik səfa,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Yığılsa elimin igidi, mərdi,
Azad olar torpaq, atarıq dərdi.
Müharibə qurtara, sona çata,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

* * *

Əsir beş yaşında itirib ata,
Az qalıb ki, ömürü sona çata.
İstər ömrünü vətəndə vura başa,
Qeyrətdi, qüvvətdi, sərvətdi ata,
Arxadı, köməkdi, dayaqdı ata.

ATASIZ GÜNLƏRİM

Beş yaşımda atam öldü,

Bununla çırağım sönüdü,
Atasız keçmədi sözüm,
Olmadı gecəm, gündüzüm.

* * *

Nadanlar məni danladı,
Düz sözümü səhv anladı.
Dərd-qəmin içində üzdüm,
Ölmədim, birtəhər dözdüm.

* * *

Atamdan doymadı gözüm,
Getdi məndən taqət, dözüm.
Qismətim oldu qəm-kədər,
Bütün ömrüm getdi hədər.

* * *

Hər işə özüm tək getdim,
Çətinə düşsəm, səbr etdim.
İşlədim, qan-tərə batdım,
Dərdimlə bir yerdə yatdım.

* * *

Ah-zarla ağardı saçım,
Gəlib çatdı ahıl yaşım.
Pəhləvan bir oğlum getdi,
Bununla da dərdim artdı.

* * *

Səbir-qərar əldən getdi,
Dərd-qəm məni şair etdi.
Qışım gəlib, yazım getdi,
Şeirimlə bir yaşım ötdü.

* * *

Ata, sənə qurban olum,

Sənsiz çox çəkmişəm zülüm.
Sınıbdı qanadım, qolum,
Arzumdu yanına gəlim.

* * *

Əşirin canı xəstədi,
Ata qəbri məhbəsdədi.
İstər torpaq azad ola,
Sevinə, şadlana, gülə.

QAÇAQ NƏBİ

Elinin dərdinə dözə bilməyib,
Düşübdü yurdunda çox uzaq Nəbi.
Yurdunu yadlara sata bilməyib,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Çox illər düşmənin zülmünə dözdün,
Neçə tələ qurdusa basıb keçdin,

Düşmən güc gələndə quş kimi uçdun,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Həmzədən olanlar satdılar yurdu,
Babəki satan Sumbatla birləşib,
Həmzə, Sumbat bizi arxadan vurdu,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Ər igidləri dörd yanını alan?
İranı və çarı lərzəyə salan,
Bir həmlədə yüzlərlə düşmən qıran,
Qeyrətin qurbanı ay, Qaçaq Nəbi.

* * *

Arxanda dururdu el, oba, hamı,
Həcər xanım verdi sənə ilhamı,
Qardaşın Mehdi də kəsir sağ yanı,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Boz atını al qumaşa tutardı,
Boz a tonu çox davadan qurtardı.
Hər tərəf kəsilsə göylə uçardı,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

İgidlərin bir-birindən ucadı,
Telli Qara, Vəli, Qanlı Qocadı.
Hamısı qoçaqdı, nərdi ucadı,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Əliyar düşməni tutmuşdu oda,
Xainlər vətəni satdılar yada.
Xəyanətin qurbanı oldu o da,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Vətən, varın gedib, qalan kövşəndi,
Yad qızdan olan xaindi, düşməndi.
Dünyadan əl üzüb, dur köçək, Nəbi,
Qeyrətin qurbanı, ay Qaçaq Nəbi.

* * *

Əşir, nikbin ol, sən daim get öndə,
Nəbilər, Babəklər birləşir sonda.
Alarıq qurbəti, dönərik yurda,
Qeyrətin qurbanı, ay Qoçaq Nəbi.

ŞİRİN BACIM, ŞƏKƏR BACIM

Anam düşəndə yadıma,
Bacım yetişir dadıma.
Anam qədər sevir məni,
Həmişə çəkir nazımı
Şirin bacım, şəkər bacım.

* * *

Çox istəyirəm xətrini,
Alıram ana ətrini,
Gözlərimdən duyur məni,
Fəxr edərək, sayır məni
Şirin bacım, şəkər bacım.

* * *

Ana plovu düşsə yada,
Ancaq bacım yetir dada.
Plovu bişirir adıma,
Anamı salır yadıma
Şirin bacım, şəkər bacım.

* * *

Baş qoyuram dizi üstə,
Oxşayaraq, öyür məni.
Əgər dəcəllik eləsəm,
Gülə-gülə döyür məni
Şirin bacım, şəkər bacım.

* * *

Bacımla mən görüşündə,
Uzaqlaşır qəm-kədərim.
O, anamı əvəz edir,
Məndən qaçır dərdi-sərim.
Şirin bacım, şəkər bacım.

* * *

Əşir, səni anan kimi,
Sevən əziz bacın varmış.
Heyif ki, ana məzarı,
Şərəfsiz düşmənə qalmış,
Şirin bacım, şəkər bacım.

ÜRƏK DOSTU

Dostum Bəhram müəllimə

Yalnız yaxşı insanlar arasında
Dostluq mümkündür.
M.T.Siseron

Bir aqildən soruşdular,
Dost yaxşıdır, yoxsa qardaş?
Dedi: - Qardaşın qardaşdır,
Yaxşı dosta sən de, qardaş.

* * *

Dost həyatda müxtəlifdir,
Çörək dostu, gərək dostu....
Belə dostlar naxələfdir,
Əsil dostdur ürək dostu.

* * *

Süfrədən nemətin bolsa,
Ürək dostu çox sevinər.
Dara düşsən naxələf dost,
Kömək etməz, qoyub gedər.

* * *

Gərək dosta lazımsansa,
Tapar səni harda olsan.
Ona lazım deyilsənsə,

Axtarmaz darda da qalsan.

* * *

Bəhram mənim ürək dostum,
İşlərimə gərək dostum.
Qohum, qardaşdan irəli,
Ürək dostum, ürək dostum.

* * *

Dostluqda daim ucaldın,
Əşirin qeydinə qaldın,
Pis günümdə yada saldın,
Ürək dostum, ürək dostum.

ARVADDAN QORXAN «DOSTUM»

Arvad məni asıb-kəsir,
Qorxudan ürəyim əsir.
Olmuşam lap əsir-yesir,
Deyir: - Hələ yaşayırsan?

* * *

Can demişəm, çor almışam,
Dərdi sinəmə salmışam.
Yaman günlərə qalmışam,
Deyir: Hələ yaşayırsan?

* * *

Arvad deyil, cin-şeytandı,
Ömrüm –günüm oda yandı.
Nə eşitdi, nə də qandı,
Deyir- Hələ yaşayırsan?

* * *

Deyir: - Tayın çoxdan ölüb,

Çürüyüb torpağa dönüb.
Ocaqları çoxdan sönüb,
Sənsə hələ yaşayırsan?

* * *

Deyəndə ki qurban olum,
Deyir: - Mənə etdin zülüm.
İstərəm bir yolluq ölüm,
Deyir: -Niyə yaşayırsan?

* * *

Bədbəxt varmı mənim qədər?
Ömrüm-günüm getdi hədər,
Qarğış yedim axşam-səhər,
Deyir:- Niyə yaşayırsan?

* * *

Əşir «dostun» tərs adamdı,
Dediyindən dönməyəndi.
Saqqal ələ verməyəndi.
Yaxşı yaman bilməyəndi.
Hələ çox yaşayacaqdı.

VƏTƏNİMDƏ ÖLƏYDİM

Baxıram dağlara, dağlar ağlayır,
Analar, bacılar qara bağlayır,
Ürək nisgillidir, el yas saxlayır,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Əzizlərim qalıb çox-çox uzaqda,
Nisgil çəkən körpələri qucaqda,
Xəstə canım dözmür buna yataqda,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Millətimə çox ağır zərbə dəydi,
Bu faciə mənim qəddimi əydi.
Elə öz içimizdən zalım oldu,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Aman Allah, nə yaman zaman gəldi.
İllər bir birindən çox yaman gəldi,
Ahı naləzim göylərə yüksəldi,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Nisgil ürəyimi didib dağıdır,
Qarımış bu düşmən bizə yağıdır.
İndi vətənimdə bahar çağıdır,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Vətən çox şirindir, düşməyir dildən,
Bülbül həsrət çəkir bağçada güldən.
Mən vaxtsız ayrıldım obadan, eldən,
Allah, kaş vətənimdə öləydim mən.

* * *

Əşir, çox darıxma bir zaman gələr,
Bulanmış o sular yenə durular.
Yenə əllərin vətəni qucaqlar
Allah, kaş vətənimdə öləydim mən.

MƏN QOCALMIŞAM

Aylar, illər bir anda gəlib-getdi,
Göz nurdan düşdü, gözəllər yan keçdi.
Ayaqlar dolaşdı, qamət əyildi,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

Baxıram günlərim çox ağır keçir,
Taylarım qocalıb, dünyadan köçür.
Hər kəs əməlinin şərbətin içir,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

A dostlar, qürbət məni yaman əydi,
Qaçqın, köçkün dedilər, mənə dəydi.
Qəriblikdə taleyim çox pis gəldi,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

Qürbətdə keçən ömür sona yetir,
Yaddaş pisləşir, gözün nuru itir,
Gözəllər ağız büzüb, rişxənd edir,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

Nəvə də, övlad da, dinləmir məni,
Yamsılayırlar hər bir kəlməmi.

İtirirəm yerişimi, sözümü,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

Baxın, didərgin şairin halına,
Sevgilim də daha gəlmir yanıma.
Gözəllər acıyır mənim halıma,
Başa düşürəm ki, mən qocalmışam.

* * *

Əşir Bəşiroğlu, dərd səni əydi,
Qocalıq da dərdli vaxtında gəldi.
İkisi birlikdə qanını sordu,

Başa düşürəm ki, mən qocalmışam.

UZAQ OLDU

Bu dünyanın dərd-qəmini
Ürəyinə yük eləmə.
Nə qismətdi o olacaq,
Əlavə bir şey diləmə.

* * *

Kişilikdən dəm vuranlar
Kişi kimi yaşamadı.
İnsanlıqla bir araya
Sığmadı namərdin adı.

* * *

Halal çörək baş ucaldır,
Çalış ona əməl elə.
Haramlıqla qazananın
Gəzər adı dildən-dilə.

* * *

Məsləhəti aqildən al,
El-obanın qeydinə qal.
Pis işlərdən uzaq dolan,
Qıl körpünü yadına sal.

* * *

Əşir yoxsul da dolandı,
Heç kimə də əl açmadı.
Yaxşı işlə məşğul oldu.
Pis işlərə qoşulmadı.

TOYA BÜSATA GEDƏK

Çoxlu ağladıq daha bəsdi,

Qəm-qüssə ömrümüzü kəsdi.
Dostlar, indi də deyək, gülək,
Ürəkdən qəm-qüssədən silək.

* * *

Oynayaq, gülək, kef də edək,
Vəfalı yara tərif deyək.
Baxaq gözəllərin səfinə,
Yetək onların vüsalına.

* * *

Toya, büsata, bara gedək
Can qurban gözəl yara-deyək.
Qəmdən, qüssədən söz açmayaq,
Kefdən, damaqdan göz açmayaq.

* * *

Əşir, sözün cəfəngiyyatdı,
Kədərdən ömrün sona çatdı.
At kef, damağı yapış dərddən,
Sən ağı de, özünə pəsdən.

ZALIM DÜNYADI

Haqq nazilib, üzülüb gedir.
Mərdimazar bildiyin edir.
Tale də kasıba qarğayır,
Ehtiyac onu əzib sıxır.
Dünya yaman zalım dünyadı.

* * *

Gözəlləri sıxır zamana,
Onlar qismət olur nadana.
Qoy dağılsın belə zəmanə,

Aqil də möhtacdır nadana.
Dünya yaman zalım dünyadı.

* * *

Yaltaq, satqın daim şər gəzir,
Namərd mərdə quyu qazır.
Haqsızlıq, şər yeriyib gedir,
Aqillər salınıb tordadı,
Dünya yaman zalım dünyadı.

* * *

Müftəxor həmişə ucalır,
Alimdən şairdən bac alır.
Əşir dözə bilmir, qocalır,
Düzlərin ayağı gordadı.
Dünya yaman zalım dünyadı.

GÖZƏL MOLLUM

Qoşa qəhrəmanlar kəndidi Mollu.
Bağları bəhrəli, sünbüllü dolu.
«Üç qardaş»ım inanc yerim, pirimdi.
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Dik daşım nişangahımdı, qibləmdi.
Top daşım da yaddaşımdı, yolumdu.
Həkəri çayım qanadım, qolumdu.
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Kəndimin ilk alimidi Məhəmməd,
Allahdan diləyirəm ona rəhmət.
Elm yolunda o, çox çəkib əziyyət.

Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Quranı başa vurub Molla Əhməd,
Ona da Allahdan diləyərək rəhmət.
Quranı təbliğ edib, çəkib zəhmət.
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Köləlik buxovun qoparıb atan,
Kənddən ilk müəllim ziyalı qadın
Əminə xanımdır min əhsən ona.
Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Mahalda ağsaqqal lazım olanda,
Mollu Cəbrayıl bəy düşərdi yada.
Haqqı bərpa edib yetərdi dada.
Mənim qəhrəman kəndim, əzəl yurdum.
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Kəndin ilk mexanizator qadını,
Ağca xanımdır, bilirik adını.
Yaxşı bilir texnikanın sirrini.
Mənim qəhrəman kəndim, əzəl yurdum
Nəbi, Həcər vətəni, gözəl Mollum.

* * *

Bəşiroğlu düşüb eldən aralı,
Ürəyi nisgilli, könlü yaralı.
Deyir, alar torpağı şanlı ordum.

Mənim qəhrəman kəndim, əzəl yurdum,
Nəbi, Həcər vətəni, gözəl Mollum.

MƏNİM ANA DİLİM

İşləndikcə büllurlaşan,
Çeşmə kimi aşıb-daşan,
Körpələrə layla olan,
Mənim doğma ana dilim,
Qurban olum sana, dilim.

* * *

Cavanşirin qeyrətinə,
Qoç Nəbinin hünərinə,
Koroğlunun nərəsinə
Qüvvət verən ana dilim,
Qurban olum sana, dilim.

* * *

İşlədikcə zəngiləşən,
Mənaca çox dərinləşən,
Günəş kimi şölə dərinləşən,
Gözəl, təmiz ana dilim,
Qurban olum sana, dilim.

* * *

Dədəm Qorqud sevib səni,
Çalarlı edib mənanı,
Oxşar ana balasını,
Elim sevir səni, dilim,
Qurban olum sana, dilim.

* * *

Nizamilər, Fizulilər
İnci yaradıb sənlə.

Yazıldıqca cilalaşan
Mənim doğma ana dilim.
Qurban olum sana, dilim.

* * *

Türkdilli dillər içində
Pərvazlanıb boy atmısan.
Azəri dilim olmusan
Doğma, gözəl ana dilim,
Qurban olum sana, dilim.

* * *

Bu müstəqil dövlətimin
Şah dilisən, mənim dilim.
Kim səni atsa, unutsa,
Onu olsun dilim-dilim,
Qurban olsun sana, dilim.

* * *

Öz dilini dananlara,
Nankorlara, nadanlara,
Fasonlu ədəbazlara
Qənim olsun ana dilim.
Qurban olum sana, dilim.

* * *

Ana südü ilk qidamız,
Laylasıdı şən nəğməmiz,
Ana dili şah dilimiz,
Onsuz bizim nə günümüz,
Ona qurban hər birimiz.

* * *

Öz dilində danışmayan,
Xeyrə-şərə qarışmayan,

Kökün-soyun dananları
Görüm tutsun duz-çörəyim,
Qurban olum sana, dilim.

* * *

Vətənimin varı mənim,
Çölü sənin deyənləri,
Qoy alışıb külə dönsün,
Boykot etsin onu elim,
Qurban olum sana, dilim.

* * *

Əşir sevir öz elini,
Qoruyur doğma dilini.
Canımdır vətənim, elim,
Qanımdır torpağın, dilim.
Qurban olum sana, dilim.

YALANMIŞ

Meyl etməyin vara, dövlətə,
Var dövlət dünyada qalanmış.
İnsana qalan beş metr ağdır,
Ondan başqa hər şey yalanmış.

* * *

Dünyadan şöhrət və şan gedər,
Nökərin çiynində xan gedər
Aqil zindana atılıb qalır,
Namərd keflə başını qatır.

* * *

Köhlən açdır, yabı arpada,
Qaçqın, köçgün ölür çadırda.
Hörmətsizdi qoşma, qəzəldə,

Urvatsızdı qızda, gözəldə.

* * *

Allah dünyanın zayın götür,
Axmağın alçaq, xayin götür.
Aqili arzu kama yetir,
Satqınları aradan götür.

* * *

Əşir sevir el obasını,
Halal evini, komasını.
İstər torpaqları alına,
Düşmən al qanına bulama.
Gedə Vətəninə, elinə,
Yetə ocağına, pirinə.

POEMALAR

BİR DƏ GÖRÜM QUBADLIMI, ELMİ

Allah! İlham ver, vəsf edim elimi,
Qoşa çaylarımı, geniş çölümü.
Qeyrətli oğullar saymır ölümü,
Allah! Yerdə qoyma belə zülümü,
Bir də görüm, Qubadlımı, elimi.

* * *

İnsanları qorxmaz, dağ vüqarlıdır,
Çölləri genişdir, qoşa çaylıdır,
İgidləri haraylıdır, hoyludur,
Dosta həlim, düşmənə çox zorludur,
Qubadlılar mərddir, səxavətldir.

* * *

Bərgüşad şəhəri bölübdür yarı,
Çaydan su içən bağ çox verir barı.
Qubadlı elləri adlı-sanlıdı,
Alimli, şairli, qəhrəmanlıdır,
İnsanları səxavətli, karlıdı.

* * *

Qaçaq Nəbi hər girəndə savaşa,
Düşmən özün vurardı dağa-daşa.
Həcər Nəbi ilə gedərdi öndə,
Qələbə bizimlə olardı sonda.
Qubadlıda igid çoxdu bu gün də.

* * *

Deyin, hansı rayon qoşa çaylıdı?
Bağ-bağçası bəhrəlidi, barlıdı?
Həkəri, Bərgüşad axırlar qoşa,

Bu çaylardan bolluq yağır həmişə.
Bol nemətdən yeyib, doluruq yaşa.

* * *

Mənbəyi dağlardı, mənsəbi Araz,
Sahilində gül-çiçək heç vaxt solmaz.
Şəfalı bulaqdan süzürlər suyu,
Əskik olmaz baldırğanı, balığı,
Min dərdə dərmandı çayların suyu.

* * *

Meşəsi meyvəli, ceyran-cüyürlü,
Dosta sığanacaq, namərdə tələ.
Ordan düşmənlər sağ çıxmayıb hələ.
Var meşədə qoruq, çayda vətəgə,
Boldur alması, armudu, moruğu.

* * *

Buludla örtülər dağın zirvəsi,
Ləzzətlidir meşəsinin meyvəsi.
Çoxdur alçası, əzgili, heyvası,
Ağac kovuşunda arının balı
Allahın payıdır bizim ellərə.

* * *

Qonaqları Nəbi, Həcər qarşılar,
Girişdə dayanıb, onların büstü.
Onlar qəbul edir qonağı, dostu.
Qonağa verməyə boldur çörəyi,
Ocağından əskik olmaz xörəyi.

* * *

Baba Süleyman oturardı başda,
Gələrdi yanına qohum da, dost da.
Gənclərdən Şamo Arif, Eldar Baxış,

Əli Vəliyev də söhbət edərdi
Eldar Baxış şeirə vurardı naxış.

* * *

Eldar sərt cavab Verdi Balayana
Ermənilər qaldılar yana-yana.
Dedi:- Siz keşişdən güc alırsınız,
Axı Azərbaycanla dolanmırsız?
Vaxt olar al-qana boyanarsız.

* * *

Toy-bayramda yığılıb gələrdilər,
Çingiz Yıldırım, Valeh Bərgüşadlı,
Məmməd İsgəndərov, Hüseynov Kamran,
Nəzər Heydərov,Abdullayev Əsgər
Saymaqla qurtaran deyildi onlar.

* * *

Yazmasaq inciyərlər qalanları,
Arif Heydərov, Cəlal Bərgüşadlı,
Pəhləvan Bahadur, Həbib Şirinov
Möhbalı Əmiraslanov və sair....
Qubadlıdan bəhrələnibdir onlar.

* * *

Sayma, qurtarmaz düşünən başları,
Onlar bağışlarlar mən ağsaqqalı.
Hansını deyim, kimdən, nədən yazım?
Onlar düşünən baş, vuran əldilər,
Bütün Qubadlılar qəhrəmandılar.

* * *

Pəhləvandan, milli qəhrəmanlardan,
Mən də yazmışam, yazanlar da çoxdu.
Onlardan çox qorxub qaçardı yağı,

Pəhləvan milli qəhrəman Əliyar
Düşmənə zülm edib, çəkərdi dağı.

* * *

Çoxdur vətənimin inanc yerləri
Şeyxləri, seyidləri, həm pirləri.
Mir Sədi və Hacı Qasım ocağı
Dəstə ilə insan gələrdi ora,
Ürəklə gedənlər tapardı şəfa.

* * *

Kim ziyarət etsə İmamzadəni
O gözəl piri, inanılmış yeri.
Niyyəti hasil olar, kama çatar,
Mütləq orda sağalıb şəfa tapar,
Dərd-qəmdən qurtarıb, arzuya çatar.

* * *

Hacı Qaraman da inanc yeridi,
O, xalqımın inanılmış piridi.
Deyirlər buz gavur gedibdir ora,
Şəfa tapıb dönübdür bizim dinə.
Görün, bizim pirlər qadirdir nəyə?

* * *

Üçqardaş, kəndinin ən yaxşı piri,
Elimin gözəl piri, inanc yeri.
Kəndin adamları gedərdi ora
Yol göstərərdi gələn qonaqlara,
Hamı şəfa tapıb düşərdi yola.

* * *

Çoxdur bizdə tarixi abidələr,
Körpüdür, qalalar və ibadətgahlar.
Dördüncü əsrə aid ibadətgah,

Dördüncü əsrin Cavanşir türbəsi,
Laləzar, Hacı Bədəl körpüləri.

* * *

On dördüncü əsrdən yadigar qalan
Dəmirçilərdəki türbə məscidi.
Türbələr, qalalar və mağaralar,
Nə qədər yazsaq qurtarmaz onlar,
Qubadlının tarixi abidələri.

* * *

Almasaq abidələri, pirləri
Qəhrəmanlar bağışlamaz bizləri.
Nəbinin qəbiri od tutub yanar,
Həcərin də ruhu fəryad qoparar.
Babək, Cavanşir bizdən üz döndərər.

* * *

Bəşiroğlu yanar vətən odunda
Dərdin çəkir doğmanın da, yadın da.
Allah yetsin millətimin dadına,
Yağı düşmən çəkilsin öz qanına
Millətim də çatsın arzu-kamana.

PODRATÇI FƏTƏLİ

I HİSSƏ

Qubadlının gözəl kəndidi Mollu,
Ağsaqqalları ağıllı və nurlu,
Cavanları qeyrətli dəli-dolu,
Ora düşmənin bağlı idi yolu.

* * *

Sayılan ağsaqqal idi Fətəli,
Sürü ilə mal-qarası, davarı.

İndi də məşhurdu onun kağ yeri,
Kağa sağına gələrdi inəyi.

* * *

Örüşdən gələndə qoynunla quzu,
Ona kömək edərdi oğlu-qızı.
Oğlu Bəşir səslərdi kəllədarı,
Davarı aparardı kağa sarı.

* * *

Çox idi çobanı, mala baxanı,
Quzu əmizdirib, inək sağanı.
Qoyuna baş çoban idi Şərəfat,
Fətəli ona verərdi mükafat.

* * *

Qızı Tamaşa da inək sağardı,
Oxşayıb onları tumarlayardı.
Qazanlar, sərinclər südlə dolardı,
Fətəli, Nabat baxıb xoşlanardı.

* * *

Onun arxası idi oğlu Bəşir,
Doğma qardaşları Məhəmməd, Camal.
Ailədə ağsaqqaldı Fətəli,
Qanun idi hər sözü, hər kəlamı.

* * *

Kağda sərin sulu Qoşa bulağı
Su aparardı qocası, cavanı.
Nabat nənəm oğluna qız seçərdi,
Suya gələnləri gizli süzərdi.

* * *

Oğlu Bəşir bəyənmişdi Xurşudu
Ahu gözlü, maral baxışlı qızı.

Oğlu ürəyini açdı anaya,
Ana çox sevindi belə sevdaya.

* * *

Onlar qız evinə elçi getdilər,
Qızın hərin alıb, çox sevindilər.
Ananın, atanın gülürdü üzü,
Gəlinləri idi o dan ulduzu.

* * *

Gəlin üçün qurban kəsdilər quzu,
Dedilər qoy çox olsa oğlu, qızı.
Bəşirlə Xurşud arzu-kama çatdı,
Fətəli ilə Nabat rahat yatdı.

* * *

Təkcə Fətəlinin dükanı vardı,
Kəndlilər də ordan alver edərdi.
Parça, yer-yeməli, dolu olardı,
Dükana gələnin üzü gülərdi.

* * *

Kənddə ağsaqqal Cəbrayıl bəy idi,
O da mərd Fətəlini çox sevərdi.
Fətəli ağsaqqal yolu saxlardı,
Yetimə, yesirə əl də tutardı.

* * *

Dövlətin puluna tikərdi bina.
Podratçı Fətəli deyərlər ona.
Çox gözəl olardı tikdiyi bina,
Görənlər «əhsən» deyərdilər ona.

* * *

Fətəli çay üstə körpü tikərdi,
O bulaq qazardı, yollar salardı,

Köhnə körpüləri bərpa edərdi,
Yollar kənarına su da çəkərdi.

* * *

İşlərdi, yox idi gecə-gündüzü,
Xeyirxah iş görmək idi devizi.
Sevincdən həmişə gülərdi üzü,
Allah da çox sevir halalı, düzü.

* * *

İbadətgahları təmir edərdi,
Ocağa, pirə sitayiş edərdi,
Əlsiz-ayaqsıza arxa durardı,
Qəribi, qonağı mehman edərdi.

* * *

Kəndə buraxmazdı, quldur, qaçağı,
Oğrunu, qulduru, həm də alçağı.
Ağsaqqallar da çox sevərdi onu,
Alqışlardı işini, əməlini.

* * *

İnanc yerlərinə o, çox gedərdi,
Kənarlarına çəpərlər çəkərdi,
İçində ağaclar, güllər əkərdi,
Mümkün olsa ora su gətirərdi.

II HİSSƏ

Nəbi, Həcər də o kənddə boy atıb,
Molluda doğulub, dünyaya gəlib,
Orda yeyib, içib ərsəyə çatıb,
Düşmənə dağ çəkib, canını alıb.

* * *

Dözə bilməyiblər çarın zülmünə,
Daim vuruşublar xalqın xeyrinə.
Aradan götürmək üçün zülümü,
Onlar saya salmayıblar ölümü.

* * *

Nəbiyə arxa, kömək idi xalqı,
O isə xalqına dayaq olardı.
Xalq onu, o da xalqı qoruyardı,
Gücünü el-obasından alardı.

* * *

Nəbi Fətəlini sevib ürəkdən,
Yaşıddırlar, çox çıxıblar sınaqdan.
Nəbinin dəstəsi gəlsə Molluya,
Fətəli yedirib salardı yola.

* * *

Cəbrayıl rayon Söyüdlü kəndindən,
Allahverdi Allahverən oğlu da,
Nəbiyə hörmət edərdi dərindən,
Onun yolunda keçərdi sərindən.

* * *

Həcər xanım nasaz, xəstə olanda,
Nəbidən ayrı Molluda qalanda,
Onun nisgilin ürəyə salanda
Həcərə Fətəli kömək edərdi.

* * *

Dost Fətəli Söyüdlüyə gedərdi,
İşi sahmanlayıb geri dönərdi,
Həcəri həmin kəndə aparardı,
Onu Şərabanıgildə qoyardı.

* * *

Allahverdi doğma idi Nəbiyə,
Həcər inanırdı Şərəbanıya.
Nəbi sınamışdı Allahverdini,
Dosta inamını, etibarını.

* * *

Şərəbanı çox sevirdi Həcəri,
Ona mehriban olan insanı.
Pünhan saxlar, qalardı qayğısına,
Yerin deməzdi şeytana satqına.

* * *

Həcər göründü çuğulun gözünə,
Ъandarmalar düşdü onun izinə.
Şərabanını çox təhqir etdilər,
Tez ol, Həcəri bizə ver, dedilər.

* * *

Həcər xanım, dözmədi bu təhqirə,
O gəldi ъandarmalar olan yerə.
Nəbinin yarı silaha əl atdı,
Şərəbanı onun dadına çatdı.

* * *

Dişi aslanlar silaha qatıldı
Düşmənlər qanına qəltan edildi.
Söyüdlüdən çapar Molluya çatdı,
Fətəli igidlərlə dada çatdı.

* * *

Həcəri qoruyurdu Şərəbanı,
O da doğrayıb tökürdü düşməni.
Arxadan vurarkən Həcəri yağı,
O alçağı gəbərtdi Şərəbanı.

* * *

Həcər xanım onu görüb sevindi,
Maşallah, şir kimi vuruşur dedi.
Qırılıb seyrələqdən sonra yağı.
Səngər etdilər özlərinə dağı.

* * *

Allahverdinin yarı Şərəbanı
Quş tək dənləyirdi yağı düşməni.
Həcərin sevinci aşıb-daşırdı,
Hər ikisi, şir kimi vuruşurdu.

* * *

Həcər dedi: Nəbidən dərs almışam,
Sizin kimilərin çox gəbərtmişəm.
Bir həmlədə olardı düşmən başdan,
Çox çıxmışam belə qanlı savaşdan.

* * *

O, Şərəbanının gözündən öpdü,
Dedi: - Bacı, gör nə çox düşmən köpdü.
Gəldi Fətəli və dəliqanlılar,
Hamısı bir yerdə Molluya döndü.

* * *

Gəldilər Nəbi, Allahverdi kəndə
Düşməni tutaraq saldılar bəndə.
Nəbi dedi: Nanəcib qurumsaqlar,
Heç kişi də qadına əl qaldırar?!

* * *

Qadına əl qaldıran qurumsağı,
Qadın da öldürər, belə alçağı.
Nəbi dedi: - Həcərlə Şərəbanı,
Özləri tutacaq sizə divanı.

* * *

Həcər silah verdi Şərəbanıya,
Dedi: Sən bula onları al-qana,
Şərəbanı üç başçını öldürdü,
Həcər baxaraq gözləri doldu.

* * *

Dedi: Rəhm elə bu binavələrə,
Bağışla onları arvad-uşağa.
Ehtiyac onları qoşub bu işə,
Tapsınlar özlərinə ayrı peşə.

* * *

Həcər dedi: - Ürəyi yumşaq bacı,
Həyatda görməyəsən ağrı-acı.
Ancaq səndədir onların əlacı,
İstər öldür, istərsə burax bacı.

* * *

Şərəbanı onları tez buraxdı,
Kədərli –kədərli Həcərə baxdı.
Bacılar qucaqlaşaraq öpüşdü,
Ərləri onlara baxıb gülüşdü.

* * *

Dedilər pakdır Şərəbanı, Həcər,
Allah yaradıb zərif, incə, gözəl.
Oldular yazıqlar zamana qurban,
Saxlaya bilmədik xoşbəxt firavan.

* * *

Kaş dağılaydı belə zalım dünya,
Olmayaydı dünyada qul və ağa.
İnsanlar dostlaşıb qardaş olaydı,
Adamlar firavan dövran sürəydi.

* * *

Onlar yeyib-içib şənlik etdilər,
Oynayıb, oxuyub, deyib güldülər.
Gəlmədi məclisə nə xan, nə paşa
Sonra onlar çəkildi dağa-daşa.

* * *

İndi o yerlər düşmənə qalıbdı,
Çaylar quruyub, güllər də solubdu.
Yağı düşmən o yerdə at oynadır,
Bizlərin bağrının başın göynədir.

* * *

Nəbi oylağı gör kimə qalıbdı?
Çəməni, çiçəyi niyə solubdu?
Ər oğullarımız şəhid olubdu,
Ana –bacılar saçların yolubdu.

* * *

Babək, Cavanşir, Nəbilər oyansın,
Qəhrəman ordumuz ayağa qalxsın.
Bur həmlədə düşmən qana bulansın,
Xalqım vətənə dönsün, üzü gülsün.

* * *

İnanıram elə bir gün gələcək,
Düşmənlər əzilib məğlub olacaq.
Yatmış azəri şirləri duracaq,
Düşməni qanına qəltan edəcək.

* * *

İnsan həyatda olarsa mübariz,
Vuruşa bilərlərsə gecə-gündüz,
İlan ölməz əgər görməsə ulduz,
Əzək məhv edək, qoy ölsün o quduz.

* * *

Necə ki, vətəndə sehr edər yağı,
Əriyər, qalmaz ürəyimin yağı.
Çəkməsək düşmənə dağ üstən dağı,
Sakitləşməz şəhidlərin məzarı.

* * *

Əşir, eldən gəlir düşmən sorağı,
Gəzir aranı, oylaq edir dağı.
Getməz ürəyinin nisgil Qubarı,
Vətən azad ola, biz gedək ora,
Arzuya çataraq, yetişək ora.

DÜNYA DÜZƏLMƏZ

Neçə ki, yalan yol alıb yeriyir,
Düzəlməz bu dünya, vallah düzəlməz.
Pislər çox yaşayır, yaxşılar ölür,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Harda böyük-kiçik yeri bilinmir,
Elin yaxşısı, yamanı seçilmir,
Ər-oğlu, ərlərə qiymət verilmir,
Dözülməz bu dünya, vallah dözülməz.

* * *

Dardadı Vaqifin, Xanın məzarı,
Əgər biz azad etməsək onları,
Heç ruhları bağışlarmı bizləri?
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Un qarışıq, suyu bulanıqdısa,
Yoğruranla bişirilən xəbisdisə,

Halallıq, düzlük olmaz o çörəkdə.
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Yaxşıya, pisə qiymət qoyulmasa,
Böyük, kiçiyin yeri bilinməsə,
Ulduz göydə, çiçək yerdə olmasa,
Düzəlməz bu dünya, vallah düzəlməz.

* * *

Gülün xoşuna gəlir bülbül səsi,
Bülbül istəməz heç vaxtı qəfəsi,
Bilinmirsə hər dərdin öz davası,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

İlanlar sevmir əzəldən yarpızı
Bir yerdə otlamırsa qurdla quzu,
Gəlin sevmirsə qayını, baldızı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Samvel Azərbaycanın xalq şairidi,
Yoxsa bizim Əli kərimin adı.
Alınmırsa Ələsgərin məzarı,
Düzəlməz bu dünya, vallah düzəlməz.

* * *

Tülkü ağadırsa, aslan üstündə,
Dost-dosta dayaq deyilsə, pis gündə,
Nərin ayağına vurulsa kündə,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Hərənin bir arzusu var ürəkdə,
Olmasa halallıq duzda, çörəkdə,

Lazımsa tərlana sarın köməyi,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Kəsirlər başları fürsət olanda,
Qısnarlar divara rüşvət alanda.
Yalan, məkr ürəklərə yol tapanda,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Uşağın atadan yoxsa xəbəri,
Düz olmaz onun işi, əməli.
Eləsinin dəyməz xalqa köməyi,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Neçə ki, Nəbi, Babək nəvələri,
Əldə silah minmirlər köhlənləri,
Qana qəltan etmirlər düşmənləri
Düzəlməz bu dünya, vallah düzəlməz.

* * *

Həmişə bahara deyirlər solmaz,
Yovşan əksən, ondan çəmənzar olmaz,
Neçə ki, yaxşı qiymətin almaz,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Sən götürsən gücün çatmayan daşı,
Məyus edərsən dostu, həm də qardaşı.
Əgər namərd atırsa mərdə daşı,
Düzəlməz bu dünya vallah, düzəlməz.

* * *

Əgər harın, nadan özünü öysə,
Aqillər yanında gözünü döysə,

Qocanın, zəifin qəlbinə dəysə,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Əl tutun, əl tutmaq Əlidən qalıb,
Əl tutan özünü bilərsə qalib,
Harınlar özün saysa yenilməz,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Allah insanları çəkir sınağa,
Ona güc verib, gətirir qınağa.
Şər olursa xeyrin üstündə ağa,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Əgər düz olmasa cığırın, izin,
Yerisən yıxılarsan, gülməz üzün.
Səmimi olmasa, ürəyin, sözün,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Neçə ki, hiylə, yalan minir ata,
Sərkərdə Babək aldanır Sumbata,
Qoç Koroğlu ki, inanır Həmzəyə,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Sevgiyə güc olmaz, sədaqət istə,
Hər dağ dələn olmaz Fərhad tək usta.
Namərdə yalvarma, çevrilməz dosta,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Kişini saydırır, çörəyi, duzu,
Namusun qoruyur gəlini, qızı.

Bilinməsə hər kəsin işi, sözü,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Çaya çatmamış çıxarma başmağı,
Qıza şərəf verər onun üz ağı.
Qadın yersiz yerə vursa yaşamağı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

İgid el-obaya arxalanmasa,
Atalar da oğluna güvənməsə,
Bülbül öz gülünü qoxulamasa,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

İnsan gərək xeyrə, şərə yaraya,
Qohum –əqrabanı, dostu araya,
Təhrif edib, ağ deyilsə qaraya,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Sevənlər çox yaxşı bilər qaydanı,
Belə qısqanclıqdan gələn faydanı,
Onlar unutsalar əhdi, peymanı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Elidir insanın arxa-köməyi,
Evin bəzəyidir onun qonağı,
Kişinin olmasa halal uşağı,
Düzəlməz bu düeya, vallah düzəlməz.

* * *

Dardadırsa Qoç Əlyarın məzarı,
Ora düşmürsə ərlərin güzarı,

Azad olmursa Mirinin məzarı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Kişilər görmüşəm ürəyi geniş,
Onlar büdrəməsin, görməsin yeniş.
Yaxşılar almasa təşəkkür, alqış,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Bilinmirsə böyük- kiçiyin yeri,
Şeytanın, çuğulayan artarsa varı,
Zindana atsalar ər oğlu əri,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Oğullar tez ölüb sıradan çıxır,
Atalar, analar qalıb dərd çəkir,
Neçə ki, vətəndə düşmən turp əkir,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Hər zaman baş verir vulkan, zəlzələ,
Alimlər bu sirri açmayıb hələ,
Neçə ki, namərd mərdə qurur tələ,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Əsil kökümüzü unuduruq biz,
Nə gecə bilirik, nə də ki, gündüz,
Doğma vətən gedib gülmür üzümüz
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Dardadı igid Həcərin məzarı,
Mir Sədi və Hacı Qasım ocağı.

Azad etməsək ocağı, məzarı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Necə ki, dardadı ər oğlu ərlər,
«Tülkü bəy!» Azaddı bağlanıb nələr,
Neçə ki, meydanda yoxdu Nəbilər,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Verdik düşmənə Şuşanı, Laçını,
Oğullar itirdi qol-qıçını.
Almasaq torpaqların hamısını,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Biz qoşuruq Sayat Novaya dastan,
Düşməni ayıra bilmirik dostdan.
Neçə ki, qəfəsdə bağlıdı Aslan,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Qubadlı, Cəbrayıl, Füzuli hanı?
Yoxdursa Şuşa, Xankəndi, Xocalı,
Verdik Kəlbəcər, Zəngilan, Ağdamı,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Neçə ki, nadanlar olublar ağa,
Alimi, şairi qoyarlar lağa,
Bülbül cəhcəhinə gülür qurbağa,
Düzəlməz bu dünya, vallah, düzəlməz.

* * *

Əşiri göynədir İsa bulağı
Düşmənə qalıbsa Vaqif oylağı,
Cıdırdan gəlmirsə atın sorağı,

MƏHƏBBƏT ŞEYİRLƏRİ

SƏNSİZ VƏTƏN

«Könlüm quşu pərvazlanıb uçmaz sənsiz vətən
Xoş günlərim çıxmaz xəyalımdan, sənsiz, vətən!»

* * *

Qürbətə düşsəm də xəyalınla yaşayıram,
Yaralanmış quş tək uçunuram sənsiz, vətən!

* * *

Sənin bal nemətin süfrələrin bəzəyidir,
Düşmən paralayıb mən qalmışam, sənsiz, vətən!

* * *

Vətən eşqi ilə can verirəm gecə-gündüz,
Qürbət eldə xəstə canım ölər, sənsiz, vətən!

* * *

Əşir çoxdandır ki, qaçqın, didərgin yaşayır!
Ər oğul, azad et qoyma qala, sənsiz vətən!

NƏ TEZ ÜZÜN DÖNDÜ

Saza söylədim dərdimi bu gecə,
Baxsan görərsən, mən yanıram necə?

* * *

Candan oldum, göydə ulduzum söndü,
Afət, bax mənə, nə tez üzün döndü?

* * *

Sənsiz bir gün yaşasam, olum candan,
Qoy ölüm qurtarım töhmətdən, ardan.

* * *

Röyada görürəm qara zülfünü,
Yarım, əsirgəmə məndən lütfünü.

* * *

Daim yanıram yarın atəşin,
Yar, gül üzümə, dolanım başına.
Yarı atsa, Əşir olar divanə,
Eşq oduna yanar, olar pərvanə.

BUNA DA ŞÜKÜR

Könül eşq odunda şam kimi yanır,
O eşqin atəşin əyləncə sanır.

* * *

Bilirəm, sönməyəcək atəşimiz,
Çünki o həm safdı, həm də ki, təmiz.

* * *

Gözüm baxır gözünə gülmə mənə,
Çünki vücudum çox bağlıdır sənə.

* * *

Axsın gözüm yaşı qarşında sənin,
Göz-göz yaşından necə dürr yaranır?

* * *

Zülfünü yana atsan, üz görünər,
Günəş doğar, aləm nura bürünər.

* * *

Xumar gözlərin əsiri olmuşam.
Leysan tək yağıram, çünki dolmuşam.

* * *

Əşir, fələk səni sınağa çəkir.
Atma yarını, de, buna da şükür.

GÜNÜM CANANSIZ KEÇİR

Yarsız mənim ömrüm hicranla keçir,
Nə müddətdir günüm canansız keçir.

* * *

Yarım yoxdur mən onsuz qürbətdəyəm,
Canansız məclisimiz cansız keçir.

* * *

Vətən dardadı, gözlərim yollarda,
Ona görə günüm ah-vayla keçir.

* * *

Yazıq yarım daim göz yaşı tökür,
Çünki onun günü əşirsiz keçir.

BU GECƏ

Gəlmədin məclisinə, yar, bu gecə
Hicrandan yandım, yaxıldım, bu gecə.

* * *

Aradım, axtardım hər yerdə səni,
Uçdu ruhum, sanki öldüm, bu gecə.

* * *

Gəl məclisinə, üzümə gün doğsun,
Gəlməsən, hicrandan ölləm, bu gecə.

* * *

İstərəm çatam yarın vüsalına,
Kaş ki, olmaya tutan, qar, bu gecə.

* * *

Eşqindən mən yanıb külə dönmüşəm,
Gəl, Əşirin könlünü al, bu gecə.

KEÇİR

Qürbətdə günlərim pərişan keçir,
Nə müddətdir ömrüm vətənsiz keçir.

* * *

Vətən yağı düşmən tapdağındadır,
Vətənsiz günüm ahu-zarla keçir.

* * *

Doğma ruhlar narahat edir məni,
Xəstə canım çox intizarda keçir.

* * *

Yarımı da sıxır vətən həsrəti,
Günü Əşir tək gözü nəmli keçir.

SƏNSİZ

Bağçaya gül dərməyə getdim sənsiz,
Gözəlim, əlim gül dərmədi sənsiz.

* * *

Arxanca gəzərək mən səni sordum,
Topa bilmədim, ruhum öldü sənsiz.

* * *

Qorxum budur, gün keçə, il dolana,
Hicrandan ürəyim dayana sənsiz.

* * *

Gözəlim, mən ki, sənə könül verdim,
Qoyma biçarə Əşir ölə sənsiz.

İNSANIN MERACI EŞQDİR

Sevgilim insanın meracı eşqdir,
Yerin Süleymanı, baş tacı eşqdir.

* * *

Eşqsiz keçən ömür bir viranədir,
İnsanı yaşadan, ucaldan eşqdir.

* * *

Məkkəm, Mədinəm, Gövhər kanım eşqdir,
Qibləm, Kəbəm, ülvi sevgim də eşqdir.

* * *

Yar zülmündən məni qoruyan eşqdir,
Məni öldürən, yaşadan da eşqdir.

* * *

Əşir yar yolunda ölümə gedər,
Çünki canına təpər verən eşqdir.

MÖHTAC

İnsan yaranandan hörmətə möhtac,
Əkib-biçənlər bir zəhmətə möhtac.

* * *

Zəhmətkeş tərifə, qiymətə möhtac,
Şana, şöhrətə və qiymətə möhtac.

* * *

Ulu insanlar mində bir yaranır,
Cəmiyyət ulu şəxsiyyətə möhtac.

* * *

Kölə buxovun qırıb atan millət
Olar ancaq bir hürriyyətə möhtac.

* * *

Əşir daim yanır eşqin oduna,
Odur cananın vüsalına möhtac.

EŞQDİR

Fərhada dağı dəldirən eşqdir,
Onu yaşadan, öldürən eşqdir.

* * *

Yeri fırladan günəş eşqdir
Günəşə atəş verən də eşqdir.

* * *

Yeri orbitdə saxlayan eşqdir,
Bol nemət, həyat verən də eşqdir.

* * *

Əşir, eşqsiz yaşaya bilməzsən,
Sənə güc, qüvvət verən də eşqdir.

YOLLARI

Çoxdandır gəzirəm qürbət elləri,
Yar sorağında yoruram yolları.

* * *

Canan həsrətiylə, göz yaşı ilə
Car çəkib gəzirəm uzun yolları.

* * *

Vəfatı yarımın sorağındayam,
Hey gəzirəm həyəcanla yolları.

* * *

Vüsal eşqiylə gəzirəm elləri,
Hey süzürəm kələ-kötür yolları.

* * *

Tapmayınca sədaqətli yarını
Əşir gəzəcəkdir uzun yolları.

İNDİ NİYƏ?

Gəlmisən yar görüşünə afət, indi niyə?
Yarın çox qocalıb əldən düşüb, indi niyə?

* * *

Aşiqinə rəhm elə ömrə yoxdu vəfa,
Vaxtında gəl ol yarım mehmanı, indi niyə?

* * *

Cavanlıqda zövq alırdın yarın cəfasından,
Mən əldən düşmüşəm,zülm edirsən, indi niyə?

* * *

Ətrafında şam tək ərimişəm mən həmişə,
Vaxtında gələydin,can xəstədir, indi niyə?

* * *

Sənin şirin sözünə möhtac olmuşam hər vaxt,
Sərt cavab vermisən,meyl edirsən, indi niyə?

* * *

Zülm cafandan hec zaman can qurtara bilmədim,
Daha bəs deyilmi,zülm edirsən, indi niyə?

* * *

Əşirin çulğalayıbdır ömrünü qəm,kədər,
Yarım dil-dil ötur,könlüm alır, indi niyə?

SADƏ GEYİN SƏN.

Al geyimdə buluda bənzəyirsən,
Elə sanıram ki,təzə gəlinsən.
Getdikcə gözümdə sən ucalırsan,
Qorxuram buludla göyə uçasan.

* * *

Qırmızı geyimdə alov sacırsan,
Mavi geyimdə səmayə oxşayırsan.
Hər iki geyimi sən xoşlayırsan,
Qorxuram ki,alışasan yanasan.

* * *

Qara paltarda çox yaraşır sənə,
O,gözəllik verir ağ bənizinə.
O geyimdə ulduza oxşayırsan,
Mən gedirəm sənsə uzaqlaşırsan.

* * *

Öldürmə yarını sadə geyin sən,
Al geyinsən Əşiri öldürərsən.
Onsuz da yanıram odunda sənin,
Xoşdur çit, qədəh,lap bez də geyinsən.

YAR GÖRÜŞƏ QAÇIB GƏLDİ.

Mən yarıma nə etmişəm?
Yarım məndən kənar gəzir.
Ayaq yalın,başı açıq,
Üz-gözünü sazaq kəsir.

* * *

Dodağından bal süzülür,
Mən onlardan pay istədim.
Yar qıyğacı baxıb getdi,
Canım oda yaxıb getdi.

* * *

Yar görüşə qacıb gəldi,
Könül qapım açıb gəldi.
Ürəyimi alıb getdi,
Boynuma qol salıb getdi.

* * *

Əşir sənə yarım deyir,
Günəşim,həm ayım deyir.
Dodağına balım deyir,
Sənə qurban,canım deyir.

GÖZƏL, NAZ ETMƏ MƏNƏ.

Sevgilimdən çay istədim,
Yanağından pay istədim.

O,çayları düzüb getdi,
Gözlərini süzüb getdi.

* * *

Qaş-qöz edib,naz da satdı,
Müъgan oxun mənə atdı.
Dedim: yarın alsın qadan,
Dedi: oğlan olsun heyan.

* * *

Dedim: qol salım boynuna,
Dedi: al məni qoynuna.
Dedim: qoru bunu xudam,
Dedi: alım sənin qadan.

* * *

Sən Əşiri üzmə,gözəl!
Qaş-qözünü süzmə, gözəl!
Canım qurban olsun sənə,
Gözəl sən naz etmə mənə.

İTİRİRƏM ÖZÜMÜ.

Lal baxışınla od salırsan canıma
Dərdindən ölürəm yanmırsan halıma.
Səni görəndə itirirəm özümü
Mən danışsamda bilmirəm sözümü.

* * *

Gözəl sənə açа bilmirəm sevgimi,
Sənlə görüşsək itirirəm əqlimi.
Gözlərinin atəşi yandırır məni,
Bilsən necə qəlbən sevirəm səni.

* * *

Bilirəm sən də qəlbən sevirsən məni,
Gözləyirsən mənim bircə xoş kəlməmi.
Bir gün mütləq ələ alacam özümü,
Toplayıb gücümü deyəcəm sözümü.

* * *

Açmasaq da biz öz gizli sirrimizi,
Çox gözəl anlayırıq bir-birimizi.
Sevgilim, görüşəndə baxma gözümə,
Sevirəm sözün deyib qəlim özümə.

* * *

Əşirəm daim eşq odunda yanıram,
Xəyalən yarın başına fırlanıram.
İstəyirəm sevqilim ola yanımda,
İstər xoş,istərsə də qəmli anımda.
Öləndə gözlərim Baxa gözümə,
Əlindin tutam, üzüm qoyam üzümə.

ŞAM YANMASA,YAŞAMIR.

Yarım günəş,mən onun peyki yerəm,
Gecə-gündüz başına fırlanıram.
Fırlandıqca yarımdan nur alıram,
Pərvanə tək eşq odunda yanıram.

* * *

Eşq atəşi məni yandırıb-yaxır,
Mən yandıqca aləm nura boyanır.
Günəş yer eşqindən alışıb yanır,
O yandıqca yerdə həyat yaranır.

* * *

Dolansam da mən yarımın başına,
Əlim yetmir,yanıram atəşinə.

Hər ikimiz eşq odunda yanırıq,
Biz də belə arzu-kəma çatırıq.

* * *

Əşir, yara yaxınlaşma,yanarsan,
Eşq odunda yanıb külə dönərsən.
Sənin yaşamağın yanmağındadır,
Əgər şam yanmırsa,yaşamır demək.

ÇATAQ ARZU-KAMA

Çoxlu ağladıq daha bəsdi,
Qəm-qüssə ömrümüzü kəsdi.
Dostlar indi də deyək gülək,
Ürəkdən qəm-qüssəni silək.

* * *

Oynayıb-gülək,kef də edək,
Vəfalı yara tərif deyək.
Baxaq gözəllərin səfinə,
Yetək onların vüsalına.

* * *

Toya,büsata,bara gedək,
Gözəl yara can qurban edək.
Qəmdən-qüssədən söz açmayaq,
Kefdən,damaqdan göz açmayaq.

* * *

Əşir,sözün cəfənqiyatdı,
Kədərdən,ömrün sona çatdı.
At kef-damağı,yapış dərddən,
Sən özünə ağu de pəsdən.

CAN QURBAN EDƏRƏM VƏFALI YARA

Olarsa kişinin vəfalı yarı,
Nə lazımdır ona dünyanın varı?
Olmaz onun ürəyində qubarı,
Can qurban edərəm, vəfalı yara.

* * *

Vəfalı yar uymaz dövlətə,vara,
Yol verməz ürəkdə nisgil quvara.
Dost-tanışdan qoymaz qalasan dala,
Can qurban edərəm,vəfalı yara.

* * *

Çətinə düşəndə dayağın olar,
O, səni hamıdan ucada bilər.
Dərd onu əysədə təsəlli verər,
Can qurban edərəm vəfalı yara.

* * *

Mənim dərdim qoşadır, vətən, oğul,
Hər ikisidə bir-birindən ağır,
Çaşanda zövcəm verir mənə ağıl,
Can qurban edərəm vəfalı yara.

* * *

O, dərdə dözməsə,gizli ağlayır,
Gecədə yüz dəfə məni yoxlayır.
Ürəkdə dərdini pünhan saxlayır,
Can qurban edərəm vəfalı yara.

* * *

Cavanlıq dözümüm qalmayıb daha,
Bəzi işlərdə mən qalmışam dala.
Çox meyil salmışam kədərə, aha,
Can qurban edərəm vəfalı yara.

* * *

Gedib tayım,tuşum mən tək qalmışam,
Körpə nəvələrə həmdəm olmuşam,
Təsəllimi öz zövcəmdə almışam,
Əşir mehman olsa vəfalı yara,
O, məhəl qoymaz nisgilə,Qubara.
Can qurban edərəm vəfalı yara.

NAZI, QƏMZƏSİ CANIMI ALIR

Allah, bu gözəl mənə baxır,
Ürəyimi yandırıb-yaxır,
Hara getsəm qarşıma çıxır.
Nazı, qəmzəsi canımı alır.

* * *

Yar görüşünə qaçıb qəlib,
Günəş kimi nur saçıb qəlib.
O, ahu gözlüm mənə baxır,
Nazı, qəmzəsi canımı alır.

* * *

Yar unutdurur dərdi-qəmi,
Gözlərimdən silib nəmi.
Odur könlümün zili, bəmi,
Nazı, qəmzəsi canımı alır.

* * *

Toy paltarın biçib,gəlib,
Eşqin badəsini içib qəlib.
Yar görüşünə uçub qəlib,
Nazı, qəmzəsi canımı alır.

* * *

Mən unutmuşam dərdi, qəmi
Artıq yoxdur gözümün nəmi.
Mənə paxıllıq edir hammı,
Nazı, qəmzəsi canımı alır.

* * *

Sevgilim ay kimi, nur kimi saçıb,
Gözəl sinəni külək açıb,
O qoşa nara əğyar baxır.
Nazı, qəmzəsi canımı alır.

* * *

Əşir qurbandır gözəl yara,
Afət, dərdimə eylə çarə.
Busə ver səni sevən yara,
Qoyma yarın həsrətli qala.
Nazı, qəmzəsi canımı alır.

BU SEVGİDİ NƏDİ?

Göz-gözə gələndə itirirəm özümü,
Sən də mənə baxıb süzdürürsən gözünü.
Dinib danışmırsan, od salırsan canıma,
Məni öldürürsən, heç yanmırsan halıma.
Başa düşə bilmirəm, bu sevgidi, nədi?

* * *

Səni görcək ağlım gedir, oluram zayıl,
Al yanağından pay versək, olaram qayıl.
Görürəm ki, sən də itirirsən, özünü,
Hey danışırsan, amma bilmirsən sözünü.
Başa düşə bilmirəm, bu sevgidi, nədi?

* * *

Yarım atəşilə məni yandırıb yaxır,
Müъdə oxun ürəyimə çaxır, hey çaxır

Görüşə gəlmir məni eşq oduna yaxır,
Yar baxıb gülür, sanki, məndən acıq çıxır
Başa düşə bilmirəm bu sevgidi nədi?

* * *

Əşirəm yarımı hər gün görmək istərəm
Qucağında mürgüləyib ölmək istərəm
Atəşində yanıb külə dönmək istərəm.
Sevən insanlar heç zaman bilməzlər həddi,
Başa düşə bilmirəm bu sevgidi, nədi?

QAÇQIN GÖZƏLLƏR

Deyib gülmür qaçqın gözəllər,
Onlar şən idilər əzəllər.
Qürbət eldə onlar üzülür,
Hey gözlərindən yaş süzülür.

* * *

Məhəbbəti atıblar çaya,
Sevənləri salmırlar saya.
Yas tutmurlar yara, ataya,
Qurbanam belə etibara.

* * *

Vəfalı qız sevər bir dəfə
Sadiq olar ilk məhəbbətə,
İlk oxun dəymirsə hədəfə,
Bu da bəsdir qanan sərrafa .

* * *

Əşir qurban el gözəlinə,
Əsl Nigarına, Həcərinə.
Vətən üçün canından keçər,
Ana Tomiris kimi baş kəsər.

SƏNDƏ DÜŞÜRSƏN YADIMA

Bağda bülbül ötüşəndə,
Sevgililər görüşəndə,
Qucaqlaşıb öpüşəndə,
Səndə düşürsən yadıma.

* * *

Küsülülər barışanda,
Yar yarına qovuşanda,
Şirin-şirin danışanda,
Səndə düşürsən yadıma.

* * *

Mən canımdan bezəndə də,
Dərd-qəm məni üzəndə də,
Namə gələndə adıma,
Yarım düşürsən yadıma.

* * *

Yar yarını arayanda,
Qara qızlır yarıyanda,
Tanrım yetəndə dadıma,
Səndə düşürsən yadıma.

* * *

Al yanaqlı qız görəndə,
Qəmli çalan saz görəndə,
Bir həsrətli göz görəndə,
Səndə düşürsən yadıma.

* * *

Haqdan əlim üzüləndə,
Yar gözləri süzüləndə,
Yar bağından nar üzəndə,
Səndə düşürsən yadıma.

* * *

Əşir canın qurban yara,
Gələ könlümü yar ala,
Eşqdən yananda oduma,
Səndə düşürsən yadıma.

ƏSGƏR GEYİMLİ GÖZƏL

Bir gözəl gördüm Xəzər sahilində,
Bir göz qırpımında üzdü dənizdə,
Qaraqaş,qaraqöz,incə bir gözəl,
Ona xalq dastan qoşur,şair qəzəl.

* * *

Yanaşdım şux baxışlı o gözələ,
Sona tək suya baş vuran gözələ,
Dedim: Allah, qoru bu şux gözəli,
Ağlımı başımdan alan gözəli.

* * *

Sahildə geydi əsgər libasını,
Sinə üstdən keçirdi qayışını.
Şux qaməti bəzədi o libası,
Gözəl oldu ahu, maral balası.

* * *

O qız yanıma gəlib əl də tutdu,
Hanı Vətən?-deyib gözləri doldu.
Mən tanıdım Qubadlı gözəlini
Həcər qeyrətli o şux maralını.

* * *

Dedi: - Məndə sakitləşməz bu ürək,
Düşməni qanına qəltan edəm gərək.

Almasam qardaş, ata qisasını,
Qınına qoymaram mən silahımı.

* * *

Aslanın erkəyi-dişisi birdi,
Bizim elin qadınları da şirdi.
Qadınlarımız kişi qeyrətlidi,
Qorxmazdı, cəsurdu, şücaətlidi.

* * *

Allahım, kömək et, alaq Vətəni!
Qovaq yurdumuzdan yağı düşməni.
Gözəllər atsın hərbi geyimini,
Sevgi, məhəbbət tutsun öz yerini.

* * *

Əşirin ömürü çatsın o günə,
Vətənində getsin toya düyünə.
Gözəllər sevib, çatsın arzu Kama,
Hər kəs tiksin özünə isti koma.
Mənim ömrüm vətəndə yetsin sona.

ATDI MƏNİ

Bir gözələ könül verdim,
Tez iyləyib atdı məni.
Gördü yoxdu varım, pulum,
Bir əğyara satdı məni.

* * *

Dedim: -Vəfan yoxmuş gözəl,
Dedi: -Sən oxuma qəzəl.
Mən səni sevirdim əzəl,
Sonra pula saldım nəzər.

* * *

Sevgini pula satanlar,
Arı, namusu atanlar,
Həyatı kefdə görənlər,
Yox ola, gedə dünyadan.

* * *

Sən vəfasız olma, gözəl!
Həcər adına sal nəzər.
Yarı üçün özün üzər,
Dağı, daşı aşıb gəzər.

* * *

Vəfalı yar neynər varı?
O, istəyir ancaq yarı.
Yara qurban edər canı,
Heç istəməz dünya malı.

* * *

Əşir sev vəfalı yarı,
Ona qurban elə canı.
Mənim yarıma tay hanı?
Ona qurban yarın canı.

SELLƏR OYNADI

Bu gecə yuxumda yar səni gördüm,
Danışdı dodaqlar, dillər amandı.
Yenə təzələndi, o köhnə dərdim,
Bağrımın başında millər oynadı.

* * *

Düm ağ geyinmişdin başdan ayağa,
Məni görcək sərsəm durdun ayağa.
Oyandım yuxudan yoxsan yanımda,
Daşdandı gözümdən sellər oynadı.

* * *

Mənə baxıb, çox həsrətli durmuşdun,
Ac maral kimi boynunu burmuşdun.
Baxanda sənə ürəyim göynədi,
Sanki gözlərimdə şimşək oynadı.

* * *

Əşir, qocalmısan, keçibdir yaşın,
Tökülüb dişlərin, ağarıb başın.
Sən at getsin ilk məhəbbətin daşın,
Öz dərdi sərinə qarışsın başın.

YARIN QURBAN GÖZÜNƏ

Qurban olum, sən incik baxma mənə!
Mən bəxti qara, nə etmişəm sənə?
Əllərim əlində yandı, bilmədin
Ağladım gözümün yaşın silmədin.

* * *

Dindirirəm danışmırsan, dinmirsən,
Sən öz günahını niyə bilmirsən?
Daim qaşqabaqlısan, heç gülmürsən,
Ölürəm, mənim halıma yanmırsan.

* * *

Həmişə baxırsan əğyar sözünə,
Yar yarın günahın deyər üzünə.
O da başa düşüb gələr özünə.
Barış, yarın qurban olsun gözünə.

* * *

Əşirin canı qurban olsun yara!
Sevgilim, sən qəlbimi etmə yara!

Yarım gələ sınıq könlümü ala,
Öpüşək, barışaq, gedək qol-qola.

NƏ ETMİŞƏM SƏNƏ?

Bu ahu gözlü gözəl mənə baxır,
Eşq atəşi canımı oda yaxır.
Gözəl, sən Allah belə baxma mənə,
Canımı sədəqə edərəm sənə
Axı, mən yazıq nə etmişəm sənə?

* * *

Ayaq yalın, baş açıq, qoynu gülşən,
Dodağı beçə balı, zülf pərişan
Gözəl yanaqların allanıb, pörtüb,
Zanbağı, laləni, nərgizi ötüb.
Axı, mən yazıq nə etmişəm sənə?

* * *

Nə sevincə, nə qəmə tən olmadın,
Tək ağladım, tək güldüm, sən olmadın.
Sən mənim yolumda duman çən oldun.
Heç mənim dərdimə yanan olmadın.
Axı, mən yazıq nə etmişəm sənə?

* * *

Əşir səndən əlin üzə bilməyir,
Ürəyi həsrətə dözə bilməyir.
Sevgilim dağlardan düzə enginən,
Bu yazıq yarının könlün alginən.
Axı, mən yazıq nə etmişəm sənə?

SƏCDƏGAHIM

Sən mənim həyatım, sən mənim eşqim,
Sənsən mənim qibləgahım həm pirim.
Sənsiz necə danışım necə gülüm?
Kədərdən özümə bir çələng hörüm.

* * *

Lal baxışın alır mənim canımı,
Susmağınla sən tökürsən qanımı.
İstəyirəm açam sənə qəlbimi,
Yan gedirsən, heç bilmirsən halımı.

* * *

Sən mənim ümidim, həm pənahımsan,
Sən mənim ilk eşqim, səcdəgahımsan.
Sevgilim yükləmə mənə dərd-kədər,
Sevən sevənə zülm etməz bu qədər.

* * *

Əşirəm uymaram heç vaxtı Sara,
Sevgilim ürəyimə vurma yara,
Əgər məni atıb getsən, əğyara
Mən dəli olub düşərəm dağlara.

GƏLSİN

Sevgilim gəlirsə görüşümə, naz ilə gəlsin,
Alsın əlinə tar, qaval ya da sazi ilə gəlsin.

* * *

Qürbətdə gülməyir üzüm qışa donubdur yazım,
Gül çiçəkli, xoş avazlı novu, baharda gəlsin.

* * *

Əzəldən sazın-sözün vurğunudur dəli könlüm
Yar saz-söz vurğunu Zülfiyyə tək gözəllə gəlsin.

* * *

Yarımdan ayrı bir umacağım yoxdur dünyada
Gəlsə yar görüşünə şeirlə, gözəllə gəlsin.

* * *

Almaq istəyirsə bu qərib yarının könlünü,
Gecə yarısı durub yar yanına pünhan gəlsin.

* * *

Keçmiş xatirələri könlündə saf-çürük etsin
Əşirin yanına xoş niyyətlə, avazla gəlsin.

SƏN YAŞA

Doğma yurd həsrət ilə ömrünü vur başa,
Sevgilim həsrət məni öldürsə də, sən yaşa,

* * *

Mən yanım eşqin oduna sən istimə qızın,
Yurdu azad görmək üçün sevgilim, sən yaşa,

* * *

Əgər ah çəksəm ahım yandırar dağı-daşı,
Vətən nisgili məni öldürsə də, sən yaşa.

* * *

Tez-tez görüşə gəl qoyma ölə aşigini
Yansam külümü sürmə et gözünə, sən yaşa.

* * *

Dərdindən Məcnun olub dağlara düşsəm də mən
Axıtma göz yası, doğma yurd üçün, sən yaşa.

* * *

Sən Əşiri yandırıb külə döndərmə gülüm,
Mən ölüm qarşısında, Vətən naminə sən yaşa.

SEVGİLİM

Eşq atəşin yandırıb yaxır məni,
Kipriyin ox olub deşir sinəmi
Sevən belə yandırarmı sevəni?
Rəhm elə öldürmə yarı, sevgilim.

* * *

Sevginin atəşi odu yandırır,
İçin məni, çölün yadı yandırır.
Hicran odun məni yandırıb yaxır,
Rəhm elə öldürmə yarı, sevgilim.

* * *

Mən sənin qadan alım gözəl yar,
Bircə yol bu yazıq yarı yada sal.
Hanı səndə insaf, mürvət zalım yar?
Rəhm elə öldürmə yarı, sevgilim.

* * *

Bu canım eşqindən saralıb solur,
Yada yox, nə olur yarına olur.
Gözlərim daima boşalır, dolur,
Rəhm elə öldürmə yarı, sevgilim.

* * *

Sevməyə bilmirəm sən tək gözəli,
Mən sənin eşqindən olmuşam dəli.
Məcnun olmuşam mən səni sevəni.
Rəhm elə öldürmə yarı, sevgilim.

* * *

Əşiri eşq odun yandırıb yaxır,
Yazıq sənə küncdən, bucaq baxır.
Hicranda olacaqmı əzəl, axır?
Rəhm elə öldürmə yarı, sevgilim.

YAN KEÇDİ

Qonaq gəldim gülşən bağına,
Yar mənə baxmadı, yan keçdi.
Eşqindən saralıb solmuşam,
Halımı sormadı, yan keçdi.

* * *

Buluddan çıxmadı ay kimi,
Qaşların dartmadı yay kimi.
Görüşə gəlmədi yar kimi,
Aşiqə baxmadı, yan keçdi.

* * *

Gözəl yarım, ilqarın hanı?
Görüşmüşdük ulduzlar sani.
Dostunla, düşmənini tanı,
Baxmadı sözümə, yan keçdi.

* * *

Əhdi peymanı niyə atdın?
Əsl yarını əğyara satdın.
O, məni yandırıb kül etdi,
Külünə gülərək, yan keçdi.

* * *

Eşqi, məhəbbəti unutdun,
Yarını yandırdın kül etdin.
Sən niyə ilqarını dandın?
O, mənə baxmayıb, yan keçdi.

* * *

Əşirəm əhdimi danmaram,
Yarımı əğyara satmaram.
Vaxt olur yar gələr özünə,

Mən səhvin deyərəm üzünə,
Dik baxaram yarın gözünə.
Yarım gülə-gülə, yan keçər.

QOCALIQDA

Qadir Allah bu nə işdi,
Başa gəldi, qocalıqda.
Viran könül, eşqə düşdü,
Gözəl sevdi qocalıqda.

* * *

Onu görüb olmuşam səy,
Yay ayında gəzirəm qar.
Qoynundakı gülövşə nar,
Ağlım aldı, qocalıqda.

* * *

Hər kəs tapar öz tayını,
Gözəldən alar payını.
Əşirdə eşqin atını
Minib çapar, qocalıqda

MƏNİ YADA SALIRSANMI?

Canım oda yaxan gözəl
Görəsən məni anrımı?
Məni alırmı vecinə?
Görən məndən betərdimi?

* * *

Bəlkə məni görmür gözü?
Axı niyə gülmür üzü?
Onun eşqi məhəbbəti
Görəsən mən qədərimi?

* * *

Fərhad külünglə dağ dəldi,
Şirin onu sevirdimi?
Əsli yandırdı Kərəmi,
Özü o odda yandımı?

* * *

Məni dəli edən gözəl
Yarı yada salırsanmı?
Əşir məcnundur dərdindən,
Sən də onu anırsanmı?

SAĞ OL YARIM

Evdə şeir yazdığım zamanı,
Zəng gəldi sevgili canandan.
Heç yada salmırsan yarını,
Unutmusan vəfadarını.

* * *

Sağ ol yarım, şad etdin məni,
Mən heç unudarammı səni?
Sən tək yarı sevəndən bəri,
Atmışam nisgili, qübarı.

* * *

Hər an yarı yada salırsan,
Onu anıb, əhval tutursan.
Mən də səni anıram hər an,
Canım edərəm sənə qurban.

* * *

Düz yoldasan yarım düz yeri,
Atəş odun yandırır yarı.
Alqış səndəki eytibara,
Canım qurban vəfalı yara.

* * *

Yanıram mən eşqin oduna,
Kaş çatan yarın vüsalına.
Yarım məni alsa qoynuna
Qoy salaram onun boynuna.

* * *

Əşir vurğundur gözəl yara,
Gələ yar könlünü yar ala.
Yanıram yarın atəşinə,
Dolanaram onun başına.
Nə olar üzümə gül yarım,
Qoy bir mən də, sevinim, gülüm.

BİLMİRƏM

Eytibarı, ilqarı olmayana,
İstəsəm də tərif yaza, bilmərəm.
Yar yolunda saralıb solmayana,
Dilim gəlməz tərif yaza, bilmərəm.

* * *

Qışım qurtarıb gəlsədə yazım,
Olsada əlimdə sədəfli sazım.
Üzsədə göllərdə ördəyim, qazım
Vəfasıza tərif yaza, bilmərəm

* * *

Niyə sevdim eytibarsız gözəli?
Çünki vəfalıydı onun əzəli.
O çox xoşlardı şeiri, qəzəli,
Dönük çıdı tərif yaza, bilmərəm

* * *

Ömürə qış gəlib, getsədə yazı,
Unuda bilmirəm, eytibarsızı.

Yerə qoymasamda sədəfli sazı,
O, zalıma tərif yaza, bilmərəm.

* * *

Əhdə peymana and içmişdi yarım,
Niyə əhdini dandı vəfadarım.
Dözə bilmirəm həsrət çəkir canım,
Bu eytibarsızı ata, bilmirəm.

* * *

Nə gecəm gecədi, nə günüm gündüz,
Sübhə kimi başım üstədi ulduz.
Məni öldürür bir ala gözlü qız,
O, məndən dönüb, mən dönə, bilmirəm.

* * *

Əşir yar yolunda üzür özünü,
O, yollardan çəkə bilmir gözünü.
Yar başa düşmür eybini, suçunu.
O, mənə niyə demir son sözünü?
Yarım ürəyindən atsada məni,
Mən o, vəfasızı ata, bilmirəm.

DƏYMƏSİN

Hömətim var bütün tibb bacılara,
Allah mənim tibb bacıma dəyməsin.
Xəstələnim tez-tez gəlsin üstünə,
Sevgilimə heç bir bəla, dəyməsin.

* * *

Heç bir bəla görməsin yarın üzü,
Xoşbəxt olsun həmişə gülsün üzü.
Nə qəfil təhlükə, nə dərd, nə bəla,
Bədnəzərdən dildarıma, dəyməsin.

* * *

Xüdayə sən özün bir kömək elə,
Həmişə olsun şux, bax elə-belə.
Onun dərdi, bəlası mənə gəlsin,
Cənanimə heç bir xətər, dəyməsin.

* * *

Əşir aşıq olmusan ahıl yaşda,
De, sevənlərin ağlı olarmı başda?
Sənin vaxtsız sevgin gözə gəlməsin,
Göydən yenən bəla yara, dəyməsin.

SƏNİN

Hər bir dərdi çəkir canım,
Hicrandan axır qanım.
Özüm sənə qurban yarım,
Çox çəkirəm dərdin sənin.

* * *

Siz tərəfə baxıram hey,
Canım oda yaxıram hey.
Eşqin ağlım alıb mənim,
Yolunda ölərəm sənin.

* * *

Mənim son eşqim həvəsim,
Səni görcək çıxmır səsim.
Səndən başqa yox bir kəsim,
Əlim oxşar telin sənin.

* * *

Əşir, sənin yarın gözəl,
Sən ona yaz şeir, qəzəl.
Bir busə ver mənə gözəl,
Qoy bir qucum belin sənin.
Qoy bir qucum belin sənin.

DOLANIRAM BAŞINA

Gözəlim mənim sevgimə şübhə edirsən?
Mən ki, pərvanə tək, dolanıram başına.
Sənin bal qatdığın şirin-şəkər sözünü.
Bihuş kimi dinləyirəm, bilməm özümü.

* * *

Yarım şübhə etsə öldürərəm özümü,
Daim ağlayaram kor edərəm gözümü.
Ulduzlar içində gecə səni seçirəm,
Səni parlaq ulduzdanda üstün bilirəm.

* * *

Mənim ayım, ulduzumsan, gözəl yarımsan
Çiçəyim, gözəl, göyçəyim, vəfadarımsan.
Əgər eşqimə inan mayıb məni atsan,
Sonradan halıma baxıb peşman olarsan.

* * *

Əşir vrulubdur vəfasız bir gözələ,
İnanmır ki, belə müşgül işlər düzələ.
Yarım sevir, ancaq, şübhə edir eşqimə,
Yara yetmək üçün dolanacam başına.
Vaxt gələr o gözəl yarım inanar mənə,
Eşqimizi bəyan edər küllü aləmə.

GÖZƏL

Kim məni anırsa, o məni sevir,
Sevənin yolunda ölərəm, gözəl.
Əlimdən qaçıb sən göyədə çıxsan,
Mən göyə də merac edərəm, gözəl.

* * *

Sənin dərdindən mən olmuşam xəstə,
Sağollam üzün qoysan üzüm üstə.

Təzə tər bənövşə dərib bir dəstə,
Qara tellərinə düzərəm, gözəl.

* * *

Sən nə qədər məni çəksəndə dara,
Arada olsada sıldırım qaya,
Dişim dınağımla çaparam onu.
Mən səni axtarıb taparam, gözəl.

* * *

Doymaram mən öpsəm qara zülfünü,
Canən əsirgəmə məndən lütfünü.
Bal daman dodaqdan bir öpüş versən,
Dünya duruncan mən yaşaram, gözəl.

* * *

Sevgilim Fərhad tək dağlar çaparam,
Harda olsan gəlib səni taparam.
Sənin yar bağından üzsəm narını,
Xəstəlikdən şəfa taparam, gözəl.

* * *

Hara getsən mən sənlə gedərəm,
Yolunda canımı fəda edərəm.
Sənin vüsalına yetişmək üçün,
Fərhad kimi qaya çaparam, gözəl.

* * *

Əsirgəmərəm səndən bir anımı,
İstəsən qurban edərəm canımı.
Eşqini başımın tacı bilərəm,
Mən sənin yolunda ölərəm, gözəl.

* * *

Leyli olsan sənin Məcnunun mənəm,
Əsli olarsansa Kərəmin mənəm.

Güllü bir bağ olsan bülbülün mənəm,
Səməndar quşu tək yanaram, gözəl.

* * *

Yolunda Kərəm tək batsamda tara,
Baxmaram borana, şaxtaya, qara.
Düşmən məni tutub salsada tora,
Çıxıb gəlib səni taparam, gözəl.

* * *

Bəşiroğlu sevir sən tək gözəli,
Həsr edir sənə şeiri, qəzəli.
Sən sevirsən, mən səni sevən qədər,
Öldürmə məni bilərəkdən gözəl.
Əzab vermə səni sevən yarına.
Yan özünün, həm yarının halına.

GEYİNİB

Bu gözəl mənə xoş gəlir,
Gözü-qaşı tanış gəlir.
Qırmızıdır onun donu,
Elə bil alov geyinib.

* * *

Sığal veribdi telinə,
Kəmər qurşayıb belinə
Paltarı aldan biçilib,
Əyninə alov geyinib.

* * *

Çiçəkdən biçilib donu,
İncədir səsinin tonu.
Paltarı təndir belinə,
Elə bil çiçək geyinib.

* * *

O sanki cənnət quşudu,
Canım alan göz, qaşıdı.
Qızıl güldən paltarı var,
Elə bil günəş geyinib.

* * *

Əşir ağlın gedib başdan,
Yarın gözəldi günəşdən.
Paltarı tüldən biçilib,
Yarına məlhəm geyinib.

NƏ ZİYANI

Yarım sürməni çək gözünə,
Sürmənin gözə, nə ziyanı.
Gözəl qaşlarına vəsmə çək,
Vəsmənin qaşa, nə ziyanı.

* * *

Yar kəməri bağla belinə,
Kəmərin belə, nə ziyanı.
Al yanağından bir busə ver,
Büsanın üzə, nə ziyanı.

* * *

Yerişi, duruşu şüx elə,
Şıxluğun sənə, nə ziyanı.
Bal dodağından bir öpüş ver,
Onun dodağa, nə ziyanı

* * *

Əşir dərdindən dəli olub
İntizardan saralıb solub
Qoy yar yetişsin vüsalına,
Vüsalın sənə, nə ziyanı
Yarın bağından bir nar dərsin.,
Bir narın bağa, nə ziyanı.

SAT MƏNİ QUL YERİNƏ

Sevgilim qulunam mən,
Sat məni, qul yerinə.
Bitərəm harda desən,
Səp məni tum yerinə.

* * *

Ələ, keçir ələkdən,
Palçıq et qum yerinə.
İstəsən şuma göndər,
Əkim katan yerinə.

* * *

Haq aşiqi Kərəməm,
Yar yolunda öləməm.
Od vur sən yandır məni
Ölüm Kərəm yerinə?

* * *

Yol boyu ağac olum,
Yoluna kölgə salım.
Xalçana arğac olum,
Toxu sən ip yerinə

* * *

Leyli Məcnun yalandı,
Əşir qəmdən öləndi.
Sevgilim atma məni,
Saxla sən qul yerinə

İÇƏK DEDİM

Bir qız gördüm boyu bəstə,
Görənləri edir xəstə
Adına mən çiçək dedim,
Süz badəni, içək dedim.

* * *

Atəşin odludu gözü,
Dili şirin, baldı sözü.
Adı «gözəl» özü çiçək,
Dedim süz badəni içək.

* * *

Allah eyibsiz yaradıb,
Baxışı məni odlayıb.
Gözünü gözümlə yedim,
Süz badəni, içək dedim.

* * *

Əşir sevir sən tək yarı,
Gəl itirmə eytibarı.
Gözəl səni seçib sevdim,
Süz badəni içək dedim.

XOŞ GƏLDİN

Xoş gəldin gözəlim
Mənim bu yalqız
Miçgin günümdə
Xoş gəldin.
Həm ürəyimdə
Həm də evimdə
Görünürdü
Yerin sənin
Xoş gəldin.
Təklik sıxırdı məni
Ev uçurdu başıma
İnamım yox idi
Yaşamağıma
Xoş gəldin.

Gəlişinlə sən
Şəkər qatdın aşıma
Yaraşıq verdin
Dam daşıma.
Təklikdən sıxıldığım
Günlərdə
Ustalaşdım bir az
Göz yaşı axıtmaqda,
Dostu düşməndən
Ayırmaqda,
Xoş gəldin.
Xoş gəldin gözəldin
Ürəyimdəki boşluğu doldur,
Qorxma gəldiyin yol
Uğurlu yoldur,
Yerin hazırdır ürəyimdə
Həm də evimdə
Xoş gəldin.
Deməyə söz çoxdur
Ancaq uzun söhbətə
Vaxtımız yoxdur.
Mehmanı ol Əşirin
Qoy dolansın başına.
Qayğı göstər
Həm balalarına
Həm də qohum, qardaşına.

13.05.09

BURYAT GÖZƏLİ

İrkutskda bir qız gördüm,
Dərdirdən saralıb soldum.

Dodağının təbəssümü,
Aldı səbri qərarımı.

* * *

Buryat idi milliyəti,
Salam verdim, salam aldı.
Əl uzatdım qaşın çatdı,
Əl verərək könlüm aldı.

* * *

Məni dəvət etdi evinə,
Getdim sevinə-sevinə.
Mehmanı oldum gözəlin,
Vəsfinə yazdım qəzəlin.

* * *

Baxışı ruh verdi mənə,
Sevgi doldu ürəyimə.
İntizarda qaldı gözüm,
Ayrılığa necə dözüm?

* * *

Həsrətlə döndüm Vətənə,
Gözü yolda qaldı gözəl.
Əşir dözəmmir həsrətə,
O necə getsin qürbətə?
Nə mən orda qala bildim,
Nə o bura gələ bildi.

05.09.2009 İrkutski

AY QARA QIZ

Daraq alıbsan əlinə,
Sığal verirsən telinə.
Kəmər qurşayıb belinə,
Süzmə məni ay qara qız.

* * *

Az çək üzə pudra, boya,
Heç kim səni salmaz saya.
Sifətin olsa da qara,
Bəxtin gülə, ay qara qız.

* * *

Yaradan yazıbdır yazı,
Haqq yazana yoxdur pozu.
Mən sevirəm qara gözü,
Üzün ağart, ay qara qız.

* * *

Əşir yarım deyir sənə,
Sən ona mehman olsana.
Qaralığın gedər yola,
Təki ürəyin ağ ola
Hər nəsən qabilsən mənə.
Canım qurban, ay qara qız.

YARATDI

Şükür olsun Allaha,
Hamını cüt yaratdı.
O, qızı mənə buta,
Mənə məlhəm yaratdı.

* * *

Öpüşsə suyla torpaq,
Gül açar yarpaq-yarpaq.
Yarım ol mənə qonaq,
Öpüşsün dillə dodaq.

* * *

Əşir sev gözəl yarı,
Sən ol onun mehmanı.
Sevişir bütün canlı,
Mehriban, isti qanlı
Yara qurbandır canım,
Odur ürəyim, qanım.

QALARSAN

Qürbət eldə gözəl sevmə amandı,
Ömrün boyu sən həsrətdə, qalarsan.
Vurulma baxışlarına qızların,
İlişib o baxışlarda, qalarsan.

* * *

Gözü yol çəkən Vətən qızın ovla,
Qürbət eldə sən oynama alovla.
Mavi gözlü qız səni salar tora,
Sən ilişib o tordaca, qalarsan.

* * *

Vətəndə keçən hər bir an gözəldi,
Vətən qızlarının dili qəzəldi.
Vətənin qarlı qışı da gözəldi,
Qürbətdə ilişib qarda, qalarsan.

* * *

Əşir Bəşiroğlu isti qanlıdır,
Vətənini sevir vətən canlıdır.
Yad qızlar səni keçirsə tilova,
Çıxa bilməzsən, tilovda, qalarsan.

SON NƏFƏSDƏYƏM

Bulaq başında bir gözəl gördüm,
Dərdindən mən yanaraq kül oldum.
Gəl mənə naz eləmə amandı,
Bir dolça su ver ciyərim yandı.

* * *

Camalın görcək ay üzün örtdü,
Günəş utanıb, qızarıb, pörtdü.
Ört üzünü qoy günəş nur saçsın.
Torpaq oyansın, bağlar gül açsın.

* * *

Bəxt açıla əlin xına görə,
Gözəllər telin daraya hörə.
Sevgilim dərdindən mən xəstəyəm,
Gönlüm al, axı, son nəfəsdəyəm.

* * *

Əşiri niyə dara çəkirsən?
Vaxtsız qocaldıb belin bükürsən.
Yar sev ki, dərdindən ölən olsun,
Ürək az qalır köksümdən uçsun.
Kim var səni mən tək sevmiş olsun?

AXI NEYLƏYİM

Yaşayıram bütün qəriblər kimi,
Dözürəm bir təhər, axı neyləyim?
Bəd gəlib əzəldən mənim taleyim
Yoxdu başqa çarəm, axı neyləyim?

* * *

Dərdə düşmüşəm yoxdur mənim çarəm,
Sanki başıma uçur küllü aləm.

Gözəl əldən alıb ixtiyarımı,
Sağalmazdı yaram, axı neyləyim?

* * *

Ürəyə həmdəmdi, qüssə, qəm, kədər,
Yar yolunda zəhmətim getdi hədər.
Yazıq canım dözür dərdə bir təhər
Yar alıb səbrimi, axı neyləyim?

* * *

Əşir dərdin olsa da döz bir təhər,
Qoy yarın ömürü getməsin hədər.
Yarıma baxanda dolur gözlərim,
Dərdə dözmür ürək, axı neyləyim?

QORU BUNU

Mənim yarım yüz nazla gəlir
Əlində qaval, sazla gəlir
Gözəl mənə meydan oxuyur
Allah pis gözdən, qoru bunu.

* * *

Gözləri gözümü yandırır,
Nəfəsi üzümü yandırır.
Paxıllıq edir hamı mənə.
Allah pis gözdən, qoru bunu.

* * *

O, ahu ceyran balasıdı,
Üzü dağların lalasıdı.
Əğyarın canın alasıdı,
Allah pis gözdən, qoru bunu.

* * *

Əşir düşüb yarın izinə,
İstəyir odunda qızına.
Qorxuram göz dəyə gözünə,
Allah pis gözdən qoru bunu.

GƏLMİSƏN

Məni oda salmağını az bilib,
Sən yandırıb yaxmağamı gəlmisən?
Ürəyimi simi qırıq saz bilib,
Qəmli-qəmli çalmağamı, gəlmisən?

* * *

Könlümü alıbdı duman çən indi,
Qərib yarını hərdən bir sevindi.
Xəyalımda yaşayırsan sən indi
Onu məndən almağamı, gəlmisən.

* * *

Xatirələrin dəli edib məni
De, görüm yandırıb yaxırmı səni?
Yandırmısan kül etmisən Kərəmi,
Külün sürmə etməyəmi, gəlmisən?

* * *

Əşirəm günah mənim özümdədi,
Nakəm sevgi qəlbimdə, gözümdədi.
Adın gecabə-gündüz dilimdədi,
Onu məndən almağamı, gəlmisən.

ALIŞDI

Dünya yaman qar-qarşıdı,
Gah savaşdı, gah barışdı.

Səni Andı könlüm yenə
Sızladı yandı, alışdı.

* * *

Elə hamı dəlidi,
Ürəyin yağı əridi.
Atəşlə mənə baxdı yar,
Od düşdü qəlbim, alışdı.

* * *

Gözəl məni o da saldı,
Özümü özümdən aldı.
Oda düşdü dəli könlüm
Bilmədim necə, alışdı.

* * *

Əşir yaman yanır oda,
Dərd-qəmi çoxdu dünyada,
Bir vəfasız saldı oda
Ürəyim yandı, alışdı.

DƏRMƏLİSƏN

Əgər girsən gülşən bağına,
Sən bir gülünü üzməlisən.
Yar bağında sehir eləsən,
Onun narını, dərməlisən.

* * *

Bir cavanın yaşına getsən,
Düz olmaz ağlamayıb ötsən.
Toy məclisinə varid olsan,
Qol qaldırıb oynamalısan.

* * *

Dünyada gözəl yerlər çoxdu,
Yarı acdı, yarı da toxdu.
Çox yer gəzənlər çox da bilər,
Çox yerlər gəzsən üzün gülər.

* * *

Gözəl görəndə yan keçmə sən,
Onun qəlbini duymalısan.
Özünü saxlaya bilməsən,
Gözün, gözünlə öpməlisən.

* * *

Əşir gözəlliyin acısan,
Bac al gözəldən sonu yoxsan.
Sürənmədin sən dövranını,
Sən yarı toxsan, yarı acsan.

GÖZƏLİM

Bir zaman sənlə sürdüm dövranı,
Gəzdim bağ, baxçanı dağı, aranı.
Qalmayıbdı mənim səbri qərarım,
İliyə, qana hopmusan, gözəlim.

* * *

Məni son mənzilə yetirsin deyə,
Sən zəhər qatmısan verdiyin meyvə
Yoxsan sən daha yazılmır qəzəlim,
Sən mənim canım, qanımsan, gözəlim.

* * *

Sən mənə yadigar əksini verdin,
Əvəzində sən ürəyimi aldın.
Sənsiz yazmır qələm, əsir əllərim,
Hər yerdə səni gəzirəm, gözəlim.

* * *

Laçın yaylasında, yazı düzündə,
Qanım axdı damcı-damcı izində.
Vəfasız olma sən də dur sözündə
Məni gözü yaşlı qoyma, gözəlim.

* * *

Kəbəmsən gəl mehrabına diz qoyum,
Hizrimsən mən dərgahına göz qoyum.
Həsrətliyəm torpağına üz qoyam,
Bir sor ginən mənim halım, gözəlim.

* * *

Hara getsən, səndə mənim gözüm var,
Ləpirinə üz qoymağa üzüm var.
Mənim dada yetən bir Allahım var,
Mütləq azad olar yurdum, gözəlim.

* * *

Əşir qan ağlayır vətənsiz, yarsız,
Sən necə dözürsən sevgilim mənsiz?
Göz yaş tökür, ürək bağlayır yara,
Qorxuram gülüm qismət ola sara.
Allahım dərdimə sən eylə çarə,
Həm Vətənə yetişim, həm də yara.

ÜRƏYİMİ DAĞLAYIR

Vəfasızdın əhdi yalandın,
Dərdin özün dərdə salandın.
Ağlayanda könlüm alandın,
Hər dərdimə özün qalandın.
İndi kövrəlib sən ağlama,
Bu misgin könlümü dağlama.

* * *

Mənim göz yaşıma gülərdin,
Yaylığınla onu silərdin.
Dərdini mənimlə bölərdin,
Məni oxşar, könlüm alardın.
İndi kövrəlib sən ağlama,
Bu misgin könlümü dağlama.

* * *

Mən ağlayanda sən gülərdin,
Ürək ahıma «eh» deyərdin.
Ömür qasırğama meh deyərdin,
Qanlı yaşıma şeh deyərdin.
İndi kövrəlib sən ağlama,
Bu misgin könlümü dağlama.

* * *

Əşir yazır yaşdı, yaralı,
Görünmür dağların maralı.
Talan bağın gülü saralı,
Boş qalıb təhnəsi, xaralı.
Yar səhvin anlayıb ağlayır,
Dərdli ürəyimi dağlayır.

DAĞLARI

Qəlbi yardan yaralı olmayan.
Yar üçün gəzərdimi dağları?
Qəlbi qırıq nisgilli olmayan,
Şair tək süzərdimi dağları?

* * *

Yar aldı adımı dodağına,
Çis-duman çökdü könül dağına.
Can dözərdimi ağrı-acıya,
Elindən aralı olmasaydı?

* * *

Kim məni saldı sağalmaz dərdə?
Mən hardayam yurdum, yuvam harda?
Məni anam doğmasaydı orda,
Ürək dözərdimi ağır dərdə?

* * *

Əşir düşmüsən eldən aralı,
Sən hey yazırsan yasdı, yaralı.
Hanı bizim dağların maralı?
Sinəsindən çal-çarpaz yaralı.

OLMUŞAM

Məhəbbətsiz həyat ölüdü ölü,
O yol sevənlərin yoludur yolu.
Sevməyən insanlar yanmayan şamdı,
İnsanı yaşadan eşqdi, ilhamdı.

* * *

Məhəbbət yolunda ölən olmuşam,
Eşqi, məhəbbəti duyan olmuşam.
Qaymaq dodaq, alma yanaq qızların,
Yolunda can fəda verən olmuşam.

* * *

Eşqin sönməyən odu var canımda,
Məcnunla Kərəm yalandı yanımda.
Sevən könüllərin aşinəsiyəm,
Məhəbbətin acıyam, təşnəsiyəm.

* * *

Fizuli eşqini aləmə yaydı,
Sevgisi yolunda canını qıydı.
Kərəmin sevgisi bir tamaşadı,
Məhəbbət yolunda yandı, yaşadı.

* * *

Əşirəm halımı duyan gözəlin,
Eşqini mənimlə bölən gözəlin,
Yolunda ölümə gedən olmuşam.
Eşqimi onunla bölən olmuşam.

VARSA

Küllü aləm sənin düşmənin olarsa,
Qəm etmə qədir bilən cananın, varsa.

* * *

Ovçular vurduğu ovu tez qaldırar,
Canən qaldır ovunu insafın, varsa.

* * *

Yandırdın kül etdin baxmadın halına,
Sel axan göz yaşımı insafın, varsa

* * *

Baxışınla canım alıb qanım tökdün,
Qoyma aşiqin ölə insafın, varsa.

* * *

Mən sənin namus, qeyrətini sevmişəm,
Sən də sev aşiqini insafın, varsa.

* * *

Əşir bu qədər yanma eşqin oduna,
Qoy məşuqəndə yansın ürəyi, varsa.

EŞQİN ODUNA

Sevgilim, atəşindən yanıb kül oldum,
De, səndə yanırsanmı, eşqin oduna?

* * *

Lağ etmə sən başıma ələnən qara,
Başına qar yağar yansan, aşiq oduna.

* * *

Yaşım ötsədə eşqdir məni yaşadan,
Tez ölərəm yanmasam, eşqin oduna.

* * *

Qəlbim möhkəm tellərlə qaynaqdır sənə,
Qıranmazsan bağlıdır, eşqin oduna.

* * *

Yar atmaz məni Allah yetsin dadına,
O da mənim tək yanır, eşqin oduna.

* * *

Əşiri unudub atsada dildarı,
O, ata bilməz yanır, eşqin oduna.

SON SÖZ

«Nəbi yurdu» adlanan bu kitab şairin oxucularla 7-ci görüşüdür. «Xatirəyə dönən günlər», «İşıqlı şəxsiyyətlər unudulmur», «Dağlar ağladı», «Mətanət», «Mənim ana dilim» və «Yarımçıq ömür» kitablarının müəllifidir. Şair bütün kitablarında vətənimizin füsünkar gözəlliklərini, qəhrəman xalqını tərənnüm etmişdir. Elmi zamanda içərimizdə staqınların, yaltaqların, iki üzlülərin olmasını da qeyd etmiş və onları tənqid atəşinə tutmuşdur.

Müəllif torpaqlarımızın zaman-zaman getməsinin əsl günahını dönük qəlblərdə, səriştəsiz rəhbərlərdə gözür. Elə götürək Qarabağ müharibəsini bu müharibədə qəhrəman oğlanlarımız qırıldı, yüzlərlə igidlərimiz şəhid oldu. Tarixdə analoqu olmayan Xocalı soyqırımı törədildi. Ancaq, vəzifə, var-dövlət sahiblərinin gözləridə yaşarmadı. Onlar övladlarını ya xaricə qaçırtdılar, ya da rahat villalarda gizlətdilər?

Şair hələ də yüzlərlə şəhid qanının yerdə qalmasından həyəcanlanır, fəryad edir, Azərbaycanı cihada çağırır. O, nə qədər nikbin olsada bəzən hiddətlənir, şikayətlənir. İnsan nə qədər dözümə, səbrə söykənsədə rahatlıq tapmır, dünyanın, zamanın gərdişindən şikayətlənir. Şair demişkən:-Dünya bizi çaşdırıb, səmtimizi itirmişik, hara gedəcəyimizi bilmirik.

Hörmətli oxucularım bu kitabı yazarkən mən çoxlu həmvətənlərimlə görüşdüm. Onların hamısının ürəyində kədər dolu bir dünya yaşayır. Amma bu cəleyi-vətənlik və ağır vətən həsrəti onların, elə sizli-bizli hamımızın iradəsini qıra bilməyib. Dözmüşük, bir az dözək. Atalr demişkən qısası qiymətə qoymazlar. Allahdan arzum budur ki, bizə səbr, dözüm versin, qarşımızda çox hiyləgar və məkirli bir düşmən dayanıb, onu məğlub edib üstümüzdəki bu qara ləkəni təmizləyək. Biz hamımız buna hazır olmalıyıq. Elimizin, obamızın gözü yoldadır. 2008-ci il müəllif üçün uğurlu il olub. Azərbaycan yazıçılar birliyində Əşir Bəşiroğlunun kitablarına baxış keçirilib. Onun yazdığı kitablar bəyənilib və o Azərbaycan yazıçılar birliyinə üzv qəbul olunub. Şair inanır ki, 2009-cu ildə uğurlu olacaq. Həmin ildə torpaqlarımız düşmən tapdağından azad olunacaq və biz doğma vətənimizə qayıdacayıq. Sizdə inanın mənim istəkli oxucularım. Çətini inamdı, inam ki, oldu bu elə qələbə deməkdir. Amin…..